# ULDUZLARI DƏRMƏK OLMUR

## Amerikalı qızın həyat hekayəsi

Məhəmmədəli Həbibullahian

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..................Ulduzları dərmək olmur**
**Müəllif:.................Məhəmmədəli Həbibullahian**
**Çap tarixi:....................................................2023**
**Çap növbəsi:...............................................Birinci**
**Tiraj:.............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 59-53-024518-57

***“Əgər yaxşılıqdan söhbət düşsə, siz Əhli-beyt onun əvvəli, kökü, budağı, ocağı, yeri və sonusunuz. Ata-anam və canım sizə qurban!”***

Böyük Camiə ziyarətnaməsindən

# Giriş

## Azadlıq yuxusu

Qızın qol və ayaqları otağın küncündəki dəmir stula bağlanmışdı. Qız yalvarıb deyirdi:

– Məni buraxın! Məndən nə istəyirsiniz?!

Piramidaya oxşayan uzun saqqalı olan, əyninə yaxasız ağ köynək geymiş, barmağına qırmızı qaşlı böyük bir üzük taxmış kişi kəməri qaldırıb qızın harasına gəldi vururdu. Qız qışqırıb deyirdi:

– Nə desəniz, edərəm... ancaq sonra məni buraxın. Murdarlar!

Kişi yenə qızı kəmərlə vurmağa başlayır, qız daha bərkdən qışqırırdı.

– Pozğun qız! Neçəsi ilə əlaqədə olmusan? Neçə cavanı pis yola çəkmisən? – kişi dedi.

– Təkcə Daryuşla əlaqəm vardı, – qız cavab verdi. – Onunla evlənəcəkdik.

– Yaramaz! Bizim qardaşlarımız gedib şəhid oldular ki, sən və sənin kimilər burda naməhrəm kişi ilə münasibətdə olasınız?! – kişi dedi, sonra isə nərə çəkdi: – Harda qaldınız?

Görkəmdə ona bənzəyən və yaşıl gödəkcə geymiş iki nəfər tələsik içəri girdi. Onların biri əlindəki enli yapışqan lenti açıb çabalayan və başını oyan-buyana çevirən qızın ağzını bağladı.

Kişi o biri adama üzünü tutub dedi:

– Qapısını açdınız?

– Hə, – əlində yapışqan lent olan kişi dedi.

– Əgər üstü açılsa, necə? – üçüncü adam dedi.

– Ehtiyatlı olun, camaat xəbər tutmasın, – birinci kişi dedi. – Vəzifəli şəxslərlə danışmışıq, diyəsini də ayırmışıq. Ümidvaram ki, bir gün bu fəsad mikroblarını camaatın gözü önündə cəzalandıracağıq. Mənə baxın... siz dəstəmazlısınız?

Əlində yapışqan lent olan kişi dedi:

– Mən dəstəmazlı idim, amma... Qız əlimin altında çox tərpənirdi.

– Kül başına!.. Get, tez dəstəmaz al, – kişi dedi.

Qız hələ də çabalayırdı. Kişi dəstəmaz alıb qayıtdı. Üçü birlikdə onu ayağa qaldırdılar.

Filmin növbəti səhnəsi otaqdan bayırda, qaranlıqda cərəyan edirdi, hündür və yaşlı bir ağacın altında. Qız daha tərpənmirdi. Mobil telefonun fənəri ilə quyunun ağzını tapdılar, dairəvi metal listi kənara çəkəndən sonra qızı qaldırıb quyuya atdılar. Saqqallı kişi başını və əllərini göyə qaldırıb dedi: "İlahi! Bu xidməti bizdən qəbul elə! İlahi! Bu ölkədə fəsadın kökünü kəs!"

Film bitdi. İclas otağının işıqları yandı. Stolun ətrafında oturmuş on nəfər gözlərini monitordan çəkib əl çaldı. Sara

uzun qəhvəyi saçını üzündən kənara çəkib yanında oturmuş Maşaya təbəssümlə baxdı. Sara ilə Maşa, çox vaxt olduğu kimi, eyni rəng və stildə geyinmişdilər. Hər ikisinin əynində qırmızı aşırmalı mayka və qəhvəyi cins şalvar vardı. Lakin Maşa saçını həmişə oğlan kimi qısa saxlayırdı.

Başda oturmuş müəssisə müdiri Cek Miller üzünü Əlinejada tutub dedi:

– Fikriniz nədir? İşimiz var; kimin sözü varsa, tez söyləsin.

– Mən deyirəm ki, yaxşıdır, – Əlinejad dedi. – Nöqsanı yoxdur.

Sara və Maşa ilə qarşı-qarşıya oturmuş Sofiya:

– Bilirsiniz nə var?! Mən deyimmi? – dedi, axan saçını başının cəld hərəkəti ilə gözlərinin önündən kənarlaşdıra-kənarlaşdıra əlavə etdi: – Film iranlı qadınlara, hətta Orta şərq müsəlmanlarına qarşı şiddəti göstərsə də, forması zəifdir. Çox vaxt sərf ediblər, amma senari və aktyor işi... məncə, çox zəifdir.

– Düzdür, – Maşa dedi. – Məsələn, qızı quyuya atmaq səhnəsi; tamamilə məlumdur ki, atdıqları kukladır.

Sara dilləndi:

– Məncə də zirzəmidəki səhnə və dialoqlar pis deyildi, təbii idi, amma bayırdakı səhnə çox qeyri-təbii alınıb.

– Razıyam, – Sofiya dedi, – məncə də yayıma uyğun deyil.

Cek Miller danışmağa başlayıb dedi:

– Mənim fikrim də belədir. Biz daha güclü iş istəyirik. Daha yaxşı yatırım olmalıdır. Bu, belə! Dostlar, bir xəbər budur ki, bu komanda işində ciddi olsa, İran, İraq və Əfqanıstan kimi ölkələrdə araşdırma imkanları yaradılacaq. Gecə-gündüz çalışaraq məqsədimizə çata

bilərik. Şüarımız da şərqli, xüsusən də Orta şərqli qadınların salındıqları zindandan azadlığıdır. Mən onlar haqda hazırlanası mövzuların başlıqlarını deyəcəyəm. Başqa bir məsələ budur ki, bundan sonra müəssisəmiz "İşrətkədə" saytı ilə daha yaxından əməkdaşlıq edəcək. Maşa saytın nümayəndəsi kimi bizim iclaslarımızda iştirak edir. Maşa, sayt hansı durumdadır?

Maşa təsdiq əlaməti olaraq başını yelləyib dedi:

– Xoşbəxtlikdən, sayt populyar olub, çoxlu şirkətlər saytımıza uyğun məhsullarının reklamı üçün müraciət ediblər. Bundan sonra sayt vasitəsilə daha çox məhsul satılacaq; kosmetik vasitələrdən tutmuş qadınlara aid və pornoqrafik məhsullara qədər. Bu isə saytın gəlirinin bir neçə dəfə artması deməkdir. Əgər hamınız öz adamlarınızla mətn, məzmun və məlumat baxımından daha sıx əməkdaşlıq etsəniz, vəziyyət daha da yaxşılaşar.

– Yaxşıdır! – Cek Miller dedi. – O qız... Əfsanə Saranın yanına gələcək. Sara ilə razılaşdıraraq "İşrətkədə"də əməkdaşlıq edə bilər.

– Okey, – Sara dedi.

Cek Miller üzünü Saraya tutub dedi:

– Sara, "Qadının səsi" saytı üçün də mövzularımız var, gərək onlara tez yaxşı materiallar hazırlansın.

– Əlbəttə, məndə bir neçə sual yaranıb... – Sara dedi.

– Sualı hələlik yaddan çıxar, – deyə Miller onun sözünü kəsdi. – Qadına qarşı zülm mövzusu bizim üçün daha çox əhəmiyyətlidir. Bunun üzərində işləmək lazımdır. İndi hansı mövzular üzərində işləyirsiniz?

– Kişinin qadını döymək haqqı, boşamaq haqqı, çoxarvadlılıq, qadının diyəsinin və irsinin kişidən əlli faiz az olması, qadının ağlının nöqsanlı sayılması, – Sara mobil telefonuna baxıb sadaladı. – Mənə verdiyiniz qeydlərdə

başqa məsələlər də var; məsələn: Qadın ərinin istədiyi kimi geyinməlidir, "İnsan qadağalara qarşı tamahkardır" cümləsi, qadının kişi tərəfindən külfət sayılması, kişi üçün uşaq doğmağa borclu olması və s. Bunlar üçün qeyd, məqalə, klip və bu kimi materiallar hazırlamalıyıq. Əvvəlki qrup bəzi işlər görüb, amma... Məncə, məndə yaranmış suallar əhəmiyyətlidir. İstifadə üçün verdiyiniz mənbələrdə ziddiyyətlər var...

Cek Miller yenə Saranın sözünü kəsib acıqla dedi:

– Heç bir ziddiyyət yoxdur... Yaddan çıxarmayın ki, bu materiallar sadə olmalı, adi insanlar tərəfindən başa düşülməlidir. Şərq qadınını xilas etmək üçün virtual məkandan, xüsusilə də sosial şəbəkələrdən və müasir dünyanın digər imkanlarından istifadə etmək lazımdır. Gərək qadınların ürəkləri istəyən azad münasibət və onun ləzzətindən məhrumluq mövzusunu film, hekayə və bu kimi əsərlər formasında onlara daddıraq. Gərək xərcləri də düzgün idarə edək. Biz çox xərcləyirik. İndiyədək ABŞ Dövlət Departamenti yanımızda olduğuna görə buraya çata bilmişik. Ancaq bundan sonra özümüz özümüzü təmin etməliyik. "Qadının səsi" saytı zəngin bir düşüncə saytıdır. “İşrətkədə” saytı da yaxşı mərhələyə çatıb. Biz iranlı qadınların yanında olmalıyıq və bundan ötrü köməyə ehtiyacımız var. Xoşbəxtlikdən, İrandan yeni bir kadr gəlib, gərək ondan istifadə edək.

Mesi uzun qıvrım saçını qulağının arxasına yığdı, burnunun nazik ucunu qaşıyıb dedi:

– Bundan əlavə, qadınlara dair hüquq və azadlıqların gözəlliklərini də onlara daddırmalıyıq.

– Şərq qadınları bilməlidirlər ki, hüquqlarını əldə etsələr, hansı gözəlliklər onlara nəsib olacaq, – Maşa dedi.

– Hicab onların bədən dillərini lal edib. Oğlan və qızlar arasında münasibətlərin azad olması zəruridir.

– İnqilab xiyabanındakı qızlarla bağlı layihə hazırlamaq istəyirəm. Fikriniz nədir? – Mesi dedi.

Cek Miller işarə barmağını qaldırıb havaya bir zərbə vurdu və:

– Yaxşıdır! Müəssisənin əsas məqsədi budur. Sükanı möhkəm saxla! – dedi, sonra isə üzünü Saraya tutub əlavə etdi: – Sara, haqqında danışdığım Əfsanə İranın şimal kəndlərindəndir. “Google” axtarış saytında Gilanı tapa bilərsən. Atası adi bir dindar adamdır, anası isə dini adət-ənənələrə çox bağlıdır. Əfsanə anasını çox sevir. O, Amerikaya yeni gəlib, insan haqları, xüsusən də qadın hüquqları üzrə fəallardandır. Onunla münasibət qurmanı istəyirəm. Gərək üzərində çox işləyəsən, yayımdan öncə işlərini yoxlayasan. O, həftədə bir qeyd və ya məqalə yazmalıdır, sən də onu yönləndirməlisən. Materialını təsdiqləyəndən sonra saytlarımıza və ya sosial şəbəkələrdə paylaşmağa göndər.

Sevdiyi mövzuları həmişə şərqli, xüsusən də müsəlman bir qadınla işləməyi sevən Sara bu təklifə sevinib dedi:

– Okey! Mersi.

O, Cek Millerdən bir qovluq aldı. Orada Əfsanənin şəxsi məlumatları və xarakterləri təfərrüatı ilə qeyd olunmuşdu.

Sara qovluğu mütaliə edərək bildi ki, Əfsanə və əmisi qızı Fəridə 1995-ci ildə Tehran Dövlət Universitetinə qəbul olublar. Fəridə Tibb fakültəsinə daxil olub, Əfsanə isə Politologiyaya. Fəridənin ictimai-siyasi fəaliyyəti olmayıb, Əfsanə isə İslam dərnəyinin üzvü olub, çoxlu fəaliyyətlər göstərib.

Əfsanə magistratura tələbəsi və İslam dərnəyinin üzvü olan Əfşari soyadlı bir şəxslə tanış olmuş, onun vasitəsi ilə universitetin İslam dərnəyinin fəal üzvünə çevrilmişdir. Ondan sonra get-gedə mediaya çıxmış, şəkil və materialları qəzetlərdə çap olmuşdur. 1997-ci ilin prezident seçkiləri yaxınlaşanda, yəni o, ikinci kursda oxuyanda Əfşarinin təklifi ilə prezidentliyə namizəd Xatəminin seçki kampaniyasına qoşulmuş və Əfşari ilə çiyin-çiyinə seçki qərargahının ən fəal qadın üzvlərindən olmuşdur.

Əfsanə daha əvvəlki utancaq kənd qızı deyildi. O, çadrasını kənara qoymuşdu, ailəsinə baş çəkmək üçün rayona getdiyi günlərdən başqa həmişə manto geyirdi; onu da anasına görə. İslahatçı hökumət qurulandan sonra Əfşari Prezident aparatına daxil oldu. Media kadrlarını təkmilləşdirmək üçün aparatın həmfikir qüvvələrə ehtiyacı vardı, Əfşari də bu kadrları toplayırdı. O, Əfsanəyə də əməkdaşlıq təklifi etmiş, Əfsanə razılaşmışdı. Lakin o, İslam Respublikasının rəsmi bir orqanında vəzifə tutmaq üçün yenə çadra geyməli idi. Beləliklə, Əfsanə öncəkindən də mühafizəkar bir geyimlə aparata daxil oldu və tələbə dönəmindəki fəaliyyətlərinə uyğun olaraq xəbər bülleteni hazırlamaqla işə başladı. O, lisey dönəmindən Fəridə ilə rəqabət apardığına görə media imkanlarından istifadə edib özünü ondan uğurlu göstərməyə çalışırdı. Bir müddətdən sonra Fəridə doktorantura üzrə təhsil bursu alıb Kanadaya getdi.

Əfsanə bütün bu illərdə siyasi media ilə məşğul olmuşdu, bu isə onu razı salmırdı. O, təhsilini davam etdirmək üçün dövlət xətti ilə Avropa və ya Amerika ölkələrindən birinə getmək istədi, amma buna nail ola bilmədi. Xatəminin prezidentlik dövrü sona çatandan

sonra isə Əfsanə də vəzifəsindən kənarlaşdırıldı. O, hər gün Fəridənin uğurlarını, habelə Kanadada daimi yaşamaq icazəsi üçün müraciət etdiyini eşidirdi. Əfsanə prezident aparatında fəaliyyəti zamanı Azad universitetdə Jurnalistika fakültəsinin magistratura pilləsini qurtarsa da, çox çalışmasına rəğmən, təhsil bursu ala bilməmişdi.

Zamanın ötməsi, nə qədər uzaqda olsa da, onun Fəridə ilə rəqabət hissini başından çıxarmadı. O, hələ də ona çatmağa çalışırdı. Nəhayət, bu nəticəyə gəldi ki, xaricə getməyin yeganə yolu siyasi fəal kimi sığınacaq almaqdır.

2009-cu ildə Əfsanə üçün radikal siyasi fəaliyyət imkanı yarandı. O, seçki saxtakarlığı bəhanəsi ilə özünü göstərib Amerikadan siyasi sığınacaq almaq istəyənlərdən idi. Beləliklə, onun müxalif siyasi fəaliyyətləri başlandı: icazəsiz mitinq və yürüşlərdə iştirak etmək, radikal bəyanatlar imzalamaq və s.

Nəhayət, bir neçə aydan sonra o, qanunsuz şəkildə İrandan çıxıb Amerikaya sığınacaq almağa getdi. Amerikada öncədən danışdığı bir dostunun evinə yerləşdi, iqamət müraciətinin elektron formasını doldurandan sonra Miqrasiya idarəsinə yollandı.

Miqrasiya idarəsində başının ön hissəsi keçəl olan ortayaşlı və kök bir işçi vardı, sinəsinin sağ tərəfinə doğru əyilmiş balaca nazik kartının üzərinə "Kəyumərs Zənd - Sığınacaq şöbəsinin sədri" sözləri yazılmışdı. O, internet səhifəsini açıb Əfsanənin qovluğuna baxdı, bir müddət gözlərini ona dikdi, sonra eynəyini götürüb soruşdu:

– Müraciət səbəbi?

Əfsanə stulda yerini rahatladı, başının ortasından sürüşən qırmızı ipək yaylığını önə dartıb üzünün kənarlarındakı saçını onun altına yığdı, sonra qalxıb

qarşıdakı masadan çantasını götürdü, bir addım yaxınlaşıb dedi:

– Mən siyasi fəal olmuşam.

– Siyasi fəal?! Soruşdum ki, müraciət səbəbiniz nədir? – kişi istehzalı təbəssümlə dedi.

– Mən İrandakı seçkilərə etiraz etmişəm, seçkilərdən sonrakı yürüşlərdə iştirak etmişəm, bəyanatlar imzalamışam! Nida Ağasultani öldürüləndə yaxınlığında idim. Güllə səsi gələndən sonra qaçış filmim də yayılıb. Mənə deyiblər ki, gərək İrandan gedəsən, çünki Nidanın öldürülməsində ittiham olunacaqsan; deyiblər ki, əgər ələ keçsən, səni qatil kimi mühakimə edib ölüm hökmünü verəcəklər.

– Bunlar sığınacaq almaq üçün yetərli deyil, – kişi eynəyini taxıb dedi. – Sənin heç bir radikal siyasi fəaliyyətin olmayıb ki, İranda həyatın təhlükədə olsun və ya azadlığına təhdid yaransın.

– Mister Zənd, elə bu qədər fəaliyyətə görə indi İranda minlərlə insan həbs olunub və onları ağır cəzalar gözləyir, – Əfsanə dedi, sonra əlini saçına apardı, bayıra çıxmış tükləri yaylığının kənarı ilə birgə qulağının arxasına yerləşdirdi.

– Sığınacaq almağın xüsusi şərtləri var. Bütün İran xalqı etirazçıdır. Əgər belə olsa, gərək bir neçə milyon adama sığınacaq verək. Bu isə mümkün deyil!

Əfsanə ağzını açıb danışmaq istəyəndə qapı taqqıldadı. Zənd qapıya baxdı. Əfsanə də üzünü çevirdi. Cins şalvarla ağ qısaqol köynək geymiş təxminən altmışyaşlı bir kişi otağa girdi. Zənd salam əlaməti olaraq əlini qaldırıb başını yellədi, sonra Əfsanəyə dedi:

– Gərək məlumatlı şəkildə müraciət edəydin. Belə olmaz!

Əfsanə başını yalvarış şəklində əyib dedi:

– Lütfən, mənə kömək edin. Mən indi nə edim?

– Bilmirəm, – Zənd dedi, sonra otağa girmiş kişini göstərib əlavə etdi: – Cənab Dibadan soruş.

Diba əlini üzərində jele izi görünən sıx və daranmış saçına çəkib dedi:

– Nə olub?

Zənd qısa məlumat verdi. Diba Əfsanəyə baxıb dedi:

– Sən sığınacaq şərtlərinə malik deyilsən, qız! Çünki İranda mühüm bir fəaliyyətin olmayıb. Orada qalmağın sənə həyati təhlükəsi yoxdur.

Əfsanə məyus halda mobil telefonunu çıxarıb Nida Ağasultaninin öldürülmə səhnəsindən qaçdığı filmi ona göstərdi. Zənd baxıb dedi:

– Bu səhnədə çox adam qaçır, sən elə də seçilmirsən. İndi onlar üçün problem yaranıb? - Yox! Həmin etiraz yürüşündə iştirak edənlərin hamısı həbs olunub? Edam olunub? - Yox! Uzun illərlə həbsə məhkum olunublar? - Yox! İndi sənin yeganə ittihamın İrandan qanunsuz çıxışın və Amerikaya gəlməndir. Əlbəttə, Amerikaya girişinin qanuni və ya qeyri-qanuni olması da müzakirə mövzusudur, amma gərək İrandan çıxmayaydın, – Zənd bunu deyəndən sonra əlavə etdi: – Əlbəttə... bəlkə...

– Bəlkə nə? Bir yolu varmı? Nə lazımdırsa, edərəm, – Əfsanə qaşlarını qaldırıb tez dilləndi.

– Onu daha, – deyə Zəndin üzündə şeytani bir təbəssüm yarandı, gözucu Dibaya baxıb nəsə işarə verdi. Diba dedi:

– Mənimlə gəl.

Zənd Əfsanəyə baxıb bədənini geriyə verdi, stula yastılandı. Əfsanə bir qədər şübhə və daha çox, sığınacaq almaq üçün yolun tapılmasına ümidlə Dibanın göstərdiyi səmtə getdi. Zənd dedi:

– Qız! Ancaq vəziyyətin bəlli olana qədər sənin üçün müəyyən etdiyim çərçivədən çıxma, yaşayış yerini də dəyişdirmə.

– Yaxşı, – Əfsanə udqunub cavab verdi.

– Mənim kabinetim birinci mərtəbədədir. Yarım saata oradayam. Sənə kömək edəcək bir dostumla danışmalıyam. Get otağıma, məni gözlə. Otağın nömrəsi 13-dür.

Əfsanə başını yellədi, yaylığını bir az düzəldib pilləkənlərdən endi və on üçüncü otağa girdi.

Qarşıdakı divarın üstündə uzun və böyük bir aynabənd vardı, ətraf xiyabanlardan geniş bir mənzərə görünürdü. Uzaqda göylərə ucalan binalar, günəş altında minlərlə pəncərə şüşəsi parıldayan ucuşiş göydələnlər göz qamaşdırırdı. Hərəsi bir formadaydı. Bir qədər yaxında klub, supermarket və müxtəlif mağazaların irili-xırdalı rəngli tabloları, yanıb-sönən işıqforlar, get-gəlli xiyabanlar mənzərənin çərçivəsini çox qarışıq və gərgin göstərirdi.

Əfsanə bir qədər pəncərənin önündə dayanıb bayıra baxdı, sonra başı gicəlləndi, ürəyi bulandı. Həyəcanlı idi, əl-ayaqları buz kimi olmuşdu. "Gör özlərinə necə cənnət yaradıblar!" – deyə öz-özünə düşündü. Başını əyib binanın aşağısına baxdı. Adamla dolu səki və müxtəlif mağazalar görünürdü. Bütünlüklə şüşədən ibarət vitrininə cürbəcür silahlar düzülmüş böyük bir silah mağazası diqqətini cəlb elədi. Bu mağaza ətrafdakı bütün mağaza və marketlərdən böyük idi. Başı daha çox gicəlləndi. Sanki mədəsində olanlar hər an yuxarı qalxa bilərdi. Əlini qarnına qoyub sıxdı, tez geri çevrilib divar boyu düzülmüş stulların birində oturdu, yaylığının düyününü açıb bir neçə dəfə dərin nəfəs aldı. Telefonunun saatına baxdığı yerdə qapı açıldı və Diba içəri girdi.

Əfsanə ayağa qalxıb gözünün altına əlini çəkdi. Bədənində soyuq tər vardı. Diba qara masasının arxasındakı ofis stulunda oturdu, hiyləgər təbəssümlə dedi:

– Bir şey içirsən?

– Sağ olun. Qəhvə içərəm, – Əfsanə də oturub cavab verdi.

– Acı, yoxsa şirin?.. Espresso? – Diba başını yelləyib soruşdu.

– Fərqi yoxdur, – deyə Əfsanə çantasının aşırmasını çiynindən endirdi, çantasını ayağının üstünə qoydu.

Diba birrəqəmli bir nömrəyə zəng vurub dedi: "Bir espresso, bir absent... ee... yanına iki donat da qoy".

Stulda dümdüz oturub Əfsanənin üzünə baxdı. Əfsanə həyəcanlı idi, yalnız işində yaranmış düyün barədə fikirləşir, çıxış yolu axtarırdı. O dedi:

– Cənab Diba, bir yolu varmı?

– Ee... əgər əməkdaşlıq etsəniz.

– Necə?

Xidmətçi içəri girib podnosu onlara yaxınlaşdırdı, hörmət əlaməti olaraq bir qədər əyilib otaqdan çıxdı. Əfsanə nəfəsini yavaş-yavaş buraxıb zəif səslə dedi:

– Sığınacaq işim düzələr?

– Gərək bir iş görək ki, düzəlsin. Sən indi İrana qayıtsan, əvvəla, ölkəni qanunsuz tərk etdiyinə görə həbs olunacaqsan, illərlə həbsxanada qalacaqsan. İran hökuməti üçün sən bir qiyamçısan, ölkədən çıxışını istər-istəməz fəaliyyətlərinlə bağlayacaqlar. Ancaq özün bilirsən... siyasi fəaliyyət sığınacaq almaq üçün yetərli deyil.

Əfsanə yaylığının düyününü bir qədər yuxarı qaldırdı, əlini alnına çəkib dedi:

– Qəbul edirsiniz ki, İran rejimi zalım rejimdir? Bu kifayət deyil ki, mən orda təhlükə içində olacağam?

– Xanım qız, burda hər şeyin öz meyarı var. Gərək qanuna uyğun addım atasan. Əks təqdirdə, Birləşmiş Ştatlar İran hökumətinin müxaliflərini təhrik etməkdə ittiham olunar. Onda da deyərlər ki, dünyanın təhlükəsizliyini və azadlığını təmin edən bir dövlət digər xalqların səthi müxaliflərindən hökumətlərinə qarşı istifadə edir, onların təhlükəsizliyini nəzərə almır. Əlbəttə, Amerika yağış görmüş qurddur. Biz İraqı, Əfqanıstanı radikal və vəhşi qruplardan xilas etmişik. İndi də İran xalqını molla rejimindən azad etməyə hazırıq.

– Mən nə etməliyəm?

– Gərək bizə sübut olunsun ki, İranın siyasətlərinə ciddi etirazlarına görə sənə həyati təhlükə var. Gərək sübut edəsən ki, İran daha sənin üçün təhlükəsiz yer deyil.

– Necə? – Əfsanə başını yaxınlaşdırıb çox həvəslə, amma bir o qədər də təşviş içində soruşdu.

Diba büllur rumkasını qaldırıb dedi:

– Səni Sara ilə tanış edəcəyəm. Təşkilatımızın fəal qızlarındandır. Əlbəttə, bəzən nala-mıxa vurub məni hirsləndirir, amma zirək qızdır, yaxşı işləyir. O, insan və qadın hüquqlarına dair sayt və jurnallarla əməkdaşlıq edir. Ona demişik ki, İran üzərinə fokuslansın. O, sənə kömək edə və qələmini gücləndirə bilər.

– Bunu edərəm, – Əfsanə həyəcanla dedi. – Bəs sonra?

Kişi gülüb masanın üstündəki espresso fincanına və donata işarə ilə:

– Əvvəlcə özünə qulluq elə, bir şey ye, qız, tələsmə! – deyib güldü, rumkanı dodaqlarına yaxınlaşdırıb bir qurtum içdi.

Əfsanə şokoladdan qəhvəyi rəngə düşmüş donatdan kiçik bir parçanı çəngəllə götürdü və qəhvə fincanını

özünə yaxınlaşdırdı. Diba ağzını marçıldatdı, gözlərini Əfsanəyə dikib dedi:

– Deməli, jurnalistsən...

– Aha, – Əfsanə fincana toxunub dedi. – Xəbər bülleteni, qəzet...

– Yaxşı... Sara sənə mövzu verəcək, sən də dediyim saytlara məqalə yazacaqsan, iranlı qadınlara qarşı vəhşilikləri tənqid edəcəksən.

Əfsanə başını yellədi, başından sürüşüb çiyinlərinə düşmüş yaylığını iki barmağının ucu ilə tutub başının ortasına qədər dartdı. Diba gülüb içkisindən bir qurtum da içdi və dedi:

– Onu niyə götürmürsən? Qoy o qəşəng saçın nəfəs alsın. Azad ol, bura Birləşmiş Ştatlardır!

Əfsanənin üzünə zəif gülüş qondu, başını təsdiq əlaməti kimi yellədi və yaylığı yenə çiyinlərinə düşdü.

– Gərək televiziya müsahibəsi üçün də əməkdaşlıq edəsən, – Diba dedi. – Əlbəttə, digər əməkdaşlıqlar...

Əfsanənin gözləri parıldadı, çox ümidləndi. Qəhvəni başına çəkib kağız dəsmalla ağzını sildi və dedi:

– Razıyam. Digər əməkdaşlıqlar hansılardır?

Dibanın mobil telefonu zəng çaldı. Telefonuna baxandan sonra cavab verdi: "Salam, Cek... Hə-hə. Gənc və işgüzar bir kadr... Okey. Okey. Xəbər verərəm..."

O, telefonu stolun üstünə, əlinin kənarına qoydu, Əfsanəyə baxıb:

– Hər şey vaxtında! – dedi.

– Yaxşı. Haçandan başlayım? – Əfsanə soruşdu.

– Televiziyaya müsahibə verib Nida Ağasultanın qətlinə şahid olduğunu və onu bir bəsicinin öldürdüyünü söyləyəcəksən.

– Ee... yaxşı... Hansı kanala? Canlı yayım olacaq?

– “Azadlığın səsi” kanalı, “Parazit” verilişi. Xırdalıqlarını prodüser və aparıcı ilə danışarıq. Sən verilişdə özünü təqdim edib İrandan qaçış səbəbini söyləyərsən. Əlbəttə, verilişdən qabaq nə deyəcəklərini onlarla razılaşdırarsan. Sonra Xarici İşlər Nazirliyinə və Miqrasiya idarəsinə gedib sübut edərsən ki, İrana getmək sənin üçün təhlükəlidir; əlbəttə, bir neçə mərhələdən sonra.

Əfsanə düşündüyü yerdə Diba rumkasını başına çəkib sözünə davam etdi:

– Abbas Mərufini tanıyırsan? Almaniyaya mühacirətə gedəndə iqamət məsələsi üçün problem yaranmışdı. O, Mikonos məhkəməsində İran dövləti əleyhinə ifadə verəndən sonra problemi aradan qalxdı. Sənin işin isə Mərufidən də asandır.

Əfsanə fincandakı qəhvəyə baxdı; üzünün əyri-üyrü şəkli əks olunurdu. Nəfəsini buraxıb dedi:

– Yaxşı.

– Verilişdən qabaq bir neçə dəfə səni yoxlayacaqlar. Sonra da... iş və yaşayış yeri məsələsi var...

– İqamət həll olandan sonra sabit maaş vermirlər?

– Sabit maaş?!

– Məgər belə qanun yoxdur?

– O, xüsusi adamlar üçündür. Sən proqramdan öncə insan hüquqları fəalı kimi tanınmalısan. Sənin materialların qadın hüquqları saytlarında yayılmalıdır ki, yaxşı bir CV hazırlansın. Ən azı "Qadının səsi" və “İşrətkədə” saytlarının belə materiallara ciddi ehtiyacı var. Saranın telefon nömrəsini qeyd elə. O, bizimlə çalışır. Əgər bir işin olsa, ona söyləyə bilərsən.

Əfsanə nömrəni telefonuna yazıb dedi:

– Sizə necə təşəkkür edəcəyimi bilmirəm.

– Onu da vaxtında deyərəm, – Diba Əfsanənin boy-buxununa baxıb yorğun səslə dilləndi.

# Birinci fəsil

## Qara baxış

Əfsanə həmin gün axşamüstü Saraya zəng vurdu, özünü təqdim edib ondan göstəriş və tövsiyə istədi. Sara artıq onun barəsində məlumatlandırıldığı üçün dedi:

- İndi yanıma gələ bilərsən. Sənə məkan bilgisi göndərirəm.

Əfsanə kafenin pilləkənindən qalxdı. Qapı, divar, stul və stolların hamısı qara rəngdə idi. Musiqar səslənir, yerdə və divarda müxtəlif ölçülü heykəllər nəzərə çarpırdı. Bir qızla bir oğlan sol tərəfdə divarın kənarında nəsə içə-içə gülürdülər. Uzun qəhvəyi saçlı gənc bir qız isə sağ tərəfdə divarın kənarında oturmuş, başını tabletinə doğru əymişdi. Əfsanə gözlərini qıyıb qıza baxdı. Qız başını qaldırdı.

Əfsanə dedi:

– Sara?

Sara baş barmağını bəyənmək mənasında qaldırdı, tabletini söndürüb kənara qoydu:

– Əfsanə! – dedi.

Əfsanə gülümsəyib cəld onun önündəki stulda oturdu.

– Kokteyl içirsən? – Sara dedi.

– Aha, – Əfsanə cavab verdi.

– Spirtli, yoxsa spirtsiz?

– Spirtsiz.

Sara başını bara doğru əydi, iki barmağını qaldırdı, stolun arxasında oturub gözləyən kafe işçisinə:

– İki mokteyl, lütfən, – dedi, sonra üzünü Əfsanəyə tutub əlavə etdi: – Çox istəyirdim ki, şərqli, xüsusən də müsəlman qadınlarla yaxından tanış olum. Səni görməyimə şadam. Son zamanlar müsəlmanlar barədə daha çox öyrənmək istəyirəm. İnternet üzərindən əlaqə saxlaya bilərdik, amma mən düşündüm ki, üz-üzə daha yaxşıdır.

– Mersi! Mən də səni görməyimə şad oldum. Mənim də farsca danışan bir xanımla dost olmağa, həqiqətən, ehtiyacım vardı.

– Çox maraqlıdır... Mən də özümdə belə bir ehtiyac hiss edirdim. Həm farscamı gücləndirmək istəyirəm, həm də onların mədəniyyətini öyrənmək. Bilirsən, mən çox istəyirəm ki, bir müddət İranda yaşayım. Axır zamanlarda bəzi səbəblərdən məlumatları müsəlmanların özlərindən öyrənmək istəyirəm. Düşünürəm ki, bəzi məsələlər bizim göz və qulaqlarımızdan gizli qalır. Hətta bəzən hiss edirəm ki... Nə isə. Yaxşı, danış görüm.

– Hə... cənab Diba dedi ki, mən hələlik sizdən iş sifarişi almalıyam, istədiyiniz mövzularda yazacam.

– Bir neçə saytımız var, onlar üçün məqalə, qeyd, hətta satira da istəyirəm, – Sara dedi, sonra mobil telefonunu götürüb vatsap üzərindən Əfsanəyə bir PDF faylı göndərdi. Əfsanə faylı açdı. İlk mövzu İranın bugünkü

hakimiyyətinin və İslamın qadına qara baxışı idi. Qərara alındı ki, Sara Əfsanənin qələmini bəyənsə, yazı sayta yerləşdirilsin.

***

Əfsanə ilk yazısını Saraya göndərdi. Girişdə deyilirdi: "Bu araşdırma xüsusən 1979-cu il ruhani inqilabından sonrakı İranda qadın məzlumluğundan danışır. İdeoloji və dini bir dövlət İslamın qadını aşağılamaq üçün verdiyi göstərişləri həyata keçirməyə çalışır".

Kompüterin arxasında oturmuş Sara oxuyandan sonra başını yelləyib Dibaya yazdı: "Yaxşı yazır. İşə yarayar!"

Sara özünün yarımçıq məqaləsini tamamlamaq və İslam kitablarına dair dəqiq mənbə tapmaq üçün “Google” saytını açdı. Onun qaynaqlarının hamısı qeyri-orijinal və ikinci əl mənbələr idi. O, "İslamda qadın haqları" yazıb “enter” düyməsinə basdı. Çoxlu səhifələrdən nümunələr gəldi. Saytların birini açdı. Səhifənin kənarında bəzi linklər də qoyulmuşdu. Onların biri Saranın diqqətini cəlb elədi: "Nyu-York İslam Araşdırmaları Mərkəzi". Səhifəni açdı. Xəbərlər bölməsinin başlığı Saraya maraqlı gəldi. Orada yazılmışdı: Qadının hüquq və mövqeyi mövzusunda təşkil olunan "Bütün dünya qadınları üçün” adlı silsiləvi seminarlara dəvət olunursunuz. Seminarlar hər həftənin bazar günləri Nyu-York İslam Araşdırmaları Mərkəzində keçiriləcək. Görüşümüz bazar günü, səhər saat 9-da on dördüncü prospektdə".

Sara düşündü ki, bu, onun üçün çox yaxşı bir imkandır. Mərkəzin ünvanını mobil telefonuna qeyd edib telefonun qeyd bölməsinə bazar günü tarixini daxil etdi. Lakin bir anlığa fikirləşdi: "Əgər bu mərkəz terrorçu qruplaşmalarla əlaqəli olsa və mənim insan hüquqları fəalı olduğumu, qadın haqları sahəsində işlədiyimi bilsələr, necə olar?

Əgər məni tanısalar, araşdırma imkanı üçün İslam ölkələrinə getmək istədiyimi bilsələr və mənə təhlükə yaransa, necə? Əgər şəxsi məlumatlarım “Həşd əl-şəbi” kimi terrorçu qruplaşmalara göndərilsə, necə? Gərək özümü təqdim etməyim!"

Telefonuna baxdı, onu səssiz rejimə keçirmək istəyəndə Əfsanədən bir mesaj gəldi. “İşrətkədə” saytı üçün qısa bir qeyd idi, "Üçüncü dünya cəmiyyətlərini ruhlandırmaqda qadın rəqsinin rolu" başlığı altında. Ona yazdı: "Məlumdur ki, işində çox məsuliyyətlisən. Mersi. Oxuyub cavab yazacağam".

***

Sara evdən çıxıb İslam mərkəzinə doğru yola düşdü. Mobil telefonu zəng çaldı. Onu cins şalvarının cibindən çıxarıb baxdı. Maşa idi. İki gündən bir piyada yürüş proqramları Saranın işlərinin çoxluğuna görə iki həftə idi tətil olurdu.

– Salam, Maşa. Hardasan? – deyə Sara zəngə cavab verdi.

– Mən hardayam, yoxsa sən, polis xanım? – Maşa narahat halda dedi. – Bəlkə cərimə vərəqələrin qurtardığına görə daha məndən səhv tutmağa gəlmirsən? Əvvəllər zəng vurub halımı soruşardın, deyinərdin, söyərdin!

– Nə danışırsan, Maşa? – Sara gülüb dedi. – Mənim barəmdə bu cür danışmaq üçün çox insafsız olmalısan.

– Bəs necə?! Yadından çıxıb, məni danlayırdın ki, ey, Maşa, niyə onunla danışdın; bir də bu yoldan getdiyini görməyim; o oğlan avaradır, ona baş qoşma; ora getmə; belə oturma; bu gülməli şalvarı geymə...

– Bəsdir, dəli, – Sara gülə-gülə onun sözünü kəsdi. – Daha səninlə görüşməsəm, rahat olarsan?

– Görüşməsən?! Nyu-Yorku təpənə çırparam. Məgər özbaşınasan? Çox bəxtəvərsən ki, əsəbi və ürəyəyatmaz bir qardaşın var və ondan heç xoşum gəlmir. Yoxsa hər gün sizdə olardım. Allahından olsun!.. Bura bax, səninlə işim var. Tez de görüm hardasan?

– Bir yerə gedirəm. Sən də gəlirsənmi?

– Hansı cəhənnəmə gedirsən?

– Cəhənnəmin “qrinkart”ı sənin əlindədir... Məkan göndərirəm, Nyu-York İslam Araşdırmaları Mərkəzidir.

– Oo! – Maşa dedi. – Çox yekəbaşsan! Zarafat-zarafat, elə cəhənnəmə gedirsən ki! Sənin bu Ceyms Bond oyunlarını çox sevirəm. Terrorçuların yanına gedirsən?

– Elmi işim üçün gedirəm.

– Yaxşı... əgər ordan sağ çıxsan, mənə xəbər ver, on dördüncü prospektdə görüşək. Mən iki saatdan sonra on üçüncü prospektdə bir müsahibə almalıyam.

– Onda görüşərik. Bay!

***

Mərkəzin binasına çatanda ətrafına göz atdı, İŞİD-in vəhşiliklərinə, baş kəsmələrinə dair filmlər görmüşdü. Onların biri gözləri önündə canlandı: Bir neçə İŞİD üzvü İraqda məsihi bir qıza təcavüz edir, sonra da ağzını açıb xaçın uc tərəfini ağzına salırlar. Xaç qızın boğazını dəlib o tərəfdən çıxır. Qız çabalayır, onlar gülüşürlər. Huşunu itirəndən sonra onların biri qızı qaldırıb stulun üstündə oturdur, boğazından qan fəvvarə vura-vura əlini çiyninə qoyub mobil telefonu ilə “selfi” fotosu çəkir. Digərləri də bir-bir eyni işi görürlər. Axırıncı adam şəkil çəkəndən sonra qızın sinəsinə möhkəm bir təpik vurub onu stuldan aşırır.

Sara udqunub ehtiyatla içəriyə doğru addımladı. Böyük bir bina idi. Girişdəki pilləkən daşdandı, çox enli və qısa

pilləleri vardı, hər iki tərəfdə gül dolu böyük bir dibçək qoyulmuşdu. Bu mənzərə binaya xüsusi görkəm verirdi. Saranın gözləri ondan irəlidə pillələrlə qalxan təxminən otuzyaşlı bir gəncə sataşdı. Gəncin sıx yaraşıqlı saçı vardı, əyninə sürməyi rəngli səliqəli kostyum geymişdi. Vurduğu odekolonun ətri bütün pilləkənə yayılıb insanlara nəvaziş göstərirdi.

Sara onun ardınca pilləkəndən qalxdı, binaya girəndə isə onu görmədi. Dəhlizin divarları qısa ağ saqqalı, şəffaf və aydın gözləri olan arıq qoca bir ruhaninin şəkil və bannerləri ilə dolu idi. Şəkillərin altından yazılmışdı: "Ayətullah Behcət". Bu adı indiyədək eşitməmişdi. Sara yaxınlaşıb şəkillərin önündə dayandı və diqqətlə oxudu: "Biz bu dünyaya bahalı olmağa gəlmişik, nəyin bahasına olursa-olsun yaşamağa yox!" Baxışı ilə cümləni bir neçə dəfə əvvəldən axıra qədər izlədi, hər söz üzərində dayanıb fikrə getdi.

Giriş zalı gözəl və rəngli kreslolarla dolu idi. Bütün stolların üzərində İsfahanın naxışlı qələmkar süfrələri və minalı nazik dibçəklər mühiti xoş və ürəkaçan etmişdi. Kresloların ətrafında bir neçə böyük dibçəkdə norfolk şamı və benjaminənciri düzülmüşdü.

Saranın telefonu zəng çaldı. Onu cins şalvarının cibindən zorla çıxardı. Anası idi. Telefonu qulağına qoydu, bir neçə saniyədən sonra qaşqabaqla və hirsli halda:

- Nə?.. Mən Mişelin əşyalarına əl vurmamışam! Qışqırıq salmaq üçün başqa bəhanə tapa bilmədi?.. Ona de, Sara deyir ki, yalvarsan da murdar əşyalarına əl vurmayacağam. Çox əntiqə əşyaları varmış!.. – dedi, sonra səsini azaltdı, üzünü divara çevirib əlavə etdi: - Ana, mən burda danışa bilmirəm, iki saata evə gələcəyəm.

Telefon əlaqəsini kəsib nəfəsini möhkəm bayıra buraxdı, yaxınlaşıb yenə tablolara baxmağa başladı. Fikri o qədər dağınıq idi ki, pulqabının şalvarının arxa cibindən yerə düşdüyünü bilmədi. Mişel həmişə onu hirsləndirirdi. Onun idman klubu ilə başqa şəhərə ekskursiyaya gedəcəyinə görə sevinirdi.

Sara gözlərini divardakı şəkil və yazılara dikmişdi. Qarşısındakı posterdə qüdrətli bir kişinin siması görünürdü: şiə ruhanilərinin geyimində, başında da qara əmmamə. Onu tanıyırdı, barəsində çox eşitmişdi. Cek Miller deyirdi: "Bu qoca kişi 1979-dan bəri İranı qadınlar üçün böyük həbsxanaya çevirmişdir". Qərara gəlmişdilər ki, yaxın gələcəkdə sayt üçün işləyəcəkləri mövzulardan biri də bu suallara cavab olsun: "Xomeyni məzhəbdən istifadə edərək buna necə nail olmuşdu ki, qadınlar özlərinin kişilərə qul olduqlarını qəbul etsinlər? Bu ideya cəmiyyətin qadınlarına necə sırınmışdı, müsəlman, xüsusən də iranlı qadınların böyük bir hissəsi bununla necə fəxr edə bilirdi? Görəsən, müsəlman qadınlar, həqiqətən, özlərinin qul olduqlarına inanırlar, yoxsa kişilərin qorxusundan özlərini belə göstərirlər? İranlı qadının bu boyunduruqdan xilas olması, kişinin ixtiyarındakı qul vəziyyətindən çıxması, kişinin də ondan istədiyi kimi istifadə edə və onu döyə bilməməsi üçün nə etmək olar?"

Sara bəzi materiallar toplamışdı, amma çıxış yolu göstərmək üçün daha çox araşdırmaya ehtiyacı vardı. Əlbəttə, o, mənbələrində bir sıra ziddiyyətlərlə də rastlaşmışdı.

– Əzizim, bağışlayın...

Bir qadın səsi Saranı düşüncələrindən ayırdı. Üzünü səsə doğru çevirdi. Ortayaşlı, ucaboy, çadralı bir qadın idi,

sakit baxışla, gümrah gözlərlə onun qarşısında dayanmışdı, üzündə təbəssüm vardı. Dini simvollar daşıyan insanlara dair eşitdiklərinə görə ürəyində gizli qorxu vardı, xüsusən də çadralı qadınlar barədə. Heç bir etimad hissi yox idi, amma qadının baxışı o qədər sakit və mehribandı ki, Saranı şübhəyə saldı. Qadının əlinə baxdı, pulqabını görüb bir addım geri çəkildi. Əlini cibinə saldı, bir çantaya, bir də qadının üzünə baxdı. Vüqarlı və sakit idi. Nüfuzlu baxışları və ürəkaçan təbəssümü qeyri-ixtiyari olaraq Saranı sakitləşdirdi. Qadın əlini Saraya tərəf uzadıb dedi:

– Mən Məcidiyəm. Bu, sizin cibinizdən düşdü.

– Mersi, – Sara hələ də bir qədər qorxu və şübhə ilə pulqabını alıb dedi.

– Ehtiyatlı ol, əzizim, – xanım Məcidi söylədi.

Saranın ağzı qıfıllanmışdı, nə deməli olduğunu bilmirdi. Təşəkkür əlaməti olaraq başını bir az əydi. Xanım Məcidi yoluna davam edib zalın sonuna getdi. Sara gözlərini ona dikib qalmışdı. Zalın sonuna qədər baxışları ilə onu izlədi, sonra isə dodaqlarını tərpədib öz-özünə dedi: "Bəs nə üçün terrorçuya bənzəmir?"

Xanım Məcidi zalın sonunda bir qapının önündə dayanıb qapını döydü. Qapı açılınca dönüb Saraya tərəf baxdı. Sara tez üzünü çevirib gözlərini divardakı yazılara dikdi, "Fürsət əldən çıxmadan çarə tapmaq lazımdır" cümləsini təkrarlaya-təkrarlaya zalın sonuna doğru bir neçə iri addım atdı, özündən asılı olmadan: "Bağışlayın, xanım" – dedi, irəliləyə-irəliləyə bədən dili mövzusunu düşündü, mətnlərdə və iclaslarda həmişə təkrarlanan sözləri beynindən keçirdi: "Qapalı və hicablı qadınlar bədən dilindən məhrumdurlar". Qırmızı maykasını düzəldib öz-özünə dedi: "Gərək ondan bir şey soruşum...

məsələn, bədən dili barədə; hansı ki, onda yoxdur, məndə isə var. Ya da... Bu şəkil və yazılar haqda soruşum".

Xanım Məcidi gülərüzlə Saraya doğru bir neçə addım atıb dedi:

– Qulluğunuzdayam.

– Bağışlayın... – Sara özünü itirdi, – soruşmaq istəyirdim ki... Mən bir məqalə yazıram. Bura gəldim ki... düzü, mən bu kişi barədə öyrənmək istəyirəm. Yazılıb ki, Ayətullah Behcətdir. Onun kim olduğunu, düşüncələri və qadına baxışı barədə mənə məlumat verə bilərsiniz?

Xanım Məcidi mehriban baxışla başını razılıq əlaməti kimi yelləyib dedi:

– Əlbəttə. O, böyük şiə alimlərindəndir. Bu mərkəzin direktoru illərlə onun şagirdi olub; cənab Tehrani.

– Doğrudan?! – deyə Sara hiss etdi ki, daha əvvəlki kimi həyəcanlı deyil və hicablı qadından qorxmur. – Mən cənab Tehrani ilə danışa bilərəm?

– Əlbəttə. Bir neçə dəqiqədən sonra cənab doktorun iclası bitəcək. Əgər kifayət qədər vaxtı olsa, mütləq cavab verəcək. Əlbəttə, başqa bir zamana da görüş ala bilərsiniz.

***

Sara gözləmə otağında oturmuşdu. Həyəcan, fikir və qarışıq xəyallar ondan əl çəkmirdi. Bir neçə dəfə qərara gəldi ki, Tehrani ilə görüşdən və məqaləsi üçün mənbə almaqdan vaz keçsin, lakin birtəhər səbir edib oturdu. Daim dodaqaltı öz-özünə deyirdi: "Qorxmağa dəyməz! Mən həqiqəti öyrənmək istəyirəm. Gərək yeni və yaxşı bir məqalə yazım. Bunlar bir tərəfdən İŞİD düşüncəsi ixrac edirlər, bir tərəfdən də adamlara cənnət və xoşbəxt həyat nüsxəsi yazırlar. Gör özlərini necə qəşəng sözlər, qadın hüquqlarını və məzlum insanları müdafiə şüarları altında

gizlədirlər! Bəlkə də... bilmirəm. Burda nəsə bir tərslik var... Gərək ətrafımda nələr olduğunu görüm".

Bu fikirlərdə ikən otağın qapısı açıldı, yaraşıqlı geyinmiş və əlində dəri çanta olan bir gənc bayıra çıxdı. Gənc bir neçə saniyə Sara ilə göz-gözə gəldi, sonra başını aşağı saldı. Onun ardınca şəkildəki ruhani kimi geyinmiş gülərüz bir kişi otaqdan çıxdı. Gənc üzünü ruhaniyə tutub dedi:

– Təşəkkür edirəm, cənab doktor. Yenə sizə əziyyət verəcəyəm.

– Rica edirəm, Fərhad can, – Tehrani dedi. – Seminarlarda səni gözləyəcəyəm.

Gənc təsdiq və hörmət əlaməti olaraq başını əyib dedi:

– Mütləq! Görüşənədək!

Sara Fərhadın cənab Tehrani ilə söhbətinə diqqət kəsilmişdi. Düşünüb təxmin etmək istəyirdi ki, bu yaraşıqlı və mədəni gəncin İslam mərkəzinin direktoru ilə nə işi ola bilər.

Cənab Tehrani üzünü Saraya tutub dedi:

– Qulluğunuzdayam. Buyurun.

Gözlərini qapıdan bayıra çıxan Fərhada dikmiş Sara cənab Tehraninin sözlərindən sonra özünə gəlib dedi:

– Ee... bəli... Mən... mənim sualım vardı. Sizinlə danışmaq istəyirdim.

Cənab Tehrani otağı göstərib hörmətlə onu içəri dəvət etdi. Sara bir qədər qorxu və tərəddüdlə otağa girdi.

Xanım Məcidi də qapını döyəndən sonra içəri girib bir qədər qovluq və kitabla Tehraniyə yaxınlaşdı, onları stolun üstünə qoydu. Stolunun üzərindəki kağız və kitabları səliqəyə salan Tehrani onun girişi ilə işini saxladı, hörmətlə ayağa qalxıb ona təşəkkür etdi və dedi:

– Xanım doktor, sizə çox əziyyət verdik. İnşallah, Allah-taalanın və İmam Mehdinin köməyi ilə seminarlardan da yaxşı nəticə alaq və siz İrana əlidolu qayıdasınız.

Sara, xanım Məcidinin üzünə daha diqqətlə baxdı, onun şəxsiyyəti Saranı daha çox cəlb elədi. Xanım Məcidi qarşılıqlı olaraq cənab Tehraniyə təşəkkür etdi və dərhal üzünü Saraya tutub:

– Mən sizin vaxtınızı almayım. Buyurun, əzizim, – dedi və sağollaşıb otaqdan çıxdı.

Sara cənab Tehraniyə baxıb dedi:

– Mən qadın hüquqları aktivistiyəm. Universitetdə hüquq oxumuşam, amma fəaliyyətlərim öz ixtisasımla məhdudlaşmır. Qadın haqları sahəsində çalışıram, son zamanlar müsəlman ölkələrindəki qadınların vəziyyətini araşdırıram.

– Uğurlu olsun! Sizə necə kömək edə bilərik? – doktor Tehrani dedi.

– Düzü... sizin insan hüquqlarına, xüsusən də qadın haqlarına baxışınız çox tənqid olunur. Mən... burda... dəhlizdə bir yazı gördüm, maraqlı gəldi. Məncə, dərin mənası vardı və bunu deyən adam... cənab...

– Ayətullah Behcət?

– Bəli... Behcət, – deyə Sara əli ilə saçını toplayıb qulağının arxasına yığdı, başını bir neçə dəfə təsdiq əlaməti kimi yelləyib əlavə etdi: – Araşdırma mövzum barədə suallarım var. İstəyirəm ki, mənə bu barədə materiallar verəsiniz, suallarımın cavabını deyəsiniz; təəssübsüz və səmimi şəkildə. Mən elmi iş görürəm... Doğrusu, mənim beynimdə bəzi məsələlər var, bir-birinə uyğun gəlmir. Qadın araşdırmaları sahəsində çox şey

oxumuşam, amma istəyirəm ki, araşdırmam üçün sizdən orijinal mənbələr alım.

– Afərin! – Tehrani təbəssümlə dedi. – Əvvəlcə deməliyəm ki, siz farsca çox yaxşı danışırsınız. Bu qərarınız barədə də deyim ki, yaxşı nəticə alacaqsınız, şübhə etməyin. Mənim əlimdən nə kömək gəlirsə, edəcəyəm. Çünki həqiqəti əldə etmək niyyəti ilə araşdırmadan söhbət gedirsə, media filtirlərindən keçən, arxasında siyasi məqsədlər və bəzi təbəqələrin maraqları dayanan neçənci əl mənbələr, şübhəsiz, insanı yanlış yola aparar. İndiyədək araşdırmalarınız qadınlar mövzusunda hansı sahələrdə olub?

Ehtiyatla danışmağa çalışan Sara beynində Əfsanənin qeyd və yazılarını sıraladı, çox da məntiqi ardıcıllıqla olmasa da, onları bir-bir söylədi. Hələ də onda qorxu və etimadsızlıq hissi vardı. Söhbət əsnasında "BBC" və "International" kanallarında müsəlman kişilərin gənc qızlara və həyat yoldaşlarına qarşı şiddəti barədə oxuduğu materialları yadına salır, səs tonu və üzünün forması əsəbi görkəm alırdı. Baxışı fokuslu olmasa da, özünü sərbəst göstərməyə çalışırdı. Lakin birdən söhbətin mövzusunu dəyişdirib dedi:

– Axı qadın nə üçün sizin baxışınızda bu qədər dəyərsizdir?

Tam sükut içində Saranın sözlərini dinləyən cənab Tehrani sakitcə dedi:

– Mən bilmirəm siz nə eşitmisiniz və ya oxumusunuz. Lakin gəlin cavabınıza belə başlayım: Siz hüquq oxumusunuz. İslamda hüquq bir neçə qisimdir: insanın özünə qarşı haqları; yəni heç kimin öz bədəninə xəsarət yetirmək haqqı yoxdur. Habelə hər bir bədən üzvünün insan üzərindəki haqqı, insanların bir-birinə qarşı haqları,

valideynlərin övladlar və ya övladların valideynlər üzərində haqları, yaxud ailədə cütlüyün bir-birinə qarşı haqları. Sizin sualınız qadın hüquqları barəsindədir. Bu, İslamda olduqca önəmlidir və geniş mövzudur. Başqa bir məsələ təbiətin və yaşayış mühitinin haqqıdır. İslamda hətta heyvanların da haqqı var. Bizim din böyüklərimizdən biri deyir ki, bir yerdən başqa bir yerə aparmaq üçün heyvana ot göstərib yerini dəyişdirmək, sonra isə otu ona verməmək olmaz.

Sara bir qədər qaşlarını qaldırdı, heyvan haqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını xatırlayıb öz-özünə düşündü: "Maraqlıdır! Mən belə bir şey oxumamışdım. Eşitməmişəm ki, insan hüquqlarını müdafiə edən təşkilatların hansısa heyvanlara belə bir haqq tanısın. Yadımda olsun, bu barədə axtarış edim".

Doktor Tehrani sözünə davam edib:

– Bizim birinci imamımız həzrət Əlinin Malik Əjdərə yazdığı məktubdan ibarət hökumət xartiyasını mütləq oxuyun", – dedi, sonra stolunun sağ tərəfinə əyildi, bir kitab çıxarıb stolun üstünə qoydu. Sara qalxıb kitabı götürdü, yenə yerində oturdu. Kitabın üstünə yazılmışdı: Nəhcül-bəlağə.

***

Doktor Tehraninin Sara ilə söhbəti iki saat uzandı. Sara fikrə getmiş, indiyədək eşitmədiyi məlumatlarla üz-üzə qalmışdı. Tehrani divar saatına baxanda Sara çox vaxt keçdiyini başa düşüb dedi:

– Mənim araşdırmam üçün faydalı kitab və ya məqalə varsa, deyə, yaxud mümkünsə, əmanət verə bilərsiniz?

– Hələlik müxtəlif mövzularda bir neçə kitab var, sizə əmanət verərəm. "İslamda qadın hüquqları" kitabını oxusanız, yaxşıdır. Əlbəttə, bizim qadın hüquqlarına dair

silsiləvi seminarlarımız da olur. O seminarlarda çox məlumat toplaya bilərsiniz. Əgər istəsəniz, iştirak edin.

Sara ayağa qalxıb dedi:

– Mənə vaxt ayırdığınız üçün təşəkkür edirəm. Bu kitablar nə vaxta qədər məndə qala bilər?

– Seminarların birinə gələndə gətirsəniz, məmnun olaram, – Tehrani ayağa qalxıb təbəssümlə dedi. – Amma sizə bir hədiyyəmiz də var.

O, arxasındakı divarın hamısını tutmuş kitab şkafına yaxınlaşdı, bir kitabı çıxarıb dedi:

– Bu, xüsusi hədiyyədir və şübhə eləmirəm ki, xoşunuza gələcək.

Sara kitabı alıb üstünə baxdı: Səhifeyi-Səccadiyyə idi.

***

Bazar günü səhər çağı Sara mobil telefonunun zənginə oyandı. Şişmiş gözlərini çətinliklə açdı. Gecənin sonlarına qədər "İslamda qadın hüquqları" kitabını oxumuş, elə də yuxuya getmişdi. Gözləri açılmırdı. Kirpiklərini birtəhər aralayıb telefonunu axtarmağa başladı. Telefon çarpayının altına düşmüşdü. Çarpayıdan yerə sürüşüb onu götürdü. Telefonun səhifəsində Maşanın gülər şəkli görünürdü. Gözlərini əli ilə ovuşdurdu, divar saatına baxdı, telefona cavab verib dedi:

– Nə olub? Sübh saat altının yarısıdır!

– Yatmışdın? – Maşa cavab verdi. – Sara, gecə bir yuxu görmüşəm.

Sara çarpayıya söykənib ayaqlarını uzatdı:

– Ax, dəli! Mən də dedim ki, görəsən nə olub. Yaxşı, nə görmüsən? – dedi.

– Yuxuda gördüm ki, səninlə mən ulduz dolu böyük bir bağda keşikçiyik. Ancaq vəhşi və çirkin adamlar bağa hücum edirlər, bizi çarmıxa çəkmək istəyirlər. Onların biri

dedi ki, gərək diri-diri basdıraq. Bir çala qazdılar, bizi içinə atmaq istəyəndə...

– Maşa, boş ver! Allah bilir, şama nə yemisən.

– Yox, yüngül yemişdim. Amma qorxudan bağrım yarılırdı...

– Boş şeydir, Maşa, – Sara hövsələsiz cavab verdi. – Sən çox vaxt belə yuxular görürsən. Yüz dəfə demişəm ki, bu qədər tələsik yemə.

– Sara... mən yaxşı deyiləm. Gəl, piyada gəzməyə çıxaq.

– Maşa, mən cəmi iki saat yatmışam. Saat 8-də İslam mərkəzində...

– Sara, xahiş edirəm... – Maşa yalvarışla onun sözünü kəsdi.

– Qardaşım evdə yoxdur; gəl bura, sonra da birlikdə mərkəzə gedərik.

– İslam mərkəzinə?! – Maşa qışqırdı. – Mənim başım qaçıb?! Deyirəm ki, halım pisdir!

– Tənbəl və yuxulu qız, – Sara dedi. – Mən qəhvə aparatını qoşuram, sən gələnə qədər bir az da mürgüləyəcəyəm. Sadə geyinərsən. Telefonuma zəng vurarsan, qapını açaram.

***

Sara ilə Maşa saat 8-ə bir neçə dəqiqə qalmış İslam mərkəzinin önündə idilər. Maşa dedi:

– İşin çox çəkər? Mən burda gəzişirəm, sən get, gəl.

– Nə qədər deyingən olmusan! – Sara dedi. – Gəl, söz verirəm ki, yorulmayacaqsan.

Sara Maşanın əlindən tutub dartdı. Hər ikisi mərkəzə girdi. Sara birbaş sədrin kabinetinə tərəf getdi.

İcazə alandan sonra Tehraninin otağına girib oturdular. Doktor Tehrani həmişəki kimi onları gülərüzlə qarşıladı.

Sara danışmağa başladı:

– Cənab doktor. Sizin ogünkü sözləriniz və verdiyiniz kitablar beynimi çox məşğul edib. İndi suallarım daha çoxdur.

– Yarım saatdan sonra sizə dediyim seminarların birincisi başlayır, – doktor Tehrani dedi, – mən getməliyəm. Əgər seminarda iştirak etsəniz, əminəm ki, hələlik cavablarınız üçün başqa birinə ehtiyacınız olmayacaq. İştirak etməsəniz, gərək gözləyəsiniz ki, seminardan sonra boş vaxt tapanda danışaq.

Sara ilə Maşa razılıqlarını bildirib otaqdan çıxdılar. Saranın telefonu zəng çaldı.

– Alo! Əfsanə! – Sara dedi.

– Salam, – Əfsanə cavab verdi. – Mümkünsə, Vatsapa bax, növbəti məqaləni də yazdım. Adı belədir: "Cəmiyyətdə əhvali-ruhiyyəni yüksəltmək üçün gecə qonaqlıqlarının və rəqslərin təsiri". Azad qadın-kişi münasibətləri barədə də yazmışam. Gör “İşrətkədə” saytı üçün yarayar, yoxsa yox.

– İndi başqa yerdəyəm. Vaxt tapan kimi mütləq baxacağam.

– Sara... mənim iqamət vaxtım bitir. İstəyirəm mediaya çıxım ki...

– Narahat olma, həll edəcəyəm. Hələlik.

***

Sara ilə Maşa toplantı zalına girdilər. Zalın oturacaqları az-çox dolmuşdu, amma hər cərgədə boş yerlər də görünürdü. Onlar ikinci cərgədə yaşıl oturacaqlarda oturub gözlərini səhnəyə dikərək aparıcını və spikeri gözləməyə başladılar.

Seminar Quran oxunuşu ilə başladı. Sonra doktor Tehrani tribunaya keçdi, qonaqlara xoşgəldin deyəndən və

təşəkkür edəndən sonra cəmiyyətdə qadının rolunun əhəmiyyəti və qarşıdakı silsiləvi seminarlar barədə məlumat verdi. O, sözünün davamında bildirdi:

– Bir neçə seminarda söylənəcək məsələlər qadın araşdırmaları sahəsində tədqiqatçı alim xanım doktor Məcidinin illərlə araşdırmalarının nəticəsidir. Çıxış üçün onu səhnəyə dəvət edirəm.

Doktor Məcidi birinci cərgənin ortasından qalxıb səhnəyə çıxdı. Sara çox diqqətlə onun hərəkətlərini süzürdü. Uzun geyim kimi bütün bədənini örtmüş çadrası Saranın diqqətini ilk gündən daha artıq cəlb elədi. Sara çalışırdı ki, doktor Məcidi və onun rəftarı dəqiq mikroskopundan bir an da kənarda qalmasın.

Natiq girişdən sonra əsas mövzuya başladı:

– Bir neçə seminarda qadın araşdırmalarına dair bəzi məsələləri hörmətli iştirakçıların diqqətinə çatdırmaq istəyirəm. Əzizlərdən yeganə istəyim bu seminarda fəal iştirak etməkdir. Harada qaranlıq məqam yaransa, desəniz, sevinərəm. Beləliklə, müzakirə baş tutar və çıxış birtərəfli olmaz. Habelə Höccətül-İslam cənab doktor Tehraniyə tövsiyələrinə görə təşəkkür etmək istəyirəm. Əgər onun dəqiq və elmi fikirləri olmasaydı, mənim səylərim, şübhəsiz, nəticəyə çatmazdı.

Hörmətli iştirakçılar müxtəlif xalq, məzhəb və inanclara mənsub olsalar da, xahiş edirəm ki, deyilənlərə milli, məzhəbi və irqi təəssübkeşlikdən kənar şəkildə, insafla və tənqidlə yanaşsınlar.

Sara bütün zala nəzər saldı. Təxminən hər yer dolmuşdu.

Doktor sözünə davam etdi:

– Bizim söhbətlərimizin çox əhəmiyyətli bir müqəddiməsi var. Bunu düzgün dərk etsək, hətta növbəti məsələlərə çox da ehtiyac qalmaz.

Tarix boyu qadın barədə çox fərqli baxış, fikir və davranışlar olmuşdur. Hər bir millət, məktəb, məzhəb və ideologiya qadın haqda xüsusi nəzəriyyələr irəli sürmüşdür. Bunların hamısını iki ümumi baxışda xülasə edə bilərik: müsbət və ağ, mənfi və qara baxış.

Əvvəlcə qara baxışdan başlamaq istəyirəm. Burada qadına qarşı təhqirlər olduğuna görə öncədən bütün iştirakçılardan, xüsusən də əziz qadınlardan üzr istəyirəm. Mən iranlı olduğuma görə birinci öz ölkəmdən başlayıram. Almaniyalı şərqşünas doktor Kristin Bartelme yazır: "Təxminən 1500 il öncə Sasani imperiyasında qadın hüquqlu bir şəxs sayılmırdı, ona əşya kimi baxılırdı".[1]

İslamdan öncə Ərəbistan yarımadasında qızları diri-diri basdırırdılar. Qeys ibn Asim adlı bir nəfər öz əhvalatını belə danışır:

"Bütün qızlarımı basdırdım, məndə azacıq təəssüf hissi də yaranmadı. Ancaq bir dəfə arvadımın doğuş zamanına az qalmış səfərə çıxdım. Mən qayıdandan sonra uşağımı görmək istədim. Arvadım dedi ki, uşaq ölü doğuldu. Əslində isə qız doğmuş və mənim qorxumdan bacılarına vermişdi. İllər ötdü, qızın yeniyetmə çağı gəldi. Hələ ondan xəbərim yox idi. Bir gün oturmuşdum. Gözəl bir qız evə girib anasını soruşdu. Saçını hörmüş, boynundan boyunbağı asmışdı. Arvadımdan soruşdum ki, bu gözəl qız kimdir? O, gözləri yaşarmış halda dedi ki, sənin qızındır; sən səfərdə olanda dünyaya gəldi və qorxundan gizlətdim.

---

[1] Keşvəri, Əmin, Nə üçün hicab?, s. 133.

Mən dinmədim, o da elə bildi ki, onunla işim olmayacaq. Bir gün arvadım arxayın şəkildə evdən gedəndən sonra qızımın əlindən tutub uzaq bir yerə apardım və çala qazmağa başladım. Qızım tez-tez soruşurdu: "Buranı niyə qazırsan?" Qazandan sonra qolundan tutub onu çalaya atdım, torpağı üz-başına tökdüm, ürək yandıran fəryadlarına da qulaq asmadım. O, yalvara-yalvara deyirdi: "Ata can, bu nə işdir?! Məni basdırırsan?!" Mənsə məhəl qoymadım və o, torpağın altında qaldı. Yalnız bu zaman ürəyim yandı".[1]

Sara ilə Maşa seminarda iştirak edən digər adamlar kimi gözlərini də qırpmadan qulaq asırdılar. Hamının üzündə kədər və narahatlıq hissi görünürdü. Doktor Məcidi qısa pauzadan sonra sözünə davam etdi:

– Qurani-kərim cahil ərəblərin bu çirkin adəti barədə buyurur: "Onlardan birinə qızı olduğunu müjdə verdikdə qəzəblənər, üzü qapqara qaralar. Verilən müjdənin pisliyi üzündən tayfasından qaçıb gizlənər. Görəsən, onu (o körpəni) zillət içində saxlayacaq, yoxsa torpağa göməcək?"[2]

Ərəblər İslamdan öncə qadını əşya kimi alıb-satırdılar, o, ictimai və fərdi haqlarından, hətta irsdən də məhrum idi. Kobudcasına olsa da, deməliyəm ki, ərəb aydınları qadını heyvanlar sırasında qeyd edirdilər.[3]

Çində də belə idi. Bir qız doğulanda qohumlar uşağın atasına və ailəsinə çox təəssüflə başsağlığı verirdilər; çünki doğulmuş uşağın qız olmasını əcdadlarının qəzəbi hesab edirdilər. İnsanlar bu dönəmdə əksərən qızı

---

[1] Sübhani, Cəfər, İslam peyğəmbərinin həyatı, s. 17-18.
[2] Nəhl, 58-59.
[3] Sübhani, Cəfər, Əbədiyyət günəşi, c. 1, s. 50.

özlərindən uzaqlaşdırır, səhraya atır, ya da qul kimi satırdılar.[1]

Möhtərəm xanımlar və cənablar! Çox təəssüflü olsa da, bu məlumatları söyləməkdən başqa yolum yoxdur. Qədim Yunan barədə belə yazırlar: "Qadın qul kimi satılırdı, müstəqil şəkildə mülkiyyət, münasibət, hətta həyat haqqı da yox idi. Ata və ya ər qadını sata, borc və ya kirayəyə verə, ya da öldürə bilərdi!"[2]

Platon "Respublika" kitabında qadının varlığını yalnız kişiyə xidmət üçün əlavə bir şey kimi göstərir.[3] Qadın barədə deyirdilər: "Qadın uzun saçlı və dayaz düşüncəli bir heyvandır!"[4]

Avstraliyada qadınlar ev heyvanları kimi idilər; səfər zamanı ev əşyalarını və uşaqları daşıyırdılar. Aclıq olanda isə qadınları öldürüb ətlərini yeyirdilər.[5]

Sara ayaqlarını yavaşca tərpədirdi, əlinin içi tərləmişdi. Qadınlara qarşı bütün bu təhqirləri eşitmək ona ağır gəlirdi.

Doktor Məcidi masanın üzərindəki qeyd vərəqlərindən birini götürüb sözünə davam etdi:

- "Sivilizasiyalar tarixi" kitabının müəllifi Vill Dürant yazır:

"Eramızdan əvvəl doqquzuncu və səkkizinci əsrlərdə brahmanlar bir ayin yaratdılar. Bu ayinə görə, insanın əzab-əziyyətlərdən yeganə xilas yolu ləzzətlərdən qaçmaq və tərki-dünyalıq idi. Onlardan illər sonra Budda sevinci

---

[1] Keşvəri, Nə üçün hicab?, s. 134.

[2] İslam Elmləri Strateji Araşdırmalar Mərkəzi, "Hicaba başqa bir baxış" təlimi, s. 46.

[3] Rəcəbi, Abbas, Hicab və onun psixoloji sağlamlıqda rolu, s. 16.

[4] Keşvəri, Nə üçün hicab?, s. 123.

[5] Yenə orada, s. 105.

puç və dünyanı başdan-ayağa əzab hesab edən bir dinin əsasını qoydu. Buddaya görə, həyatda ən böyük şər cinsi meyildir. Bu sapqın düşüncələr həzrət İsadan sonra məsihilikdə inkişaf etdi, keşişlər ailədən üz çevirdilər. Çünki ailə qurmaq cəhənnəmə düşmək üçün şeytan tələsi hesab olunurdu. İzdivaca nifrət get-gedə qadına nifrətə çevrildi, qadın şər və günah mənbəyi, bəla və müsibət səbəbi kimi təqdim olundu, qadına sevgi və onunla münasibət süqut və tənəzzül səbəbi sayıldı. İş o yerə çatdı ki, qadına qarşı bu fikirlər elmi şəkil aldı, məsihi keşişlər öz mədrəsələrində uzun müddət bu mövzularda araşdırmalar apardılar: Qadın kişi kimi Allaha ibadət edə bilər, yoxsa yox? Qadın cənnətə gedə bilər, yoxsa yox? Qadın insandırmı, insan ruhuna malikdirmi? Qadın əbədi ola bilərmi, yoxsa fani və maddi bir varlıqdır, mücərrəd ruhu yoxdur?[1]

Möhtərəm xanımlar və cənablar! Bir xurafat bəzən küçədə söylənir, bəzənsə elmi şəkil alır. Bunlar bir-birindən çox fərqlidir. Çoxlu mübahisə və müzakirələrdən sonra "İtaliya və İspaniyanın məsihi dairələri bu nəticəyə gəldilər ki, qadınlar arasında yalnız həzrət Məryəm insan olub əbədi ruha malikdir, digər qadınlar insanlıq xüsusiyyətinə malik olmadıqlarına görə ruhları əbədi deyil, insanla heyvan arasında bir varlıq sayılırlar!"[2]

Bu sözün mənası və nəticələri, bəlkə də, asanlıqla dərk olunmaz. Bu düşüncə tərzi o qədər irəlilədi ki, hətta müqəddəs kitabları oxumağı məsihi qadınlara haram etdilər.[3] Təəssüf ki, qadına baxış elə oldu ki, Avropa insanları Orta əsrlərdə qadının ümumi yerlərdə naz-

---

[1] İslam Elmləri Strateji Araşdırmalar Mərkəzi, s. 48.
[2] Keşvəri, Nə üçün hicab?, s. 105.
[3] Xerədməndi, Məhəmmədəli, Hicab diskursu, s. 13.

qəmzəsini sehr və cadu bilirdilər. Bir kişi yuxuda hansısa qadını görsəydi, oyanandan sonra məhkəməyə şikayət edirdi, hakim də o qadını kişiləri yoldan çıxarmağa çalışan cadugər kimi döymək, yaralamaq, saçlarını yandırmaq və bəzi bədən üzvlərini kəsmək kimi ağır cəzalara məhkum edirdi.[1]

Kilsə qadına qarşı bu şəxsiyyət terrorunun cavabını aldı. Bəzi keşişlər yollarını azdılar, homoseksualizmə üz tutdular. Bu barədə xəbərlər bütün dünyaya yayılanda isə kilsə böyükləri öz azğınlıqlarını etiraf edərək dedilər: "Həmcinsbazlıq kiçik günahdır, izdivac isə böyük günah!"[2]

Zalın kənarında oturmuş təxminən otuzyaşlı bir xanım əlini qaldırdı. Doktor Məcidi onu görən kimi öz qeydini stolun üstünə qoyub söhbətini saxladı və dedi:

– Buyurun.

– Siz Platondan bir söz dediniz. Buna inanmaq çətindir, – gənc qadın dedi. – Bu barədə daha ətraflı danışa bilərsiniz?

– Təəssüf ki, Əflatun kimi bəzi məşhur insanlar böyük səhvlər etmişlər. Jan Jak Russo özünün "İctimai müqavilə" adlı kitabında yazır: "Qadın nə elm və hikmət üçün yaradılıb, nə düşüncə, nə də texnika üçün".[3] Qadının, hətta insanın bir çox bədbəxtliyinə səbəb olan nəzəriyyələrin müəllifi, avstriyalı məşhur psixoloq Freyd deyir: "Qadının bədbəxtliyi və zavallılığı bir oğlan uşağı dünyaya gətirəndə təskinlik tapır".[4]

---

[1] Keşvəri, Əmin, Gözəllik standartı, s. 69.

[2] Şücai, Məhəmməd, Mirvari və sədəf, s. 38.

[3] İslam Elmləri Strateji Araşdırmalar Mərkəzi, s. 47.

[4] İslamlu, Nəimə, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 8.

Məsihdən təxminən 400 il öncə yaşamış böyük yunan filosofu Aristoteldən belə nəql olunmuşdur: "Qadın təbiətin xətası olan nakam kişidən başqa bir şey deyil! O, yaranış nöqsanının nəticəsidir!"[1] Yunan alimi Pifaqor Məsihdən altı əsr öncə deyirdi: "Yaranışda "yaxşı bir qayda" olmuş, nizam-intizamı, işığı və kişini yaratmışdır. "Pis bir qayda" isə iğtişaşı, bədbəxtliyi və qadını yaratmışdır".[2] Platonun başqa bir cümləsi də var: "Allahlara şükür etməyə səbəb olan yaxşı işlərin birincisi məni qul deyil, azad, ikincisi isə qadın deyil, kişi yaratmalarıdır!"[3]

Böyük alman filosofu Nitsşe isə on doqquzuncu əsrdə deyirdi: "Qadın dostluğa qadir deyil. Qadınlar pişik, quş və ən yaxşı halda inək kimi qalırlar. Qadının yanına gedəndə qamçını unutma!"[4]

Sara diqqətlə dinləyirdi. Deyilənlər ona yeni idi. İştirakçılar arasından biri ucadan dedi:

– Bizim alimlərimiz də qəribə sözlər söyləyiblər! Biz eşitməmişdik!

Bir neçə nəfər gülüşüb pıçıltıya başladı. Sara arxadan bir kişinin səsini eşitdi:

– Bağışlayın, xanım doktor...

Sara geri döndü. Fərhad idi, mərkəzə ilk gəldiyində gördüyü, doktor Tehraninin kabinetində göz-gözə gəldiyi cavan oğlan. O, sözünə davam etdi:

– Bildirmək istəyirəm ki, sizin bütün mənbələrinizi sayta yerləşdirəcək və elektron nüsxə olduğu təqdirdə yükləmə linki də qoyacağıq. Dostlar bundan ötrü narahat

---

[1] Yenə orada, s. 7.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada, s. 8.

olmasınlar. Əgər mənbələrə ehtiyacları olsa, tezliklə mərkəzin saytından götürərlər.

Doktor Məcidi dedi:

– Təşəkkür edirəm, cənab Fazili. Bəli, qərara alınıb ki, hər seminardan sonra çıxışın stenoqramı yazılsın və söylənən sitatlar da dəqiq mənbə ilə birlikdə qeyd olunsun. Onda mövzumuza qayıdaq:

Bəli, təəssüf ki, sapqın və çirkin inanclar yavaş-yavaş cəmiyyətin ümumi mədəniyyətinə çevrildi, qadını aşağılamaq üçün məsəllər qoşuldu. Misal üçün, ingilislər deyirdilər: "Arvad alan kişi meymun bəsləyən adam kimidir; Qadınlar şeytan tələsidirlər". Almanlar arasında isə belə bir məsəl formalaşdı: "Qadın mələk görünüşlü, ilan ürəkli və eşşək şüurludur". İtaliyada belə məşhurlaşmışdı: "Qadın və eşşək üçün güclü qol lazımdır". Yunanıstanda da bu cümlə dillər əzbəri olmuşdu: "Üç şər vardır: od, fırtına və qadın". Norveçlilər isə belə deyirdilər: "Şeytan qadının tozuna da çatmaz!"[1]

Maşa başını Saraya yaxınlaşdırıb yavaşca və istehza ilə dedi:

– Yadında olsun, bu məsəllər barədə danışaq.

Doktor Məcidi sözünə davam etdi:

– Xanımlar və cənablar! Bunlar müasir dövrdə qadına qarşı daha böyük zülmə zəmin yaradan böyük zülmün bir hissəsidir. Bəli, daha böyük zülmə zəmin yaradan! Bizdə belə bir məsəl var: "Qaradan o yana rəng yoxdur". Ancaq təəssüflə deməliyəm ki, qadın üçün keçmişin qaranlıqlarından da o yana rəng varmış və o, müasir dövrdə qadın şəxsiyyətinin tapdanması və bataqlığa salınmasıdır.

---

[1] Yenə orada, s. 9.

Seminarda Maşadan başqa, Saranın düşüncə tərzi, insan haqlarına dair fəaliyyətləri və feminist baxışları, habelə onun Dövlət Departamentinə bağlı müəssisə ilə əməkdaşlığı barədə məlumatlı olan bir neçə universitet tələbəsi və iki universitet müəllimi də iştirak edirdi. Onlar Saranı təəccüblə bir-birinə göstərib pıçıldaşırdılar. Saranın daxili və düşüncə vəziyyəti yeni eşitdiyi məlumatlarla birgə onu qədəm qoyduğu yolda ciddi şəkildə irəliləməyə sövq edirdi. O, doktor Məcidinin qadının əvvəldən bu günə qədər keçdiyi bədbəxt taleyindən bəhs edən sözləri barədə düşünürdü. Get-gedə onun şəxsiyyətindən və araşdırdığı mövzuya tam əhatəsindən xoşu gəlirdi. O fikirləşdi ki, sonradan dostları ilə aparacağı müzakirələrdə qarşıya suallar çıxa bilər. Bütün belə ehtimali sualların cavabını öyrənmək istəyirdi. Əlini qaldırıb dedi:

– Bağışlayın, xanım doktor... Məlumdur ki, keçmiş alimlərin fikir və nəzəriyyələrini toplamaq üçün çox zəhmət çəkmisiniz. Ancaq düşünmürsünüz ki, sizin dinləyiciniz məyus ola bilər? Qadının rahat və ürəkaçan bir həyatına ümid varmı? Ümumiyyətlə, qadın nə üçün yaranmışdır?

Doktor Məcidi dedi:

– Xanımlar onlara olunan zülmün böyüklüyünü anlamayınca bu zülmə qarşı ciddi bir addım ata bilməyəcək və həmişə başıqapazlı qalacaqlar. Təsadüfən, bu sözlərin içində elə bir işıq var ki, əgər yansa, bu zülmün kökünü yandırar və qadın dünya həyatının həqiqi ləzzətini dadar. Cavab üçün bir qədər səbirli olun. Zalın məsul şəxslərindən xahiş edirəm qısa müddətə bütün işıqları söndürsünlər.

Bütün zal qaranlığa qərq oldu, hamı mat-məəttəl ətrafa baxdı.

Doktor Məcidi sözünə davam etdi:

– Qaranlığı hiss edəndə işığın dəyərini anlayırıq. Əks-təqdirdə, sudakı balıq kimi suyun dəyərini və əhəmiyyətini dərk etməyəcəyik. Əgər qadın mənfi baxışın çirkinliyini və qaralığını bilsə, müsbət və ağ baxışın əhəmiyyətini daha yaxşı anlayacaq, cazibəli görünən, amma qara baxışı təbliğ edən puç söz və fikirlərə aldanmayacaq. İndi, zəhmət olmasa, işıqları yandırın.

İşıqlar bir-bir yandı. Hamının gözü işığa alışana qədər bir qədər çəkdi. Doktor Məcidi qısa fasilədən sonra sözünə davam etdi:

– Bəs daha böyük zülm haradan başlandı? İyirminci əsrin əvvəllərinə qədər həmin vəziyyət davam edirdi, qadına heç bir haqq tanınmırdı, o ki qala bütün qadın hüquqlarına. Vill Dürant yazır: "İyirminci əsrin əvvəllərinə qədər qadın çətinliklə elə bir haqqa sahib olurdu ki, kişi qanuna görə ona hörmətlə yanaşmağa məcbur olsun".[1] Nə mülkiyyət hüququ, nə təhsil hüququ, nə səsvermə hüququ, nə də başqa bir hüquq vardı. Qadınların Qərbdə mülkiyyət hüququ barədə belə məlumat verilmişdir: "İngiltərəli qadınlar 1870-ci, alman qadınları 1900-cü, İsveçrə qadınları 1907-ci, italyan qadınlar isə 1919-cu ilə qədər mülkiyyət hüququna sahib deyildilər".[2]

General de Qoll Fransada bir qanun qəbul etdirdi. Bu qanuna görə, qadın müəyyən həddə öz əmlakının sahibi sayılırdı, ancaq hələ də ərinin imzası olmadan maliyyə müstəqilliyi yox idi. Habelə insanın ibtidai və təbii haqlarından olan təhsil haqqı barədə deyə bilərəm ki,

---

[1] Yenə orada, s. 20.

[2] Xerədməndi, Məhəmmədəli, Hicab diskursu, s. 16.

Rusiyada 1917-ci il Böyük Oktyabr İnqilabına qədər qızlar ibtidai təhsildən məhrum idilər.[1]

Qərb ölkələrinin jurnallarının birində qoca bir qadın şəkli çap olunmuşdu. O, 1917-ci ildə ali təhsilin doktorantura pilləsini başa vurmuş, amma İngiltərə universitetləri ona diplom verməmişdilər. Bu hal İngiltərədə 1947-ci ilə qədər davam etmişdi.[2] Məşhur ingilis sosioloqu Antoni Gidenz səsvermə hüququ barədə deyir: "Qadınların səsvermə haqqını rəsmən tanıyan ilk ölkə 1893-cü ildə Yeni Zelandiya oldu. Ondan sonra Avstraliya 1902, Finlandiya 1906, ABŞ 1920, İngiltərə isə 1928-ci ildə qadınlara səsvermə hüququ verdi".[3]

Qadına qarşı bu təhqir və hüquqsuzluq hər yerdə mövcud olmuşdur. Bəlkə də, təxminən 30 il öncə çəkilmiş filmlər əziz iştirakçıların bir çoxunun yadındadır. Bu filmlərdə xanımlar kişilərə "ağam" deyirdi... amma birdən-birə vərəq çevrildi...

Doktor Məcidi zalın divarındakı saata, sonra da aparıcı xanıma baxdı. Aparıcı başını yelləyib mikrofonunu işə saldı. Doktor Məcidi dedi:

– Seminarın hörmətli aparıcısı xanım Həkiminin işarəsi göstərir ki, mənim vaxtım bitib. Müzakirəmizin qalanı ikinci hissəyə qalsın. Sözü olan varsa, yaxınlaşa bilər. Sağ olun.

Xanım Həkimi dedi:

– Xanım doktor Məcidiyə təşəkkür edirik. Yan salonda hörmətli iştirakçılar üçün on beş dəqiqə müddətinə çay

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 21.

[2] Qüddusizadə, Həsən, Zərif məqamlar (inqilab rəhbərinin çıxışlarından) c. 5, s. 56.

[3] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 21.

süfrəmiz olacaq. Ondan sonra seminarmız davam edəcəkdir.

Qəlyanaltı salonunda iştirakçılar iki-iki, üç-üç söhbət edirdilər. Hərə doktor Məcidinin çıxışından öz qənaətini söyləyirdi. Zalın işıqlarının söndürülməsi çoxlarına maraqlı gəlmişdi. Çox ucadan danışan iki-üç kişi doktor Məcidinin çıxışını Qərbin inkişafına təhqir sayır, bir neçə kişi və qadın da onlara etiraz edirdi. Sara ilə Maşa da danışırdılar.

***

Çay süfrəsindən sonra hamı zala qayıdıb oturacaqlarda oturdu. Söhbətlər hələ də pıçıltı ilə davam edirdi. Aparıcının səsi hamını sakitləşdirib bütün diqqətləri özünə cəlb etdi. Xanım Həkimi dedi:

– Əziz dostlar! Seminarın davamı olaraq xanım doktor Məcidini dinləyəcəyik.

Bütün baxışlar mərkəzə dikildi. Doktor Məcidi bu fasilədə bayıra çıxa bilməmiş, bəzi iştirakçıların suallarını cavablandırmışdı. O, müzakirənin davamına belə başladı:

– Qeyd etdim ki, tarix boyu qadına baxışı iki ümumi qismə bölmək olar: ağ və insani, qara və qeyri-insani baxışlar. Əlbəttə, məqsədimiz bu deyil ki, qara baxış Qərbdə yaranıb, ağ baxış isə Şərqdə. Bizim İranda hətta bu gün də bəziləri oğul övladlarını qız övladlarından üstün tuturlar. Yaxud bəzi yerlərdə oğulun olmamasını həyatda böyük bir nöqsan hesab edirlər. Müzakirəmizi Şərqə-Qərbə bölməyək. Çünki təəssübkeşlik həqiqəti öyrənməyə mane olacaq.

Qara baxış barədə söhbətimiz buraya çatdı ki, müxtəlif sahələrdə və müxtəlif yollarla qadınlara zülm olunmuşdur. Nəhayət, 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində Qərbdə vəziyyət ciddi şəkildə dəyişdi. Bəs qadın öz

mövqeyini əldə etdimi? Ona həqiqi şəxsiyyət və hörmət tanıdılarmı? Onun ibtidai və insani haqları uca tutuldumu? - Xeyr! Qadına baxış nəinki yaxşılaşmadı, hətta daha pisləşdi. Ən acınacaqlısı budur ki, bu böyük zülm hiylə və kələklə birləşdi...

Fasilə zamanı ucadan müxalif fikirlərini söyləyən təxminən əlliyaşlı, çal saçlı kişi ilk cərgələrdən əlini qaldırdı və dərhal ayağa qalxıb dedi:

– Siz deyirsiniz ki, müzakirəmizi Şərqə-Qərbə bölməyək, amma məlumdur ki, siyasi çıxış edirsiniz, qərbliləri qınayır, onları hiyləgər və kələkbaz adlandırırsınız. Bilmək istəyirəm ki, sizin məqsədiniz nədir?

Kişi bir qədər dayanandan sonra oturdu. Doktor Məcidi qeydlərini yerbəyer etdi, onların birini ayırıb əlində tutdu və mətanətlə cavab verdi:

– Lütfən etiket vurmayın. Mən yalnız həqiqəti söyləyirəm, bütün çıxışım istinadlı və mənbəlidir. Seminarda İrandan, cahil ərəblərdən, Çindən, Avstraliyadan və digər yerlərdən misallar çəkmişəm. İndi daha aydın deyirəm: Qara baxış insanlara, xüsusən də qadına mənfəətçi baxış olduğuna görə Avropa Sənaye İnqilabından sonra kapitalizmin inkişafı nəticəsində Qərb qadına qarşı yeni zülmün əsas mərkəzi və mənşəyi oldu. Tarix boyu iki cərəyan olmuşdur: biri kapitalizm, biri də xalq kütlələri. Kapitalist sistem həmişə xalqın orta və aşağı təbəqəsini istismar etməyi düşünmüş və bu əsnada nə qadın, nə də kişi təhlükəsiz olmuş, amma qadınlar daha çox zülmə məruz qalmışlar.

Orta əsrlərdən sonra dünya xalqlarının mədəniyyəti yavaş-yavaş inkişaf etdi. Əlbəttə, İslam dünyasında elmi inqilabın bu mədəni inkişafda mühüm rolu vardı və bu, öz

yerində isbat olunmuşdur. Qısası budur ki, müxtəlif cəmiyyətlərdə insanlar anladılar ki, heç kimin zülmünə tabe olmamalıdırlar. Avropa Sənaye İnqilabı ilə eyni zamanda iri burjuaziya insanları birbaşa istismar etməkdən çəkinib göz önündən pərdə asmağa başladı. Onlar bir tərəfdən, ucuz əmək istəyirdilər, digər tərəfdən də, öz məhsulları üçün istehlakçıya ehtiyacları vardı. Bu iki məqsəddən ötrü qadına qarşı dəhşətli bir zülm baş tutdu. Hətta ibtidai haqları da tapdanan qadın birdən-birə dəyişdi, diqqət mərkəzinə gəldi, hər yerdə qadına hörmətdən bəhs olundu. İlahi, nə baş verdi? Qadını təhqir edənlər səhvlərini anladılar? Qadına qarşı sevgi sönmüş vulkan kimi birdən-birə püskürdü?

Vill Dürant "Fəlsəfənin ləzzətləri" adlı doqquzuncu fəsildə bu suallara cavab verir: "İyirminci əsrdə sənaye inqilabının nəticələrindən biri qadın azadlığı oldu. Qadınlar ucuz fəhlələr idilər. Sahibkarlar – Vill Dürantın məqsədi mənfəətçi iri burjua təbəqəsidir – bahalı və aqressiv kişilərdənsə qadınları işə götürməyi üstün tuturdular".[1] Onun çox gözəl və düşündürücü bir cümləsi də var: "Bir əsr öncə İngiltərədə kişilərə iş tapmaq çətinləşdi. Ancaq elanlarda yazılırdı ki, qadın və uşaqlarınızı zavodlara göndərin!"[2] Deməli...

Maşa əlini qaldırıb təəccüblü görkəmdə sözə başladı:

– Bağışlayın, xanım doktor, mən sizi başa düşə bilmədim. Gah qadına qarşı tarixi zülmə görə kövrəlirsiniz, gah da öz hüququnu əldə etmək üçün qadının üzünə pəncərə açılanda etiraz edirsiniz. Sizcə, qadın oturmalı, o təhqirlər də davam etməli idi?

---

[1] Yenə orada, s. 20.

[2] Qulami, Yusif, Bir hiylənin sirri, s. 219.

– Sizin tənqidiniz diqqətli olduğunuzu göstərir və bu, mənimçün dəyərlidir – doktor Məcidi gülümsəyib dedi. – Deməliyəm ki, onlar qadının tapdanmış haqlarını qaytarmaq istəmirdilər; məqsəd qadını məhv etmək idi. Yalançı qadın azadlığı zümzümələri ucuz işçi cəlb etməyə xidmət edirdi. Qadınlardan sui-istifadə ilə işçi qüvvəsini ikiqat artırdılar ki, heç bir zavod və istehsal mərkəzi boş qalmasın. İşçi qüvvəsi çoxalanda isə, zəhməthaqqı da yarıya endi. Dünənə qədər bir kişi yaşayış xərclərini təkbaşına təmin edirdisə, bu gün qadınla kişi birlikdə durmadan çalışır, yenə də adi yaşayış xərclərini təmin edə bilmirlər. Çox da uzaq olmayan keçmişdə bir kişi yaşayış xərclərini təmin edirdi, övladlarının sayı orta hesabla altı-yeddiyə çatırdı, ailələrdə böyük sevinc və coşqu olurdu, bu günsə qadınla kişi ikinci, hətta birinci övlad üçün də ciddi tərəddüd edirlər, ailələrdəki coşqu və həyəcandan da əsər-əlamət yoxdur.

Əgər qadının problemləri bununla bitsəydi, yenə də dözmək olardı. Elə şərait yaratdılar ki, qadının hər şeyi talandı. Kim bilmir ki, bu gün Qərbdə qadının gözəlliyi, cinsi cazibədarlığı, səsi, sənəti, yaradıcılığı, ruhu, bədəni, nəhayət, şəxsiyyəti Avropa və Amerika kapitalizminə xidmət edən dəyərsiz bir vasitəyə çevrilib?! Adı qadınların, dadı isə zavod və fabrik sahiblərinin olan azadlıq! Siz bir ev avadanlığının və ya başqa bir əşyanın adını çəkin ki, qadın vasitəsi ilə reklam olunmasın. Tualet şotkasından və it sabunundan tutmuş zibilqabıya, yara bandına və bədən təmizliyi alətinə qədər irili-xırdalı hər bir əşya qadın görüntüsü ilə daha çox satış məqsədi güdür. Qadın alət olub; daha çox satışa səbəb olan gözəl bir əşya!

Təəssüf ki, baş vermiş faciənin dərinliyinə qədər çox məsafəmiz var. Kaş təkcə qadının şəklindən sui-istifadə

ediləydi! Kaş təkcə otellərin xidmətçiləri və ya şirkət sahiblərinin katibələri gözəl qadın və qızlar olaydılar! Əlbəttə, bir insanın üzüntüdən ölməsi üçün bunlar da kifayətdir, ancaq bədbəxtlik bundadır ki, "dünyada üç məhsul ən böyük gəlir mənbəyi kimi tanınır: silah, dərman və qadın!" Spirtli içkilər və kompüter bu qədər geniş yayılmasına baxmayaraq, dördüncü və beşinci yerləri tutur. ABŞ prezidenti cənab Nikson 1972-ci ildə deyirdi: "Bizim qadınlar vasitəsi ilə ticarətdən gəlirimiz bu il bir milyon dollardan çox olmuşdur".[1]

Əziz və dəyərli ziyalılar! Qadın ticarəti nə deməkdir? Yəni məhsulların üzərində qadın şəkillərindən istifadə olunsun? Yaxud qadınlar zavodlarda işləsinlər? Yaxud satıcılıq və ya katibəlik etsinlər? - Xeyr! Məqsəd bunlar deyil. Qadın alveri - yəni qadınların alınıb-satılması, bir məhsul kimi və cinsi istifadə naminə idxal və ixracı! Avropada qadın və qızları cinsi köləlik üçün idarə və koordinasiya edən mərkəzlərin rəsmi fəaliyyəti, yəni qız və qadınların bədəninin ticarəti heç vaxt bugünkü qədər gəlirli olmamışdır. Avropa Şurası Ekspertlər Qrupunun statistikaları Şərqi Avropada qadın alveri barədə "üçüncü minilliyin qulları" ifadələrindən istifadə edir və bu ticarətdən əldə edilən gəliri illik 13 milyard dollar həcmində göstərir.[2]

Qadın alveri odur ki, qadınlar bəzən on səkkiz dəfə alınıb-satılırlar. Avropa Şurasının ekspertlərinin məruzəsində qeyd olunur ki, Moldovada qadınlar 150 dollara, İtaliyaya çatanda isə dəllallara 5000 dollara satılır.[3] Kaş yer ağzını açıb insanları udaydı!

---

[1] Keşvəri, Gözəllik standartı, s. 206.
[2] Yenə orada.
[3] Yenə orada, s. 207.

Zala ağır sükut çökmüşdü. Doktor Məcidi bir qədər pauzadan sonra tutqun səslə sözünə davam etdi:

- Qadın alveri budur ki, bu yeni qullar İtaliyada öz sahiblərinə ayda 25 min dollar qazandırmalıdır.[1] Bu məbləğin hansı yolla əllə edilməsi isə deyiləsi deyil. Bu məsələ Amerika və Avropaya məxsus deyil, Cənub-Şərqi Asiya da fahişəlik turizmi mərkəzlərindən biridir. Fars körfəzi ölkələri və Türkiyə kimi ölkələr də öz növbəsində bu sahədə məşhurdur. Zavallı qadın bir tarix qədər təhqir olundu! Sonra isə yalançı azadlıq nəğməsi ilə birdən-birə özünü itirib çox tezliklə "hə" söylədi. İndi də ondan əl çəkmirlər.

Bəşəriyyətin vəziyyəti o həddə çatıb ki, küçə qadınları üçün parkometr işarəsi vurublar. Bəli, parkometr, özü də maşınlar üçün yox, qadınlar üçün. Röyterz agentliyinin məlumatına görə, dünyada ilk dəfə olaraq Almaniyada cinsi davranış parkometrləri üçün hər gecəyə 6 avro təyin olunmuşdur. Almaniyanın Bonn şəhərinin küçə qadınları park edilmiş avtomobillər kimi prospektin kənarında dayanmaqdan ötrü vergi ödəyirlər. Bu, qadının bataqlığa salınması, kapitalizmin çəkmələri altında tapdanması deməkdir. Yəni ey qadın, sənin də digər canlılar kimi yaşamaq haqqın var, bunun qiyməti isə bədənini satmaq və rəzil olmaqdır. Bunu bacarmayanda isə yaxşı olar ki, öləsən. İndi sual budur: Bu, qadın azadlığıdır?

Xanım Vendi Şelit qadın sahəsində çalışan amerikalı araşdırmaçıdır. O, üçüncü nəsil feministlərdəndir, qadının necə sirli şəkildə oyuncağa çevrildiyini başa düşən feminist qrupdan. O, "Qızlar ismətə üz tuturlar" kitabında yazır: "Qadınlar nə vaxt utanmağı kənara qoyub ailə

---

[1] Yenə orada.

qurmaq istəklərini elan edirlərsə, ələ salınırlar. Bəzi ekspertlər onlara tövsiyə edirlər ki, öz itlərinizlə evlənin, çünki onlar sizi özünüzdən çox sevən yeganə canlılardır!"[1] Qadının başına hansı oyun açılıb ki, onu itindən başqa heç kim sevmir? Ümumiyyətlə, nə üçün təbii və insani olan izdivac istəyi qınanmalıdır? Qərb jurnallarında yazılır: "Kişilər gözəl xanımlarının ölümünə itlərinin ölümü qədər kədərlənmirlər".

Qadını bu vəziyyətə sürükləmək asan olmayıb. Mən düşünürəm ki, tarixin hər iki pərdəsində – istər qadının başından vurub onu nəhs varlıq adlandırdıqları dönəmdə, istərsə də azadlıq və qadın haqları şüarları altında bataqlıqlara sürüklədikləri bugünkü dönəmdə əsas rolu öz maraqlarını güdən kapital sahibləri oynamışlar.

Bəzi şahların üç min qadından ibarət hərəmxanası olmuşdur. Bu gün isə güc və sərvət sahibləri dünyanı özləri üçün hərəmxanaya çevirmişlər, yalnız öz şeytani məqsədlərini düşünürlər. Qadını bu mərhələyə çəkməkdən ötrü çox işlər görüblər. Cürbəcür hüquqlardan o qədər dəm vurublar ki, qadın onun üçün tikilən torbanın dərinliyini görə bilməyib. Baxmayaraq ki, bu hüquqların çoxu qadının özünə məxsusdu, kiminsə verməsinə ehtiyac yox idi: azadlıq, mülkiyyət, təhsil, səsvermə, işləmə və digər hüquqlar. Bunların hamısı əvvəldən qadına məxsus olub, amma onlar hoqqabazlıqla bu hüquqları bir sıra antiinsani və yalançı hüquqlarla, misal üçün, qadın və kişi bərabərliyi və oxşarlığı, cinsi azadlıq, abort haqqı, homoseksualizm hüququ və digər bu kimi hüquqlarla, özü də qadın haqlarını müdafiə jesti ilə təmtəraqlı şəkildə qadına hədiyyə ediblər! Ancaq problem budur ki, minnətlə

---

[1] Şelit, Vendi, Qızlar ismətə üz tuturlar, s. 105.

verilən, ya da sırınan bu hüquqlara rəğmən, qadının problemləri daha da çoxalmışdır.

Xanım Vendi Şelit ABŞ cəmiyyətinə dair böyük narahatlıq hissi ilə yazır: "Təcili yardım şöbələrinin bütün palatalarında qəsdən özünə xəsarət yetirmiş qızlar var!" Bəzi ekspertlər qızlarda puçluq hissini buna səbəb kimi göstərirlər. Halbuki qızlar etiraf edirlər ki, özlərini bədbəxt hesab edirlər. Sual budur ki, qadın azadlığını məqsədlərinin başında qeyd etmiş bir cəmiyyətin qızları nə üçün özlərini puç və qeyri-həqiqi hesab edirlər?[1]

Qərbdə yaşayan universitet müəllimlərinin sözlərinə əsasən deyirəm: Qərbdə qadının insani və emosional dəyəri yoxdur. Onu yalnız kişini rahatlaşdıran bir varlıq kimi tanıyırlar. Bu işin öhdəsindən gəlməyəndə isə cəld cəmiyyətdən təcrid edilir. Qadını elə hipnoz ediblər ki, kimliyinin yalnız görünməklə formalaşdığını düşünür. Bu gün qadının əsarəti və özünü tanımaması ən yüksək həddinə çatıb. O, təkcə bədəninə deyil, hətta ruhuna, hiss və emosiyalarına da heç bir nəzarət edə bilmir; yəni baxır görsün ki, Paris və ya Nyu-Yorkdakı moda ərbabları ona nə təklif edirlər.

İngiltərəli riyaziyyatçı və tibb bacısı Florens Naytingel qadınlarda hiss və emosiyaların itməsi barədə söylədiyi bir cümlədə bugünkü qadınlar üçün yaradılmış vəziyyəti dəqiq təsvir edir: "Qadınlar əsla inkişaf etməyiblər, yalnız kişi olmağa çalışıblar; əlbəttə, üçüncü dərəcəli kişi".[2]

Vendi Şelitdən başqa bir cümlə də deyim. Onun cümlələrinin yaxşılığı bundadır ki, bir amerikalıdır, Qərbi əti-qanı ilə yaşayıb, mənim kimi Qərbə düşmən olmaqda

---

[1] Yenə orada, s. 39.

[2] Qulami, Yusif, Qadınların özünü göstərməsi və kişilərin baxması, s. 31.

ittiham edilmir. O, qadın əsarətinin böyüklüyünü çox romantik şəkildə açıqlayır: "Qadının hətta seksual xəstəliklərə yoluxmaqdan qorxmağa da haqqı yoxdur. Çünki, qadın jurnallarının dediyinə görə, qarşı tərəf bundan narahat ola bilər. Sanki kişilər ilahi səlahiyyətlərə malik padşahlar, şahzadələrdir!"[1]

Kapitalizm pazlında kişilərin mövqeyi qadınlardan pis olmasa da, yaxşı da deyil. Çünki bəşəriyyətin həyat suyunu zəhərləyiblər. Lord Şifits Berri yazır: "Kişini fəsada sürükləmək çox pisdir. Qadını fəsada sürükləyəndə isə sanki həyat suyunun mənbəyini zəhərləyirlər".[2] Bu söz tamamilə doğrudur. Həqiqətən də, indiki dünyada suyun mənbəyini zəhərləyiblər. Bu gün çılpaqlar klubu adlı klublar yaradılır. Bunların mənası nədir? İnsaniyyət öldümü?

Mən qadına qarşı qara baxış barədə fikirlərimi Dekartın bir cümləsi ilə bitirmək istəyirəm. Dekart təxminən dörd yüz il öncə belə deyib: "Düşünürəmsə, deməli, varam". Lakin bugünkü Qərb cəmiyyətində və bütün qərbpərəst cəmiyyətlərdə gərək belə desinlər: "Mənə baxırlarsa, deməli, varam!"

Çox gözəl! Ümidvaram ki, bu söhbətlər ən azı daha çox mütaliə və araşdırmaya giriş olacaqdır. Məni səbirlə dinləyən bütün xanımlara və cənablara təşəkkür edirəm. Hansısa sözümdən incidinizsə, üzr istəyirəm. Gələn həftə qadına təbii və fitri olan ağ baxışı araşdıracağıq. Ümidvaram ki, o baxışın gözəlliyi bu baxışın acılığını itirsin. Diqqətinizə görə minnətdaram!

Sara ilə Maşa seminardan sonra çox söhbət etdilər. Sara doktor Məcidinin sözlərini tam şəkildə qəbul edə bilmirdi,

---

[1] Şelit, Qızlar ismətə üz tuturlar, s. 106.
[2] Keşvəri, Gözəllik standartı, s. 210.

Maşa isə bundan əlavə, onları siyasi hesab edirdi. Saranın öz fikir və baxışlarına şübhəsi daha da çoxalmışdı. O, qərara gəldi ki, daha çox və daha diqqətlə araşdırsın.

Maşadan ayrılandan sonra mobil telefonuna baxdı. Əfsanə iki dəfə zəng vurmuşdu. Telefon yenə zəng çaldı. Əfsanə idi. Cavab verib dedi:

– Salam, Əfsanə. Nə olub?

– Salam, Sara can, – Əfsanə dedi.

– İclasda idim. Göndərdiyin son mətnə bu gün baxıb cavab verəcəyəm. Bundan ötrü zəng vurmuşdun?

– Hə, çox həyəcanlıyam. Qanuni müddətim başa çatır. Gərək materiallarım sayta getsin ki, “Parazit” verilişində iştirak edə bilim. Ona görə deyirdim ki, əgər mümkünsə...

– Okey. Bu gün cavab verəcəyəm.

Sara yolda Əfsanənin iki qeydinə baxdı. Qeydlər ehtiyac duyulanlar idi: şərqli, xüsusən də müsəlman qadınların vəziyyətinə etiraz və tənqidlər.

Gəzişə-gəzişə fikrə getdi. Doktor Məcidinin sözləri beynindən çıxmırdı. Beyni qarışmış, yanıb-sönən işıqlarla dolmuşdu. Evə çatanda yorğunluğu azalsın deyə isti duş qəbul etdi. Notbukunu açıb Əfsanənin materialları üçün təsdiq mətni hazırladı, elektron poçtla “İşrətkədə” saytının rəhbərinə və Əfsanənin özünə göndərdi.

Yeni elektron məktubları açıb saytın müdirinin buyruqlarına baxmağa hövsələsi yox idi. Məktub göndərilən kimi notbukunu bağlayıb mətbəxə keçdi. Çox acmışdı. Bir qədər soyuducunun içinə baxandan sonra dünəndən qalmış “fəst-fud” yeməyini götürüb balaca bir diş vurdu. Buz kimi idi, amma çarə yox idi, yəqin ki, boş mədəsini doldura bilərdi. Onun elektrik sobada qızmasını gözləyə bilmədi. Həmin parçanı əlində tutub otağına keçdi, çarpayının üzərində oturub fikrə daldı. Arabir

pizzaya kiçik bir diş vurub bir qədər çeynəyir, sonra udurdu. Xanım Məcidinin sözləri, iştirakçıların fikirləri, Maşa ilə söhbətləri və fasilə zamanı iki qrup iştirakçının mübahisə zamanı dediyi bəzi sözlər daim beynində təkrarlanırdı.

***

Əfsanə dostugildə oturub qeydinin dərc olunmasını səbirsizliklə gözləyirdi. Bu zaman mobil telefonu zəng çaldı. "Qadınlar üçün" saytından idi. Bir kişi dedi:

– Əfsanə Mühacir xanım, sizin sayta verdiyiniz şəkil hicablıdır, halbuki qeydiniz hicaba qarşıdır. Vatsap tətbiqindən hicabsız bir şəkil göndərin, sayta yerləşdirək.

Əfsanə söhbəti bitirib dərhal sayta bir başıaçıq şəklini göndərdi. Bir neçə dəqiqə ötmədən telefonu yenə zəng çaldı. “İşrətkədə” saytından bir qadın idi. O da Əfsanədən hicabsız şəkil istəyirdi. Əfsanə dərhal "Qadınlar üçün" saytına göndərdiyi şəkili bu sayta da göndərdi. Şəkil qəbul ediləndən sonra ona başqa bir mesaj gəldi: "Əfsanə, daha rahat bir şəklin yoxdur? Bədənin aydın düşməyib".

Əfsanə yazdı: "İndi tapıb göndərərəm". Bir şəkil göndərmək istəyəndə gözləri şəklə dikilib qaldı. Şəkli ötən il yayda dostunun ad günündə çəkdirmişdi. Əynində çəhrayı rəngli dar nazik kofta vardı, iki tərəfi iplə sinənin önündə birləşirdi. Çox qısa cins yubka da geymişdi. Yenə qalereyanı axtarmağa başladı. Bundan şəffaf və yaxşı şəkli yox idi. Düşünürdü ki, bu şəkildə üzü də daha gözəl görünür. Öz-özünə fikirləşdi: "Əgər İranda ailə üzvlərim bu şəkli görsələr, nə olar?" Əmisi qızları yadına düşdü. Onlar Kanadada yaşasalar da, başörtüklərini açmamışdılar, adi hicabları vardı. O, İranda da çadralı deyildi, amma başını elə bağlayırdı ki, saçı görünmürdü.

Əfsanə yavaşca dodağını dişlədi, gözünün bəbəyi sağa-sola əsdi. "Mənə iqamət vermirlər, başqa yolum yoxdur" – deyə mızıldayıb barmağını "göndər" düyməsinin üstünə qoydu. Şəkil dərhal görüldü.

# İkinci fəsil

## Ağ baxış

Yenə bazar günü və "Bütün dünya qadınları üçün" adlı silsiləvi seminarların ikincisinin vaxtı gəldi. Sara daha çox, maraq xatirinə seminarı səbirsizliklə gözləyirdi. Mərkəzin giriş qapısına çatanda çoxlarının kart alıb seminara qatılmaq üçün xahiş etdiklərini gördü. Məsul şəxslər üzr istəyərək deyirdilər ki, zal dolub və girəcəyiniz təqdirdə ayaq üstə qalacaqsınız. O, Maşa ilə birlikdə Nyu-York İslam Araşdırmaları Mərkəzinə daxil olub toplantı zalına girdi.

Seminar düz saat 9-da Quran oxunuşu və onun ingiliscə tərcüməsinin yayımlanması ilə başladı. Quran qiraətindən sonra xanım Həkimi öz yerində oturub dedi:

– Öz adımdan və mərkəzin rəhbərliyi adından siz əzizlərin hamısının bu gözəl iştirakına görə təşəkkür edirəm. Təəssüf edirik ki, çoxları içəri girə bilmədi, bəzi əzizlər də zalda əlavə stullarda oturublar. Buna görə üzr

istəyir və bütün qonaqlara xoşgəldin deyirik. İslam Araşdırmaları Mərkəzinin rəhbərliyi çox çalışsa da, daha böyük zal tapa bilmədi. Seminarda iştirak etmək istəyənlər də gözləniləndən çox oldu. Buna görə və seminarı daha çox insanın dinləməsi üçün qərara gəldik ki, onu canlı şəkildə internet üzərindən yayımlayaq. Yayımın linki Nyu-York İslam Mərkəzinin saytına yerləşdirilib. Hamınızın həvəslə xanım doktor Məcidinin çıxışını gözlədiyinizi bilərək vaxt itirmədən onu səhnəyə dəvət edirəm.

Birinci cərgədə oturmuş doktor Məcidi səhnəyə qalxıb Allahın adı ilə söhbətə başladı, sonra dedi:

– Əziz və dəyərli iştirakçıları salamlayıram. Sizinlə daha bir görüşün baş tutduğuna görə xoşbəxtəm. Ümidvaram ki, bugünkü səmimi seminar həm mənə, həm də bütün əzizlərə faydalı olacaq.

Qadına qarşı mənfi baxışın xüsusiyyətləri ilə qısa tanışlıqdan sonra bu gün müsbət və ağ baxışın gözəl xüsusiyyətlərini araşdırmağın, mənfi və qara baxışın acılığını unutmağın zamanıdır. Əvvəlcə bəzi məlumatları...

Seyrək və uzun saçı olan arıq, eynəkli bir kişi zalın sol tərəfindən əlini qaldıra-qaldıra doktor Məcidinin sözlərini kəsib dedi:

– Bağışlayın, xanım doktor. Siz Qərbi və qeyri-müsəlman ölkələri qadın bədbəxtliyinin səbəbkarı kimi göstərmək istəyirsiniz. Sizin ya araşdırmalarınız azdır, ya da qəsdən bəzi məsələləri gizlətmək istəyirsiniz. Mənim qənaətim budur ki, sizin sözləriniz daha çox siyasi məqsəd güdür. Sizin və digərlərinin diqqətinə çatdırmaq istəyirəm ki, fransız yazıçı Viktor Hüqo demişdir: "Qadın, prinsipcə, ismətli, gözəl və xoşagələndir. Vüqarlı və ismətli

şəxsiyyəti qadına elə bir güc verir ki, ən güclü kişilər də onun qarşısında müqavimət göstərə bilmirlər".[1] Amerika Birləşmiş Ştatlarının ikinci prezidenti Con Adams qadınların bir xalq üzərində möhtəşəm təsiri barədə deyir: "Dövlətlərin tarixini, insanların yaşayış və davranışını öyrənərək bu nəticəyə gəlmişik ki, qadınların rəftarı bir xalqın əxlaq və ismətə bağlılıq səviyyəsini təyin edən ən düzgün göstəricidir. Yəhudilər, yunanlar, isveçlilər və almanlar milli kimliklərini və dövlətlərinin müstəqilliyini o vaxt itirdilər ki, ailə isməti və qadınların həyası sıradan çıxdı".[2]

Doktor Məcidi gülümsəyərək başı ilə kişinin sözlərini təsdiqlədi. Kişi sözünə davam etdi:

– Məşhur fransız filosoflarından olan Volter qadınların açar rolu barədə deyir: "Qadınların vəzifəsi kişilərin əxlaqını yaxşılaşdırmaqdır". Başqa bir dərin cümləsi isə belədir: "Qadın yaradılıb ki, varlıqların səadət və tərəqqisi daimi olsun".[3] Hindlilərin qeyri-müsəlman inqilabçı lideri Qandi qadının müstəmləkəçilər tərəfindən aldadılmasına toxunaraq bəşəriyyətin məhvini qadının burjua tərəfindən oyuncaq edilməsindən üstün tutaraq deyir: "Qadın zahirən azadlıq əldə etdi, əslində isə kişilərin ehtiras oyuncağı oldu. Mən tərcih edirəm ki, insan nəsli məhv olsun, nəinki qadının kişinin ehtirası üçün alətə çevrilməsi ilə hər bir heyvandan əskilsin. Əgər mən qadın olsaydım, kişinin "Qadın kişiyə oyuncaq olmaq üçün dünyaya gəlib" iddiasının əleyhinə sərt üsyan edərdim".[4] Xanım doktor,

---

1 İslamlu, Nəimə, Gülün hərimi, c. 2, s. 38.
2 Şelit, Qızlar ismətə üz tuturlar, s. 250.
3 Rəcəbi, Abbas, Hicab və onun psixoloji sağlamlıqda rolu, s. 136.
4 Loğmani, Əhməd, Övladlarımız necə hicablı olurlar?, s. 122.

nə üçün qeyri-müsəlman mütəfəkkirlərin qadın barədə nəzəriyyələrini söyləmirsiniz?

Doktor Məcidi dedi:

– Hörmətli iştirakçı, sağ olun ki, zəhmət çəkib hazırladığım məlumatların bir hissəsini bəyan etdiniz. Elə onu demək istəyirdim ki, bu gün Qərb mütəfəkkirlərinin ağ baxış barədə fikirlərini söyləyəcəyəm, bununla bizim bəhsimizin şərqyönümlü və ya qərbyönümlü olmadığı bilinəcək. Siz bir qədər tələsdiniz, amma eybi yoxdur, mən yalnız dediyiniz sitatların dəqiq mənbəyini söyləyəcəyəm.

Xanım Məcidi hələ də ayaq üstə dayanmış kişinin sitatlarına dair mənbələri söyləyəndən sonra sözünə davam etdi:

– Mən digər Qərb mütəfəkkirlərinin fikirlərini də əlavə edirəm. Xanım doktor Henri Makov "Feminizm kimliyimi əhatə edəndən sonra necə kişi oldum?" kitabında yazır: "Qadınlar eşq istehsalçılarıdır, işləri ürəyə çox bənzəyir. Qadınlar ailənin qurucularıdır, ailə isə cəmiyyətin təməlidir və gələcəyi yaradır".[1] O, kitabın başqa bir yerində deyir: "Qadınsız kişi – sakinsiz gəmidir".[2] Uilyam Qardner “Kanadanın təəssüflü durumu" kitabında qadının misilsiz roluna işarə ilə yazır: "Qadınlar cəmiyyətdə elə özəl rola malikdirlər ki, heç bir kişi ona malik deyil. Onlar öz bətnlərində başqa bir insan yetişdirib cəmiyyətə təqdim edə bilirlər. Bütün kişilər həyatın bu təbii reallığına fitri olaraq hörmət duyurlar".[3]

Etirazçı kişi doktor Məcidinin dəqiqliyindən təəccüblü halda paltarının yaxasını düzəltdi, eynəyini taxıb oturdu.

Doktor Məcidi sözünə davam etdi:

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 43.

[2] Yenə orada, s. 39.

[3] Vay-vay, Avropa, Amerika, c. 1, s. 135.

– Bunlar Qərbdə daha çox yayılmış nəzəriyyələrin bir qismidir. Amma... iki problem var: Biri budur ki, bu sözlərin çoxu 21-ci əsrdə deyilib və qadının keçmişini əhatə etmir. İkincisi isə bunlar söz və nəzəriyyə səviyyəsində qalıb, əməldə isə kapital sahibləri qadının başına istədikləri oyunu açırlar və heç kim mane ola bilmir. Lakin Şərqdəki, daha doğru desək, İslam dünyasındakı yerlə göy qədər fərqlidir. Bu, mənim sözüm deyil. Fransalı filosof, tarixçi, sosioloq və həkim olmuş Qustav Le Bon deyir: "İslam qadınların tərəqqisində böyük addımlar atmış ilk dindir. Buna görə də, Şərqdə qadınlara hörmət Avropaya nisbətən həmişə çox olmuşdur".[1]

Əslində, 1400 il öncə bu məsələlər çox yüksək miqyasda deyilmişdir, əməldə də qadınlar çox özəl mövqeyə malik olmuşlar. Diri-diri basdırılan və dünyaya gəlişi ata-babaların qəzəbi sayılan qız uşağı barədə ağ baxışda deyirlər: "Kimin qızı varsa, deməli, Allah ona kömək etmək, onu bağışlamaq və ona bərəkət vermək istəyir".[2] Allah rəsulu (s) buyurur: "Qızlar necə yaxşı övladlardır".[3]

Rəhmət peyğəmbərinin 1400 il öncə öz qızı ilə rəftarı hətta XXI əsr üçün də möhtəşəm və misilsizdir. Fatimə (ə) peyğəmbərin (s) yanına gələndə, peyğəmbər ayağa qalxıb onu qarşılayır, üzündən öpür və özünün yerində oturdurdu. O, həmişə Fatimənin üzünü və əlini öpüb deyirdi: "Atası ona qurban!"[4] Bu mehriban peyğəmbər atalara və

---

[1] Keşvəri, Nə üçün hicab?, s. 135.

[2] Nuri, Müstədrək əl-Vəsail, c. 15, Qızların və onlara hörmətin müstəhəb olması, hədis 5.

[3] Yenə orada.

[4] İbn Babuyə, əl-Əmali, s. 234.

böyüklərə belə tövsiyə edirdi: "Nə vaxt hədiyyə alsanız, birinci qızlarınıza verin. Kim öz qızını sevindirsə, sanki İsmayıl (ə) övladlarından bir əsiri azad etmişdir".[1]

Allahın əziz peyğəmbəri (s) təəssüf ki, hələ də bütün dünyada geniş yayılmış və oğlanları qızlardan üstün tutan batil düşüncə barədə belə xəbərdarlıq edib: "Kim qızının haqqını tapdamasa, şəxsiyyətini alçaltmasa və oğlunu ondan üstün tutmasa, Allah bu əməlinə görə onu cənnətə aparar".[2] Allah rəsulu (s) qadının ər evində ayağının düşərli olmasının əlamətlərindən biri kimi deyir: "İlk övladın qız olması qadının xoşbəxtliyindəndir".[3]

Sara, xanım Məcidinin keçən seminarda Freyddən gətirdiyi bir sitatı xatırladı, dodağını dişləyib Maşanın qulağına pıçıldadı:

– Freydin sözü yadındadır?

– Hə... – Maşa dedi. – Yerlə göy qədər fərqlidir.

Doktor Məcidi davam etdi:

– Quran ayələrinə əsasən, İslam peyğəmbərinin (s) ən önəmli tapşırıqlarından biri qızların diri-diri basdırılmasına qarşı mübarizə aparmaq olmuşdur. Allah Quranda buyurur: "Hansı günahına görə öldürüldü?"[4] Əslində, Qurani-kərim qadın hüquqlarını müdafiə edən ilk qanun kitabıdır.

Hörmətli xanımlar və cənablar! Bunlar qızlar barədə tövsiyələrin kiçik bir hissəsi idi. Lakin... bu qız böyüyüb ər evinə köçəndə hansı mövqeyə malik olur? Əziz peyğəmbərimiz (s) buyurub: "İnsanın imanı kamilləşdikcə

---

[1] Yenə orada, s. 577.
[2] Nuri, c. 15, s. 118.
[3] Yenə orada, s. 304.
[4] Təkvir, 9.

xanımına məhəbbəti də çoxalar".[1] Həmin peyğəmbərin əziz övladı, yəni şiələrin altıncı imamı buyurub: "Güman etmirəm ki, kişinin imanı çox ola, amma onun qadınlara (həyat yoldaşına və məhrəm qadınlara) sevgisi artmaya".[2] Yenə Allah peyğəmbəri (s) buyurub: "Kişi öz həyat yoldaşına məhəbbətlə baxdıqda, qadın da ərinə məhəbbətlə baxdıqda Allah onlara rəhmət gözü ilə baxar".[3] Başqa bir cümlədə isə buyurub: "Ərlə arvadın görüşəndə və ya sağollaşanda bir-birinə təbəssüm etməsi sədəqədir və Allah yolunda maddi yardım qədər dəyərli sayılır".[4]

Doktor Məcidi bir qədər pauza verəndə Sara Maşaya dedi:

– Maraqlıdır! Müsəlmanların on dörd əsr öncəki sözlərini BMT sənədlərinə əsasən Rus Seydlin və Uilyam Qardnerin sözlərinin yanına qoy. Bu sənədlər 21-ci əsrdəki Fransanın vəziyyəti barədə deyir: "Şiddət xüsusən ailələrdə çoxalmışdır. Son tədqiqatlar göstərir ki, çox qadınlar həyat yoldaşlarının şiddəti üzündən həyatlarını itirirlər".[5]

Maşa Saraya baxıb bir söz demədi.

Doktor Məcidi sözünə davam etdi:

– Allah rəsulundan (s) başqa bir gözəl cümlə də söyləyəcəyəm. Gərək psixoloqlar onu dərindən araşdırsınlar. Bəzi hörmətli iştirakçıların bir qismi ərəb olduğuna görə cümləni əvvəlcə ərəbcə deyəcək, sonra tərcüməsini söyləyəcəyəm: "Kişinin həyat yoldaşına

---

[1] Bürucerdi, Came əhadis şiə, c. 25, s. 114.
[2] Kuleyni, əl-Kafi, c. 4, s. 321.
[3] Payəndə, Nəhcül-fəsahə, s. 278.
[4] Kuleyni, c. 5, s. 569.
[5] Vay-vay, Avropa, Amerika, c. 1, s. 26.

dediyi “səni sevirəm” cümləsi heç vaxt qadının qəlbindən çıxmaz!"[1] Ümumiyyətlə, bütün peyğəmbərlərin və Allah övliyalarının baxışında qadının xüsusi yeri olub. İmam Sadiq (ə) buyurur: "Qadınları sevmək peyğəmbərlərin əxlaqındandır".[2]

Qara baxışda önəmli olan "mənim ləzzətim"dir, ağ baxışda isə belə deyil. İslam peyğəmbərindən (s) belə nəql olunmuşdur: "Ailəsinin istəyinə uyğun xörək yeməyən kişi münafiqdir".[3]

Əziz və hörmətli iştirakçılar! Əhli-beyt imamlarının həyat yoldaşları ilə rəftarından sizə bir nümunə söyləyim. Bilmirəm hansı hissləri keçirəcəksiniz, amma etiraf edirəm ki, özüm bu iki nümunəni oxuyanda, hətta indi sizin üçün oxumaq istəyəndə də sevindiyimdən uçuram. Bu iki əhvalatı danışmazdan qabaq bir məsələni xatırlatmaq istəyirəm. Bəziləri səhvən elə düşünürlər ki, Əhli-beyt imamları özlərini dünyanın maddi ləzzətlərindən məhrum etmiş, yalnız ibadətlə məşğul olmuşlar. Halbuki bu fikir imamların həyatı, habelə İslamın dünyaya və ləzzətlərə baxışı ilə 180 dərəcə fərqlidir.

Birinci nümunəni söyləyirəm:

Yəhya dördüncü Əhli-beyt imamının dostlarından idi. O, dostu Əbu Xalidi Əhli-beyt məzhəbinə yönləndirmək ümidi ilə İmam Səccadın (ə) yanına apardı. Hər ikisi otağa girəndə qəribə səhnə ilə üzləşdilər. Otağın divarları ağardılmışdı. O zaman divarlar adətən palçıqdan olur, hisdən qaralırdı. Təəccübün bir səbəbi də imamın çox gözəl bir xalça üzərində oturması idi. Halbuki əksər insanlar ağac liflərindən həsir düzəldir, ya da uzaqbaşı

---

[1] Yenə orada.

[2] Yenə orada, s. 320.

[3] Yenə orada, c. 4, s. 12.

heyvan dərisinin, qoyun və ya dəvə yunundan hazırlanmış keçənin üzərində otururdular. Onlar İmam Səccadın (ə) rəngli köynəyini görəndə isə təəccübün son həddini yaşadılar. Sağollaşanda imam Əbu Xalidə buyurdu: "Sabah da bizə gəl".

Əbu Xalidin imamət barədə düşüncələri yanlış idi. O, evdən çıxandan sonra Yəhyanı danlamağa başladı: "Məni hara gətirmisən?! Bu adam rəngli paltarlar geyir, sanki Allahdan və mənəviyyatdan çox uzaqdır".

Ertəsi gün Əbu Xalid könülsüz halda yenə imamın evinə getdi və bu dəfə onu palçıq bir otaqda həsir üzərində və kətandan çox sadə bir paltarda gördü. Əziz xanımlar və cənablar! Görün İmam Səccad (ə) ona nə deyir: "Ey Əbu Xalid, mən təzə evlənmişəm. Dünən gördüklərin xanımımın fikri idi və mən ona qarşı çıxmaq istəmirdim".[1]

Bunu demək və söyləmək, bəlkə də, asandır, amma ağ və qara baxışların müxtəlif tərəflərini dəqiq bilən bir şəxs belə bir şəxsiyyətlərin ardıcılı olduğuna görə sevincindən uçmağa qalır. Lakin təəssüf ki, bu sözlər çox az deyilir, daha doğrusu, heç deyilmir.

Buna bənzər hadisə Allah peyğəmbərinin (s) beşinci canişininin həyat yoldaşı ilə davranışında da mövcuddur. İmamın dostlarından olan Malik ibn Əyən deyir: "Bir gün İmam Baqirin (ə) yanına getdim. Evə girəndə onu tünd qırmızı rəngli paltarda gördüm və məni gülmək tutdu. O həzrət də gülümsəyib buyurdu: "Elə bilirsən nəyə güldüyünü bilmirəm? Paltarıma gülürsən. Amma bil ki, xanımım belə geyinməmi istəyib. Mən bu paltarı sevməsəm də, xanımım sevdiyinə görə geymişəm".[2]

---

[1] Məclisi, Bihar əl-ənvar, c. 46, s. 102.
[2] Kuleyni, c. 6, s. 447.

Siz xanımla belə məhəbbət dolu rəftarı harada tapa bilərsiniz?! Lakin qadın ana olanda bizim təsəvvürümüzdən də çox uca bir mövqe əldə edir. Allah rəsulu (s) buyurub: "Cənnət anaların ayaqları altındadır".[1] Bir kişi peyğəmbərdən soruşdu: "Ey Allah rəsulu, kimə yaxşılıq edim?" Buyurdu ki, anana. Soruşdu ki, sonra kimə? Buyurdu ki, anana. Soruşdu ki, bəs ondan sonra kimə? Yenə buyurdu ki, anana. Dördüncü dəfə soruşanda isə buyurdu ki, atana.[2]

Möhtərəm iştirakçılar! İndiyədək buna bənzər bir şey eşitmisiniz?! Dünyanın harasında görmüsünüz ki, bir dövlət başçısı anasının müharibədə iştirak etməyə qoymadığı bir əsgərinə desin: "Ananın yanında qal. Onun yanında olsan, vuruşmağın savabını da qazanarsan".[3]

Bir-iki nəfərlə birlikdə daim etiraz edib ətrafdakıları bezdirmiş kişinin səsi ucaldı. Deyəsən, doktor Məcidi də onların etirazını eşitmişdi. O, bir qədər pauza verdi, sonra üzünü onlara tutub dedi: "Mənim sözlərimlə bağlı sualınız və ya etirazınız varsa, buyurun". Bütün zala sükut çökdü. Doktor Məcidi mikrofonu bir qədər tənzimləyib daha ucadan sözünə davam etdi:

– Bir kişi peyğəmbərlə görüşüb dedi: "Mənim eləmədiyim pis iş yoxdur. Mənim üçün tövbə yolu varmı?" Peyğəmbər (s) soruşdu: "Ata-anan sağdır?" Cavab verdi ki, atam sağdır. Peyğəmbər buyurdu: "Get, atana yaxşılıq elə". Kişi gedəndən sonra peyğəmbər çox təəssüflə buyurdu: "Kaş anası da sağ olaydı!"

---

[1] Məhəmmədi Reyşəhri, Mizan əl-hikmə, c. 14, hədis 22691.
[2] Kuleyni, c. 2, s. 159.
[3] Məhəmmədi Reyşəhri, c. 14, hədis 22696.

Mötərizə arasında bir söz deyim: Əgər arxandakı bütün körpüləri uçurmuş olsan da, İslam məktəbində yenə ümidsizliyə yer yoxdur və tövbə qapısı həmişə açıqdır.

İndi isə öz söhbətimizə qayıdaq: Ananın məqamı barədə bir nümunəyə də toxunmaq istəyirəm. Allah peyğəmbərindən (s) belə nəql olunmuşdur: "Atanla anan eyni zamanda səni çağırsalar, əvvəlcə anana cavab ver".[1]

Bir qadın zalın keçid hissəsində düzülmüş stulların birindən ayağa qalxıb dedi:

– Bağışlayın, xanım doktor. Mən Məryəm Kiyayam, 1973-cü ildə Tehranda doğulmuşam. İnqilab zamanı uşaq idim, o vaxt ailəmlə birlikdə Amerikaya gəlmişik. Bir neçə ildir İslam Araşdırmaları Mərkəzinin yaxınlığında yaşayırıq. Mən sizin seminarın elanını görmüşdüm, amma iştirak etmək istəmirdim. İnsanların, xüsusən də müxtəlif xalqlardan olan xanımların izdihamını görüb mən də qatıldım. Birinci seminar mənim üçün çox maraqlı oldu. Qadına qara baxışla bağlı elə sözlər eşitdim ki, otuz ildən artıq müddətdə bütün vücudumla dərk etdim. Buna görə də bu gün vaxtım olmasa da, bu seminarda iştirak etmək qərarına gəldim. Əlbəttə, içəri çətinliklə girə bilmişəm.

Xanım doktor! Ömrümdən otuz beş ildən çox ötür. Təxminən deyə bilərəm ki, çox zəif bir inancdan başqa İslamla, ya da başqa bir dinlə heç bir əlaqəm yoxdur. Səmimi etiraf edirəm ki, bədənimin bütün hüceyrələri bir-bir sizin sözlərinizdən təsirlənir. Lakin beynimdə bir sual yaranıb: Siz İrandan gəlmisiniz, qadın araşdırmaları sahəsində tədqiqatçısınız. Sizin kimi şəxsiyyətlərin olmasına baxmayaraq, bəs nə üçün İranda qız və qadınların bəzisinin vəziyyəti elədir? Tehranın bəzi yerləri

---

[1] Payəndə, s. 567.

sanki mənfi baxışın əsas mərkəzləridir. Mən ötən il novruz bayramında İrandaydım, orada bir boşanma şənliyinə dəvət olundum və bu, mənə çox qəribə gəldi. Tehranda elə qadın və qızlar gördüm ki, elələrini Nyu-Yorkda çox az, ya da xüsusi məhəllələrdə görmək mümkündür. Yaxud, misal üçün, iranlı qadınları hava limanında çox asanlıqla tanımaq olur; ya hicablı və çadralıdırlar, ya da elə görkəmdədirlər ki, adam onları görəndə təəccübdən ağzı açıq qalır. Siz qara baxışın İrana nüfuzu barədə də fikirləşmisinizmi?

Doktor Məcidi xanım Kiyanın sözlərini diqqətlə dinləyəndən sonra stolun üzərindəki qeydlərini yerbəyer edib dedi:

– Siz əziz Kiya xanımdan və münasib yer tapa bilməyən digər bütün əzizlərdən üzr istəyirəm. Sualınız barədə deməliyəm ki, bu, İran cəmiyyətinin bir qismi barədə düzdür, amma iranlı qadınların çoxu kamillik ardıncadır. Sizə bir sualım var: Sizcə, İran xalqının, xüsusən də qadınlarının neçə faizi mənim qadına dair qara və ağ baxış barədə dediklərimi bilir?

Kiya bir qədər fikirləşib dedi:

– Bilmirəm... Bəlkə də, çox azı. Düşünürəm ki, çox-çox az olar.

Doktor Məcidi dedi:

– Afərin! Bu məlumatsızlığı sosial şəbəkələrin və əsas hədəfləri iranlı qız və qadınlardan ibarət olan sosial şəbəkələrin və peyk kanallarının bombardman sayağı əks-təbliğatlarının yanına qoysanız, əminəm ki, cavabınızı əldə edərsiniz. Növbəti seminarlarda bu barədə daha geniş danışacağam. Əgər icazə versəniz, çıxışımın son hissələrini 15 dəqiqəlik fasilədən sonra davam etdirim.

Xanım Həkimi tribunaya yaxınlaşıb hamını yandakı zala qəlyanaltıya dəvət etdi.

İstirahət zalında hamı doktor Məcidinin çıxışından heyrətləndiyini bildirir, ağ və qara baxışların müqayisəsi haqda danışırdı. Xanımların biri uşaqlıqda ata və anasının pis rəftarları, böyüyəndə də təhsil və iş mühitinin və cəmiyyətin əziyyətləri barədə kədərlə və emosional tərzdə danışırdı. Bir dəstə adam onun başına toplaşmışdı. Digər tərəfdə yersiz etirazları hamını bezdirən və yoldaşlarının Mak çağırdıqları kişi bazar açmışdı, ucadan hər iki seminarı tənqid edirdi. Maşa Makın çevrəsinə yaxınlaşdı. Sara isə emosional xanımın dərdləşməsini dinləyirdi. Bəziləri bir kənara çəkilib özlərinə qulluq edirdilər. İstirahət vaxtı bitmədən çox adam zala qayıtdı.

Xanım Həkiminin səsi səsucaldandan yayıldı:

– Bütün əzizlərə təşəkkür edirik. Ümidvaram bugünkü seminar indiyə qədər faydalı olmuşdur. Xanım doktoru səhnəyə dəvət edirəm ki, vaxt itirmədən araşdırmalarından bəhrələnək.

Doktor Məcidi Allahın adı ilə söhbətə başlamaq istəyəndə qızılı saçını arxadan yığmış ucaboy bir qadın zalın ortasından əlini qaldırıb dedi:

– Bağışlayın, xanım doktor, indiyədək qadının mövqeyi barədə bəzi faydalı məsələlərə toxunmusunuz. Lakin başqa məqamlar da var: təhsil hüququ, iqtisadi mülkiyyət hüququ, siyasi sahələrdə səsvermə hüququ... Niyə bu sahələrdə qadına haqq tanımırsınız? Qadının alim və ya varlı olmaq haqqı yoxdur? Nə üçün hicab, həya və din bəhanəsi ilə qadını bu hüquqlarından məhrum edirsiniz?

Sara diqqətlə doktor Məcidinin nə cavab verəcəyini gözləyirdi. Maşa başını Saraya doğru əyib yavaşca dedi:

– Əhsən... Düz hədəfə vurdu!..

Doktor Məcidi dərin nəfəs alıb dedi:

– Təşəkkür edirəm. Sizin sualınızın cavabı qadına ağ baxışda dəqiq şəkildə mövcuddur. Məsələn, təhsil hüququ İslamda ciddi yanaşılmış məsələdir. Qadınlar 19-cu əsrin sonlarına qədər dünyanın əksər yerlərində təhsildən məhrum olduqları halda, qadın İslam baxımından bu hüquqa malik olmuş, hətta elm öyrənmək ona vacib edilmişdir. Allahın rəsulu (s) buyurmuşdur: "Elm öyrənmək hər bir müsəlman kişi və qadına vacibdir".[1]

İranın İsfahan şəhərində təxminən qırx-əlli il öncə Banu Əmin ləqəbli bir xanım vardı. O, dini sahədə məşhur alimlərin tələbəsi olmuş, bu elmlərdə ən yüksək dərəcəyə, yəni ictihad dərəcəsinə ucalmış, tədris etdiyi fiqh və fəlsəfə dərsləri məşhurlaşmışdı. Bu qadının böyüklüyü o yerə çatmışdı ki, böyük şiə alimlərindən ikisinə – Ayətullah Mərəşi Nəcəfiyə və Əllamə Əminiyə rəvayət icazəsi vermişdi.[2] Banu Əmin bir istisna deyildi, müxtəlif dönəmlərdə elmi məsələlərdə məşhur olmuş dəyərli qadınlar çoxdur. Beş qalın cildi olan "Rəyahin əl-şəriə" kitabında müxtəlif İslam dönəmlərinin alim qadınlarını tanıya və həyatları barədə məlumat oxuya bilərsiniz. Banu Əmini və digər alim müsəlman qadınları 1917-ci ildə İngiltərədə doktorantura səviyyəsinə qədər təhsil almış, amma diplom ala bilməmiş qadınla müqayisə edin. Əlbəttə, diplom verməmək zülmü təhsildən məhrum etməklə müqayisədə çox kiçikdir.

Qadınların iqtisadi mülkiyyət hüququna gəldikdə isə kişi və qadınlar bu məsəslədə fitri baxımdan eynidirlər. Lakin təəssüf ki, digər baxışlarda qadınlar təxminən 1900-cü ilə qədər iqtisadi mülkiyyət haqqından məhrum olublar.

---

[1] Misbah əl-şəriə (İmam Sadiqə (ə) mənsub), s. 13.

[2] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 22.

Qurani-kərim isə bu barədə buyurur: "Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır".[1] Onların heç birinin haqqı tapdanmamalıdır. Həmçinin Quran qadının öz qohumlarından irs alması barədə buyurur: "Ata, ana və qohumların qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür. Həmin malın azından da, çoxundan da hissə müəyyən edilmişdir".[2]

Bu zaman zalın birinci cərgəsindən bir kişi əlini qaldırdı. Sara gözlərini ona dikdi. Doktor Seyk Saranın müəllimi idi. O dedi:

– Xanım doktor, bu məsələlər barədə yalnız bir kəlmə deyə bilərəm: Möhtəşəm! Möhtəşəm! Möhtəşəm! İndiyədək dostum cənab doktor Lanqa bir neçə dəfə demişəm ki, görəsən, mən oyağam, yoxsa yuxu görürəm? Doğrudan da, siz bu məsələlərin yanından necə belə sürətlə keçə bilirsiniz?

Doktor Seyki görmək, bu sözlərini eşitmək Sara üçün çox əhəmiyyətli idi. Maşa da doktor Seyki gördüyünə və eşitdiyi fikirlərinə görə təəccüb edirdi.

Doktor Məcidi doktor Seykin cavabında dedi:

– Tamamilə haqlısınız. Biz su içindəki balıq kimi suyun qədrini bilmirik. Bu məsələləri tələsik söyləmək onların dəyərini tam anlamağa mane olur. Amma başqa yolumuz yoxdur. Çünki əsas mövzu başqadır. Qurani-kərim kişinin həyat yoldaşına mehri barədə, əvvəla, onu verməyi kişiyə vacib edərək buyurur: "Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin".[3] İkincisi isə deyir: " Verdiyiniz şeylərin

---

[1] Nisa, 32.
[2] Nisa, 7.
[3] Nisa, 4.

(mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin"[1]

Xanımlar və cənablar! Bütün dünyada təxminən doxsan il öncəyə, Ərəbistanda isə son dönəmlərə qədər qadınlar səsvermə hüququndan məhrum olublar. Halbuki ağ baxışda qadınların fikri həmişə hörmətli sayılmışdır. Nümunə üçün, hicrətin səkkizinci ilində Məkkənin fəthi zamanı qadınlar peyğəmbərlə (s) beyət etmək istəyəndə Allah Mümtəhinə surəsinin 12-ci ayəsi ilə ona əmr etdi ki, qadınların beyətini qəbul elə. Beləliklə, peyğəmbər (s) əlini suyun içinə saldı, qadınlar da beyət əlaməti olaraq əllərini suya saldılar. Həmçinin o həzrət özünün axırıncı həcc səfərində həzrət Əlini (ə) canişin kimi təqdim edəndə bir çadır qurdu, bütün müsəlmanlar, o cümlədən qadınlar üç gün həzrət Əli ilə (ə) beyət etdilər.

Qadınların cəmiyyətdə mühüm roluna dair son nümunə olaraq İslamın ən mütərəqqi göstərişlərindən olan yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə qaydasını göstərə bilərəm. Qurani-kərimdə bu barədə belə bir ayə var: "Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (dayaqdırlar). Onlar yaxşı işlərə dəvət edər, pis işlərdən çəkindirərlər".[2] Yəni qadın cəmiyyətin digər qadınlarını, hətta kişilərini və müsəlman məmurlarını yaxşı işlərə dəvət edə və pis işlərdən çəkindirə bilər. Bu, qadının cəmiyyətdə ən aktiv iştirakını, müxtəlif insani məsələlərdə və cəmiyyətin islahında əvəzsiz rola malik olmaq baxımından kişi ilə bərabər olduğunu göstərir. Ailə münasibətlərində qadının hörmətinə dair də maraqlı məlumatlarımız var.

Doktor Məcidi üzünü ucaboy qadına tərəf çevirib dedi:

---

[1] Nisa, 19.
[2] Tövbə, 71.

– Mən qadının mövqe və rolunun əhəmiyyətinə sizin sualda istədiyinizdən də geniş şəkildə toxunuram. Qurani-kərimdə cütlüklərarası münasibətin keyfiyyəti üçün on yeddi dəfə "məruf", yəni "yaxşı" sözündən istifadə olunmuşdur. Məsələn, Nisa surəsində buyurur: "Onlarla yaxşı rəftar edin".[1] Yəni qadınlarla münasibət və həyat yaxşı və gözəl olsun. Görək zahirən mədəni olan 21-ci əsr adamları arasında belədir? Qadın haqlarına hörmətin hədsiz dərəcəsi odur ki, Qurani-kərim hətta kişinin qadından ayrılmasında da bu sözdən istifadə edir. Biz iranlılar deyirik ki, davanın ortasında halva paylamırlar. Ancaq Qurani-kərimə, Bəqərə surəsinin 231-ci ayəsinə görə, ər-arvad davası zamanı halva paylamaq lazımdır. Kişilərə deyir ki, boşanmanın bir növü olan rici talaqdan sonra ya boşanmaq fikrindən yaxşı şəkildə daşınsınlar, ya da qadınlarını yaxşı şəkildə azad etsinlər.

Müsbət baxışda qadın və kişi insani hüquq və dəyərlər baxımından tam bərabərdirlər və onlara cinsiyyətlərinə görə baxılmır. Üstünlük meyarı isə onların yaxşılığı və layiqliyidir. Qurani-kərim buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız ən təqvalı olanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır".[2]

Əlbəttə, müsbət baxışda bu var ki, hüquq oxşarlığı bütün sahələrə aid deyil. Bu da təbiidir. Çünki qadınla kişi mənəvi-emosional, fizioloji, bioloji və digər xüsusiyyətlərinə görə bir-birinə əsla bənzəmirlər. Bu baxımdan, hüquqların eyniliyi qadınla kişiyə, bəşəriyyətə,

---

[1] Nisa, 19.

[2] Hucurat, 13.

fitrətə və yaradılışa xəyanət olardı. İnsaniyyət məsələsində qadınla kişi bərabərdir, insaniyyət amilinə aid hüquqlar tamamilə eynidir, hətta, bəlkə də, bəzi məsələlərdə qadınlara daha çox diqqət yetirilmişdir. Allahın rəsulu (s) bu barədə buyurur: "Həqiqətən, uca Allah qadınlara qarşı kişiyə qarşı olduğundan da mehribandır".[1] Bu baxımdan, hüquq çəki etibarilə bərabər və oxşardır, amma formaca fərqlidir. Qurani-kərim buyurur: "(Qadınların) vəzifələri olduğu kimi, (kişilər) üzərində layiqli hüquqları da vardır".[2]

Bu zaman saçını kişi saçı kimi düzəltdirmiş başqa bir qadın əlini qaldırıb ayağa qalxdı və dedi:

– Bəs nə üçün qadın kişinin ixtiyarında olmalıdır? Nə üçün kişinin istədiyi hər bir işi görməlidir? Məgər qadın kişinin nökəridir?! Kişi üçün uşaq doğmalıdır, uşağına süd verməlidir... Niyə?

Doktor Məcidi dedi:

– Müsbət baxış qadına nəinki nökər kimi baxmır, hətta onu kişinin yanında birinci dərəcəli insan kimi görür. İmam Əli (ə) buyurur: "Qadına gücündən artıq iş vermə. Çünki qadın bahar gülüdür, qulluqçu və fəhləbaşı deyil".[3]

Fitri baxışda qadına bu hörmət o qədər önəmlidir ki, evdarlıq vəzifələri, hətta körpəyə süd vermək də ona vacib deyil. Hətta qadın süd vermək üçün ərindən pul ala bilər. Bu vəzifələrin qadına vacib olmamasının səbəbi, bəlkə də, budur ki, ona qulluqçu kimi baxılmasın. Əlbəttə, qadınlarda olan emosiyalar onun bu işləri eşqlə və təmənnasız şəkildə görməsinə səbəb olur.

---

[1] Hürr Amili, Vəsail əl-şiə, c. 21, s. 367.
[2] Bəqərə, 228.
[3] Kuleyni, c. 5, s. 510.

Ağ baxışda dastanların qəhrəmanı həmişə kişilər deyil, qadınlar ikinci-üçüncü dərəcəli varlıqlar sayılmırlar. Ağ baxış Şekspirin pyesləri kimi deyil ki, qadın bir xidmətçi kimi görülsün, kişini "ağa", "sərvər" və "ərbab" kimi sözlərlə çağırsın. Əksinə, hər bir qəhrəman kişinin yanında şan-şöhrətli qadın və ya qadınlar görünür. Əlbəttə, bu sözləri söyləməyin öz-özlüyündə problemi yoxdur. Əgər bir xanım bunları eşqlə ərinə desə, çox gözəldir. Ancaq qadın bir qulluqçu kimi görülsə və bunları demək məcburiyyətində qalsa, əsla qəbulolunan deyil.

Müsbət baxışda həzrət Adəmə (ə) bütün insanların atası kimi baxılırsa, həzrət Həvva da hörmətlə yad edilir. Adəmə cənnətdə yer verildiyi kimi, Həvvaya da yer verilir və hər ikisinə müraciət olunur: "Hər ikiniz istədiyiniz yerdən (cənnət meyvələrini dərib) yeyin".[1]

İbrahim Xəlilin (ə) yanında fədakar həyat yoldaşı Hacər xanım görünür. Həzrət Musanın (ə) əhvalatının qəhrəmanları Musanın anası ilə fironun xanımıdır. Qurani-kərim Musanın anası barədə deyir: "Anana vəhy olunan şeyi vəhy etdiyimiz zamanı (yadına sal)".[2] Musanın anası elə bir məqamdadır ki, ona bir növ vəhy nazil olur. Fironun xanımı elə xanımdır ki, Quran onu imanlı kişi və qadınlara örnək göstərir: "Allah iman gətirənlərə isə fironun zövcəsini misal çəkdi".[3]

Firon onun iman gətirdiyini biləndə əmr etdi ki, əl-ayaqlarını yerə mıxlasınlar, günəşin altında saxlayıb sinəsinə çox böyük bir daş qoysunlar.[4] Bu qəhrəman qadın can verərkən belə dua edirdi: "Ey Rəbbim! Mənim üçün

---

[1] Əraf, 19.
[2] Taha, 38.
[3] Təhrim, 11.
[4] Bax: Məkarim Şirazi, Nasir, Nümunə təfsiri, c. 24, s. 303.

Öz dərgahında – cənnətdə bir ev tik! Məni firondan və onun əməlindən qurtar! Məni zalım qövmdən xilas et!"[1] Harada Musa varsa, Asiyə də var və hörmətlə yad olunur.

İsaya (ə) gəldikdə isə həmişə yanında elə bir xanım var ki, özünü keçməsə də, ona İsadan (ə) aşağı gözlə baxa bilmərik. Məryəm xanım təqvası və paklığı hər yerdə məşhur olan bir qadındır. Məqamı o qədər ucaydı ki, mələklər ona cənnət xörəyi gətirirdilər. Zəkəriyya onun otağındakı xörəkləri görüb təəccüblə soruşurdu: "Ey Məryəm, bunlar sənə haradandır?"[2] Məryəm də cavabında deyirdi: "Allah tərəfindəndir".[3]

Məryəmin müqəddəsliyi o qədər böyükdür ki, Allah onun barəsində müstəsna bir iradə göstərmiş, əri olmadan oğul dünyaya gətirmiş və həmin oğul Allahın ən böyük peyğəmbərlərindən biri olmuşdur. Bunların hamısı düşünüləsi məqamlardır. Gördüyünüz kimi, müsbət baxış qadınlar üçün iynə ucu qədərincə də səhlənkarlıq etməmişdir.

İndi isə son peyğəmbər barədə! Allahın son peyğəmbəri həzrət Məhəmmədin (s) məktəbində qadınların əvvəlkindən olduqca böyük məqamı olmuşdur. Biz bu barədə danışdıq. Mən onun cümlələrindən iki nümunəyə toxunacağam: "Qadınlara yalnız alicənab insan hörmət edər; onlara yalnız səviyyəsiz insan hörmətsizlik edər".[4] Yəqin, siz də qəbul edərsiniz ki, bəşəriyyət bu qədər inkişaf və sivilizasiya iddiasına baxmayaraq, bu ali və insani məfhumlardan çox uzaqdır.

---

[1] Yenə orada.

[2] Ali-İmran, 37.

[3] Yenə orada.

[4] Payəndə, s. 472.

İkinci cümlə isə ağ baxışla böyümüş və qadın araşdırmaları ilə peşəkar şəkildə məşğul olmuş mənim kimi bir adamı da təəccübləndirir.

Doktor Məcidi bir qədər pauza verib iştirakçılara baxdı. İştirakçıların heyrət dolu gözləri ona dikilmiş, nəfəslər sinələrdə dayanmışdı. Sara bunu eşitməyi səbirsizliklə gözləsə də, sanki taqəti qalmamışdı. O, gözlərini qırpmadan doktor Məcidiyə baxırdı; Maşa və digərləri də həmçinin.

Doktor Məcidi sakit və təsirli səslə sözünə davam etdi:

– İslam mədəniyyətində ən kiçik hörmətsizliyə və saymazlığa "uf" deyirlər. Qurani-kərim müstəsna mövqeyi olan ata və ana barədə tövsiyə edir ki, onlara "uf" da deməyin. İslam peyğəmbərinin (s) leksikonunda bu sözdən qadınlarla münasibət üçün də istifadə olunmuşdur. O buyurmuşdur: "Cəbrayıl qadınları mənə o qədər tapşırdı ki, elə bildim, kişiyə öz xanımına "uf" demək də qadağan olunacaq".[1]

Seminarda iştirak edən xanımlar bu cümləni eşitdikdən sonra özlərindən asılı olmadan ayağa qalxıb əl çalmağa başladılar. Az sonra kişilər də onlara qoşuldular. Sara əl çalıb fikirləşir, keçmiş düşüncələrini daha çox sual altında görürdü. Maşa da əvvəlki Maşa deyildi.

Doktor Məcidi sözünə davam etdi:

– Bütün bu təriflərə rəğmən, kimsə qadının kişidən üstün olduğunu düşünsə, ağ baxışı tanımamışdır. Qadın və kişi bir-birinin yanındadırlar və bir-birini tamamlayırlar. Qadınlar üçün nə varsa, başqa şəkildə kişilər üçün də var. Əgər qadın evin idarəçisidirsə, kişi də ailənin idarəçisidir.

---

[1] Nuri, c. 14, s. 252.

Qadın və ya kişi olmaq üstünlük yaratmır. Hər birinin öz xüsusiyyətinə görə üstünlüyü, vəzifəsi və hüququ var.

Qəhrəmanlar qəhrəmanı və yaranışın ən üstün şəxsiyyəti olan son ilahi peyğəmbərin yanında çoxlu böyük qadın olmuşdur: Aminə xanım, Fatimə bint Əsəd, Xədicəyi-Kübra adlı nümunəvi bir şəxsiyyət... Tarixçilər Xədicənin böyüklüyü barədə yazmışlar: "İslamın inkişafına üç amil səbəb oldu: peyğəmbərin (s) gözəl əxlaqı, Əlinin (ə) rəşadəti və Xədicənin sərvəti".[1]

Bu dəyərli İslam xanımı Qüreyşin ən böyük tacirlərindən idi, dörd yüz qul və kənizi onun evi və ticarəti ilə məşğul olurdu.[2] O, bütün əmlakını İslamın inkişafı üçün xərclədi; belə ki, ömrünün son anlarında hətta kəfən üçün də bir şeyi qalmamışdı.[3] Əlbəttə, Allah Xədicə üçün çox şey etdi, bir neçə dəfə vəhy mələyi vasitəsilə peyğəmbərinə (s) buyurdu: "Mənim salamımı Xədicəyə yetir!"[4] Xədicənin böyüklüyü haqda bir kitab qədər danışmaq olar, amma vaxt məhdudiyyətinə görə yalnız peyğəmbərin bu cümləsi ilə kifayətlənirəm: "Xədicə Məryəm və Asiyə ilə birlikdə dörd cənnət qadınından biridir".[5]

İndi isə gələk dördüncü cənnət qadınına. Şair deyir ki, dənizlərin suyu sənin fəzilətini yazmağa kifayət etməz. Bu misranın ən real nümunəsi peyğəmbərin yanında olan bir xanımdır. Şəxsiyyəti barədə yüzlərlə kitab yazılsa da, o,

---

[1] Tehrani, Hüseyn, Xəsais ümm əl-möminin Xədicə əl-Kübra, s. 165.

[2] Rəhtuşəye-rahiyane-nur, s. 214.

[3] Tehrani, s. 201.

[4] Məclisi, c. 16, s. 8; Bu hədis Əhli-sünnənin Səhih-Müslim, Səhih-Buxari, Müsnəd Əhməd ibn Hənbəl və digər önəmli kitablarında qeyd olunmuşdur.

[5] Yenə orada, s. 108.

hələ də tanınmaz və əlçatmaz qalmışdır. Onun adı Fatimədir; çünki yaranmışlar onu dərk etməyə acizdirlər.[1] Allah bu xanım barədə peyğəmbərinə buyurmuşdur: "Ey bizim peyğəmbərimiz! Əgər sən olmasaydın, kainatı yaratmazdım. Əgər Əli olmasaydı, səni və kainatı yaratmazdım. Əgər Fatimə olmasaydı, səni, Əlini və kainatı yaratmazdım".[2] Allah rəsulunun (s) əziz qızı və həzrət Əlinin (ə) həyat yoldaşı olan Fatimeyi-Zəhra (ə) bütün yaxşılıqlar və gözəlliklər anasıdır.

Son nümunə olaraq adı dünyanın ən azadlıqsevər və ən islahatçı insanı olan Hüseyn ibn Əlinin (ə) adının yanında çəkilən qadından danışmaq istəyirəm. Hüseyn (ə) dinin napakların əlinə düşdüyünü gördükdə azsaylı tərəfdarları ilə birlikdə zalım, antiinsani və əbusüfyançı imperatorluğa qarşı çıxdı, bütün varlığını, hətta altıaylıq körpəsini də təqdim etdi ki, Adəm övladları üçün hidayət çırağı və qurtuluş gəmisi olsun. Onun qiyamını tarixdə yaşadan isə bacısı Zeynəbin maarifləndirmələri oldu...

Son məsələ əhəmiyyətli və psixoloji bir məsələdir: Allah qadında bir hiss və instinkt yaratmışdır. Buna özünügöstərmə hissi deyirlər. Xanımlarda bu hissin olması hikmətli yaradılışın şah əsərlərindən biridir. Qadın bu hisslə ailə ocağını isidir, uğurlu övladlar yetişdirməklə cəmiyyəti bacardıqca inkişaf etdirir. Bu baxımdan, fitrət qanununa və psixoloqların etirafına əsasən, qadınlar – istər qız, istər həyat yoldaşı, istər ana – görülməyi sevirlər. Əlbəttə, bütün insanların diqqətə ehtiyacı var, amma bu ehtiyac qadında bir neçə dəfə çoxdur. Vill Dürant qadının ailə həyatında əsas ehtiyacını diqqət altında olmaq hesab

[1] Kufi, Fərat ibn İbrahim, Təfsir Fərat Kufi, s. 581.

[2] Rəhmani Həmədani, Əhməd, Fatimətüz-Zəhra - behcət qəlb əl-Mustafa, s. 9.

edərək yazır: "Qadınlar daha çox kişilərin mütləq və məchul təriflərini istəyirlər". Yəni kişi bəhanə ilə və ya bəhanəsiz olaraq öz həyat yoldaşını tərifləməlidir. O, sözünün davamında deyir: "Qadınlar daha çox istəyirlər ki, kişilər onların istəklərinə diqqət yetirsinlər. Bu istək onların cinsi ləzzətə meylindən çoxdur. Çox zaman, sevilmək ləzzəti onları daha çox sevindirir".[1] Bir İrlandiya məsəlində isə deyilir: "Qadını xəncərlə vurman ona diqqətsizlik etməndən yaxşıdır".[2]

Bu qadın instinktindən sui-istifadə olunmasın və ailə çərçivəsində ona uyğun cavab verilsin deyə ağ baxışda çox gözəl və zərif göstərişlər vardır. Bununla qadının və cəmiyyətin psixoloji sağlamlığı təmin olunur. Mən bu göstərişlərin kiçik bir qisminə işarə vuracağam: İslam peyğəmbəri (s) subay və evli qadınlara tövsiyə edirdi ki, saçlarını boyasınlar.[3] O, kişilərə deyirdi ki, dırnaqlarınızı qısaldın, qadınlara isə deyirdi ki, qısaltmayın, çünki dırnağın uzun olması sizin üçün zinətdir.[4] Əlbəttə, qadının zinəti özününkülər üçündür, başqaları üçün yox.

Bu zaman doktor Seyk yenə əlini qaldırıb ayağa qalxdı:

– Məşhur İtaliya psixoloqu Lomberzo deyir ki, qadının özünü göstərmək hissini ailədə təmin etmək onun sağlamlığının və yolunu azmamasının qarantıdır, – dedi, sonra mobil telefonunu qaldırıb baxdı və sözünə davam etdi: – Lomberzo sözünün davamında deyib: "Şübhəsiz, abır-həyanın mənşəyini sevgi və eşqdə tapmaq olar. Çünki

---

[1] Rəcəbi, s. 118.

[2] Qulami, s. 21.

[3] Hürr Amili, c. 2, s. 97.

[4] Kuleyni, c. 6, s. 491; Hürr Amili, c. 2, s. 134.

qadın kişinin onu sevdiyini və özünün də onu bəyəndiyini görəndə özünü başqalarına göstərmək məqsədi olmur".[1]

Doktor Məcidi başını yelləyərək onun sözünü təsdiqlədi və dedi:

– Qurani-kərimdə xanımlarla bağlı çoxlu ayələrdən əlavə, "Qadınlar" adlı bir surə də vardır. Təəssüf ki, kapitalizm bu qadın hissindən sui-istifadə edərək qadın azadlığına dair yalançı fəryad qoparır. Məzlum qadınlar da çox tezliklə bu gözəl şüarlara aldanır və özlərinə qarşı daha böyük zülmə yol açırlar. Mən növbəti seminarlarda bu məsələ barədə daha geniş danışacağam. Bu sahədə tövsiyələrdən biri də beşinci Əhli-beyt imamı Məhəmməd Baqirin (ə) bir cümləsidir: "Qadının özünü zinətsiz qoyması yaxşı deyil. Ən azı boynundan bir boyunbağı assın".[2] Maraqlıdır biləsiniz ki, bəzək əşyalarından istifadə on dörd əsr öncə qadınlara tövsiyə olunub. Bunda məqsəd qadının özünü göstərmək hissinin hər bir mümkün yolla təmin olunmasıdır.

Peyğəmbər (s) bir kişiyə buyurub: "Xanımına tövsiyə elə ki, zinətsiz namaz qılmasın. Əgər zinət əşyası tapmasa, ən azı boynundan bir dəri (boyunbağı) assın".[3] Çox dəqiq və zərif məqamdır ki, İslam mədəniyyətində zinət əşyalarından istifadəyə dini rəng verilir, ibadət və namaz zinətlə birlikdə olanda daha savab əməl kimi təqdim olunur. Qadına və onun instinktinə hörmət elə bir həddədir ki, ipəkdən və qızıldan paltarlar kişilərə qadağandır, qadınlara isə olar. Yenə də beşinci Əhli-beyt imamı

---

[1] Rəcəbi, s. 96.
[2] Kuleyni, c. 5, s. 509.
[3] Məclisi, c. 80, s. 188.

buyurub: "Allah qızılı dünyada qadının zinəti üçün yaratmış, kişilərə isə haram etmişdir".[1]

Maraqlıdır ki, hətta həyat yoldaşı kor olan qadına da ətir və hənadan istifadə ilə bu instinktini təmin etməsi tapşırılır. Allah rəsulundan (s) belə soruşulmuşdur: "Qadın kor əri üçün necə bəzənsin?" O isə cavab vermişdir: "Ətirlə və gözəl ətri olan həna ilə özünü bəzəsin".[2]

İştirakçıların nə qədər sevindiklərini anlamaq çətin deyildi. Doktor Məcidinin söhbətlərinin sonu hisslərin daha çox ifadəsi üçün yaxşı fürsət oldu. İştirakçıların alqışları bitəndə bu iki seminarda həmişə deyinən və istirahət zamanı ucadan etiraz edən kişi hirslə yerindən qalxıb qışqırdı:

– Siz üçüncü dünya sakinləri belə söz və ittihamlarınızla inkişaf etmiş müasir Qərb dünyasını təhqir edirsiniz. Biz elə bir yerə çatmışıq ki, sizin kiçik beyinləriniz onu təsəvvür də edə bilmir. Niyə Qərbi əskik tutursunuz? Əgər bacarırsınızsa, özünüzü yuxarı qaldırın. Bu seminarların əsl məqsədi terrorçu yetişdirməkdir. Siz geriliyinizin intiqamını bizdən almaq istəyirsiniz.

Hamı mat-məəttəl etirazçı kişiyə baxır, o isə dayanmadan qışqırırdı:

– Siz terrorçusunuz! Əl-Qaidə və İŞİD-lə əlbirsiniz!

Seminarın mühafizə qüvvələrindən iki nəfər onu çıxış qapısına doğru apardı. O isə hələ də üzünü səhnəyə tutub sözlərini təkrarlayırdı.

Onlar gedəndən sonra zala sükut çökdü. Xanım Məcidi öz qeydlərinə baxırdı. Bəzilərinin baxışları çıxış qapısına dikilib qalmışdı. Sara ilə Maşa bir-birinə baxdılar. Doktor Seykin dostu olan doktor Lanq sükutu pozub dedi:

---

[1] Hürr Amili, c. 4, s. 414.

[2] Kuleyni, c. 5, s. 564.

– Mən Lanqam; universitet müəllimiyəm və elmi bəhsləri siyasi bəhslərdən ayırd edə bilirəm. Bu iki seminarda sizdən eşitdiklərim tamamilə elmi məsələlər idi. Məlum idi ki, təəssübkeşliklə deyilmir. Əziyyətlərinizə görə sizə təşəkkür etməyi özümə borc bilirəm. Yeni və maraqlı mövzulardır. Gərək düşünək ki, bundan sonra kimin komandasında oynayırıq: kapitalistlərin komandasında, yoxsa qarşı komandada. Əminəm ki, xanım doktorun məqsədi budur. O, bir müsəlman olsa da, bu sözləri deməklə İslamı təbliğ etmək niyyətində deyil. O, yalnız həqiqəti söyləmək və məsələləri aydınlaşdırmaq istəyir. Qədim hekayələrin birində deyilir: "Bir kişi quyu qazır. Yaxınlıqdan bir ticarət karvanı keçir. Karvan yaxınlaşanda quyunu qazan dostlar işlərini saxlayıb camaatla birgə karvana doğru qaçırlar. Quyuqazan quyunun dibindən dayanmadan qışqırır: "Yuxarıda nə olub?" Bir nəfər quyunun başına gəlib deyir: "Gəl çölə, gör nə olub. Nə qədər ki quyudasan, heç nə anlamazsan!" Məncə, siz bu iki seminarda bizə demək istəyirdiniz ki, bizi saldıqları quyudan bir anlığa çıxaq; bizim üçün yaratdıqları bu hay-küydən, problemlərdən və əyləncələrdən çıxaq, bir qədər özümüzə, mövqeyimizə və dəyərli bacarıqlarımıza baxaq. Sizin məqsədiniz bu idi ki, dünyada mövcud olan iki cəbhəni yaxşı tanıtdırasınız. Məsihi, yəhudi, müsəlman, buddist, qərbli və şərqli bir-birinin yanında olmalı, əl-ələ verib kapitalistlərin qarşısında dayanmalıdırlar. Əlbəttə, siz məsələləri daha çox İslam tərəfdən bəyan etdiniz. Bu da sizin təqsiriniz deyil. Bu həddə gözəl məsələlər başqa yerdə yoxdur. Mən xanım doktora təşəkkür edir və bu araşdırmada çəkdiyi böyük zəhmətlərinə görə onu ayaq üstə alqışlamaq istəyirəm.

Doktor Lanq bu sözləri deyəndən sonra əl çalmağa başladı. Əlləri təxminən üç-dörd dəfə bir-birinə dəyməmiş təxminən zaldakıların hamısı ayağa qalxıb doktor Məcidini dayanmadan alqışladı.

Əl çalandan sonra tədricən hamı öz yerində oturdu. Doktor Məcidi mikrofonu bir qədər yerbəyer edib təvazökarlıqdan və hörmətdən doğan təbəssümlə başını yellədi və dedi:

– Mən vəzifəmi yerinə yetirmişəm. Mənim üçün ən yaxşı hədiyyə və həvəsləndirmə budur ki, bəhslər sizin tərəfinizdən bəyənilir. Ümidvaram ki, bunlar özünüzün bu sahədə fərdi tədqiqatınıza giriş olacaq. Doktor Lanqa gözəl sözlərinə və gözəl hekayəsinə görə təşəkkür edirəm. Bu hekayə dəqiqliklə bizim halımızı bəyan edir.

Mənim yenə təkrarlamaq istədiyim məsələ budur ki, bəhsi Şərqə-Qərbə ayırmayaq. Mən İranda universitetlərdə dərs deyirəm. Sinifdə dəfələrlə uşaqlara demişəm ki, gəlin bir qədər qərbli olaq. Bu cümləni ilk dəfə eşidən bəzi tələbələr etirazlarını bildirirlər. Onları başa salıram ki, işdə vicdanlılıqda, çalışmaqda, qanunlara əməldə, cəmiyyətin hüquqlarına əməl etməkdə, qarşılıqlı hörmətdə, elm zirvələrinə ucalmaqda və digər bu kimi məsələlərdə öz dini göstərişlərimizə əməl etmək istəmiriksə, heç olmasa, qərblilərə baxaq. Onlardan soruşuram ki, Almaniya və Yaponiyada səmərəli iş saatı nə qədərdir, İranda nə qədər? Niyə bizim fərqimiz bu qədər çoxdur? Niyə bu qədər az işləyirik? Nə üçün bu qədər misilsiz dini örnəklərimiz ola-ola bizdə iş vicdanı azdır? Bizim peyğəmbərimiz (s) bir nəfərin məzarını çox diqqətlə düzəldirdi. Bəzi səhabələr dedilər ki, ey Allahın rəsulu, niyə bu qədər vasvasılıq edirsiniz; bu şəxs artıq ölüb. Peyğəmbər (s) buyurdu:

"Mömin ya bir işi görməz, ya da görsə, düzgün görər".[1] Tələbələrə qərblilərin həyatının həsrətini çəkməyi qadağan edirəm. Onlara deyirəm ki, əgər peyğəmbərinizdən örnək götürmürsünüzsə, heç olmasa, qərblilərin müsbət cəhətlərini nümunə seçin.

Bəli, dostlar, vaxt bitib. Mən söhbətimi tamamlayır və diqqətinizə görə hər birinizə səmimi təşəkkürümü bildirirəm. Növbəti bazar günündə görüşənədək!

Doktor Məcidinin çıxışından sonra iştirakçıların bir çoxu onun masasının başına toplaşdı. Uzun müddət səmimi söhbətlər edildi və sual-cavab oldu. Zal təxminən boşaldı. Lakin Sara, Maşa və başqa bir neçə nəfər hələ söhbətləşirdilər. Doktor üzünü Sara ilə Maşaya tutub dedi:

– Necə idi?

– Əla, – Sara dedi.

Maşa da təsirlənsə də, daxili hissini göstərmək istəmirdi. Yalnız bunu deyə bildi:

– Sara nə desə, odur!

Xanım doktor gülümsəyib iranlılara bənzəyən bir gənc qıza dedi:

– Siz, əzizim, məncə, iranlı olmalısınız? Düzdür?

– Bəli, Nidayam, – gənc qız dedi, – iranlıyam, amma on ildir Amerikada yaşayıram.

– Əzizim... mən sizə bu sual verə bilərəm?

– Əlbəttə, – Nida dedi.

– Seminarın bir hissəsində gözlərinizin yaşardığını gördüm. Bunun xüsusi bir səbəbi vardı?

Nida əlini qaşının üstünə çəkib bir qədər ləng cavab verdi:

---

[1] Hürr Amili, c. 3, s. 230.

– Düzü... bəli, əlaqəsiz deyildi. Qadına müsbət baxış barədə danışanda yadıma düşdü ki, İranda İmam Xomeyninin öz həyat yoldaşına yazdığı eşq məktubundan danışırdılar. O anda məktubu axtarış edib oxudum və ixtiyarsız olaraq gözlərim yaşardı. Bəlkə də, sevincdən idi, bu aşiqanə, gözəl və zərif baxışa görə; bəlkə də, qəm göz yaşları idi, öz həyat yoldaşımın çox sevgisiz olduğuna görə.

– O məktubda nə yazıldığını bilməyi çox istəyərdim, – Sara dedi.

– Telefonumda var, – Nida dedi. – Mən bir neçə dəfə oxudum. Təxminən əzbərləmişəm.

Xanım Məcidi mehriban şəkildə əlini Nidanın çiyninə qoyub dedi:

– Gözəlim... mehriban qəlbin var. Ümidvaram Allah sənə kömək edər. Düzü, mən İmam Xomeyninin gözəl fikirlərindən qeydlər hazırlamışdım, təəssüf ki, vaxt az oldu, kənara qoymalı oldum.

– İndi deyə bilərsənmi o məktubda nə yazılıb? – Maşa üzünü Nidaya tutub soruşdu.

– Mən məktubu oxuya bilərəm, amma xanım doktor həmişə ən yaxşı mətləbləri seçdiyinə görə düşünürəm ki, hamı bu barədə onun danışmasını istəyər.

Maşa xüsusi həyəcanla Nidanın sözünü təsdiqlədi. Sara da Maşaya mənalı baxışla razılığını bildirdi. Xanım Məcidi dedi:

– İmam Xomeyniyə görə, qadınlar hansı din və məzhəbdən olsalar da, cəmiyyətlərin əsas sütunlarıdır. O buyurub: "Ölkələrin xoşbəxtliyi və bədbəxtliyi qadına bağlıdır". Qadınların İran İslam İnqilabında mühüm rolu barədə isə deyir: "Kişilər kimi hörmətli qadınlar da meydandaydılar. Hətta demək olar ki, onların zəhməti

kişilərdən də çox idi". Hamının düşündüyünün əksinə olaraq, onun qadının ictimai rolu barədə fikri budur: "Qadının cəmiyyətdə rolu kişidən üstündür". Çox əhəmiyyətlidir ki, o cəmiyyəti qadınların zəhmətlərinin məhsulu hesab edərək buyurur: "Qadın cəmiyyəti tərbiyə edəndir".

Əlbəttə, İmam Xomeyniyə görə, ictimai rola sahib olmaq mütləq cəmiyyətdə fiziki iştirak etmək demək deyil. Yəni qadının cəmiyyətdə fiziki iştirakı kişiyə nisbətən az olsa da, ən mühüm ictimai rol onun üzərinə düşür. Çünki o, cəmiyyəti təşkil edən amilləri, yəni gələcək kişi və qadınları yetişdirir. Bu gün hiylə ilə qadının bu mühüm rolunu ondan alırlar, qadını cüzi zəhməthaqqı müqabilində saatlarla işləməyə məcbur edirlər. Kişilər də qadınlarla rəqabətdə işlərini itirməsinlər deyə bacardıqlarından çox çalışırlar. Halbuki bunların hamısı kapitalist sistemin xeyrinə, ailənin və insaniyyətin əleyhinədir.

İmam Xomeyni insanların dünyəvi xoşbəxtliyindən əlavə, axirət xoşbəxtliyini də qadınlara borclu bilərək deyir: "Kişi qadının ətəyindən meraca gedir".[1] Bunlar böyük bir islamşünasın fikirlərinin bir hissəsidir. Mən bu qədərlə kifayətlənirəm. Nida can, sən məktubu bizə oxuya bilərsən?

Nida dərin nəfəs alıb mobil telefonunu çıxardı və dedi:

– İmam Xomeyni həccə gedəndə Beyrut şəhərindən həyat yoldaşına bir məktub yazıb. Bu məktub “Nur səhifəsi” toplusunun birinci cildinin ikinci səhifəsində belə qeyd olunur:

---

[1] Səhifeyi-nur, c. 6, s. 186; c. 12, s. 235; c. 14, s. 130; c. 6, s. 186; c. 6, s. 194.

Xanım Xədicə Səqəfiyə məktub. Zaman: mart, 1933/zilqədə 1351 h.q. Məkan: Livan, Beyrut. Mövzu: Ailəvi. Ünvan: Səqəfi, Xədicə.

Sənə qurban olum! Sənin kimi əzizimdən, gözümün işığından və qəlbimin qüvvətindən ayrı qaldığım bu müddətdə səni yada salıram, gözəl üzün qəlbimin aynasında əks olunur. Əzizim! Ümidvaram Allah səni Öz pənahında sağ-salamat və şən halda qorusun. Mənim günlərim, nə qədər çətin olsa da, ötür. Ancaq şükür Allaha, indiyədək nə baş veribsə, xeyir olub. İndi gözəl Beyrut şəhərindəyəm. Həqiqətən, sənin yerin çox görünür, yalnız şəhərə və dənizə tamaşa etmək üçün. Çox gözəl mənzərəsi var. Çox heyif ki, əziz sevgilim yanımda deyil və bu qəşəng mənzərəni seyr edə bilmir. Hər halda, ikinci gecədir ki, gəmi gözləyirik. Deyilənə görə, sabah bir gəmi yola düşəcək. Ancaq bizlər gec çatdığımıza görə gərək digər gəmini gözləyək. Hələlik tam məlum deyil. Ümidvaram Allah pak əcdadımın izzəti hörmətinə bütün hacıları əməllərini başa vurmağa müvəffəq edər. Bu baxımdan, bir qədər narahatıq, amma məzac sarıdan, şükür Allaha, salamatlıqdır; Allaha şükür olsun ki, məzacım daha yaxşıdır. Çox yaxşı bir səfərdir. Sənin yerin çox-çox görünür. Oğlun (Seyid Mustafa o zaman üç yaşında olub) üçün bir qədər darıxmışam. Ümidvaram hər ikisi (Seyid Mustafa və hələ dünyaya gəlməmiş övladı) o əzizin nəzarəti və Allah-taalanın qoruması altında sağlam və səadətli olsunlar. Ağaya (imamın qayınatası) və xanımlara (qayınanasına və qayınanasının anasına) məktub yazsan, məndən də salam söylə. Mən hamı tərəfindən naibüz-ziyarət olacağam. Xanım Şəms Afaqa (imamın baldızı) və onun vasitəsi ilə ağa doktora (imamın bacanağı) salam söylə. Xavər sultana və Rübabə sultana salam söylə.

Qarşıdakı səhifəni ağa Şeyx Əbdülhüseynə söyləyin, çatdırsın. Ömür boyu izzətli olasan! Sənə qurban! Ruhullah.

Doktor Məcidi dedi:

– Məktub başdan-ayağa emosionaldır. Çox dindar və etiqadlı bir şəxsiyyət olduğunu nəzərə alsaq, məktubu "qurban olum" sözləri ilə başlaması möhtəşəmdir. "Əzizim", "gözümün işığı", "qəlbimin qüvvəti", "gözəl üzün qəlbimin aynasında əks olunur" kimi hörmət və eşq dolu sözləri İmam Xomeyni kimi bir şəxsiyyətin söyləməsi qadının, həqiqətən, tanınmasının və onun uca məqamına dərin diqqətin əlamətidir. Çox nəzərə çarpan bir ifadə də "oğlun üçün darıxmışam" cümləsidir. O, "oğlum" və hətta "oğlumuz" demir, dolayı yolla həyat yoldaşına bildirir ki, bütün darıxmağım səndən ötrüdür, bir az da oğlun üçün darıxmışam. Həqiqətən, gözəldir. İndi icazə versəniz, mən gedim; çox gec oldu. Qorxuram ki, qadının çox uca məqamına baxmayaraq, ərim və dörd övladım məni evə buraxmazlar!

Hamı gülə-gülə doktor Məcidi ilə və bir-biri ilə sağollaşdı.

İkinci seminardan sonra Maşanın davranışında dəyişiklik hiss olunurdu, əvvəlki dəcəllikləri azalmışdı. Saranın mənəvi vəziyyəti də çox dəyişmişdi, əvvəlki qədər həyəcanlı və stresli deyildi.

***

Əfsanə tez-tez "Qadınlar üçün" və “İşrətkədə” saytlarını açırdı, amma qeydlərindən əsər-əlamət yox idi. O, vaxt itirirdi. Sara da demirdi ki, Əfsanənin son qeydlərində problem olub, yoxsa sayt müdirləri onun barəsində başqa bir şey fikirləşirlər.

Nəhayət, “Parazit” verilişindən zəng vurdular. Ürəyi dayanmaq üzrə idi. Qərara gəldilər ki, axşam canlı yayıma hazırlaşsın. Ona zəng vurmuş kişi dedi:

– Yaxşı olar ki, iranlı geyimi geyməyəsən; yəni geyməməlisən. Tamamilə müasir Qərb geyimi geyin. Varındırmı?

Əfsanə bir qədər mızıldayandan sonra dedi:

– Bəs... müasir Qərb geyimi yəni necə? Paltarım... qısaqoldur, rəngi də açıqdır. Bir şalım var, onunla dəst edirəm.

– Şal?! Pah-h-h! – kişi qəhqəhə ilə gülüb dedi. – Başına şal atmaq istəyirsən?

Əfsanə bir az narahat və nigaran halda dedi:

– Axı... indi tam götürə bilmərəm. Yəni... düşünürəm ki, diqqətim yayınar, danışa bilmərəm.

– Yaaxşı, – kişi istehzalı gülüşlə dedi. – Amma sancağı, rezini və ya ipi olmasın. Bay, qız!

– Okey... Bay...– Əfsanə narahat səslə dedi.

O, arzularına bir addım da yaxınlaşdığını düşünürdü, amma qəribə həyəcanı vardı. Saraya zəng vurdu ki, həm işinin gedişini soruşsun, həm də onunla verilişdə deyəcəkləri barədə məsləhətləşsin. Sara telefona cavab vermədi. Yenə zəng vurdu; üçüncü, dördüncü dəfə də. Vatsapda mesaj da yazdı, o isə onlayn deyildi.

Əfsanənin studiyaya getmək vaxtı çatmışdı. O, böyük narıncı yaxası və qısa qolları olan sarı mantosunu geydi, sarı və narıncı güllü fosfor yaşılı rəngli şalını başına saldı, onu üzünün ətrafında düzəldib səliqəyə saldı, bir tərəfini boş şəkildə çiyninə atdı. Sonra onu bir qədər geriyə verdi və saçının bir qədəri yavaşca bayıra çıxdı. Onu üzünün kənarında formaya saldı. Dodaqlarına gözəl qırmızı rəngli

pomada çəkdi, axırda özünü güzgüdə tam süzəndən sonra bayıra çıxdı.

Yolda mobil telefonuna baxdı. Sevinc və həyəcan hissləri bir-birinə qarışmışdı. Qeydlərinin saytlardakı linklərini bir-bir göndərmişdilər. Fikirləşdi ki, münasib bir zamanda açıb baxaram. Bu cəhətdən bir qədər arxayınlaşdı. Ona göndərilmiş məkan bilgiləri ilə deyilən yerə gedib studiyaya girdi, rejissor köməkçisinin təklifi ilə onun üçün qoyulmuş stulda oturdu.

Veriliş başlamışdı. O anda veriliş arasındakı reklam da bitdi və aparıcı süni təbəssümlə Əfsanəyə doğru çevrilib sözlərinə davam etdi:

– Bəli... əziz qonağımız Əfsanə siyasi fəal və qadın hüquqları müdafiəçisidir, bizə İranda qadınların acınacaqlı durumundan danışacaq. Biz bu illərdə siyasi etirazçıların və iranlı qadınların üzləşdiyi problemləri onun dilindən eşidəcəyik. Əfsanədən xahiş edirik ki, bizə İranda məcburi hicabdan, habelə milyonlarla iranlı qadının və gənc qızın məhrum olduğu azadlıqdan danışsın. Bu söz, bu da bugünkü qonağımız. Buyur, Əfsanə, ürəyin nə istəyirsə, söylə.

Əfsanə dərin nəfəs alıb zorla gülümsədi, şalını başında və çiynində yerbəyer edib dedi:

– Sizi və verilişinizin bütün hörmətli izləyicilərini, xüsusən də darıxdığım əziz iranlıları salamlayıram... Mən mürtəce İran hökumətinin xalqın, xüsusən də qadınların başına açdığı zülmlərdən danışacağam...

Səsi titrəyirdi. Əllərini bir-birinə keçirmişdi, bərk sıxırdı. Aparıcı Əfsanənin həyəcanlandığını gördü, rejissorun işarəsi ilə ona kömək etməyə çalışdı:

– Əzizim... sizin saytlardakı şəkilləriniz hicabsızdır. Amma proqramımıza başörtüyü ilə gəlmisiniz. Bunun

səbəbini soruşa bilərəmmi? Kimdənsə qorxursunuz, yoxsa...

Əfsanə qaşlarını qaldırıb özünü sərbəst göstərməyə çalışdı, inkar əlaməti olaraq başını yelləyib dedi:

– Yox-yox! Əsla!

– Onda bu şalı başından götürə bilərsənmi?

Əfsanənin beyni qıfıllanmışdı, düşünə bilmirdi. Dərhal dedi:

– Ee... bəli.

Əfsanə şalı başından geriyə sürüşdürüb boynuna saldı. Aparıcı gülüb əl çalmağa başladı və dedi:

– Vay, necə həyəcanlı! Əla!

– Mən İslam Respublikasının zülmlərinə etirazımı elan etmək üçün buraya gəlmişəm...

Aparıcı sevinirdi. O, səhnə arxasında işləyən operatorlara, səs rejissoruna və digərlərinə üzünü tutdu:

– Səhnə arxasındakı dostlar! Alqış səslərini eşitmirəm! Bu cəsarətə alqış düşmür?! - deyə-deyə bərkdən gülür, dayanmadan əl çalırdı.

# Üçüncü fəsil

## Ağ və qara baxışların toqquşması

Keçən seminardan üçüncü seminarın keçiriləcəyi bu günə qədər Sara ilə Maşaya çox uzun keçdi. Maşa da yavaş-yavaş doktor Məcidinin sözlərini dinləmək istədiyini büruzə verirdi. Sara bu müddətdə hamı, hətta iş yeri ilə də əlaqəni kəsmişdi. Həmkarlarına xəbər göndərmişdi ki, bir neçə günlüyə şəxsi problemi var, onunla məşğul olmalıdır. O, doktor Məcidinin təklif etdiyi bütün kitabları əldə etmişdi, gecə-gündüz oxuyurdu.

Maşa bir-iki dəfə müəssisəyə gedəndə Saranı ondan soruşmuşdular, o isə aydın cavab verməyib demişdi: "Sara bu günlərdə işləməyə uyğun deyil; azdanışan olub, özünə qapanıb, istirahətə və tək qalmağa ehtiyacı var". Maşa onlara İslam mərkəzindən bir söz deməmişdi. Onların həssas yanaşıb reaksiya verəcəklərini bilirdi.

Üçüncü seminar zamanı zal adamla doldu, divarların kənarlarında və keçid yerlərində də ayaq üstə dayanmış və ya oturmuş bir cərgə adam vardı. Düz elan olunmuş saatda adət üzrə Qurani-kərimin bəzi ayələri oxundu, sonra xanım Həkimi Höccətül-İslam Tehranini tribunaya dəvət etdi. Cənab Tehrani "Bismillah"dan və giriş sözlərindən sonra dedi:

– Bu fəal iştirakınıza görə siz əzizlərə təşəkkür edirəm. Danışmaq niyyətim yoxdur. Bütün qonaqlara xoşgəldin deyəndən sonra bir məqamı xatırlatmaq istədim. Bu misilsiz iştirak bir neçə məsələdən xəbər verir:

1) Qərb cəmiyyətinin fitrətlə uyğun olan yeni məfhumlara böyük ehtiyacı;

2) Qadın məsələsinin əhəmiyyəti və onun cəmiyyətin fundamental məsələləri ilə sıx əlaqəsi;

3) Qadın barədə müxtəlif nüsxələrin dalana dirənməsi, bu təbəqədə puçluq və məyusluq hissinin yaranması;

4) Xanım doktor Məcidinin çıxışlarının əsaslı və elmi olması.

Ümidvaram ki, bu seminarlar bütün xalqlar arasında qadının mövqeyinin uca tutulmasında böyük rol oynayacaq. Xanım doktor Məcidiyə təşəkkür edir və onu seminarların davamı üçün səhnəyə dəvət edirəm.

Doktor Məcidi səhnəyə qalxıb spiker masasında oturdu və danışmağa başladı:

– Hörmətli xanımları və cənabları salamlayır və bu iştiraklarına görə hamısına təşəkkürümü bildirirəm. Elmi tövsiyələrinə görə yenə cənab Höccətül-İslam doktor Tehraniyə təşəkkür etməyi özümə borc bilirəm. Əgər bir uğur varsa da, onun elmi dəstəklərinə borcluyam.

Doktor Məcidi cərgənin sol tərəfinə üzünü tutub dedi:

– Deyəsən, möhtərəm cənabların birinin sözü var... Hazırsınızmı, cənab Morkar Sarkisyan?

Uzun qəhvəyi saç-saqqalı olan və çərçivəsiz eynək taxmış bir kişi ayağa qalxdı. Orta cərgələrdə oturmuş Maşa ilə Sara gözlərini ona dikdilər. O, söhbətə başladı:

– Salam. Mən erməniyəm, doktor Lanqla doktor Seykin iş yoldaşlarındanam. Əvvəlcə sizə təşəkkür edirəm və demək istəyirəm ki, öncəki seminarda söylədiyiniz bir cümlə mənə çox ağır gəldi. Sizin cümləniz bu idi: "Müsbət baxış qadınlar üçün iynə ucu qədər də səhlənkarlıq etməyib". Düzdür, müsbət baxışda elə möhtəşəm məqamlar var ki, onun bənzəri başqa yerdə yoxdur. Lakin iynə ucu qədərincə səhlənkarlıq edilməməsinə dair iddia doğru deyil. Məsələn, İslamda xanımların irsi kişilərin yarısı qədərdir. Diyə məsələsi də belədir. Bu məsələlər ola-ola, belə bir iddianın yeri varmı?

Maşa sual dolu baxışla Saraya baxdı.

– Hələ gözlə, görək nə cavab verəcək, – Sara dedi.

Doktor Məcidi dedi:

– Doktor Sarkisyana çox təşəkkür edirəm. O, seminardan qabaq mənimlə görüşdü və mənə bu sualı verdi. Mən də xahiş etdim ki, sualı burada soruşsun ki, bütün dostlar eşitsinlər. Hər bir cümləmi diqqətlə analiz edən belə elmi bir çevrədə olduğuma görə çox sevinirəm.

Bəli... Əvvəlcə bilməliyik ki, mənfi baxış iki əsas iş görür: Qaralama və pis göstərmə; bir tərəfdən, özünün batil düşüncələrini yaxşı rənglərlə, populist şüarlarla bəzəyib çirkli mahiyyətini gizlədir, digər tərəfdən, ağ baxışın bəzi məqamlarından onu qaralamaq üçün istifadə edir.

Qadınların irsi və ya diyəsi ağ baxış əleyhinə güclü təbliğat aparılan məqamlardandır. Maraqlıdır ki, bütün bu

şübhələrə ən yaxşı şəkildə cavab verilmişdir, amma yenə də təkrarlanır. Nümunə olaraq, yalnız qadınların irsi barədə bir neçə məqama toxunacağam:

1. Qadına çatan irsin kişiyə çatanın yarısı qədər olduğunu söyləmək qaralamadır. Qadınlar çox yerdə kişilərlə bərabər, hətta onlardan çox irs əldə edirlər. İyirmidən artıq məsələdə qadına kişidən çox irs çatır. Burada yalnız birinə işarə vuracaq, digərlərini mərkəzin əməkdaşlarının köməyi ilə yazılı şəkildə və ya fayl formasında sayta yerləşdirəcəyəm. Əgər bir qadın ölsə, əri, qızı, ata və anası olsa, əri dörddə bir, ata-anasının hər biri altıda bir qədər irs əldə edir, qalanı, yəni yarıya yaxını isə qıza çatır. Bu misalda həm qadına, yəni ailənin qızına çatan irsin kişidən çox olması, həm də qadınla kişinin, yəni ölənin ata və anasının irslərinin bərabər olması aydın görünür.

2. Önəmli məqam budur ki, mənfi baxış tərzi ilə həyatda baş verəni heç vaxt ağ baxışla müqayisə etmək olmaz. Bu gün Qərb həyat tərzində qadınla kişi birlikdə işləyib ailənin ehtiyaclarını təmin edirlər. İslamda isə qadının, övladların, hətta bəzən ata-ananın da yemək, geyinmək, məskunlaşmaq və digər xərcləri kişinin üzərinə düşür. Odur ki, bəzi yerlərdə kişinin irsi qadından çox olsa da, qarşılığında mehr və aliment kimi bəzi iqtisadi vəzifələr də var. Bu baxımdan, irs bölgüsü cinsiyyət əsasında deyil, bir hüquqi sistem əsasındadır. Əgər bu sistemin hissələrinə vahid bir kompleks şəklində baxsaq, qadınla kişi arasında ədalətdən başqa bir nəticə ortaya çıxmaz. Keçən həftə də bildirdim ki, müsbət baxışda qadınla kişinin hüquqları bərabərdir, eyni və oxşar deyil!

3. Bəzi yerlərdə kişinin irsi zahirən qadından çox olsa da, qadının irsdən bəhrəsi daha artıqdır. Qadın özünün irs

payından xüsusi şəkildə istifadə edə və ya yığıb saxlaya bilər, kişi isə payından həyat yoldaşı ilə müştərək şəkildə istifadə edir.

Doktor Sarkisyan dedi:

– Sizin dediyiniz bu məsələlər hamı üçün əlçatan mənbələrdə qeyd olunmayıb. Hər halda, mən sualımın cavabını aldım. Çox sağ olun.

Doktor Məcidi dedi:

– Bəli, ümumilikdə əlçatan olan və kütləvi informasiya vasitələrində yayılanlar, daha çox, qara piardır.

İndi isə icazə verin diyə barədə qısa bir cümlə deyim: Kişinin diyəsinin qadına nisbətən çox olması, əslində, onun həyat yoldaşına və övladlarına maddi baxımdan himayədarlıq etmək üçündür, kişi ilə qadın arasında dəyərləndirmə ilə əlaqəsi yoxdur.

İndi isə əvvəlki seminarların davamına başlayaq. Keçən iki seminarda deyildi ki, qadın barədə iki ümumi baxış var: Birinci baxış mənfi və təhqiramiz baxışdır, mənşəyi kapitalizm və aristokratiyadır. İkinci baxış isə qadına qarşı hörmət və təvazökarlıqla yanaşı olan müsbət baxışdır ki, onun da mənşəyi fitrət və ilahi nizamdır. Bu iki baxışın fərqli mənşəyi onların arasında çoxlu və güclü fərqlər yaradıb. Bu fərqlərdən bəzisinə işarə vuracağam:

Mənfi baxışın ilk xüsusiyyəti budur ki, kişi ilə qadının çox böyük fiziki və emosional fərqlərinə rəğmən, keçmişdə "qadın və kişi bərabərliyi", bu gün isə, çox təəccüblü olsa da, "qadın və kişi oxşarlığı" və təkcinsli cəmiyyət üzərində təkid göstərir. Müsbət baxış isə onların bir-birini tamamladığını söyləyir. Qurani-kərim Bəqərə surəsinin 187-ci ayəsində qadınları kişilərin, kişiləri də qadınların paltarı adlandırır; yəni qadınla kişi bir-birinin çatışmazlıqlarını aradan qaldırır, bir-birini təkmil edir.

Kolumbiya universitetindən psixologiya üzrə doktorluq və ailə konsultasiyası üzrə post-doktorluq dərəcəsi almış, dünyada yeddi bestseller kitabın müəllifi olan xanım Lara Şelsinger deyir: "Qadınlarla kişilər fundamental baxımdan bir-birindən fərqlənirlər. Bu fərqləri biz yaratmamışıq ki, biz də aradan qaldıraq. Qadın və kişilər bu fərqləri özlərinə qarşı təhdid və təhqir hesab edib şikayətlənmək yerinə, yaxşı olar ki, onların qadınla kişinin bir-birini təkmilləşdirmə səbəbləri olduğunu düşünsünlər".[1]

Alimlərin bu barədə çoxlu fikirlərinə baxmayaraq, mənfi baxış yenə də media kimi müxtəlif vasitələrlə hələ də təkcinsli cəmiyyət və qadınla kişinin oxşarlığı üzərində təkid göstərir.

Mənfi baxışın ikinci xüsusiyyəti "cinsi azadlığı yaymaq"dır ki, üçüncü xüsusiyyətə səbəb olur.

Üçüncü xüsusiyyət "abortu yaymaq"dır. Bu baxış böyük təkidlə deyir: "Qadınlar öz bədənlərindən istədikləri şəkildə istifadə etməyə haqlıdırlar və azad cinsi münasibətlər rəsmən tanınmalıdır".[2] Onlar abortu adi bir başağrısı kimi göstərib qadının haqqı sayırlar. Bir feminist saytında yazılmışdı: "Qadınlar öz bədənlərinin sahibidirlər. Əgər dölü öz rahatlıqlarına maneə bilsələr, asanlıqla götürə bilərlər".[3] Simona de Bovuar deyir: "Döl anadan istifadə edən bir əngəldir".[4] Bu sözləri eşidəndə insanın bədəni ürpəşir. Ana bətnindəki uşaq əngəldir?!

Zalın sonundan bir nəfər əlini qaldırıb dedi:

– Bağışlayın...

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 36.

[2] Yenə orada, s. 61.

[3] Yenə orada, s. 68.

[4] Yenə orada, s. 51.

Sara ilə Maşa da başlarını çevirib ona baxdılar. Yenə doktor Seyk idi. O, keçən seminarda də fikir bildirmişdi. Onun İslam mərkəzinin seminarlarını bu şəkildə izləməsi Sara ilə Maşaya çox maraqlı gəlirdi. O dedi:

– Bunlar özlərini qadın hüquqlarının müdafiəçisi bilirlər, amma düşünmürlər ki, bu döllərin yarısı gələcəyin qız və qadınlarıdır. Hələ abortun qadınların özlərinə nə etdiyi bir yana! Bunlar qadın hüquqlarını müdafiə deyil, fitrət və yaranış qanunlarını tapdamaqdır. Heyvan haqlarını müdafiə etmək üçün nə qədər seminar və konfrans keçirilir!..

Maşa maraqla dinləyə-dinləyə belini düzəltdi, razılıq əlaməti olaraq gülümsədi və Saraya baxdı. Doktor Seykin fikirləri onların hər ikisinə maraqlı idi.

O, sözünə davam etdi:

– Bir insan rüşeymi heyvanlardan dəyərsizdir?! Əlbəttə, bunların hamısı ticari məqsədlərlə və kapitalist sistem tərəfindən təbliğ olunur. Uilyam Qardner "Ailə əleyhinə müharibə" kitabında yazır: "Avropa parlamentinin məlumatına görə, kosmetik vasitələrin istehsalında çox vaxt gizli şəkildə döldən istifadə olunur".[1] Vay bəşəriyyətin halına! Vay insaniyyətin halına!

Doktor bu sözləri söyləyib təəssüf əlaməti kimi başını yellədi. Maşa əlini alnına çəkib dərin nəfəs aldı.

Doktor Məcidi dedi:

– Çox sağ olun, cənab doktor! Lakin qarşılığında, müsbət baxış cinsi azadlığa yalnız qadınla əri arasında, o da xüsusi mühitlərdə həvəsləndirir, əri ilə olanda həya paltarını əynindən çıxaran qadınları ən yaxşı qadınlar

---

[1] Yenə orada, s. 69.

hesab edir.[1] Bu baxış abortu da yalnız müstəsna hallarda, məsələn, ananın həyatını xilas etmək üçün olmasa, qətl və haram iş bilir. Müsbət baxışda insan öz bədəninə də zərər yetirə bilməz, o ki qala başqa bir yaranmışı təhlükəyə salmağa.

Homoseksualizm mənfi baxışın dördüncü xüsusiyyətidir. Bu, fitrətin və yaranış qanunlarının əksinə olan bir məsələdir, bəşər nəsli və sivilizasiyasına qarşı bir təhdiddir. Bu, heç heyvanlar arasında da görünmür. Yoxsa bəzi insanlar heyvandan da əskik olublar?! Mənfi baxış insanı haraya aparır?! Məşhur Amerika feministi Andrea Dvorkin deyir: "Homoseksualizm və heyvanlarla cinsi əlaqə yaşamaq hüququndan istifadədir".[2] Belə düşüncə və təfəkkür tərzinə nə ad vermək olar?!

Saranın yadına Əfsanə düşdü. O, homoseksualizmi müdafiə barədə bir neçə qeyd yazmalı idi. Sara müəssisə rəhbərliyinin Əfsanə və onun kimi qızlar üçün planlarından xəbərdar idi, onları öz siyasi-biznes şəbəkələrinə cəlb edəcəklərini, hər bir sığınacaq vərəqi müqabilində çirkaba bulaşdıracaqlarını, fiziki və psixi problemlərlə üz-üzə qoyacaqlarını bilirdi. Qərara alınmışdı ki, Əfsanə orada qalmaq istədiyi müddətdə saytlar və sosial şəbəkələr üçün deyilən mövzularda həftədə bir qeyd yazsın. Onun Əfsanəyə yazığı gəldi, öz-özünə dedi: "Gərək onunla danışım!" Fikirləşdi ki, Amerikada yaşamaq eşqi gözünü və qəlbini kor etmiş adama mənim sözümün nə faydası ola bilər ki?!

---

[1] İmam Sadiq (ə) buyurub: "Sizin ən yaxşı qadınlarınız əri ilə olduqda həya paltarını əynindən çıxaran qadındır". Kuleyni, c. 5, s. 324.

[2] Yenə orada, s. 70.

– Kişiləri qadınların düşməni kimi təqdim etmək və evliliyə qarşı mübarizə aparmaq da beşinci və altıncı məsələdir, – deyə doktor Məcidi sözünə davam etdi. – Bu baxış açıq şəkildə deyir ki, bütün kişilər qadınların düşmənidir.[1] Feminizmin şüarlarından biri budur: "Bütün cinsi əlaqələr cinsi təcavüzdür və bütün kişilər pisdir!"[2] İngiltərə feministlərindən Meri Uolstonkraft izdivacı fahişəlik və hətta ondan da pis bir şey kimi təqdim edib deyir: "Küçə fahişəliyi izdivacdan hörmətlidir. İzdivac qanuni fahişəlikdir".[3]

Müsbət baxışda qadınla kişi nəinki bir-birinə düşmən deyillər, hətta bir-birini tamamlayırlar. İzdivac isə ən sevimli, ən dəyərli işlərdəndir.[4] İnsan bir qədər fikirləşsə, anlayar ki, uğurlu bir izdivac cəmiyyətin inkişafına səbəb ola, böyük və dəyərli insanlar yetişdirə bilər.

Mənfi baxışın yeddinci xüsusiyyəti ailə ocağına qarşı radikal mübarizədir. Bu, həqiqətən, təəssüflüdür. Əsl mənəvi rahatlıq və özünəməxsus ləzzətlərlə dolu ola bilən ailəyə bəzi insanlar nifrətlə baxır, ona qarşı mübarizə aparırlar. Misal üçün, bir homoseksualist olan Keyt Milt deyir: "Ailə zülmkar institutdur və sıradan çıxmalıdır!"[5] Düzdür, bəzi ailə mühitləri cəhənnəmdən də pisdir, amma bunun səbəbi ailənin özünə qayıtmır. Əslində, ailə üzvləri mənfi baxışın təlimlərindən təsirlənirlər, özlərinin və digər üzvlərin mövqeyini düzgün anlamırlar.

---

[1] Şelit, Vendi, Amerikada feminizm, c. 1, s. 80.

[2] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 40.

[3] Yenə orada, s. 31.

[4] İslam peyğəmbəri (s) buyurmuşdur: "İslamda Allah yanında izdivacdan sevimli və dəyərli bir bina ucalmamışdır”. Məclisi, c. 100, s. 222.

[5] Yenə orada, s. 42.

Maşa əlini qaldırıb ayağa qalxdı. Doktor Məcidi söhbətini saxlayıb dedi:

– Buyurun.

Sara təəccüblə gözlərini Maşaya dikdi. Onun nə demək istədiyini təxmin edə bilmirdi. Maşa dedi:

– Siz haqlısınız. Qadınlığı aldadıcı jestlərlə bizdən alıblar. Bu, bəzi ailələrin cəhənnəmə çevrilməsinin əsas səbəblərindən biridir. Doktor Toni Qrent "Qadın olmaq" kitabında yazır: "Hər bir axmaq gecə-gündüz kişisi ilə dalaşa bilər. Lakin kişini qəzəblə deyil, eşqlə tərk-silah etmək ağıllı və güclü qadının işidir".[1]

Sara təəccüblə Maşaya baxıb onu dinlədiyi yerdə Fərhadı gördü. O, bir neçə oturacaq aralıda oturmuşdu. Onlar yenə göz-gözə gəldilər, amma Fərhad baxışını yayındırdı. Doktor Məcidi sözünə davam etdi:

– Səkkizinci xüsusiyyət budur ki, mənfi baxışda evdarlıq köləlik və qadına böyük zülm kimi başa düşülür. ABŞ feministlərindən Betti Fridan deyir: "Ev işi ağlı az olan qızlara uyğundur". Birinci nəsil feministlərdən olan Qliman isə deyir: "Ev - qadını qulluqçu roluna məcbur edən bir həbsxanadır".[2] Qadının evdəki çox böyük rolunu, bəşəriyyətin borclu olduğu Edison, Qaliley, Nyuton, Pastor, Rayt qardaşları, Eynşteyn, İbn Sina, Əbu Reyhan Biruni və digər uğurlu şəxsiyyətlərin tərbiyəsini ağlı az olanlara aid etmək və onlara qulluqçu etiketi vurmaq əməlli-başlı dələduzluqdur. İnsanları yetişdirmək qulluqçuluqdur?! Minlərlə kişi heç bir qadın kimi insan yetişdirə bilməz. Bu sapqın və puç düşüncənin sahiblərinə demək lazımdır: Niyə çirkli ayaqlarınızı yaranışın gözəl və sənətkarcasına iş bölgüsü üzərinə qoyursunuz? Qadınları

---

[1] Yenə orada, s. 34.

[2] Yenə orada, s. 49.

kişi işlərinə doğru itələməklə nə əldə edirsiniz? Ucuz işçi qüvvəsi axtarırsınız? Mənafeyinizi düşünürsünüz? Diqqət edin! Bura qadağan olunmuş zonadır. Qadın emosiyalarını, qadının həqiqi rolunu görməzdən gəldiyiniz zamandan oğru və cinayətlər pik həddə çatıb, qətl və qarət statistikası olduqca yüksəlib. İnsanlar özlərinin emosional boşluqlarını müxtəlif narkotik maddələrlə kompensasiya edirlər. Hamı sakitləşdirici dərmanla yatır. Ailə ən zəif müqavimət dərəcəsinə çatıb və sanki hamı bir-birinə yad olub.

Hörmətli iştirakçılar! Siz söyləyin: Kimin ictimai rolu bu korifeylərin və digər insanların analarının ictimai rolu ilə eynidir?! Təəssüf ki, bu dəyərsiz fikirlər tez-tez və sirli şəkildə mediada qız və qadınların ruhunu hədəf seçəndə ev onlara zindan olur, bütün arzularını evdən bayırda görürlər. Halbuki üçüncü nəsil feministlər qadının oyuna gətirildiyini başa düşüb kapitalist düşüncələrinə qarşı etiraza qalxmışlar. Bu insanlardan biri olan Nansi Li Damos deyir: "Qadınları evdarlığa qarşı etiraza təhrik edib evlərdən çıxarmaq onlara həddən artıq stresdən başqa bir nəticə vermədi. Bir çox qadınlar mütəxəssislərin və dərmanların köməyi olmadan yaşaya bilmirlər".[1] Evdarlığa qarşı genişmiqyaslı təbliğata rəğmən, amerikalı evdar qadınların 46,4 faizi öz həyatı üçün "çox xoşbəxtəm" variantını seçmişdir.[2] "Xoşbəxtəm" variantını seçənlər də çox olmuşdur.

Mənfi baxış hamiləlik barədə də dəyərsiz sözlər söyləmişdir. Onlara cavab verməyə lüzum yoxdur. Bir qadın dünyaya gətirdiyi övladını qucağına götürməyi

---

[1] Şelit, Qızlar ismətə üz tuturlar, s. 260-261.
[2] Şelit, Amerikada feminizm, c. 2, s. 75.

başqa heç nə ilə dəyişməz, bunun həzzi başqa heç bir həzlə müqayisə olunmaz.

Hörmətli xanımlardan və cənablardan üzr istəyib demək istəyirəm ki, bugünkü seminarda fasilə olmayacaq. Mən sizin yorğunluğunuzu çıxarmaq üçün peyğəmbərin (s) hamiləlik və övlad sahibi olmağın əhəmiyyəti barədə olduqca gözəl bir kəlamını söyləyəcəyəm. Mehribanlıq peyğəmbəri (s) buyurur: "Məni elçi olaraq göndərən Allaha and olsun, qadın hamilə olanda gündüzlər oruc tutub gecələr ibadət edən, habelə canı və malı ilə Allah yolunda mübarizə aparan mücahid kimi olur. Doğuş ağrısının hər anı üçün ona bir mömin qulu azad etməyin savabı verilər. Uşağı dünyaya gətirəndən sonra ona elə böyük mükafat verilər ki, miqdarını dərk edə bilməz. Uşağına süd verəndə körpənin hər sorması İsmayıl (ə) övladlarından bir uşağı azad etməyə bərabər olar. Qiyamət günü onun qarşısında elə bir nur yaranar ki, hamını heyrətləndirər. Qadın süd verib qurtarandan sonra isə bir mələk onun böyrünə vurub deyər: "Əməlinə əvvəldən başla, şübhəsiz ki, Allah səni bağışlamışdır!"[1]

Mənfi baxışda doqquzuncu xüsusiyyət talaqın təbliğidir. Bu baxış tərzində boşanmaq su içmək kimi göstərilir. “Nyusvik” jurnalında belə qeyd olunmuşdur: "Amerikada boşanmaq taksi çağırmaq qədər asandır. Amerikalı qadın boşanandan sonra özünü çox azad hiss etsə də, boşanmış hər dörd qadından biri spirtli içkilərə aludə olur. Onların arasında intihar halları ailəli qadınlardan üç dəfə çoxdur".[2] Bəzi feminist bəyanatlarında belə deyilir: "Qadınları həvəsləndirməliyik ki, ərlərindən boşansınlar". Onlar deyirlər: "Sağollaşmaq

---

[1] Hürr Amili, c. 21, s. 451.
[2] Mütəhhəri, Mürtəza, İslamda qadın hüquqları, s. 230-231.

salam deməkdir; yəni həyata və azadlığa salam. Talaq sizin həyatınızda baş verə biləcək ən yaxşı hadisədir". Bu yanlış inamlarla boşanma statistikası get-gedə çoxalır, subay evləri, ya da belə deyək, arxa-dayaqsız evlər, qəm-qüssə və depressiya evləri isə çoxalır. Ancaq yenə də həyasızlıq zirvəyə çatır, tövsiyə edirlər ki, həyat yoldaşlarınızı tərk edin və homoseksual olun".[1]

Bu nəzəriyyələrin əsası hara qayıdır? Hansı məntiqə əsaslanıb belə fikirlər yürüdürlər? Qadınları sevir, onları müdafiə edirlər, yoxsa qadınların və zərif qadın xarakterlərinin düşmənidirlər?

Vendi Şelitin sözləri bu suala ən yaxşı cavabdır: "Qadınlığın düşməni olan və emosionallığı psixoloji xəstəlik hesab edən mənim mədəniyyətim kimi mədəniyyətlərdə qadın yalnız özünə daha cəsarətli bir şəxsiyyət tapmaq ardınca olmalıdır". O, kinayə ilə sözünə davam edir: "Azadlıq əsrində yaşadığıma görə necə də xoşbəxtəm! Bu günlərdə bir qız həkim və ya hakim ola, orduda xidmət edə, basketbol komandasına qoşula, işləyə, övladlarını isə uşaq bağçasına buraxa və ürəyi istədiyi qədər abort edə bilir. İndi onun cinsi seçimləri də məhdud deyil. Onun üçün izdivacdan öncə və sonra qeyri-rəsmi münasibətlər var. Qısası, bir qız ürəyi istəyən hər bir işi görə və istədiyi kimi ola bilir. Yalnız bir istisna var. O da budur ki, o, qadın ola bilməz".[2]

Mənfi baxışın bəzi xüsusiyyətlərini araşdıraraq ümumi bir nəticə əldə edirik: Mənfi baxış tamamilə insan fitrətinə qarşı formalaşıb və bu baxışda təşviq olunan hər bir şey antifitri və antibəşəridir.

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 57.

[2] Şelit, Amerikada feminizm, c. 1, s. 59.

Bu doqquz xüsusiyyətin hər biri üçün bir seminar təşkil etmək olar. Lakin bu seminarların əsas mövzusu onuncu xüsusiyyətə qayıdır. Bizim dünyamızda bu xüsusiyyəti araşdırmaq olduqca əhəmiyyətlidir. Kapitalist sistem də bu sahəyə böyük büdcə ayırmışdır. Onlar məşhur "yüz varsa, doxsan da vardır" cümləsinə əsasən, düşünürlər ki, əgər onuncu xüsusiyyəti əldə etsələr, digər məqsədlərinə çatmaq asan olar. Növbəti seminarlarda məqsədimiz mənfi baxışın bu xüsusiyyətini tənqid edən dəlillər olacaq. Bu dəlillər hər hansı din, məzhəb, mədəniyyət və milliyyətdən olan hər bir xanım tərəfindən məqbul olduğuna görə bu seminarlara "Dünyanın bütün qadınları üçün" adı seçilmişdir.

Onuncu xüsusiyyət budur ki, kapitalist sistem təxminən iki yüz il öncədən özünün zülmkar və mənfəətçi məqsədlərinə nail olmaq üçün insanların, xüsusən də qadınların özbaşınalığını və pis geyim tərzini təbliğ edir. Geniş təbliğat və yatırımlardan sonra qadın üçün yeni tərif irəli sürüldü, uğurlu qadın hicabdan və geyimdən qurtulmuş qadın kimi təqdim olundu. Hind-amerikan jurnalist xanım Əsra Numani deyir: "Hicabı kənara qoymaq qadınların ən əsas cihadıdır".[1] Görəsən xanım Əsra haqlıdır? O və onun kimilər kapitalistlərin pazlında şüurlu və ya şüursuz şəkildə rol oynamırlarmı?!

Dostlar, seminarın vaxtı bitib. Mən əfsanələrdə olan gözəl bir təmsilə toxunub hamınızı mehriban Allaha tapşıracağam. Bizim ədəbiyyatımızda İsfəndiyar adlı bir pəhləvan var, vətəninin müdafiəçisi və azadlığın himayədarı olub. İsfəndiyarın bədəni elə olub ki, düşmənlə vuruşub yaralandıqda öz-özünə sağalırmış. Buna görə də

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 63.

ona qalib gəlmək təxminən qeyri-mümkün imiş. İsfəndiyarın yeganə zəif nöqtəsi gözləri imiş. Gözlərinə xəsarət toxunduqda həlak ola bilirmiş. Buna görə İsfəndiyarın gözü olduqca əhəmiyyətli və həssas mövzulara məsəl olub. Belə nəzərə çarpır ki, bəşər dünyasında ən önəmli İsfəndiyar gözlərindən biri geyim məsələsidir. Bəlkə də, bu söz inanılmaz gələr, amma bu məsələnin onlarla olduqca əhəmiyyətli məsələ ilə, hətta qlobal iqtisadiyyat kimi mühüm mövzu ilə əlaqəsi inkarolunmaz faktdır. Ailə böhranı, boşanmanın sürətli artımı, cütlüklər arasında xəyanət, depressiya və psixi xəstəliklər, QİÇS və hepatit kimi xəstəliklərin yayılması, insani əxlaqın sıradan çıxması, quldurluğun və cinayətin dəhşətli şəkildə çoxalması, cinayət yaşının azalması, antibəşəri əməl olan abortun yayılması, qadın qaçaqçılığı və yeni quldarlıq, qadın şəxsiyyətinin tapdanması, bütün dünyada mənəviyyatın məhvi, həqiqi eşqin sıradan çıxması, qadınlar əleyhinə rəhimsiz şiddətlər, uşaqların cinsi istismarı, homoseksualizm, ictimai təhlükəsizliyin pozulması, qadınlar üçün daimi təşviş və stres, sakitləşdirici dərmanlardan qaydasız istifadə, narkotik maddələrə aludəlik, ailələrin iqtisadiyyatına ciddi ziyan, istehlakçılıq və digər nümunələr geyim və hicab məsələsi ilə birbaşa və ya dolayısı ilə əlaqəlidir. Allahın köməyi ilə gələn seminarlarda sizinlə birlikdə münasib geyimin zəruriliyinin dəlillərindən danışmağa çalışacağam. Yorulmayasınız! Diqqətinizə görə hamınıza təşəkkür edirəm. Görüşənədək!

Üçüncü seminardan sonra semestr imtahanları yaxınlaşan Sara ilə Maşa tez zaldan çıxıb universitetə yola düşdülər. Sara taksinin arxa oturacağında dərin fikrə daldı.

– Niyə bikefsən? – Maşa soruşdu.

– Əfsanəyə yazığım gəlir, – deyə Sara cavab verdi. – Doktor Məcidinin dedikləri Əfsanənin tənqidi və etirazçı qeydlərinin başlıqları idi. Doktor onların hamısının cavabını çox yaxşı və dəqiq verdi. Diba kimilərin məqsədlərindən xəbərsiz olan zavallı adamlar saytlarda və sosial şəbəkələrdə onlardan istiqamət almaq istəyirlər.

– Məncə, o, həqiqəti tapmaq istəsə, tapar. Kaş onu bu mərkəzlə tanış edəydin!

– Hə, o da mərkəzə gəlsəydi, pis olmazdı, – Sara düşüncəli təbəssümlə Maşaya dedi. – Bilirsən nə var? Məncə, bu cənab Tehrani bir sehirbazdır. O, heç bir israr etmədən məni xanım doktorun seminarlarına cəlb elədi. Mən bu bir neçə həftədə, həqiqətən də, doktor Məcididən eşitdiyim sözlərə qərq olmuşam. Mənim üçün o qədər dəyərli və maraqlıdır ki, heç bir şey barədə fikirləşmirəm. Bu gün "növbəti seminarlarda əsas mövzumuz örtünmənin dəlilləri barədədir" deyəndə yadıma düşdü ki, mən bu məsələ barədə öyrənmək istəyirdim. Hicab mövzusu mənim beynimi məşğul etmişdi və Əfsanə bu barədə bir məqalə yazacaqdı.

***

Sara evdə qısa istirahətdən sonra mobil telefonunu götürüb Vatsap tətbiqini açdı. Əfsanə ona bir neçə mesaj yazmış, bir səs göndərmişdi: "Salam, Sara. Necəsən? Səni görmək istəyirəm"; "Sara, hardasan? Bunlar niyə belə edirlər? Danışmışdıq ki, verilişdən sonra mənim sığınacaq və iqamət problemim həll olsun, amma müvəqqəti iqamətimi cəmi iki həftə uzatdılar. Nə üçün? İndi deyirlər ki, gərək özünü daha çox göstərəsən; hər həftə "İşrətkədə" üçün bir yazı istəyirlər, "Qadınlar üçün" də bir"; "Sara, mən Əlinejadın əlinin altında işləmək istəmirəm";

"Parazit"ə baxdın? Sən Allah, mənə kömək elə. Niyə cavab vermirsən?"

Audiomesajı dinlədi. Əfsanənin səsi kövrək idi, qırıq-qırıq danışırdı: "Arxamdakı bütün körpüləri uçurdum. Anamı ölümün sərhədinə qədər apardım. O, "Parazit" verilişinə baxıb infarkt olub. İndi komadadır. Əgər ölsə, bilmirəm başıma haranın külünü töküm! Nə edim?"

Sara düşündü ki, Əfsanəni doktor Məcidi ilə tanış etməlidir. Beyninə başqa heç bir fikir gəlmirdi. Ona zəng vurdu. Əfsanə cavab verdi. Səsi batmışdı.

– Bağışla, bu bir neçə gündə başım çox qarışıq olub, – Sara dedi. – Mesajını indi gördüm. Ümidvaram, ananın vəziyyəti tezliklə yaxşılaşar.

– Mersi. Səninlə görüşə bilərəm?

Sara on dördüncü prospektdə bir kafenin ünvanını verdi, qərara gəldilər ki, yarım saatdan sonra orada olsunlar.

Hər ikisi vaxtında gəldi. Əfsanə həyəcanlı və pərişan halda dedi:

– Dəli olmaq üzrəyəm. Nə dedilərsə, etdim. Anam mənə görə infarkt olub komaya düşüb. Bilirəm ki, başörtüyü onun üçün bir qızın bakirə olması qədər dəyərlidir. Burada da mənə heç nə etmədilər. Əminəm ki, İrana qayıtsam, edam olunacağam. Hökumət edam etməsə də, ailəm başımı kəsəcək!

Əfsanə Saraya baxıb sözünə davam etdi:

– İndi deyirlər ki, onlar üçün bir iş də görməliyəm.

Bu zaman Saranın telefonuna zəng gəldi. Müəssisənin nömrəsi idi. Bir müddət idi Sara müəssisə ilə əməkdaşlıqdan soyumuşdu. Cavab vermədi. Telefonu səssiz rejimə keçirdi, üzünü Əfsanəyə tutub:

– Səndən nə istəyirlər? – deyə soruşdu.

– Burada İran dövlətinə bağlı bir İslam mərkəzi açılıb. İslam barədə təbliğat aparırlar. Məcidi soyadlı bir xanım orada çıxış edir. Mən həmin yerə gedib onun çıxışını pozmalıyam. Həftədə bir gün toplaşırlar. Bazar günü oraya getməliyəm.

Sara şok keçirmiş kimi hərəkətsiz qaldı. Əfsanəyə demək istədiyi bütün sözləri, problemini söyləmək üçün onu İslam mərkəzinə dəvət edəcəyi yadından çıxdı. Əfsanə Saranın əlini buzlu əlləri ilə tutub dedi:

– Xahiş edirəm, mənə kömək elə.

Sara bir qədər fasilədən sonra dərin nəfəs alıb dedi:

– Yaxşı. Gərək bir az səbir edəsən. Sənə mütləq bir yol taparam, narahat olma. Mən gedib bir dostumla məsləhətləşər və çox tezliklə səninlə əlaqə saxlayaram.

***

Sara Əfsanə barədə doktor Məcidi ilə danışmaq qərarına gəldi, ancaq İslam mərkəzinə bir neçə dəfə zəng vursa da, onunla, ya da cənab Tehrani ilə danışa bilmədi. Bazar günü sübh çağı doktor Məcidinin seminarlarının daimi müştərisi olmuş Maşaya zəng vurdu, birlikdə getmək üçün vaxt təyin etdilər. Sağollaşmazdan qabaq Maşa gülə-gülə və kinayə ilə dedi:

– Görəsən, nə geysəm, yaxşıdır? Yaxşı bir çantan varmı mənə verəsən?

– Əlimə keçməyəsən, Maşa! – Sara gülüb dedi.

# Dördüncü fəsil

## Xatundan banuya

Dördüncü seminar Quran oxunuşu ilə başlandı. Həmişəki kimi Maşanın yanında oturmuş Sara maraq üçün bütün zala göz gəzdirdi, arxasına baxdı. Fərhad düz onun arxasında oturmuşdu. Bu cavanı görməyin onun üçün niyə bu qədər xoşagələn olduğunu bilmirdi. Sanki ürəyi isinir, damarlarında yeni qan axmağa başlayırdı. Özü üçün də qəribə və həyəcanlı idi.

Xanım Həkiminin giriş çıxışından sonra doktor Məcidi həmişəki mətanəti ilə səhnəyə qalxdı, söhbətinə Allahın adı ilə və iştirakçılara təşəkkürlə başlayıb dedi:

– Birinci və ikinci seminarda tarix boyu qadına iki fərqli baxışı araşdırdıq. Üçüncü seminarda bu iki baxışın bəzi xüsusiyyətlərini söylədik, sonda bildirdik ki, mənfi baxışın xüsusiyyətlərindən biri hamını, xüsusən də qadınları hicabsızlığa həvəsləndirməkdir. Ziyanlı və çox təhlükəli təsirlərinə görə bu məsələ üzərində dayanmaq

lazımdır. Halbuki müsbət baxış qadına diqqəti səbəbindən onun örtünməsi və həyası üzərində xüsusi təkid göstərir. Qərara gəlmişik ki, bu dəfə bütün dünya qadınları üçün məqbul arqumentlər söyləyək, geyim və hicab məsələsində mənfi, yoxsa müsbət baxışın haqlı olduğunu üzə çıxaraq.

Doktor Toni Seyk əlini qaldırdı. Doktor Məcidi onu dinləmək üçün sakit qaldı. Toni Seyk ayağa qalxıb dedi:

– Sözünüzü kəsdiyimə görə üzr istəyirəm. Səmimi və əziz dostum doktor Lanq kimi mən də sizə təşəkkür edirəm. Lanqın dediyi kimi, biz əsassız bəhsləri güclü və elmi bəhslərdən ayıra bilirik. Örtünmənin dəlillərinə başlamazdan öncə bir məsələni sizə və bütün iştirakçılara söyləmək istəyirəm. Düzdür, insan hər şeyi dəlillə qəbul və ya rədd etməlidir, amma məncə, burada xanımlar sizin dəlillərinizi eşitməyi və araşdırmağı gözləməməlidirlər. Çünki mənfi baxış insaniyyətə və qadınlara o qədər zülm edib ki, bu təhqirlər bütün insanların qeyd-şərtsiz olaraq bu cərəyana və onun göstərişlərinə qarşı ayağa qalxmalarına kifayət edir. Düşünürəm ki, sizin bu çıxışlarınız hamının, xüsusən də xanımların yeni hərəkətinə yetərli olar. Bunun özü ən mühüm dəlildir.

Doktor Məcidi təsdiq əlaməti olaraq başını yelləyib dedi:

– Bu dəqiqliyinizə görə minnətdaram. Tamamilə haqlısınız. Mənim o müqəddimənin əhəmiyyəti, yəni ağ baxışla qara baxışın müqayisəsi üzərində təkidimin səbəbi bu idi. Müsbət və mənfi baxışların fikirlərinin haçalandığı bütün on məsələdə haqqı ayırd etmək üçün müqəddimənin özü kifayətdir. Əlbəttə, bu fərqlərin hər birini, o cümlədən örtünmə mövzusunu araşdırmaqda çoxlu dəyərli məqamlar da var.

Əziz xanımlar və hörmətli cənablar! Örtünmə üçün ilk dəlilimiz bəşəriyyət tarixidir. Tarix şahiddir ki, insanlar bütün dönəmlərdə münasib geyimdən istifadə etmişlər və onların insani kimliyi münasib geyimlə formalaşmışdır. Alimlər örtünmənin uzun keçmişi üzərində təkid göstərir və onu tarixdən öncəki dönəmə və daş dövrünə aid edirlər. Çoxlu faktlar göstərir ki, qadınlar tarix boyu sivil cəmiyyətlərdə örtünmüşlər. Əksər cəmiyyətlərdə qadınların təxminən bütün bədənlərini örtən bəzəkli geyimlərlə ictimai iştirakı geniş yayılmışdır.[1]

Bəzi tədqiqatçılar tarixi dəlillərə görə və əldə edilmiş faktları araşdırmaqla hicabın meydana çıxmasını din və məzhəblərdən öncəki dövrə aid edirlər.[2] Bu tarixi keçmişlə yanaşı, örtünmənin əksər cəmiyyətlərdə geniş yayılmasını yaddan çıxarmaq olmaz. Yalnız bəzi qeyri-sivil cəmiyyətlər üçün, o da nadir hallarda insanların münasib geyiminin olmadığı barədə məlumatlar var. Misal üçün, sivil Roma cəmiyyəti üçün yalnız xüsusi bir dönəm barədə belə deyilmişdir. Bu iki məqama əsasən, yəni örtünmənin bir neçə minillik keçmişinə və hər yerdə olmasına əsasən, nəticə almaq olar ki, münasib örtünmə bəşərin həqiqi ehtiyaclarından biri olmuş, insanların insanlığı onsuz qüsurlu sayılmış və ictimai həyat düzgün yolundan çıxmışdır.

Bir neçə xanım və bir-iki kişi əllərini qaldırdılar. Hamısının sualı təxminən eyni idi. Onlar deyirdilər ki, hər halda, hər bir dövrün öz adət-ənənələri var. Qədimdə heyvanlara minirdilər, bu günsə avtomobilə, qatara,

---

[1] Zibayinejad, Məhəmmədrza, "İslam quruluşu və qadınların geyim məsələsi" məqaləsi. Bax: "Hicab; İslam dövlətinin vəzifə və səlahiyyətləri", c. 2, s. 458.

[2] İslamlu, Gülün hərimi, s. 2.

təyyarəyə və kosmik gəmilərə minirlər. Örtünmə məsələsində də hər dövrün insanları öz zamanlarının adət-ənənələrinə görə paltar geyirlər.

Doktor Məcidi onların cavabında dedi:

– Bəhsin daha da səmərəli olmasına kömək etdiyinizə görə sizə təşəkkür edirəm. Bizim münasib örtünmə barədə məqsədimiz keçmişə qayıtmaq deyil; demək istəmirik ki, qədim parça və ya modellərdən istifadə edək. Biz, əslində, tarix boyu insanların örtünməsinə hakim olan qayda-qanunlara əməl etməliyik. Sadə bir misal çəkim: İnsanlar tarix boyu xörəklərinin sağlam, xeyirli və dadlı olmasına həssas yanaşmışlar, yeməklərinin növü, dadı və forması isə hər dönəmdə zövqlərinə görə dəyişmişdir. Örtünmə məsələsində də tarix boyu əsaslı və dəyişilməz qayda maksimum örtünmə və cəmiyyətdə cinsi siqnal yaymamaq olmuşdur. Parçanın növü, tikiş tərzi, rəngi və bu kimi məsələlər isə dünyanın müxtəlif bölgələrində və hər bir dönəmdə fərqli olmuşdur. Bu baxımdan, bu gün örtünmənin bu əsaslı məsələsi dəyişilmişdirsə və örtünmənin yerini çılpaqlıq tutmuşdursa, bunun insanların adət-ənənələrinin dəyişməsinə aidiyyəti yoxdur, bəzi insanların bəşəriyyətin kimliyinə və taleyinə mənfəətçi müdaxiləsindən irəli gəlir.

Zalın ortasından bir kişi əlini qaldırıb dedi:

– "Bəşəriyyət" dedikdə buna kişilər də daxildir, yoxsa yox?

Doktor Məcidi dedi:

– Bəli, əlbəttə. Bəzi xüsusiyyətlərinə və gözəlliklərinə görə xanımların örtünməsi kişilərin örtünməsindən daha əhəmiyyətli olmuşdur, bunun üzərində daha çox diqqət göstərilmişdir. Bundan əlavə, elmi tədqiqatlar göstərir ki, kişilərdə görüntü təhrikediciləri qadınlardan olduqca

güclüdür. Yəni bir kişi qadının bədəninə baxmaqla daha çox təhrik olur, nəinki bir qadın kişini görməklə. Odur ki, qadınların örtünməsi daha əhəmiyyətlidir. Lakin kişilərin örtünməsi də yaddan çıxmamalıdır.

– Münasib örtünmə dedikdə məqsədiniz nədir? – deyə bir qadın soruşdu.

Doktor Məcidi cavab verdi:

– Münasib örtünmədə məqsəd cinsi gözəlliklərini örtən geyimdir. Yəni fərdlər cəmiyyətdə bir-birinə yalnız insani baxışla baxsınlar; yəni insanların zehni və enerjisi işə sərf olunsun, cinsi məsələlər ailə mühitinə aid olsun. Bu məsələ xanımlar üçün olduqca əhəmiyyətlidir ki, cəmiyyətdə onların yalnız insani cəhətləri, bəşəri dəyərləri görülsün. İngiltərə parlamentində bir xanım demişdi ki, parlamentin kişi əməkdaşları qadınların fikir və ideyalarına onların bədənləri və paltarları qədər diqqət yetirmirlər. Bu isə bir faciədir, qadınlara qarşı böyük təhqirdir.

Əziz dostlar, möhtərəm iştirakçılar! Münasib geyim o geyimdir ki, onda əsas prinsiplərə riayət olunsun. Bu prinsipləri də bizə tarixi məlumatlar təqdim edir. Tarix boyu münasib örtünmənin mövcudluğunun şübhəsiz olduğunu deməyə ehtiyac yoxdur, qəti və məqbul məsələlərdəndir. Mən keçmişdə ümumi geyim qaydaları, geyimin forma və növləri ilə daha yaxından tanış olmaq üçün bəzi tarixi məlumatlara toxunacağam.

Larus ensiklopediyası qədim Yunanıstanda qadınların geyimi barədə yazır: "Keçmişdə yunan qadınları üz və bədənlərini ayaqlarının üstünə qədər örtürdülər".

Davamında deyilir: "Rumın qadınları daha sərt hicabdan istifadə edirdilər. Onlar evdən çıxanda bütün bədənlərini ayaqlarının üstünə qədər uzun çadrayla

örtürdülər, bədənlərinin həcmi bilinmirdi".[1] Qədim Yunanıstanda örtünmə o qədər sərtləşdi ki, qadının gizlənməsinə və ya gizlədilməsinə də gəlib çıxdı. Vill Dürant qədim yunan filosoflarından birinin belə söylədiyini qeyd edir: "İffətli bir qadının adını da onun özü kimi evdə gizlətmək lazımdır".[2]

Əlbəttə, bu, bir qədər ifratçılıqdır. Burada bizim məqsədimiz yalnız bütün tarixi dönəmlərdə örtünmənin olduğunu göstərməkdir, ifratçı və ya təfritçi yanaşmaları təsdiq etmirik və bəhsimizin mövzusu bu deyil.

Beynəlnəhreyn miladdan təxminən 4500 il öncəyə aid olan ən qədim bəşər sivilizasiyasının beşiyidir. Vill Dürant bütün insanların kökünü və sivilizasiyanın başlanğıcını Beynəlnəhreyndən bilir, oncildlik "Sivilizasiyalar tarixi" kitabına Şərq və Beynəlnəhreyn mədəniyyətləri ilə başlayır. Bu baxımdan, bu bölgənin geyim və örtünməsi barədə deyilənlər örtünmənin keçmişi barədə ən mühüm materiallardır.

İlamlılar[3] Beynəlnəhreynin və indiki İranın ən qədim sakinləri olub miladdan təxminən 4500 il öncə yaşamışlar. İlam mədəniyyətindən qalmış ən yaxşı və ən gözəl əsərlərdən biri gümüşü rəngli bir qədəhdir. Bu qədəh Mərvdəştdə tapılıb və təxminən miladdan 3200 il öncəyə aiddir. Onun üzərindəki iki İlam ilahəsinin gözəl və qabarıq rəsmi o zaman qadınların geyimini öyrənmək üçün çox uyğun bir bələdçidir. Bu ilahələrin birinin geydiyi pullu paltar uzundur və bütün ayağını örtür.

---

[1] Hatəmi, Həmidrza və Məsumə, Hicab məsələsinə psixoloji, ictimai və islami baxış, s. 22.

[2] Rəcəbi, s. 30.

[3] Bu söz "Sivilizasiyalar tarixi" kitabında "əyn" hərfi ilə qeyd olunmuşdur.

Yuxarıdan belə qədər paltar düzdür, beldən aşağıya qədər isə tədricən enlənir. Görünür, ilahə başının ətrafını yaylıqla örtürmüş.[1]

Böyük Behnəlnəhreyn mədəniyyətlərindən biri də miladdan 600 ildən də çox öncə sıradan çıxmış Aşur mədəniyyətidir. Neynəvada tapılmış rəsmlərdə qadınların üzü nadir hallarda görünür. Miladdan 1200 il öncəki qanuna görə, ərli aşuri qadınlar ictimai yerdə üzlərinə niqab salırmışlar.[2]

Aşurilərdən sonra madlar və parslar gəlir. Larus ensiklopediyasına görə, madların və parsların arasında örtünmə və hicab geniş yayılmışdı. Daş yazılarına və çoxlu sənədlərə əsasən, madların dövründə iranlıların ümumi geyimi bu şəkildə olmuşdur: "Mad köynəyi dizə qədər çatan uzun bir geyimdir. Bu köynəyin uzun qolu var, yumşaq enişlə çiyindən biləyə qədər daralır və bir qədər bürüşür. Şalvar yuxarıdan aşağıya qədər tədricən daralır, balağındakı lentlə ayaqqabının içinə düyünlənib balağı yığır".[3] Bu dövrdə qadınla kişi başörtükləri arasındakı fərqlərlə tanınırdılar.[4]

Həxamənəşilər dövləti qədim dünyanın miladdan 550 il öncə yaranmış ən böyük imperiyasıdır. İnsanların son beş min ildə geyim tərzini araşdıraraq "Paltarın tarixi" kitabını yazmış amerikalı tədqiqatçı Vill Koks Həxamənəşilər dövrü barədə deyir: "Miladdan beş əsr öncədən qalmış

---

[1] Məhəbbəti, Mehdi, Fars ədəbiyyatında qadının hicabı və örtünməsi, c. 1, s. 93-94.

[2] Yenə orada, s. 90.

[3] Yenə orada, s. 107.

[4] İslamlu, Gülün hərimi, s. 25.

qabarıq bir rəsm bir kraliçanı köynəkdə və tam şalvarda göstərir".[1]

Əzizlər! Aydın insanlar! Bu söhbətlərdə məqsədimiz budur ki, münasib geyimlə insanların cinsiyyəti qabarmasın. Biz demək istəmirik ki, keçmişdəkilər kimi geyinin. Xeyr! Məqsəd budur ki, cinsiyyət yerinə insaniyyət önə çıxsın, onun ardınca insani əxlaq və dəyərlər geniş yayılsın.

Həxamənəşilər dövründə örtünmənin növündən danışdığıma görə sizə Təbəri tarixindən bir əhvalat oxuyum: "Xaşayar şah özünün gözəl və cah-cəlallı həyat yoldaşı Vəştanı öldürdü; çünki şah tapşırmışdı ki, insanlar onu hicabsız və pərdəsiz görsünlər, gözəlliyini və cah-cəlalını müşahidə etsinlər. O isə razılaşmadı və şah onu öldürdü".[2]

Belə əhvalatlardan azdır. Burada bir tərəfdən, bir qadının ayıqlığını, qüdrətini görürsünüz, digər tərəfdən, həmişə qadından bir alət kimi istifadə etmək istəyən güc və sərvət sahiblərinin əskikliyini.

İcazə verin, iranlıların geyimi barədə bir qədər xüsusi şəkildə danışaq, sonra isə Avropada və Qərbdə geyim tarixinə keçək.

Vill Dürantın iranlı qadınların geyimi barədə çox diqqətəlayiq bir cümləsi var. O deyir: "Qədim İranda qadınlar arasında örtünmə simvolları o qədər çox və gözəçarpandır ki, bəzi mütəfəkkirlərə və tarixçilərə görə, İran dünyada hicabı yayan əsas yer olmuşdur".[3]

Bundan böyük hansı xoşbəxtlik ola bilər ki, İran və iranlı bütün dünyada həya, iffət və hicabın mənbəyi kimi

---

[1] Məhəbbəti, s. 112.

[2] Rəcəbi, s. 32.

[3] İslamlu, Gülün hərimi, s. 23.

təqdim olunur?! Əlbəttə, təəssüflüdür ki, mənfi təbliğatın təsiri altında və parlaq keçmişdən məlumatsızlıq səbəbindən bəzi iranlılar üçün dəyərli ilə dəyərsizin yeri çox dəyişilib və örtünmə xəcalət səbəbi hesab olunur.

2016-cı ildə Braziliyada olimpiya oyunları zamanı bir xanım tam hicabla İranın idman karvanının önündə hərəkət edəndə geyim seçimini şəxsi bir məsələ hesab edən, "Yaşasın mənə müxalif olan" deyə qışqıran bəzi mədəniyyət iddiaçıları virtual məkanda bu möhtərəm xanıma olmazın təhqirləri yağdırdılar.

Vill Dürantın sözünə qayıdaq; deyirdi ki, örtünmə simvolları iranlıların arasında çox gözəçarpan olub. Bu, tam aydındır, isbatı da çox sadədir. İlam mədəniyyətindən Sasanilərə qədər təxminən bütün tarixi dönəmlərdə, habelə Sasanilərdən İslam dövrünə, o zamandan da Pəhləvilərə qədər kişi və qadınların örtünməsi çox nöqsansız olmuşdur. Pəhləvi dövrünün əvvəlindən sonra izah edəcəyim geniş və xüsusi proqramlarla bəzi iranlı kişi və qadınların geyim və örtünmələrində böyük dəyişikliklər yarandı. Həxamənəşilərdən sonrakı Əşkani və Sasani kimi sülalələrdən çoxlu tarixi məlumatlar da iranlıların geyim tərzini bəyan edir. "İranlıların qədim geyimi" kitabında Əşkani qadının paltarı belə təsvir olunur: "Əşkani qadınların paltarı yerə çatan uzun, enli, bürüşük, qollu və yaxası düz köynək olmuşdur. Əlbəttə, birincinin üstündən ikinci köynəyi geyirmişlər, ikincinin uzunluğu birinciyə nisbətən qısa, yaxası da açıq olurmuş. Bu iki geyimin üstündən də çadra atırmışlar".[1]

Böyük bir imperatorluq olan Sasanilər dövrü barədə yalnız padşah Xosrovun qızlarının əhvalatını

---

[1] Məhəbbəti, c. 1, s. 127.

söyləyəcəyəm. Onun üç qızı İslam ordusu tərəfindən əsir alındıqda onları müsəlmanların hakimi Ömərin yanına aparırlar. O, əmr edir ki, məcburən üzlərinin örtüyünü götürsünlər. Bu iranlı qızlar yumruqla hakimin nümayəndəsinin sinəsinə vurub onu uzaqlaşdırırlar. Ömər hirslənib qamçı ilə onların niqabını açmaq istəyir. Bu zaman İmam Əli (ə) ona buyurur: "Rəftarında yumşaq ol. Allah rəsulundan eşitmişəm ki, buyurub: "Hər hansı tayfanın xar və yoxsul olmuş böyüyünü uca tutun". Ömərin hirsi bir qədər soyuyur və kənarda dayanır. Sonra imam buyurur: "Şah qızları ilə kəniz kimi rəftar etmək olmaz".[1]

Tarixi məlumatlara görə, bu qızların biri sonradan İmam Səccadın (ə) anası olur. Bu, iranlıların şərəfli tarixi və keçmişlərdən bizə qalmış dəyərli irsdir.

Sasanilərdən sonra, İslam dövründə də münasib örtünmə əvvəlki kimi bütün iranlı qadınlar arasında mövcud olmuşdur. Təxminən 700 il öncə İrana gəlmiş İbn Bəttutə şirazlı qadınları vəsf edərkən yazır: "Qadınlar evdən çıxanda özlərini örtürlər, niqabla üzlərini gizlədirlər; belə ki, onların bədənlərinin heç bir yeri görünmür!"[2] Fətəli şah Qacarın şahlığının on beşinci ilində İrana səfər etmiş fransız hərbçi Qaspar Druvil "İranda səfər" kitabında iranlı qadını belə təsvir edir: "Onların qüsursuz gözəlliyi nadir hallarda bəzənmə sənətinə borclu olur. Ümumilikdə gözqamaşdırıcı ağ rəngləri var və bu, təəccübə səbəb olmamalıdır. Çünki onlar nadir hallarda günəş altına çıxırlar, üzləri həmişə bağlıdır".[3]

---

[1] Loğmani, s. 70-71.
[2] Məhəbbəti, c. 1, s. 72.
[3] Keşvəri, Gözəllik standartı, s. 30.

İranlı qadınlar bu geyimlə ictimai həyatda azadlığı özlərinə hədiyyə edirlər. Bu azadlıq Müzəffərəddin şahın dövründə İrana səfər etmiş Klod Anetin diqqətini xüsusi cəlb etmişdir. O deyir: "Paltar və hicablarının göstərdiyinin əksinə olaraq, iranlı qadınlar həyatda çoxlu azadlığa malikdirlər. Onların çoxu ürəyi istədiyi vaxt və tək halda evdən bayıra çıxa bilir".[1]

Örtünmə və geyim səthi və lazımsız məsələ deyil, əksinə, olduqca mühüm və həyatidir, bir xalqın taleyinə təsir edir. Digərlərinin geyimini yamsılamaq ən asan işdir. Lakin bəzən əsrlər ötsə də, bir cəmiyyət digərlərinin geyimini təqlid etmir, öz geyim ənənəsini qoruyub saxlayır. Çünki geyimi dəyişmək həmişə mədəniyyəti dəyişməyin nəticəsidir və insan öz mədəniyyəti ilə vidalaşmasa, geyimi ilə vidalaşa bilməz.[2]

Mədəniyyət yaratmaqda paltarın xüsusi roluna görə şərqlilər, xüsusən də iranlılar öz paltarlarına qarşı çox həssas olublar. Fransız səyyah, yazıçı və filosof Jan Şarden Qərb tədqiqatçılarının İran və Orta Şərq barədə ən yaxşı əsərlərindən olan "Jan Şardenin səfərləri" kitabında iranlıları öz klassik geyimlərini qorumaqda, rəng, parça növü və tikiş tərzini dəyişməməkdə dünyanın ən mühafizəkar və uzaqgörən xalqı hesab edir. O yazır: "Şahın xəzinəsində Teymurilər dövrünə aid paltarların forma və tikiş baxımından indiki paltarlarla çox da fərqi yoxdur".[3] Yəni o dövrdə ən azı iki yüz illik bir dönəmdə iranlıların geyimi dəyişməmişdi.

---

[1] Məhəbbəti, c. 1, s. 210.

[2] Həddad Adil, Qulaməli, Çılpaqlıq mədəniyyəti və mədəni çılpaqlıq, s. 15.

[3] Məhəbbəti, c. 1, s. 50.

"Bütün dünya qadınları üçün" silsiləvi seminarlarının möhtərəm iştirakçıları! Həssas və həyati məqam buradadır. Nəcabət və şərafətin geyim tərzini qorumaqla əlaqəsi olduğu kimi, özünü dəyərsiz saymaq və özünü itirmək də geyimi dəyişməklə əlaqəlidir. Zəif insanlar digərlərinin paltarını geyinməklə özlərinə yalançı bir böyüklük verməyə çalışırlar. Sanki uşaqlar futbol ulduzlarının formalarını geyib özlərini onlar kimi xəyal edirlər!

İranlıların geyimi haqda bu qədərlə kifayətlənirəm. Bu barədə çoxlu kitab və məqalələr yazılmışdır. Əgər hörmətli iştirakçılar yorulmayıblarsa, geyim tarixindən qalan bəhsləri...

İştirakçıların alqışı ilə xanım doktor məmnunluq təbəssümü etdi, bir qədər su içdi. İxtiyarsız olaraq Saranın üzündə də təbəssüm yarandı, o da digərləri kimi doktor Məcidinin sözlərinin qalanını eşitmək istəyirdi. Doktor Məcidi iştirakçıların alqışlarına və sevimli baxışlarına cavab olaraq dedi:

– Pozitiv enerjinizə görə çox minnətdaram.

Tarixi məlumatlarda hətta mədəniyyət və sivilizasiyadan çox-çox uzaq olan cahil ərəblər barədə də demişlər: "Ogünkü ərəb qadınlarının adəti belə idi ki, öz üzlərini örtmürdülər, yaylığı qulaqların arxasından keçirib kənarlarını arxada bağlayırdılar. Nəticədə, qulaqlar, sırğalar, üz, boyun və yaxa açıq qalırdı".[1] Hicabın hətta cahil ərəblər arasında da yayılması, yarımçıq şəkildə olsa belə, mühüm və diqqətəlayiq məqamdır.

İndi isə Avropa! On səkkizinci əsrin ikinci yarısından Avropada hicabın tədricən azalmasının əlamətləri gözə

---

[1] Mütəhhəri, Hicab məsələsi, s. 191.

dəysə də, on doqquzuncu əsrin sonlarına qədər əksər qadınların yerli geyimində baş örtülmüş və uzun paltar geyilmişdir.[1] Çoxlu tarixi məlumatlar bunu göstərir, mənsə yalnız bir neçə nümunəyə toxunacağam. Vill Koks "Paltarın tarixi" kitabında ilk miladi əsrlərində Şimalı Avropa əhalisi barədə yazır: "Bu dövrdə kişilər qısa, qadınlarsa uzun köynək geyirdilər. Qadınlar üst-üstə iki köynək geyirdilər, altdakı paltar qoluuzun və ipəkdən olurdu, maykanı əvəz edirdi, ikincisi isə uzun, düz, habelə uzun və geniş qollu olurdu. Onların üstündən bir şinel geyilirdi, bir çiyinin önünə və ya üstünə bağlanırdı. Bundan əlavə, bir başörtüyü başı və çiyini örtürdü".[2]

Vill Dürant Orta əsrlər Almaniyası barədə deyir: "Kişi köynəkləri topuğa, qadın köynəkləri isə yerə qədər uzanırdı".[3] O dövrün ingilis xalqı barədə belə deyiblər: "İngilis kişi və qadınlar üç paltar geyirlər: stola, yaxud alt paltar, belyad, yaxud üst paltar, pala, yaxud şinel".[4] İtalyan qadınlar da Orta əsrlərdəki ingilis xalqı kimi azca fərqlə Yunan-Roma geyimlərindən istifadə edirdilər, dördbucaqlı və ya yarımdairəvi şəkildə bir parçanı başlarına atır, çiyinlərinə və ondan aşağıya qədər örtürdülər.[5] Bu geyim tərzi 19-cu əsrə qədər azca fərqlərlə davam etdi. Hətta 19-cu əsrdə də fransız qadınlar müxtəlif ictimai fəaliyyətlərlə məşğul olduqları halda tam və münasib geyim geyirdilər. Vill Dürant onlar barədə yazır: "Atlı yubkasının altından trikodan bədənə yapışan bir şalvar geyilirdi, ayağın üstünə qədər tuturdu. Yubkanın uzunluğu da dizin üstünə qədər

[1] Haqşünas, s. 120.
[2] İslamlu, Gülün hərimi, s. 7.
[3] Yenə orada, s. 12.
[4] Yenə orada, s. 10.
[5] Yenə orada, s. 8.

idi".[1] İngiltərə qadınları barədə isə deyir: "Əsil-nəsəbli ingilis qadınları bədənləri köynəyin altından görünməsin deyə kətandan və ağ nazik parçadan ətrafı tüllə tikilmiş bir neçə alt paltar geyirdilər".[2]

Bir neçə minillik örtünmə keçmişini sübuta yetirən tarixi məlumatlar barədə bu qədərlə kifayətlənir və mətləb oturuşsun deyə sizin yaddaşınızı iyirmi-otuz il öncəyə aparmaq istəyirəm. O dövrün filmlərini, seriallarını, hətta cizgi filmlərini xatırlayırsınız? "Yaşıl röya", yaxud "Anna Şerli" serialı 1985-ci ildə Kanadada, maraqlı "Ada hekayələri" və ya "Sara Stenlinin macəraları" 1989-cu ildə yenə Kanadada çəkilmiş, dünyanın yüz altmış ölkəsində dəfələrlə göstərilmişdir. O seriallarda qadınların geyimi necədir? 1974-cü ildə çəkilmiş "Heidi", 1983-cü ildə çəkilmiş, Anet və Lüsin xarakterlərinin yer aldığı "Alp əhvalatı; mənim Anetim", "Doktor Ernestin ailəsi" serialları, 1989-cu ildə İngiltərədə yayımlanan "Herkul Puaro" teleserialının birinci hissəsi, "Ramkal" kimi məşhur cizgi filmləri, Perrin adlı bir qızdan və onun eşşəyindən bəhs edən "Perrinin hekayəsi" cizgi filmi. Bu iki cizgi filmi 1977 və 1978-ci illərdə istehsal olunmuşdur. "Bel və Sebastyan" animasiyası Fransa, Yaponiya, İtaliya, ABŞ, İngiltərə və İran kimi ölkələrdə efirə çıxmışdır. Habelə, yəqin ki, baxmış olduğunuz çoxlu cizgi filmlərini və animasiyaları xatırlayın. Onların hamısında çox aydın və əhəmiyyətli ortaq cəhət xanımların hicabı və ötrünməsidir. Boyundan yerə qədər uzanan paltarlar, enli və bürüşük dolu geyimlər, başörtüyü, yaxud papaq, kosmetik vasitələrdən və qatı qrimlərdən istifadə olunmaması bu televiziya proqramlarında və bədii

---

[1] Yenə orada, s. 20.

[2] Yenə orada, s. 11.

filmlərdə aydın görünür. Halbuki dünyada örtünməyə qarşı mübarizə və insanları həyasızlaşdırma layihəsi bunlardan 80-90 il öncə dəqiq planlarla başlanmışdı.

Növbəti seminarlarda sizə deyəcəyəm ki, cəmiyyətin örtünmə reallığı bu film və seriallarda da düzgün göstərilməmişdir. Əslində, kapitalizm o dövrdən kütləvi informasiya vasitələrinin köməyi ilə yavaş-yavaş yeni həyat tərzini Qərb adamına və bütün dünya insanlarına göstərmək istəmişdir. Keçmişdəkilərin örtünmə tarixi o qədər aydındır ki, hətta bu gün də Hollivudun tarixi filmlərində xanımlar üçün münasib geyimdən istifadədən başqa yolları yoxdur. Əlbəttə, həyasızlıq o yerə çatıb ki, ən aydın tarixi məsələlərin təhrifi də asanlaşıb. Türkiyədə istehsal olunan "Möhtəşəm yüz il" serialı bu nümunələrdəndir. Biabırçı geyim və qrimlər və əxlaqi fəsad o həddədir ki, Türkiyənin Baş naziri də buna sərt etiraz etdi. Ərdoğan xəbər kanallarının kameraları önündə hirslə qışqırırdı: "Biz elə bilirik ki, bu serial həqiqətdir və bizim əcdadımız orada göstərilən şəxsiyyətlərdir. Lakin bizim tariximizdə belə bir əcdadımız olmayıb". İş o yerə çatdı ki, Türkiyənin Baş naziri aidiyyəti orqanlardan bu serialın istehsalçılarının cəzalandırılmasını istədi.[1] Əlbəttə, o qədər paklığına və müqəddəsliyinə rəğmən, müqəddəs Məryəmin şəkillərinə də rəhm edilməyən bir dünyada bu təhrif qəribə bir şey deyil. Xahiş edirəm, muzeylərə baş çəkin və Məryəmin keçmiş şəkillərini bu gün o müqəddəs xanımın görüntüsü kimi yayılan şəkillərlə müqayisə edin. O qədər paklığın və örtünmənin yerini cinsi gözəlliklər tutub. Həqiqətən, bizi hara aparırlar?!

---

[1] Ərdoğanın sözügedən etirazının videosunu axtarış saytlarında taparaq izləyə bilərsiniz.

Təxminən otuzyaşlı bir qadın zalın əsas girişinin yanından əlini qaldırdı və doktor Məcidinin işarəsi ilə danışmağa başladı. O, özünü Qiqz kimi təqdim edəndən sonra dedi:

– Mənim kinematoqrafiya üzrə doktorluq dərəcəm var. İngiltərənin ən mötəbər və qədim media və film istehsalı mərkəzi olan BFI şirkətinin əməkdaşıyam. İndi Nyu-Yorkda film hazırlayıram. Bu şirkətdə çəkilmiş ilk filmlər təxminən 1900-cü ilə aiddir və İngiltərənin bir neçə şəhərində çəkilib. Siz bu tarixi mövzuları söyləyib film və animasiyalara işarə vuranda onlar yadıma düşdü. Mən bu filmlərə baxmışam. Əgər istəsəniz, onların bir hissəsini bir neçə şəkillə birlikdə seminarda göstərmək üçün sizə verə bilərəm.

Doktor Məcidi sevincək dedi:

– Sizə çox təşəkkür edirəm. Təklifiniz çox gözəldir. Onda bugünkü seminarımızın xülasəsi bir cümlədə belə olur: Tarix boyu münasib örtünmənin geniş yayılması göstərir ki, örtünmə həqiqi bəşər ehtiyaclarından biridir. Diqqətinizə görə təşəkkür edirəm. Görüşənədək!

Seminar bitəndən sonra doktor Məcidinin stolunun ətrafı yenə adamla doldu. Qiqz də oraya yaxınlaşdı. Doktor Məcidinin işarəsi ilə yol açıldı və o, irəli gəldi. Qiqz dedi:

– Əgər icazə versəniz, sabah arxiv fotolarını və filmlərini gətirər və barələrində məlumat verərəm.

Sara ilə Maşa da gəlib foto və filmlərə baxmaq üçün Doktor Məcididən icazə istədilər.

***

Ertəsi gün Sara ilə Maşa mərkəzə təyin olunmuş vaxtdan da tez getdilər. Doktor Məcidi də gəldi, bir qədər

səmimi söhbətləşəndən sonra uşaqların seminarlar barədə fikrini soruşdu. Sara dedi:

– Çox gözəldir! Məncə, bütün iştirakçılar sizinlə yaxşı ünsiyyət qururlar. Əlbəttə, sizin çıxışlarınızı bir qədər şübhə və təəccüblə izləmələrini də başa düşürsünüz. Çünki indiyədək qulaqlarına belə sözlər dəyməyib.

– Etiraf etməliyəm ki, əvvəldən sizə və bu seminarlara qarşı yaxşı fikirdə deyildim, – Maşa dilləndi, – amma indi varlığımın bu sözlərlə tanış olduğunu hiss edirəm və çəkdiyiniz əziyyətlərə görə, həqiqətən, təşəkkür edirəm.

Bu zaman doktor Qiqz qapını döyüb içəri girdi, salamlaşandan və hal-əhval tutandan sonra notbukunu açıb əvvəlcə 1900-cu ilə və ondan sonraya aid çoxlu fotoşəkil göstərdi. Şəkillər İngiltərə şəhərlərinin müxtəlif yerlərindən idi; universitetdən tutmuş küçəyə, bazara qədər. Bu şəkillərdə qadın və kişilərin geyimi aydın görünürdü. O, Mançester, Lids və Birminhem kimi şəhərlərin müxtəlif mühitlərində insanları nümayiş etdirən filmlərdən öncə onların istehsalı barədə məlumat verdi.

Doktor Məcidi filmlərin bir qismini görəndən sonra təəccüblə dedi:

– Avropa əhalisinin geyim vəziyyətini bilmək üçün ən etibarlı sənəd bu film və fotolardır. Adam bu filmlərin İngiltərə şəhərlərinə aid olduğunu bilməsə, elə bilər ki, müsəlman ölkələridir. Qadınlar tam örtünüblər, özü də sadə paltarlarla yox. Yadınızdadırsa, dedim ki, "Anna Şerli" və "Doktor Ernestin ailəsi" kimi qədim film və seriallar da Qərb cəmiyyətini olduğu kimi göstərmir. Siz bu filmlərdə bürüşüklü və enli geyimlər gördünüz? Kinonun iddiası budur ki, hər şeyi olduğu kimi göstərir, amma əslində, kino sənətinə hakim kapitalist sistem insanları nəyə sövq etmək istəyirsə, onu göstərir, insanlar

da özlərindən asılı olmadan tədricən həmin istiqamətə hərəkət edirlər. Bu filmlər, həqiqətən də, deməyə söz qoymur.

Qiqz doktor Məcidiyə təşəkkür etdi, film və şəkilləri verəndən sonra sağollaşıb getdi.

Sara Əfsanə məsələsini xanım Məcidiyə necə söyləməli olduğunu bilmirdi.

Doktor Məcidi dedi:

– Sara can, deyəsən, nəsə demək istəyirsən.

– Yox... – Sara dedi, – düzü... mən demişdim ki, qadın hüquqları sahəsində fəaliyyət göstərirəm.

– Bəli.

– İndi bilirəm ki, mənim fəaliyyət və araşdırmalarım yanlış istiqamətdə olub və çox aldanmışam...

– Əsas odur ki, sən həqiqət ardıncasan, – doktor Məcidi gülümsəyib dedi, – həqiqəti əldə etməyə çalışırsan.

Maşa dedi:

– Xanım doktor, sizinlə, söz və düşüncələrinizlə tanış olanda bildik ki, həqiqətdən çox uzağıq. Həqiqətən də, həqiqət elə bir şeydir ki, hər yolla ona çatmaq olmur.

– Düzdür, – Sara dedi, – Maşa doğru deyir. Mən bu günlərdə həqiqət və onu öyrənmək barədə çox mütaliə etmişəm. Ona nail olmaq üçün çox yollar var, amma Quran, sizin böyük və məşhur adamlarınız... məsələn, Məhəmməd, digər imamlar...

– Əhli-beyt, – doktor Məcidi gülümsəyib dedi.

– Bəli, onlar. Sizin Əhli-beyt həqiqəti gözəl tərif edir, haqqı tapmağa kömək edir.

Doktor nəfəsini təzələyib təsdiq əlaməti olaraq başını yellədi.

– Düzü, sizə Əfsanə barədə bir söz demək istəyirəm, – Sara dedi.

– Əfsanə? Mən onu tanıyıram? – doktor soruşdu.

Sara Əfsanə barədə məlumat verdi, sonra "Qadınlar üçün" və "İşrətkədə" saytlarından danışıb dedi:

– Düzü... qorxuram ki, sizə problem yarada. Ona deyiblər ki, bu işi görsə, iqamət üçün mütləq kömək edəcəklər.

– Narahat olma, – doktor dedi. – Mən doktor Tehraniyə söyləyərəm, ancaq özləri də ayıq-sayıqdırlar. Zavallı qızı məcbur ediblər. Allah kömək edər!

# Beşinci fəsil

## Gül və gülab

Sara həftəboyu İslamda qadın hüquq və azadlıqları barədə kitablar oxudu, xüsusən də Şəhid Mütəhhərinin "Hicab məsələsi" kitabını mütaliə etdi. Bazar günü səhər çağı Maşa ilə danışıb "Bütün dünya qadınları üçün" seminarına getməyə vədələşəndən sonra Əfsanə zəng vurub israrla onu görmək və mühüm bir məsələ barədə danışmaq istədiyini söylədi. Sara dedi:

– İndi bir yerə getməliyəm. İlk fürsətdə zəng vuraram, görüşərik.

Əfsanə də batıq səslə sağollaşdı.

"Bütün dünya qadınları üçün" silsiləvi seminarların beşincisi Quran oxunuşu və ingiliscə tərcüməsinin səsləndirilməsi ilə başladı. Əvvəlcədən razılaşdırıldığı kimi, doktor Cudi Qiqz BFI şirkətinin təxminən 1900-cü ilə aid şəkil və filmləri barədə qısa məlumat verdi, sonra iyirmi dəqiqə ərzində onlar nümayiş etdirildi. O,

materialları pulsuz şəkildə yükləmək üçün "Electric edwardians" saytının ünvanını söylədi.[1]

Xanım Həkimi doktor Məcidini səhnəyə dəvət edəndə hamı əl çaldı. Maşa ilə Sara ikinci cərgədə oturmuşdular. Sara həvəslə əl çaldığı yerdə doktor Məcidinin səhnəyə qalxdığı səmtə, yəni sağ tərəfinə baxdı. O, bir qədər aralıda Fərhadın diqqətlə ona baxdığını gördü. Fərhad bir neçə saniyə gözlərini Saraya dikdi, sonra baxışını səhnəyə doğru çevirdi.

Doktor Məcidi "Bismillah" deyəndən və iştirakçılara təşəkkür edəndən sonra çıxışına başladı:

– Qeyd etdiyimiz kimi, müasir geyim üçün ilk dəlilimiz bəşəriyyət tarixi idi. Bu barədə məlumat verdik, dostumuz xanım doktor Qiqzin filmləri bizim bütün sözlərimizi ən yaxşı şəkildə təsdiqlədi. Əməkdaşlığına görə ona təşəkkürümü bildirirəm. Tarix bəhsində başqa iki mövzuda da danışacağam. Birincisi ilahi dinlərdə, ikincisi isə fars ədəbiyyatında örtünmədir.

Lütfən tez mühakimə yürütməyin. Bilirəm ki, hamınız bütün dünya qadınları üçün məqbul sözlər eşitmək istəyirsiniz. İlahi dinlərə görə örtünmə mövzusunda biz yalnız örtünmənin tarixi keçmişindən bəhs edəcəyik, baxışımız xüsusi bir dinə aid olmayacaq. Hərçənd, örtünmə üçün ən güclü dəlil vəhy və səmavi kitabların göstərişləridir. Bəşəriyyət bir neçə minillik düşüncə və təcrübəsi ilə hələ də öz həyatı üçün uğurlu bir proqram təqdim edə bilməmişdir. Deməli, bəşərin vəhy adlı başqa bir amilə ehtiyacı var ki, dünya həyatından əlavə, onun axirətini də gözəlləşdirsin. Bu uğurlu proqramı Musa (ə), İsa (ə) və İslam peyğəmbəri (s) kimi böyük insanlar bəşərə

[1] Foto və filmləri görmək üçün "electricedwardians" sözünü axtarış edib şəkillər və videolar bölməsinə baxa bilərsiniz.

hədiyyə etmişlər. Vəhy mövzusu genişdir; bundan artıq araşdırmayacaq, dinlərdə örtünmənin tarixi keçmişindən bəhs edəcəyəm.

Həzrət İbrahimin (ə) dini miladdan iki min il öncəyə aiddir. Mən ondan başlayıram. Tövratda Rəfəqə adlı bir qadın barədə oxuyuruq: "Rəfəqə gözlərini qaldırıb İshaqı (ə) gördü və öz dəvəsindən enib soruşdu: "Səhrada bizi qarşılayan bu adam kimdir?" Xidmətçi dedi: "Mənim ağamdır". Sonra niqabla üzünü örtdü".[1] Bu qadın sonralar həzrət İbrahimin (ə) gəlini və İshaqın (ə) həyat yoldaşı olacaqdı. Bu sözdən və buna bənzər cümlələrdən örtünmənin dörd min illik tarixi sübuta yetir.

Həzrət Musanın (ə) təlimlərində və yəhudilikdə örtünmə həzrət İbrahimdən (ə) təxminən yeddi yüz il sonraya aiddir və çox önəmli məsələ sayılmışdır. Müqəddəs Tövratın və Talmudun bir çox yerlərində örtünmə tərzi kimi çadra və niqabın vacibliyinə açıq şəkildə işarə vurulmuşdur. Misal üçün, Tövratda oxuyuruq: "Buiz o qadına dedi: "Çadranın kənarını tut. O da tutdu və Buiz ora altı qab arpa tökdü".[2]

Yaxud Talmudda yazılır: "Yəhudilik qanunlarının icrasından boyun qaçıran, məsələn, başını örtmədən kişilərin arasına çıxan bir qadının izdivacı batildir və ona mehr düşmür".[3]

Xanımlar və cənablar! Hicabın yəhudi qadınlar arasında geniş yayılması qəti tarixi məsələlərdəndir, bütün tarixçilər bunu qeyd etmişlər. Vill Dürant yazır: "Yəhudilər Orta əsrlərdə də qadınlarını bahalı paltarlarla bəzəyir, amma onlara başıaçıq şəkildə insanların arasına

---

[1] Tövrat, Yaranış bölməsi, fəsil 24, sütun 64-65.
[2] Tövrat, Rut bölməsi, fəsil 3, sütun 15.
[3] Talmud xəzinəsi, s. 186.

çıxmağa icazə vermirdilər".[1] Maraqlıdır ki, hətta bu gün də yəhudi dindarları işğal olunmuş bölgələrdə tam şəkildə örtünürlər.

Doktor Məcidi monitorda qara rəngli və çox uzun paltarlar geymiş yəhudi qadınların şəkillərini göstərib dedi:

– Gördüyünüz şəkillər müsəlman ölkələrinə aid deyil, işğal olunmuş Fələstin torpaqlarında çəkilib. Bu baxımdan, yəhudilikdən deyilənlərə əsasən, örtünmə üçün 3300 illik bir keçmiş sübuta yetir.

Möhtərəm iştirakçıların çoxunun məsihi olduğunu nəzərə alıb bu barədə həzrət Məsihin (ə) təlimlərinə toxunacağam. Onun sözü daha gözəldir. İsa Məsih (ə) keçmiş dinlərin hicab hökmlərini nəinki dəyişdirmədi, hətta onu bir qədər gücləndirdi də. İncildə nəinki çoxlu yerlərdə hicabın və örtünmənin vacibliyi bildirilir, hətta daxili aləmi ehtiraslı təmayüllərdən təmizləmək, daxili isməti zahiri hicabın güclü dayağına çevirmək məqsəd seçilmişdir.[2] Matta İncilində həzrət İsadan (ə) çox təsirli bir cümlə var: "Eşitmisiniz ki, keçmiş insanlara "zina etmə" deyilmişdir. Lakin mən sizə deyirəm: Kim bir qadına ehtirasla baxsa, o anda ürəyində onunla zina etmişdir. Odur ki, sağ gözün tovlasa, kəs və özündən uzaqlaşdır. Çünki bir bədən üzvünü itirmək bütün bədəninin cəhənnəmə atılmasından yaxşıdır".[3]

Haram baxış barədə belə sərt hökm varsa, münasib örtünmə barədə də dəqiq hökmlərin olduğu gözlənilir. İncildə oxuyuruq: "Ümumi yerlərdə başıaçıq şəkildə görünmək qadınlar üçün ayıbdır. Qadının saçını örtməsi o

---

[1] Hatəmi, s. 26.

[2] İslamlu, Gülün hərimi, s. 57.

[3] Matta İncili, fəsil 1, sütun 28-30.

deməkdir ki, o, gözəlliyini yalnız həyat yoldaşının gözlərinə saxlamışdır".[1] Başqa bir yerdə isə deyilir: "Qadınlar özlərini həya və çəkinmək paltarı ilə bəzəsinlər, saç, qızıl və mirvari ilə deyil". Hətta ibadət zamanı də münasib örtünmə üzərində təkid olunmuşdur: "Başıaçıq halda dua edən hər bir qadın özünü rüsvay edər".[2]

İndi ən son və ən kamil ilahi din olan İslam dininə çatırıq. İslamda örtünmənin vacibliyi və dəqiq hüdudları hamıya aydındır. İslam alimləri örtünməni dinin zəruri məsələlərindən bilirlər, heç bir müsəlman məzhəbinin bunda şübhəsi yoxdur. İslamda örtünmənin vacib olması bu dini qadınların həbsində və fəaliyyətlərinin qarşısını almaqda ittiham edənlərə qarşı ən yaxşı arqumentdir. Çünki örtünmə qadının cəmiyyətdə olduğu və özünə uyğun ictimai fəaliyyət göstərdiyi zaman vacibdir. Əks təqdirdə, evin içində və məhrəmlərin yanında örtünməyə ehtiyac da yoxdur. Deməli, İslamda örtünmənin vacibliyi qadının cəmiyyətdə iştirakına icazə deməkdir. Bir çox ideologiyalar isə qadına cəmiyyətdə iştirak haqqı tanımır. Hər halda, İslamda örtünmə və onun müxtəlif məsələləri barədə mövzuların bir neçə müstəqil seminara ehtiyacı var. Lakin hələlik məqsədimiz tarixi keçmişi araşdırmaqdır. Mən burada ən önəmli məsələlərə toxunacağam.

Hörmətli xanımlar və cənablar! Qurani-kərimdə iki ayədə açıq-aşkar örtünmənin vacibliyinə işarə vurulub. Hərçənd, bu mövzu üzərində təkid edən çoxlu ayələr var. Bu iki ayənin biri mübarək Nur surəsinin 31-ci ayəsidir: "Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş

---

[1] İncil, Elçilər bölməsi, fəsil 18, sütun 18.

[2] İncil, Paul risaləsi, Paulun korinflilərə birinci məktubu, fəsil 2, sütun 9, fəsil 11, sütun 3.

şeylərdən çevirsinlər, ayıb yerlərini qorusunlar, (əl və üz kimi) öz-özlüyündə görünən istisna olmaqla, zinətlərini göstərməsinlər, baş örtüklərini yaxalarının üstünə çəksinlər, zinət yerlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz (müsəlman) qadınlarından, yaxud qullardan (kənizlərdən), yaxud qadına meyli olmayan ağılsızlardan, yaxud qadınlara aid cinsi məsələləri anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək şeylərini göstərmək üçün ayaqlarını yerə vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!"

Münasib örtünmənin vacibliyi, xüsusən də başörtüyünün sinələrə atılması məsələsi bu ayədə açıq şəkildə göstərilir; yəni həm qadının ən önəmli gözəllik cəhəti olan saçı örtülür, həm də boynu və sinəsi. Maraqlı məsələdir ki, Allah qadınlar üçün örtünməni vacib etməzdən qabaq 30-cu ayədə kişilərə gözlərinə nəzarət etməyi vacib buyurur, deyir ki, Mənim bəndələrim, cəmiyyət insani istedadların inkişaf etdiyi yerdir, pozğunluq, avaralıq və cinsi siqnalların ötürülmə yeri yox.

Örtünmənin vacibliyinə açıq şəkildə təkid göstərən başqa ayə mübarək Əhzab surəsinin 59-cu ayəsidir: "Ey peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin həyat yoldaşlarına de ki, cilbablarını (uzun örtüklərini, yaxud çadralarını) örtsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhm edəndir!" Bu ayədə örtünmənin vacibliyindən əlavə, onun mühüm fəlsəfələrindən birinə, yəni ictimai təhlükəsizliyə də toxunulur.

Erkən İslam çağında, peyğəmbərin (s) və imamların sözlərində örtünmənin olduqca özəl yeri olmuşdur. Mən bir neçə nümunəyə toxunacağam:

Əsma nazik paltarla peyğəmbərin (s) evinə girəndə, peyğəmbər üzünü çevirib buyurdu: "Əsma, qadın həddi-büluğa çatandan sonra üzündən və barmaqdan biləyə qədər əlindən başqa bir yeri görünməməlidir".[1] İmam Sadiq (ə) buyurur: "Həddi-büluğa çatmış qıza oruc və hicab vacibdir".[2] Allah peyğəmbərinin (s) baxışına görə, ən yaxşı qadınların xüsusiyyətlərindən biri çox örtünmədir.[3] O, bir qadının münasib örtündüyünü biləndə sevinib onun üçün dua edirmiş. Yağışlı bir gündə peyğəmbər (s) bir neçə səhabəsi ilə Bəqi məzarlığına gedəndə bir qadın mindiyi heyvandan yıxılır. Peyğəmbər gözü onun bədəninə sataşmasın deyə üzünü çevirir. Bunu görən səhabələr deyirlər: "Ey Allahın rəsulu, bu qadın tamamilə örtünmüşdür!" Peyğəmbər razılıq və sevinc əlaməti olaraq örtünmüş qadınlara üç dəfə dua edib bağışlanmaq istəyir.[4]

Bu məsələləri həya, iffət, qeyrət, naməhrəmə baxışın haram olması, peyğəmbərin (s) və onun ailəsinin davranışı kimi geniş bəhslərin yanına qoyduqda İslamda örtünmənin əhəmiyyəti daha aydın başa düşülür. Biz bu mövzuların yanından sadəliklə keçməməliyik. Bəzən iki yüz il yaşı olan bir kuzə üçün nə qədər heyrətlənirik, amma bir neçə minillik mənəvi irsimizin yanından saymazyana keçirik.

Dinlərdə örtünmə tarixi mövzusunu iranlıların qədim dini olan və 2600 illik keçmişə malik Zərdüştilik dini ilə

---

[1] Rəcəbi, s. 47.

[2] Hürr Amili, c. 4, s. 410.

[3] Kuleyni, c. 10, s. 570.

[4] Nuri, c. 3, s. 245.

bitirmək istəyirəm. Zərdüştilikdə örtünmə və hicab bu dinin əsas prinsiplərindən irəli gəlir. Məsələn, "Tam təhlükəsizlik" prinsipi tələb edir ki, bu dinin ardıcılları örtünməyə və hicaba əməl etsinlər; yaxud zərdüştilərin "Azadlıq" prinsipinə əsasən, digərlərinin azadlığına hörmət və onların cinsi istəyini təhrik etməmək məqsədilə örtünməyə və hicaba əməl olunmalıdır.[1]

Mubəd Rüstəm Şəhrzadi deyir: "Qadınlar elə örtünməlidirlər ki, başlarının bütün tükləri örtüyün altında qalsın".[2] Tarixi rəsmlərdən belə başa düşülür ki, zərdüştilər tarix boyu tam örtünmüşlər. Adətən kişilər papaqdan, uzun paltardan və şalvardan, xanımlar da çadradan istifadə etmişlər. Hətta müasir dövrdə zərdüştilərin dini mərasimlərində örtünmənin xüsusi əhəmiyyəti var, qızlarının həddi-büluğ tədbiri tam örtünmə ilə keçirilir.

Bu bəhsdə son məsələ kimi zərdüştilərin müqəddəs kitablarından biri olan Kiçik Avestadan bir cümləyə toxunmaq istəyirəm: "Hamımız Sənin adını çəkirik, başımızı örtürük və Hürmüzün dərgahına namaz qılırıq".[3]

Bu zaman doktor Məcidi ilə xanım Həkimi bir-birinə baxdılar. Doktor başını yellədi. Aparıcı gülümsəyib mikrofonunu tənzimlədi və dedi:

– Ümidvaram ki, əziz iştirakçılar buraya qədər seminardan lazımınca istifadə etdilər. İndi isə on beş dəqiqəlik bir fasiləyə çıxırıq. Bir çay süfrəsindən sonra ədəbiyyat həvəskarları, xüsusən də farsdillilər üçün bir sürprizimiz olacaq.

---

[1] İslamlu, Gülün hərimi, s. 50.
[2] Yenə orada, s. 25.
[3] Yenə orada, s. 52.

İştirakçıların çoxu qəlyanaltı zalına keçdi, bəziləri isə Doktor Məcidinin stolunun ətrafına toplaşdı və sual-cavablar başladı.

İstirahət zamanı bitəndən sonra iştirakçılar öz yerlərində oturdular. Maşa Saranın çiyninə vurub dedi:

– Bu yaraşıqlı oğlanı tanıyırsan?

Sara Maşanın baxdığı səmtə baxdı və tez başını aşağı salıb yerini rahatladı, yavaşca dedi:

– Çox da yox. Birinci dəfə bura gələndə görmüşəm. Bildiyim budur ki, doktor Tehrani ilə tanışdır, iranlıdır, adı da Fərhaddır.

– Oo! Necə də az məlumatın var! Təkcə aldığı maaşın miqdarı qaldı, onu da bu günlərdə sənə deyər.

– Yenə ağzına gələni danışırsan, – Sara gülüb dedi.

– Sözdür, deyirəm, inanma... Amma səni çox sevir! – Maşa dedi.

Sara gözlərini bərəldib dedi:

– Dəli! Danışmasan, sənə lal deməzlər ha!.. Bəyəm nə edib ki?

– Bunu deməyəcəyəm, – Maşa gülüb dedi. – Ancaq mərc gələrəm ki, səhv etmirəm.

Saranın üzü qızardı, gözaltı Fərhada baxıb Maşanın ayağına vurdu.

Xanım Həkimi mikrofonun arxasına keçdi. Səsi zalı bürüyəndə hamının baxışı ona yönəldi.

– Əziz və dəyərli dostlar! Bugünkü seminarın bu hissəsində İranın çox dəyərli simalarından biri, fars dilinin ən qədim ustadlarından və mötəbər beynəlxalq jurnallarda çoxlu elmi məqalələrin müəllifi olan cənab professor Ədibi dinləyəcəyik. Bizi dəyərli və şirin sözlərinə qonaq etməsi üçün onu səhnəyə dəvət edirəm.

Professor Ədib iştirakçıların, xüsusən də iranlıların alqışları altında yavaş-yavaş səhnəyə qalxdı və bu beytlə sözə başladı:

– Gül və gülab işində əzəli hökm bu idi:

Ki o, bazara şahid olsun, bu isə pərdə arxasında qalsın.

Tədbirdə iştirak edən bütün dəyərli insanları salamlayıram. Mən fars dili müəllimiyəm. Sizin aranızda olduğuma görə çox şadam. Mən həyat yoldaşımla birlikdə əlli günə yaxındır bu şəhərdə qızımıza qonağıq. Gözəl günlər yaşayıram. Çünki Allah bizim qızımıza üç oğuldan sonra hər ikisi qız olan bir əkiz hədiyyə edib.

Mən birincini çıxmaq şərtilə bütün bu seminarlarda sizinlə birgə iştirak etmişəm. Keçən həftə xanım doktor Məcididən icazə aldım ki, örtünməni fars şeirlərində və ədəbiyyatında araşdırım. Çünki şeirlərin həm tarixi cəhəti var, həm də şairlərin uca və zərif ruhundan süzülüb çox ibrətli məqamları ehtiva edirlər. Əvvəlcə həzrət Hafizdən oxuduğum beyt barədə bəzi məsələləri söyləyəcəyəm.

Şiraz xacəsi bu beytdə çox gözəl bir təmsillə kişini gülaba, qadını isə gülə bənzətmişdir. Sonra kişi və qadın şəxsiyyətindən dəqiq psixologiya ilə kişini bazara şahid, yəni küçədə, bazarda ağır işlər üçün yaradılmış bir varlıq kimi təqdim edir, qadını isə lətafətli xarakterlərinə və möhtəşəm zahiri gözəlliklərinə görə pərdə arxasında qeyd edib tam örtünmədən istifadəyə həvəsləndirir.

Bu qısa girişdən sonra sözümü şeirləri dünyanın Kembric kimi ən tanınmış universitetlərində araşdırılan ən böyük fars şairi Firdovsinin şeirləri ilə davam etdirirəm.

Firdovsinin “Şahnamə”sində iranlı qadınlar hicablı və iffətli təqdim olunurlar, onlara dəfələrlə "örtülü üzlülər" kimi işarə vurulub.[1]

Örtülü üzlülərdən biri Şəhrnaz,
Digəri də ismətli, adı Ərnəvaz.

Firdovsi 940-cı ildə dünyaya gəlib, ozamankı cəmiyyətin aynası olan şeirlərinin min ildən artıq yaşı var. Böyük Firdovsi Əfrasiyab şahın qızı Mənijəni elə örtülü halda təsvir edir ki, hətta hər şeyə və hər kəsə saçmış günəş də onu çılpaq görməyib:

Mənijə mənəm, Əfrasiyabın qızı,
Günəş də bədənimi çılpaq görməyib.

Gəstaşib şahın qızı Behafərid elə örtülü təsvir olunur ki, hətta külək də onu görməyib:

Şahın digər qızı Behafəriddir,
Onu külək də heç görməmişdir.

Rüstəmin qızı Təhminəni də yalnız pərdə və örtükdə təsvir edir, onun səsinin də yadlardan gizli olduğunu söyləyir:

Heç kim məni pərdədən kənarda görməyib,
Nə də heç kim mənim səsimi eşitməyib.

Firdovsinin dövründə çılpaqlıq bir növ təhqir sayılıb. Buna görə Mənijə qəzəbə düçar olanda təhqir etmək üçün çılpaq baş və ayaqla saraydan qovulub:

Mənijə bir çadrayla çılpaq,
İki ayağı və başı açıq halda.

1141-ci ildə doğulmuş Nizami Gəncəvinin şeirlərində də qadına ikinci dərəcəli və nöqsanlı şəxs kimi baxılmır. Bu xüsusiyyət Nizaminin ədəbiyyatında bariz şəkildə özünü göstərir. O, “Leyli və Məcnun” və “Xosrov və

[1] Məhəbbəti, c. 1, s. 100.

Şirin" kimi poemalarında ən pak eşqləri tam örtük altında təsvir edir, Leylini "pərdə arxasında" və "üzübağlı" adlandırır:

Pərdə arxasında və üzübağlı olanın
Səndən qəlbi sınmışdır.

Başqa bir yerdə Leylini bir növ niqab olan "kəlləbənd"lə təsvir edir:

Leyli kəlləbəndi açıb,
Məcnun gileyləri uzadıb.

Şirini də "başörtüyü altında papaq" ilə vəsf edir:

Pəri kimi qızsan, sanki aysan,
Başörtüyü altından papaq qoymusan.

Şirinin əhvalatının başqa bir yerində qızlar üzlərində niqab şaha doğru gedirlər:

Hamısı ay üzlərinə niqab saldılar,
Şahın hüzuruna yola düşdülər.

Nizamidən yadigar qalmış bəzi gözəl dastanlarda qadınlar qəhrəmanlarla eyni səviyyədə, bəzən də qəhrəmandırlar. Bu dastanlarda qadınlar tam örtünməklə bərabər, yadların gözlərindən uzaq şəkildə ictimai fəaliyyətlərlə məşğul olur, istirahət, hətta idman edir, ova çıxırlar. Məsələn, "Şərəfnamə"də kişilərdən də çevik və dəniz mirvarisindən də təmiz olan Nüşabə adlı bir qadının şəxsiyyətindən söhbət gedir:

Qadın çox kişidən cəsurdur,
Dəniz mirvarisindən də təmizdir.

Nüşabə tam örtülü geyimlə, hətta qulluqçularının baxış nöqtəsində olmadığı halda şahlıq vəzifəsini ən yaxşı şəkildə yerinə yetirir:

Baxmayaraq ki, pərdə arxasında oturur, hər gün imarətindədir,

Çoxlu kişi qulluqçuları var, amma onun üzünü heç kim görmür.

Nizaminin əsərlərində Nüşabə kimi qadınlar, məsələn, Mihən banu, yaxud çinli balaca kəniz kimilər çoxdur. Onlar hicablı olmaqla yanaşı, bir qadının dəyər və bacarıqlarını nümayiş etdirirlər.

Nizaminin dastanlarında ibadət etməkdə ad çıxarmış Bişr adlı bir zahidin olduqca gözəl dastanını burada qeyd etməyə bilmərik. Bişr təsadüfən çadra və niqabla örtünmüş bir qadınla rastlaşır. O, arxayın şəkildə küçədən keçərkən birdən külək niqabı onun ay kimi üzündən kənara çəkir.

Bişrdən xəbərsiz yolla gedirdi,
Qəfil bir külək ayın niqabını götürdü.

Bişr qadının gözəl üzünü görən kimi özündən gedir. Bir qədər fikirləşəndən sonra günahdan qaçmaq məqsədilə şəhəri tərk edir. Yolda Məlixa adlı bir kişi ilə yoldaş olur. İrəlidə Məlixa quyuya düşüb ölür. Bişr yolu davam etdirmək qərarına gəlir, amma Məlixanın mallarına görə bu fikrindən daşınır. Qərara gəlir ki, onun pul və paltarlarını ailəsinə təhvil versin. Bu məqsədlə yola düzəlir, Məlixanın evini tapandan sonra içəri girib həyat yoldaşına əhvalatı danışmaq istəyəndə xanım niqabla gəlir. Bişr əhvalatı danışıb pulları və əşyaları Məlixanın xanımına təhvil verir. Qadın Bişrin halalçı və dürüst biri olduğunu görüb ona evlənmə təklif edir. Bişrin razılığı ilə Məlixanın xanımı üzündən niqabı götürür. Bişr onu görən kimi qışqırıb huşunu itirir. Bu qadın küçədə onun canına lərzə salmış qadın idi. O, özünə gələndən sonra eşqini əyan edir:

*Filan gün filan küçədə*
*Külək sənin niqabını qaldırdı.*
*Mən səni görüb özümü itirdim,*
*Vüsal camını içməmiş məst oldum.*
*Qadın onun istəyini görəndən sonra*
*Bişrə rəğbəti on qat artdı.*[1]

Nizaminin "Yeddi gözəl" poemasının bu dastanı qadının həyasını və örtünməsini, kişinin də paklığını göstərir.

Zalın ortasından ortayaşlı bir kişi əlini qaldırdı. Vəcdə gəldiyi görkəmindən bilinirdi. O, İsfahan ləhcəsi ilə danışmağa başladı:

Cənab doktor Ədib, sizə yaraşmaz ki, adamı çaya susuz aparıb, susuz da gətirəsiniz. İndi ki bu gözəl nitqinizlə, bu şeirlərlə bizi məst etdiniz, xahiş edirəm, bizi feyzdən məhrum etməyin, Nizamidən yenə oxuyun. Möhtərəm iştirakçılar, cənab Ədibi alqışlayın, davam etsin.

Camaat daha böyük şövqlə bir qədər əl çaldı. Professor Ədib dedi:

– Minnətdaram. Var olun! Gözəl ləhcənizlə bərabər bu şövq və həyəcan mənə olduqca pozitiv enerji verdi. Ona görə Nizaminin dastanlarından birini də söyləyirəm:

Nizami İskəndərin ruslarla müharibəsini çox gözəl və ürəkaçan şəkildə təsvir etmiş, onun Qıpçaqdan keçməsini və bu bölgənin qadınları ilə üzləşməsini nəzmə çəkmişdir. Qıpçaqda qadınlar örtünmələrinə çox həssas yanaşır və kişilərin baxışına nəzarət üzərində çox təkid göstərirmişlər. İskəndər söhbət və məntiqi əsaslandırma əsnasında deyir:

---

[1] Yenə orada, s. 278-339.

Başqasına üz göstərən qadının
Öz əzəməti və ərindən xəcaləti yoxdur![1]

Yəni münasib örtünmə qadının əzəmətinə və onun həyatının qorunmasına səbəb olur. Əlbəttə, mümkün deyil ki, kişilərə "baxmayın" deyək, qadınların gözəlliklərini də nümayiş etdirək. Sanki ac bir adamın önünə xörək boşqabı qoyub deyirik ki, yemə, döz. Bəli, əgər yemək olmasa, onu dözməyə, səbir etməyə çağırmaq olar.

Mövləvinin gözəl bir qəzəli yadıma düşdü. O, kişinin fiziki gücünü və qadının emosional qüdrətini gözəl şəkildə təsvir edir:

Qadın onun sərt və qaba olduğunu görəndə
Ağlamağa başladı; çünki ağlamağın özü qadın tələsidir.

Mövləvi qəzəlin sonlarında örtünməni qadının daha çox sevilməsinə səbəb kimi göstərir və çox ustalıqla qadını alova, kişini suya, geyimi qaba bənzədir. Deyir ki, əgər alovun üstünə su tökülsə, alov soyuyub xüsusiyyətini itirər; amma əgər bir qab su ilə alov arasında maneə yaratsa, alov nəinki xüsusiyyətini itirməz, hətta suyu da qaynadıb buxarlandırar. Örtülü qadın da kişinin daxili eşqini qaynadan alov kimidir.[2]

Dostlar! Bu gün dünyada özbaşınalıqlara görə eşq edam olunub, Leyli və Məcnun və ya Xosrov və Şirin kimi Şərq eşqləri inkişaf etmir.[3] Bu gün qadın insani meyarlarla deyil, qadınlıq meyarları ilə ölçülür, ona bir məhsul kimi baxılır. Yəni qadının dəyəri onun bədəninin dəyəri qədərdir.

Əttar Nişapuri deyir:

---

[1] Nizami Gəncəvinin Xəmsəsi, Şərəfnamə, 37-ci bölmə, İsgəndərin Qıpçaq düzünə gəlməsi.

[2] Məsnəvi Mənəvi, bölmə 1, s. 138.

[3] Məhəbbəti, c. 1, s. 345.

Rabiənin evinə bir oğru girdi,
Hadisə sahibinin toyuğu yatmışdı.

Bu hekayə Rabiənin evinə girib onun çadrasını oğurlayan bir oğru barədədir. Oğru çıxanda qapını tapmır, çadranı yerə qoyandan sonra isə tapır. Çadranı götürəndə yenə qapını itirir. Yorulub bezir. Göydən bir səs gəlir: "Bir dost yuxuda olanda başqa dost oyaqdır və onu qoruyur". Əttar bu gözəl hekayədə hicablı qadını Allahın və Allahı da onun dostu kimi təqdim edir.[1]

Oxuduğum bütün beytlər açıq şəkildə örtünmə və hicabdan danışır. Lakin ümumi olaraq şairlərin şeirlərində, bəlkə də, bir neçə yüz min dəfə köynək, qəba, niqab, paltar, üzörtüyü, pərdə, hicab, çadra və digər bu kimi sözlər məcazi mənada da işlənmişdir. Bəzən şair hicab sözünü işlədir, məqsədi isə özü ilə Allah arasında olan zülmət pərdələridir. Şübhəsiz ki, bu beytlər də bütün tarixi dönəmlərdə örtünmənin olduğunu dolayı şəkildə bəyan edir.

Mənim vaxtım bitdi. Əgər icazə versəniz, Sədinin bu beyti ilə sizinlə sağollaşıram:

İstəyirəm ki, ay kimi üzünü örtəsən,
Ki səni günəş kimi hər qapı-bacada görməyələr.[2]

Təşəkkür edirəm.

Bu zaman zaldakılar qeyri-ixtiyari olaraq yerlərindən qalxıb doktor Ədibi alqışladılar. İştirakçılar dayanmadan əl çalırdılar, hamı xüsusi sevinc hissi və təbəssümlə doktora və çıxışına qarşı səmimi duyğularını ifadə edirdi. Hacı Tehrani və doktor Məcidi səhnəyə çıxıb öncədən hazırladıqları çərçivəli bir nəfis xalçanı cənab Ədibə

---

[1] Yenə orada, s. 393.
[2] Sədinin qəzəlləri, qəzəl 35.

təqdim etdilər. İştirakçıların alqışı davam edə-edə doktor Məcidi mikrofonun arxasına keçib dedi:

– Mübaliğəsiz deyirəm ki, qadınlar barədə bir neçə illik araşdırmalarımda heç vaxt bu qədər vəcdə gəlməmişdim. Heç vaxt düşünməzdim ki, "Bütün dünya qadınları üçün" seminarları bu qədər gözəl və maraqlı səviyyəyə çata bilər. Həqiqətən də, cənab doktor Ədibə çox təşəkkür edirəm. Gələn həftə görüşənədək Allahın amanında qalın! Hamınıza uğurlar!

# Altıncı fəsil

## Mən çılpaq deyiləm

Sara ilə Maşa piyada seminarın keçirildiyi yerə gedirdilər. Bütün on dördüncü prospekt boyunca polis və təcili yardım maşınlarının həyəcan siqnalları gəlirdi. Zala yaxınlaşdıqca avtomobillərin tıxacı da çoxalırdı. Onlar insan izdihamının və polis maşınlarının seminar zalına aid olduğunu hiss edəndə narahat halda qaça-qaça oraya yaxınlaşdılar. Zalın şüşələri qırılmışdı. Sara ilə Maşa camaatın arasından keçib polisin sarı rəngli lentlərinə çatdılar.

Polis qüvvələri üç quldurunu qolubağlı şəkildə zaldan çıxardı. Bir qədər sonra da dördüncü adamı çox səs-küylə bayıra çıxardılar. O, ikinci seminarın sonunda etirazları ilə aranı qatan şəxs idi, hələ də əvvəlki iddialarını təkrarlayır, seminarın mövzusunun terrorçuluq barədə olduğunu qışqırırdı. O, camaatın arasından keçəndə birdən Maşaya hücum etdi. Hamı qorxudan geri çəkildi. Maşa arxasındakı

çəmənliyə yıxıldı. Polislər kişini tutdular, Sara və başqa bir neçə nəfər əllərinin içi və alnı yaralanmış Maşaya kömək etdilər. Maşa narahat halda onun halını soruşan Saraya təbəssümlə cavab verdi:

- Narahat olma! Səninlə dostluq yolunda bu hadisələr bir şey deyil!

Quldurlar yaxalanandan və polis maşını gedəndən sonra ortalıq yavaş-yavaş sakitləşdi və iştirakçılar zala daxil oldular. Təzə gələnlər təəccüblə sınmış şüşələri göstərib əhvalatı soruşurdular. Quran səsi "Bütün dünya qadınları üçün" silsiləvi seminarların altıncısının başlandığını bildirirdi. Doktor Məcidi sözünə iştirakçılara təşəkkürlə başlayıb dedi:

– Biz əsla narahat deyilik və inanırıq ki, baş verən hər bir hadisə xeyirdir. Seminarlar başlayandan dostların çoxu üz-üzə və digər formalarda xahiş ediblər ki, sosial şəbəkə yaradılsın. Xoş xəbər budur ki, bir kanal yaradılıb, elə bu saatdan etibarən virtual mühitdə ondan istifadə etmək mümkündür.

Keçmiş seminarlarda qadına qarşı müsbət və mənfi baxışlardan danışıb hər birinin xüsusiyyətlərini qeyd etdik. Fərqlərin biri örtünmə idi. Mənfi baxış örtünməməyin və ya tam örtünməməyin tərəfdarı idi, müsbət baxış isə münasib örtünməyə həvəsləndirirdi. Dedik ki, müsbət baxışın örtünmə barədə fikrini təsdiqləyən və hamı üçün məqbul olan çoxlu dəlillər var. Birinci dəlil tarix idi. Bunu tarixi məlumatlar, dinlərdə örtünmə və qədim fars ədəbiyyatında örtünmə mövzularında araşdırdıq. Bütün tarixi dönəmlərdə münasib örtünmə olduğuna görə bildirdik ki, bəşərin həqiqi ehtiyaclarından biri örtünmədir.

İkinci mühüm dəlil ictimai təhlükəsizlik məsələsidir. Münasib örtünmə ictimai təhlükəsizlik üçün olduqca

böyük əhəmiyyətə malikdir, hamının öz ictimai fəaliyyətlərini ən yaxşı şəkildə yerinə yetirməsinə imkan yaradır.

Cəmiyyətdə münasib örtünmə olmasa, ictimai təhlükəsizlik də olmaz və istedadlar çiçəklənməz. Təhlükəsizlik bəşərin ən zəruri ehtiyaclarındandır. Psixologiyada humanizmin mənəvi atası sayılan Maslov deyir: "Təhlükəsizliyə ehtiyac insan şəxsiyyətinin inkişafı üçün təməl ehtiyaclardandır. Bu ehtiyac təmin olunmasa, şəxsiyyətin inkişafı əngəllənər". Natanın və həmkarlarının 1980-ci ildə apardıqları tədqiqat nəticəsində sübuta yetmişdir ki, təşviş əksər psixoloji xəstəliklərin mənşəyidir.[1] Bu baxımdan, insanlar gündəlik həyatlarında - küçədə, iş yerində, təhsil mərkəzində, hətta evin içində özlərini təhlükəsiz hiss etməsələr, qorxu və həyəcanları olsa, tədricən təşviş xəstəliyinə tutularlar. Bu gün dünyada, xüsusən də Qərb ölkələrində şagird müəllim, qadın öz iş yoldaşları və çox təəssüf ki, qız öz atası və ya qardaşı tərəfindən ciddi təhlükə hiss edir. Bunun dəlil-sübuta ehtiyacı yoxdur, sizin hamınız əyani şəkildə görür, yaşayırsınız. Cinsi ehtiras alov kimidir, üstünə nə töksən, yandırar və heç vaxt doymaz.

Bu gün yalnız qadınlar deyil, hətta azyaşlı uşaqlar da təhlükəsiz dairədə deyillər. Qərb ölkələrinin böyük problemlərindən biri uşaqlara təcavüzdür. Məsələn, İngiltərədə cinsi özbaşınalıq uşaqların cinsi istismarına, hətta bəzən öldürülməsinə səbəb olur. Bu statistika o qədər yüksəkdir ki, dövlət onun qarşısını almaq üçün "Uşaqların qaynar xətti" adlı xüsusi bir telefon xətti açıb. Rəsmi məlumata görə, hər 24 saatda uşaqlar doqquz min dəfə bu

---

[1] Rəcəbi, s. 104.

nömrəyə zəng vururlar və onların böyük bir qismi ailə üzvləri tərəfindən cinsi təcavüzə uğradıqlarını söyləyir. Əlbəttə, bu hadisələrin qurbanları çox vaxt azyaşlı qızlar olurlar. Onlar güclü psixoloji xəsarət alırlar, onun mənfi təsirləri adətən ömürlərinin sonuna qədər qalır.[1]

Hicabsızlıq yayılanda, təhrikedici bəzənmə tərzləri kişini daimi bir ehtiyac halında saxlayır, zaman ötdükcə onun müqaviməti və özünə nəzarəti azalır və qəfil cinsi dəlilik nəticəsində bu dəhşətli cinayətlər baş verir.

Qadınlar özlərinə məxsus xüsusiyyətlərinə və gözəlliklərinə görə daha böyük təhlükə altındadırlar və təbii olaraq onların təhlükəsizliyə ehtiyacı daha çoxdur. Siz kütləvi informasiya vasitələrinin qadınlara bu tövsiyəsini dəfələrlə eşitmisiniz: "Özünüzü müdafiə etmək və həyatınızı qorumaq üçün üstünüzdə gözyaşardıcı və ya bihuşedici sprey kimi müdafiə alətləri olsun". ABŞ-da bir qadın təşkilatı on üç tövsiyə verib: "Sakit və adamsız yerlərə getməmək, özgələrlə ünsiyyət qurmamaq, prospektdə və ya universitetin həyatində gecə saatlarında tək olmamaq, müdafiə üçün silahlı olmaq və s."[2]

Məncə, bu təşkilat və ya şəxslər ya cahildirlər, ya da özlərini cahilliyə vurub kəklik kimi başlarını qara batırıblar. Təhlükə evlərə çatmışdır, nə tövsiyə edirsiniz? İş yerində qadınlara təcavüz üçün necə? Niyə problemin kökü ilə məşğul olmursunuz? Amerikalı yazıçılar öz kitablarında narahatlıqlarını bildirirlər ki, qızların 40 faizi hər gün, 29 faizi həftədə bir dəfə cinsi istismara məruz qalır. Bunun da üçdə ikisindən çoxu ümumi yerlərdə baş verir![3] Düşündürücüdür ki, bütün istismar və təcavüzlər

---

[1] Yenə orada, s. 108.
[2] "Hicab; İslam dövlətinin vəzifə və səlahiyyətləri", c. 2, s. 461.
[3] Şelit, Amerikada feminizm, s. 21-23.

fahişəxanaların gecə-gündüz rəsmi şəkildə fəaliyyət göstərdiyi bir yerdə baş tutur. Yəni demək olar ki, heç kimin öz ehtirasını doyurmaq problemi yoxdur, əslində, bəzilərində bir sadizm və cinsi dəlilik formalaşmışdır. Görək bu böyük bəla bəşəriyyətin, xüsusən də Qərb dünyasının başına haradan gəlmişdir? Nə baş verib ki, Nyu-York Valideynlər Birliyinin sədri Aleksandr Səncər "Deyli nyus" qəzetində yazır: "Amerikalı yeniyetmələrin 75 faizi orta təhsili bitirməzdən öncə cinsi əlaqəyə girir. Nyu-York şəhərində əlli dörd mindən çox yeniyetmə 15-19 yaşları arasında hamilə olur".[1]

Özümüzü aldatmayaq! Elə bilməyək ki, problemlə üzləşən bu qadın və qızlar istəyərək bu işləri görürlər. Xeyr! Əsla belə deyil! 2006-cı ildə uşaq və yeniyetmə tibbinə dair bir jurnalın tədqiqatı göstərdi ki, yeniyetmə qızların 40 faizi cinsi əlaqə üçün təzyiq altında olmuşlar.[2] Yəni insanlar və ya cəmiyyət tərəfindən bu təzyiqlər olmasaydı, əsla belə bir iş də baş verməzdi. Merilend universitetinin professoru xanım Robin Sayer "Vaşinqton Post" qəzetinə müsahibəsində qız tələbələrin 90 faizinin qrupda özünü oğlanlarla cinsi əlaqəyə razı kimi göstərməsindən çox heyrətləndiyini bildirmişdi.[3] Kapitalizmin süfrəsində oturmayan bütün müstəqil sosioloq və psixoloqlara görə, bütün bu təhlükə və təcavüzlərin səbəbi cəmiyyətdə, xüsusən də qadınlar arasında özbaşınalığın və uyğun olmayan geyimlərin yayılmasıdır. Rusiyalı həkim və sosioloq Mixayloviç Xurakov deyir: "Şübhə yoxdur ki, bir cəmiyyətdə həyatın

---

[1] Yenə orada, s. 20-22.
[2] Şelit, Qızlar ismətə üz tuturlar, s. 181.
[3] Yenə orada.

intim və ləzzət cəhətləri hamıya nümayiş etdirilsə, bu cəmiyyət heyvanların səviyyəsinə enər".[1]

Bunu dərk etmək üçün çox da elmi işə ehtiyac yoxdur; küçə və bazar adamları da bilirlər ki, geyim tərzinin təhlükəsizlik məsələsinə böyük təsiri var. Doktor Bəhram Bəyat elmi bir məqalədə Tehran şəhərinin hicabsız qadınlarının fikrini yazıb. Onların 71 faizi hicabı ictimai təhlükəsizlik səbəbi hesab ediblər.[2]

Mən cinsi cinayətlər törətmiş məhbus qız və oğlanlarla çox danışmışam. Onlar deyirlər: "Həbs olunmazdan öncə elə bilirdik ki, həya ilə münasib örtünmə arasında əlaqə yoxdur; düşünürdük ki, hər bir geyimlə həyalı ola bilərik. Lakin həbsxanada bu nəticəyə gəlmişik ki, uyğunsuz geyim cinsi cinayətlər doğurur".

Onların biri deyirdi: "Heç vaxt əks cinslə əlaqə arzulamamışdım, amma mənim geyim tərzim digərlərinin rəftarını idarə edirdi və bu, mənim bütün varlığımın hədər getməsinə səbəb oldu". Əxlaqsız məsələlərə bulaşmış kişilərin sözlərinin də nəqəratı budur ki, biz adətən münasib geyimi olmayan qadınlara yaxınlaşırdıq, onları ələ keçirməyə ümidimiz böyük idi.

Zalın axırından gənc bir xanım əlini qaldırmışdı. Aparıcı doktor Məcidiyə dedi:

– Deyəsən, xanımların birinin sözü var.

– Əlbəttə, – deyə doktor Məcidi zalın axırına baxdı.

Hamıdan arxada dayanmış gənc xanımın əli hələ də havada idi. O dedi:

– Öz eşitdiklərimdən bir cümlə demək istəyirəm. Liseydə oxuyanda biologiya müəllimim bəzən ictimai

---

[1] Keşvəri, Gözəllik standartı, s. 71.

[2] Elxani, Əli, Örtünmə və hicab; sosioloji yanaşma (məqalələr toplusu), s. 200-203.

məsələlərdən danışırdı. O, bir dəfə dedi: "Müsəlman qadınların geyimi təhrikedicidir, kişilərdə daha çox ehtiras yaradır. Yaxşı olar ki, bu geyim tərzinə son qoyulsun ki, hər şey adiləşsin və kişilər qadınlara problem yaratmasınlar".

– Bu barədə öz fikriniz nədir? – doktor Məcidi soruşdu.

Gənc xanım gülümsədi, bir qədər əlini yelləyib dedi:

– Mən razılaşmışdım... İndi isə... düzü... sizin seminarlarda iştirak edəndən sonra şübhəyə düşmüşəm.

– İndiyədək sizə əziyyət verən olmayıb?

– Əgər hər gün problemlə üzləşdiyimi desəm, mübaliğə etməmişəm. Bir neçə dəfə isə rüsvayçı şəkildə əziyyətə məruz qalmışam.

– Sizcə, örtünməni kənara qoymuş cəmiyyətlərdə hər şey adiləşib? Yoxsa kobud, hətta ölümlə nəticələnən istismarlar daha da çoxalıb?

Gənc xanım dedi:

– Amerikada vəziyyət qırmızı səviyyəni də keçib. Bir neçə gün öncə Xəstəliklərin Profilaktikası Mərkəzi ölkədə əxlaqi fəsadın yüksək statistikasına toxunaraq bildirdi ki, Amerikada qadınların 20 faizi ən azı bir dəfə təcavüzə məruz qalır.[1] Yəni hər beş qadından biri, özü də ən azı bir dəfə. Təəssüflü haldır ki, müxtəlif statistika mərkəzləri çox cüzi fərqlərlə deyirlər: "Amerikada hər üç saniyədə bir qadın sui-istifadəyə, hər dəqiqədə bir qadın da təcavüzə məruz qalır".[2] Bu göstərici 322 milyon əhalisi olan bir ölkə üçün çox rüsvayçıdır. Hətta Çin kimi bizdə də 1 milyard 400 milyona yaxın əhali olsaydı, yenə xəcalətli və təəssüflü olardı.

Doktor Məcidi dedi:

---

[1] "Keyhan" qəzeti, 25.12.11, say: 20105, son səhifə.

[2] "Fars" agentliyi, 20.10.11.

– Təşəkkür edirəm. Bəli... əlavə şərhə ehtiyac yoxdur. Bu nəzəriyyənin əsassız olması tam aydındır. Lakin təsiri altına düşənlər az olmadığına görə bu barədə bir qədər danışmaq istəyirəm.

Bu nəzəriyyə Freyd və Rassel kimi alimlər tərəfindən irəli sürülmüş, kapitalizmin maraqları istiqamətində olduğuna görə media nəhəngləri tərəfindən sürətlə bütün dünyaya yayılmış və qısa müddətdə elə dəhşətli nəticələr doğurmuşdur ki, hətta Freydin özü də səhvini etiraf etmişdir.[1]

Freyd düşünürdü ki, cinsi məsələlərdə məhdudiyyət yaratmaq ehtirası coşdurur, psixoloji kompleks yaradır. O, bunlara qarşı cinsi azadlığı tövsiyə edirdi. Rassel deyirdi: "Əgər çılpaqlıq günün dəbi olsaydı, kişilər bir qadının çılpaq bədənini görəndə təhrik olmazdılar. Nə üçün ata və analar öz övladlarının yanında cinsi orqanlarını örtməyə israr edirlər? Bu israr onların daha da maraq göstərməsinə və təhrik olmasına səbəb olur. Mən yaxşı bilirəm ki, onlar öz cinsi orqanlarını tez-tez uşaqlara göstərsələr, onlar uşaqlıqdan hər şeyi öyrənərlər”.[2]

Bu nəzəriyyənin də mənim şərhimə ehtiyacı yoxdur. Anlayışlı dinləyicilər özləri mühakimə yürütsünlər.

Doktor Məcidi bir qədər pauza verəndən sonra sözünə davam etdi:

– Çox təəssüf ki, bir nəzəriyyə insanlar, hətta iranlılar arasında geniş yayılmışdır. Tez-tez deyirlər: "İnsan qadağan olunana tamahkardır".[3] Mən xarici səfərlərə

---

[1] Şücai, Məhəmməd, Mirvari və sədəf, s. 20.

[2] Qulami, Bir hiylənin sirri, s. 217.

[3] Araşdırmalara görə, "İnsan qadağan olunana qarşı tamahkardır" cümləsi heç bir Şiə və ya Əhli-sünnə hədis mənbəyində gəlməmişdir. Bu cümlənin oxşarı Peyğəmbərdən (s) mürsəl şəkildə və zəif

getmiş bəzi həmvətənlərimin dilindən belə eşitmişəm: "Necə yüksək mədəniyyətdir! Əgər biri çılpaq da olsa, ona baxmırlar! Gözləri də, qarınları da doyub!"

Salonda pıçapıç düşdü, bəzi yerlərdən səs gəldi. Biri dedi: "Turistlər yalnız gül-bülbül görürlər". Yanındakı dilləndi: "Biz özümüz də başqa şəhərə gedəndə yalnız gözəlliklər gözümüzə görünür". Başqa biri dedi: "İranlılara deyin ki, sizinlə yaşayış yerimizi dəyişməyə hazırıq". Başqa bir səs gəldi: "Bu meşədə yaşamağa ümidvar oldum!"

Doktor Məcidi dedi:

– Bəli... Əzizlər! İnsanın qadağan olunan hər bir şeyə meyilli olmasına dair nəzəriyyə barədə bir neçə məqama toxunmaq istəyirəm:

1) Əgər hər bir qadağa insanı daha çox meyilləndirirsə, bəs nə üçün bu qədər təbliğat aparıb insanları siqaretdən və narkotik maddələrdən çəkindirirlər. Bütün bu qadağalarla gənclər daha çox meyillənirlər?! Nə üçün evlərə qapı qoyuruq, divarlara sürahi çəkirik, təhlükəsizlik siqnalı və kamera quraşdırırıq?! Oğrular daha da meyillənmirlər?! Bu söz o zaman doğrudur ki, insan bir şeyə qarşı təhrik olduğu zaman onu qadağan edələr. Keçən həftə doktor Ədib dedi ki, bir acın önünə xörək qoyub yeməyi qadağan etsək, o, daha da meyillənər, lakin xörək olmasa, meyillənmə də olmaz.

2) İnsan ruhu olduqca təhrikolunandır. Ruhun xüsusi bir hədlə məhdudlaşdığını, sonra sakitləşdiyini söyləmək səhvdir. Bəşər var-dövlətdən, vəzifədən, imkandan necə

---

rəvayətçilər tərəfindən Əhli-sünnə mənbələrində qeyd olunmuşdur ki, öz alimlərinin bəzisi bu hədisi zəif saymışdır. Hədis Kənzül-ümmal kitabında belə qeyd olunmuşdur: "Həqiqətən, Adəm oğlu qadağan olunana qarşı tamahkardır".

doymursa, cinsi məsələdə də vəziyyət eyni, hətta daha güclüdür.[1] Pilint Rus deyir: "Çılpaqlığı yaymaq onu nəinki adi və əhəmiyyətsiz bir şeyə çevirmir, hətta ruhi meyli daha da artırır".[2] Çoxlu qazanc gətirən porno sənəti yaratmaq və internet məkanında saysız-hesabsız pozğun saytlar açmaq cinsi istəyin azlığını göstərir, yoxsa indiki dünyada daha da artan ehtirasdan xəbər verir?! Demək istədiyim başqa bir məsələ də budur ki...

Maşa başını Saranın qulağına yaxınlaşdırıb çox yavaşca dedi: "İşrətkədə” və onun proqram və məqsədləri barədə düşünəndə özümdən acığım gəlir, atamdan acığım gəlir. Ona neçə dəfə demişəm ki, pulunu belə yerlərə qoyma. Hamısından iyrənirəm...

Sara nəfəsini yavaş-yavaş buraxdı və birdən Əfsanə yadına düşdü. Həyəcanlı idi, ürəyini naməlum bir hiss sıxırdı.

Doktor Məcidi sözünə davam etdi:

- 3) Göz və qarınların doyduğunu söyləmək, ümumiyyətlə, küçə və bazar sözüdür. Lütfən, yaxşı diqqət edin... Mütəxəssislərə görə, göz və qarınlar doymur, laqeyd olur. Elmi ifadə ilə desək, cinsi məsələlərdə təhrik olmaq olduqca yüksəlmişdir. Keçmişdə qadının bədəninə baxmaq və onunla əlaqədə olmaq bir kişinin arzularından idi, toy gecəsinin ləzzəti şahlıq ləzzətindən az sayılmırdı. Bu gün isə daim çılpaqlığı göstərməklə nəinki qadına baxış, hətta onunla əlaqə də öz ləzzətini itirib. Bu gün Qərb cəmiyyətlərində kişini doyuran amil, məsələn, kobud cinsi əlaqədir. Mən belə açıq danışdığıma görə üzr istəyirəm, başqa yolum yoxdur. Bu gün iş o yerə çatıb ki, insaniyyət düşmənləri fitrətin və təbiətin ziddinə olaraq,

---

[1] Bax: Mütəhhəri, Hicab məsələsi, s. 80.

[2] Xani, Məhəmmədrza, Pərniyan, s. 65.

məhrəm adamlarla cinsi əlaqəni və həmcinsbazlığı tövsiyə və təbliğ edirlər, onun üçün qanun qəbul edirlər; təhrikedici əşyalar istehsal edib geniş miqyasda dünyada yayırlar. Çox həyasızcasına heyvanlarla əlaqəni təklif edirlər. Kim deyir ki, gözlər doyub?! Bu vəziyyət insanın və qadının xeyrinədir?! Bu dəhşətli tənəzzülün cavabını kim verəcək?![1]

Bilmirəm məhrəmlərlə əlaqədən, həmcinsbazlıqdan, əşya və heyvanlarla cinsi münasibətdən sonra bəşəriyyət üçün nə planlaşdırıblar ki, onun iştaha və meylini bu qədər yalançı şəkildə qaldırırlar? Bəs insan nə vaxt mənəvi rahatlığa nail olacaq?

4) Düzgün olmasa da, fərz edək ki, qeyd-şərtsiz azadlıqlarla hər şey adiləşdi; bu hələ fəlakətin başlanğıcıdır. Çünki elə bir xəstə cəmiyyətlə üz-üzə qalacağıq ki, heç kəs ailə qurmaq istəməyəcək. Yəni cəmiyyətin ən mühüm dayağı olan ailə sıradan çıxacaq.

Onda bu xəstə cəmiyyəti necə müalicə etmək olar? Əxlaqi özbaşınalığın tərəfdarları, yalançı insan hüquqları müdafiəçiləri xəstə cəmiyyət üçün müalicə yolu bilirlərmi? - Birmənalı olaraq, yox! Çünki müalicə almalı olanlar birinci növbədə özləridir.

Zalın müxtəlif yerlərindən bir neçə nəfər əl çalmağa başladı. Yavaş-yavaş digərləri də onlara qoşuldular və bir neçə saniyə ərzində fit və alqış səsləri zalı bürüdü. Aparıcı mikrofonun arxasına keçib dedi:

- Xanım doktor Məcididən üzr istəyirəm. Tənəffüs vaxtından bir neçə dəqiqə keçib. İcazə versəniz, fasilə verək və gözəl çıxışınızın qalanını ikinci hissədə dinləyək.

---

[1] Bax: Haqşünas, Seyid Cəfər, İslam quruluşu və hicab məsələsi (məqalələr toplusu), s. 27.

Doktor Məcidi təbəssümlə başını yellədi və saata baxa-baxa dedi:

- Əlbəttə. Buyurun.

Doktorun stolunun ətrafı dərhal adamla doldu. Kimisi sual verir, kimisi nəsə söyləyir, bəziləri kitab istəyir, onunla əlaqə saxlamaq üçün elektron poçt ünvanı və telefon nömrəsi alırdılar. Zalda hamı bir-biri ilə danışırdı. Bəzi adamlar da istirahət zalına doğru gedirdilər.

Çox həyəcanlı on beş dəqiqədən sonra iştirakçılar yerlərində oturdular. Doktor Məcidi söhbətinə başlamazdan qabaq bir xanım danışmaq üçün icazə istədi. Başındakı sarımtıl uzun şalı belinə çatırdı, paltarı da uzun və qollu idi. O dedi:

– Mən 27 aprel 1983-cü ildə Moskvada doğulmuşam. On doqquz yaşımda musiqi məktəbini bitirib məşhur rəqs və musiqi qruplarından birinə qoşuldum. Həmin ildə bir albom çıxardım, videoklipi MTV kanalında göstərildi, "Maksim"[1] jurnalında şəklim birinci səhifədə dərc olundu. Ondan sonra çoxlu kanal və qəzetlərə müsahibə verdim.

Onun hansı müğənni olduğu hamı üçün maraqlı idi. Öndə oturanların təxminən hamısı azı bir dəfə geri dönüb ona baxdı. Bütün baxışlar təəccüblü idi, bəziləri bir-biri ilə pıçıldaşırdı. Bu gənc xanımın geyimi heç bir məşhur müğənninin geyiminə bənzəmirdi.

O, sözünə davam etdi:

– 2007-ci ildə ən səmimi dostlarımdan biri bir hadisə nəticəsində komaya düşdü. Mən mənəvi baxımdan çox sarsıldım, depressiyaya düşdüm. Yaşamağa həvəsim qalmamışdı. Bir gün əlimdən heç nə gəlmədiyini görüb qeyri-ixtiyari olaraq onun üçün dua etməyə başladım.

---

[1] Rusiya və İngiltərədə ən çox satılan kişi jurnalı.

İnanmasam da, düşündüm ki, yeganə yol budur, bəlkə də təsiri olar. Ertəsi gün dostum özünə gəlib tibb bacısından mənə zəng vurmasını xahiş etmişdi. O, telefonda mənə bir cümlə dedi, bütün bədənim titrədi: "Bihuş halda sənin mənim üçün dua etdiyini görürdüm. Sənin duaların məni bu dünyaya qaytardı".

O zaman keçirdiyim hissləri təsvir etməyə qadir deyiləm. İlk dəfə idi həyatda Allahdan bir şey istəmişdim. Bu hadisədən sonra çox axtarış etdim, axırda müsəlman oldum. Bunları daha mühüm bir məsələdən ötrü söylədim.

– Böyük məmnuniyyətlə... buyurun, – deyə doktor Məcidi həvəslə bildirdi.

– Təşəkkür edirəm. Mən müsəlman olandan sonra heç bir yerdə öz keçmişim barədə danışmamışam. İndi isə, həqiqətən, həyəcanlandım, qərara gəldim ki, şəxsi təcrübəmi söyləyim.

Xanım doktor Məcidi! Siz dediniz ki, münasib örtünmə olmayanda qadınların və cəmiyyətin ictimai təhlükəsizliyi pozulur. Sizinlə yüz faiz razıyam. Çünki hicablı olmazdan öncə böyük təhlükəni, ondan sonra isə nisbi təhlükəsizliyi dadmış, yaşamışam. Lakin demək istəyirəm ki, örtünmə nəinki təhlükəsizlik səbəbidir, hətta azadlıq da bəxş edir. Mənim həyatda təcrübə etdiyim iki dönəm azadlıq baxımından müqayisəolunası deyil. Hicablı olandan sonra qadına uyğun olan heç bir fəaliyyət olmayıb ki, mən göstərməyim: təhsil, tədris, iş, gündəlik işlər, idman, əyləncə... İndi universitetlərdə və təhsil mərkəzlərində rus, fransız, ingilis və isveç dillərini tədris edirəm. Əvvəl isə ən sadə işləri də görmürdüm; məsələn, bir paket süd almaq üçün o qədər vaxtım və pulum gedirdi ki, həqiqətən, əzab çəkirdim. Dostlarımla dağa çıxmaq və ya idman etmək istəyirdim, amma qorxurdum ki, bədənimin fiqurası

pozular. Bir sözlə, özümü göstərməyin əsiri olmuşdum, həmişə başqalarını düşünürdüm. Həqiqət budur ki, özünü göstərmə daha çox məhdudiyyət yaradır. Örtünmə məhdudiyyət yaradırsa da, insafla düşünməliyik ki, bu məhdudiyyət nə qədərdir. Bir qadın örtünəndən sonra hansı fəaliyyəti göstərə bilmir?! Bu kiçik məhdudiyyəti örtünməyən xanımların problemləri ilə müqayisə etsək, belə nəticəyə gələrik ki, örtünmə məhdudiyyət yaratmır. Bu, eynilə qızıl satanların seyf almaq üçün məmnuniyyətlə xərclədikləri böyük pula bənzəyir. Azadlıq adı altında bəşəriyyətə özbaşınalığı sırıyıblar. Bu necə azadlıqdır ki, ötən illərin statistikasına görə, hər on üç dəqiqədə bir nəfər QİÇS virusuna yoluxur?![1] Vaşinqtonda hər on beş dəqiqədə bir qız uşağı oğurlanır.[2] Qadınların özünümüdafiə kurslarına qatılması, özlərini qorumaq üçün bihuşedici spreylər gəzdirməsi azadlığa oxşayır, yoxsa əsirliyə?!

On min amerikalı qadın arasında aparılan sorğunun nəticələrinə görə, 42 faizi bildirib ki, iş yerlərində həmişə cinsi əziyyətlə üzləşmişlər.[3] Halbuki, FBI təşkilatının bildirdiyinə görə, qadınlara əziyyət və təcavüz elə cinayətlərdəndir ki, insanlar az hallarda bu barədə məlumat verirlər, çox adam müxtəlif səbəblərdən bu barədə polisə xəbər vermir. Gəlin ayıq-sayıq olaq. Gözlərimizin içinə baxa-baxa bizə yalan danışırlar. Bəli, özbaşınalıq və veyillik azadlıqdır, amma əxlaqsız kişilər və kapitalistlər üçün. Qadın üçün isə yalnız əsarətdir.

---

[1] Bax: Müctəhidi Sistani, Seyid Mehdi, İslam hicabından dərslər, s. 385.

[2] Müvəhhid Qəzvini, Bacım, hicab xoşbəxtlikdir, s. 95.

[3] Qulami, Bir hiylənin sirri, s. 232.

Son sözüm məşhur ingilis yazıçısı Anni Rodun təsirli cümləsidir: "Kaş bizim ölkəmiz də müsəlman ölkələri kimi olaydı, qadınlar örtünməklə və iffətlə ən rahat həyatı yaşayaydılar və onlarla ilahələr kimi rəftar olunaydı. Qızların kişilərə qarışmaqla rəzalət nümunəsinə çevrilməsi İngiltərə üçün rüsvayçılıqdır!"[1]

Gənc xanım iştirakçılar tərəfindən səmimi alqışlandı, o da hamının hisslərinə təşəkkürlə cavab verdi.

Bu zaman kişilərin biri ayağa qalxıb dedi:

– Özünüzü təqdim edə bilərsinizmi?

Gənc xanım gülümsədi, üzünü doktor Məcidiyə tutub qısa fasilədən sonra dedi:

– Mən... Mariya Alalıkinayam.[2]

Yenə zaldan gurultulu alqış qopdu. Artıq öndəkilər geri dönüb, ötəri olsa da, ona baxırdılar.

Xanım Məcidi dedi:

– Şirin söhbətlərinizə görə minnətdaram. Sizin aktiv iştirakınız ona görədir ki, təhlükəsizlik bütün insanların ciddi ehtiyaclarından biridir.

Doktor Məcidinin cümləsi bitəndən sonra Sara əlini qaldırıb dedi:

– İcazə versəniz, mən də bir söz demək istəyirəm. Xanım Alalıkina ilə tam razıyam ki, örtünmə və hicab azadlıqdır, məhdudiyyət deyil. Lakin başqa bir məsələ də var. Məncə, məhdudiyyət də olsa, eybi yoxdur. Kim deyir ki, məhdudiyyət həmişə pisdir?! Əgər sürücü təhlükəsizlik kəməri bağlamağa, yaxud pilot xüsusi bir hava kanalında uçmağa, yaxud xəstə yalnız həkimin dediyi dərmanları içməyə məcburdursa, bu, məhdudiyyətdirmi?! Bunlar pis məhdudiyyətlərdir?! Yoxsa nəinki pis deyillər, hətta

---

[1] "Hicaba başqa bir baxış" təlimi, s. 49.

[2] Bax: Vikipediya.

lazımlıdırlar?! Kimsə “işıqforu götürün, bu qədər məhdudiyyət yaratmayın, qoyun insanlar rahat və azad olsunlar" desə, onun barəsində nə düşünərik? Deməik ki, o, pisixiatra müraciət etməlidir? Odur ki, bəzi yerlərdə məhdudiyyət insanların inkişafına səbəb olur. Bəzi araşdırmalara və bu seminarlarda öyrəndiklərimə görə, mənсə, örtünmə lazımlı bir məhdudiyyətdir. Örtünmə əngəl deyil, gələcəkdəki çoxlu qorxulu əngəllərin qarşısını almaq üçündür. Örtünmə müsbət və mənfi simlər üzərində rezin örtük kimidir; əgər soyulsa, böyük, bəzənsə geriyə dönüşü olmayan ziyanlar törədər. Örtünmə bir qönçənin ləçəkləri kimidir. Ləçəklər kənara çəkilsə, gül açılsa, dərilməsi də gözləniləndir. Təəssüf ki, bəziləri bunun qədrini bilmirlər.

Sara narahat və etirazçı səslə sözünə davam etdi:

– Qərbin, xüsusən də Amerikanın siyasəti bu imtiyazı dünya qadınlarından almaq yönündədir. Bu yaxınlarda aldanmış bir iranlı qadını sığınacaq vermək müqabilində televiziya kanalında canlı yayıma çıxarıb başörtüyünü açmağa məcbur ediblər. Həqiqətən, nə üçün?

Doktor Məcidi dedi:

– Baxış tərzinizdən həzz aldım. Belə aldanmışların acı taleyini çox görmüşük; həqiqətən, ağlamalıdır. Ancaq nə etmək olar, öz seçimləridir... Çarəsi varsa da, çətindir. Söhbət bu yerə gəldiyinə görə bir şübhəyə və onun cavabına toxunmaq pis olmaz. Bu gün tez-tez deyirlər ki, qərblilər örtünməni kənara qoyandan sonra böyük sürətlə inkişaf etdilər; örtünmə və hicab qadının və cəmiyyətin inkişafına maneədir.

Bu şübhəyə cavab üçün çox söz var. Mən qısa şəkildə toxunacağam:

1) Hicab qadının cəmiyyətdə iştirakına icazə deməkdir. Qadını şeytani qüvvə adlandırıb cəmiyyətə çıxmasını yasaq edən bəzi nəzəriyyələrdən fərqli olaraq, müsbət baxış qadın cəmiyyətdə fəal olsun deyə hicabı təyin etmişdir. Yəni qadın hicab sayəsində özünə uyğun vəzifələri üzərinə götürə, özünün və cəmiyyətin inkişafında rol oynaya bilər.

2) İkinci məqamı bir sualla söyləyirəm: Qərbdə baş verənlərin hamısı inkişaf və tərəqqidir? Silahlı qətlə, qadınlara təcavüzə, qadına qarşı şiddətə, təşviş və depressiyanın yayılmasına dair dəhşətli statistikalar inkişaf sayılır? Əgər bir mağazanın gizli kameraları işləməsə, nə baş verər? Döl qaçaqçılığı, əksər məhsulları satmaq üçün qadın gözəlliklərindən istifadə necə? Atom bombasının istehsal və istifadəsi, silah istehsal edib yəmənli körpələri qətliam etmək üçün Səudiyyə kimi rejimlərə satmaq necə? Sizcə, bunların adı inkişafdır? Düzdür, bəzi Qərb ölkələri elm və texnologiyada inkişaf etmişlər, amma hicabdan uzaqlaşmış digər ölkələr nəyə nail olublar? Nə üçün hicabı kənara qoymaq Mərkəzi Asiya, Şərqi Avropa, Latın Amerikası və Afrika ölkələri üçün inkişaf gətirməyib? Bundan əlavə, həmin inkişaf etmiş ölkələrdə bütün insanlar xoşbəxtdir? Əgər belədirsə, kapitalizm əleyhinə hərəkatlar və geniş aksiyalar nəyə görədir?

3) Yenə bir sual: Bəzi Qərb ölkələrinin inkişaf səbəbi örtünməni kənara qoymaq olub, yoxsa onlar inkişaflarını işə, çalışmağa, işdə vicdanlılığa, proqrama və düzgün idarəetməyə borcludurlar? Əgər inkişaf etmiş ölkələrdə effektiv iş saatını, mütaliə miqdarını və digər məsələləri başqa ölkələrlə müqayisə etsəniz, cavab tam aydın olar. Əlbəttə, bu inkişaflarda dünyanın hər yerindən inkişaf

etmiş ölkələrə mühacirət etmiş alimlərin rolunu da görməzdən gəlmək olmaz.

4) Əgər örtünmə ilə inkişaf etmək olmursa, bəs nə üçün Orta əsrlərdə İslam dünyası bir neçə əsr boyunca elm, iqtisadiyyat və mədəniyyət sahələrində dünyada birinci sözü deyib? O zaman İslam dünyasının yalnız bircə kitabxanasında müsəlman alimlərin riyaziyyat, astronomiya, coğrafiya, biologiya, zoologiya, tibb, kimya, fizika və digər mövzularda yüz minlərlə nəfis kitabı olduğu halda bütün Avropada üst-üstə min elmi kitab tapılmırdı.

5) Bu gün dünyanın nüfuzlu universitetlərinin bir çoxunda xüsusi geyim qaydaları var. Hətta bəzi inkişaf etmiş ölkələrdə qız və oğlanların sinifləri ayrıdır. Bu üsuldan çox yaxşı nəticələr də əldə ediblər. Bu baxımdan, "qərblilər din qaydalarını, xüsusən də örtünməni ayaq altına atandan sonra inkişaf ediblər; bəzi etiqadlar müsəlman ölkələrinin geri qalmasına səbəb olub" kimi fikirlər bəşər tarixinin ən böyük yalanıdır. Sonra da İranda Rza şah Pəhləvi kimi ağılsız bir adam bu yalana inanır və Mahmud Cəmə məktubunda yazır: "Geriqalmışların bu çadrasını necə yığışdırmaq olar? İki ildir bu məsələ mənim beynimi məşğul edib. Türkiyəyə gedib oradakı qadınların hicabı kənara atdıqlarını, kişilərlə çiyin-çiyinə işlədiklərini görəndə bütün çadralı qadınlardan zəhləm gedir".[1]

Əlbəttə, bir məsələni yaddan çıxarmaq olmaz: Orta əsrlər kilsəsi çox təhriflərə və sapqınlığa düçar olmuşdu, ondan imtina etmək Qərbin inkişaf və tərəqqisində təsirsiz olmadı. Məncə, əgər əsl məsihi təlimləri, xüsusən də geyim məsələsi Qərb cəmiyyətində kənara qoyulmasaydı,

---

[1] Hicabaçma hekayəsi, s. 22.

inkişaflar bu günlə müqayisəolunası olmazdı. Bəzi adamlar yalandan örtünmənin cəmiyyətin yarısını iflic etdiyini iddia edirlərsə, biz deyirik ki, hicabsızlıq bütün cəmiyyəti iflic edir. Bu gün Qərb cəmiyyətinin böyükləri əxlaqi və ictimai problemlər qarşısında çıxış yolu tapa bilmir, ancaq güclü böhranın olduğunu etiraf edirlər.

Bugünkü seminarı burada bitirmək istəyirəm. Gələn həftə görüşənədək!

***

Bazar ertəsi günü axşamüstü Maşadan Saranın telefonuna bir mesaj gəldi: "Sara, bu gün yürüşə çıxırıq?" Sara cavab verdi: "Təəssüf ki, çatmayacağam. İslam mərkəzinə getmək istəyirəm". "Biz ki dünən ordaydıq. Nəsə olub?" – Maşa mesajda yazdı. Sara cavab verdi: "Dünən cənab Tehrani yox idi, bu günsə oradadır. Getmək istəyirsən?" Maşa cavab verdi: "Məcburam; səni tək buraxa bilmərəm!" "Yaxşı səni gözləyirəm" – Sara yazdı.

***

Sara ilə Maşa təxminən saat 6-da İslam mərkəzinə çatdılar. Mərkəzin girişinə böyük bir səməni qoymuşdular, gözəl üzərlik ətri hər yeri bürümüşdü. Bir kişi əlindəki qutudan yoldan keçənlərə şirniyyat təklif edir, iki xanım da qısa məlumatdan sonra broşür verirdi. Sara ilə Maşa şirniyyatdan götürüb birbaş doktor Tehraninin otağına getdilər. Katibi dedi: "Xanım doktor Məcidi cənab doktorun otağındadır, bir qədər gözləyin".

Doktor Məcidi otaqdan çıxanda Sara ilə Maşanı görüb gülümsədi və dedi:

– Bəh-bəh! Elə indicə cənab doktor Tehrani sizi soruşurdu.

Qızlar doktor Məcidi ilə birlikdə cənab Tehraninin otağına girdilər. Doktor Tehrani ayağa qalxıb gülərüzlə onları qarşıladı.

– Bağışlayın, – Maşa dedi, – aşağıda maraqlı bir iş görürdülər. Bu gün nə günüdür?

Cənab Tehrani dedi:

– Bu gün rəcəb ayının 13-ü, peyğəmbərimizin canişini və birinci imam həzrət Əlinin (ə) doğum günüdür. Bu gündən etibarən iki həftə, yəni İslam peyğəmbərinə peyğəmbərlik verilən günün ildönümünə qədər tədbirlərimiz olacaq. O broşürlər də peyğəmbərlə qısa tanışlıqdan ötrüdür.

– Sizin barənizdə bizə hər şeyi əksinə söyləyiblər, – Sara dilləndi. – Həmişə eşitmişdik ki, 13 sizin üçün nəhs rəqəmdir. Əlbəttə, bu, xurafatdır, dünyanın başqa yerlərində də var. Sizsə deyirsiniz ki, 13 rəcəb birinci imamınızın doğum günüdür. Bu, mənimçün maraqlı oldu.

Doktor Tehrani dedi:

– Ümidvaram ki, həmişə həqiqəti öz yolu ilə axtarıb tapasınız. Yollar çoxalanda azma ehtimalı da yüksəlir. Çünki yalnız doğru yol həqiqətə aparır.

Sara başını aşağı salıb gözlərinin yaşını sildi. Doktor Məcidi Saraya yaxınlaşıb onun saçından öpdü, əzizləyə-əzizləyə dedi:

– Sara can, nə olub?

Sara qırıq-qırıq səslə cavab verdi:

– Düşünürəm ki, Allah məni də sevir. Mən bura gəlmişəm cənab Tehranidən soruşum ki, necə müsəlman ola bilərəm. Hətta özümlə başörtüyü də gətirmişəm.

Doktor Məcidi Saranı qucaqladı, gözləri yaşardı. Maşa təəccübdən donub qalmışdı.

Bir qədər sonra Sara dedi:

– Mən cənab doktorla tanış olandan və onun geniş söhbətlərindən, habelə təklif etdiyi kitabları oxuyandan sonra İslamı qəbul etmişəm. Örtünmə məsələsi isə mənim üçün həll olmamışdı... İndi isə bu nəticəyə gəlmişəm ki, seçilmişəm. Mən İslamla tanış olmasaydım da, yenə mənfi baxışa və kapitalizmə qarşı mübarizə üçün örtünər və bununla fəxr edərdim.

Maşa həm təəccüblənir, həm də sevinirdi. Saraya dedi:

– Sara, doğru deyirsən?! Yaxşı fikirləşmisən? İnana bilmirəm!

– Hə, ən doğru sözümdür, – Sara dedi. – Ömrümdə heç bir məsələ barədə bu qədər dərindən düşünməmişəm.

– Bu seçimin mübarək olsun, əzizim! – Xanım doktor dedi.

Doktor Tehrani bir neçə dəfə Saradan soruşdu ki, qərarının hissiyyat üzündən olub-olmadığına əmin olsun. Ona təklif etdi ki, istəsə, daha çox mütaliə edə, araşdıra bilər. Saranın qərarlı olduğunu görəndə isə dedi:

– Afərin! Arxayın oldum. Bilirdim ki, bu səadət sizə də nəsib olacaq. Amma inana bilməzdim ki, bu tezliyə və belə bir gündə... İnşallah, şam və işa namazlarının arasında mərasim keçirərik.

***

Namaz vaxtı İslam mərkəzinin məscidi təxminən dolmuşdu, böyük şəbistandan əlavə, xüsusi günlərdə istifadə olunan balkon da nyuyorklu müsəlmanlara qucaq açmışdı. Fərhad da məsciddə idi. Cənab Tehrani namazdan sonra mikrofonun arxasına keçib həzrət Əlinin (ə) miladı münasibəti ilə hamını təbrik etdi, onun həyat tərzindən danışıb bildirdi:

– Bu axşam Əmirəlmöminin bizə xüsusi lütf edib, bayram tədbirimizi xüsusi ətrə boyayıb. Bugünkü

mərasimdə yaxşı dostlarımızdan birinin İslamı qəbul etməsinə şahid olacağıq.

Hamı çox diqqətlə mikrofona kimin yaxınlaşacağını gözləyirdi. Məclisə xüsusi əzəmət və sükut çökmüşdü. Sara uzun ağ paltarla, örtülü halda doktor Tehraninin yanında dayandı. Başında ağ və yaşıl dalğalı böyük mavi şal vardı, firuzə rəngli bir sancaqla üzünün kənarında bərkitmişdi. Sara gülümsəyirdi, amma gözlərinin yaşarması onları daha da işıltılı göstərir, yanaqlarını qızardırdı.

Doktor Tehrani mətanətli səslə başladı: "Şəhadət verirəm ki, Allahdan başqa bir tanrı yoxdur". Sara da tələsmədən və yavaşca təkrarladı: "Şəhadət verirəm ki, Allahdan başqa bir tanrı yoxdur".

Mərasim davam edirdi. Kəlmeyi-şəhadəti söyləmək mərkəzdəkilərin sevinc göz yaşları ilə müşayiət olunurdu. Camaatın önündə dayanmış xanım Həkimi, doktor Məcidi və doktor Tehrani Saranı təbrik etdilər, Maşa onu qucaqlayıb üzündən öpdü. Bəzi adamlar da oturduqları yerdən sevinclərini ifadə edib onu təbrik edirdilər. Birinci cərgədə oturmuş Fərhad bu dəfə Saraya daha fərəhlə baxırdı, üzündə mehriban təbəssüm vardı. Sara bir anlığa onunla göz-gözə gəldi, gülümsəyib başını yellədi. Fərhad əlini saçına çəkib başını aşağı saldı. Saraya müxtəlif hədiyyələr verildi. Yavaş-yavaş məclis bitdi və tədbirdə iştirak edən xanımlar yaxınlaşıb Saranı təbrik etdilər, öpdülər və sağollaşdılar.

Hicablı bir qadın yaxınlaşıb Saraya bir bağlama verdi:

– Bir neçə il öncə İmam Rzanın (ə) məqbərəsində İslamı qəbul edəndə bu çadranı Rza bazarından almışam, onu sənə hədiyyə vermək istəyirəm, – dedi.

***

Nəhayət, camaat dağılışdı. Doktor Məcidi ilə doktor Tehrani də Saraya Quran və namaz çadrası kimi gözəl və dəyərli hədiyyələr verəndən sonra onunla sağollaşıb getdilər. Cənab Tehrani Saraya təkidlə tapşırdı ki, nə vaxt sualı, şübhəsi və ya problemi olsa, mütləq mərkəzlə və ya onun öz nömrəsi ilə əlaqə saxlasın.

Sara ilə Maşa evə doğru yola düşdülər. Sara xüsusi vüqarla yol yeriyir, aşağı baxırdı. Maşa tez-tez Saranı başdan-ayağa süzür, bəzən əlini onun çiyninə qoyur, onunla yanaşı addımlayırdı.

– Sənə nə olub, Maşa? – Sara ona baxıb dedi. – Niyə danışmırsan?

Maşa təbəssümlə onun üzünə baxdı, birdən onu bərk-bərk qucaqlayıb dedi:

– Şok olmuşam, qız. Hansı halda olduğumu təxmin edə bilməzsən. Mümkün deyil... Həm yüngülləşmişəm, həm də beynim qıfıllanıb. İndiyədək belə olmamışam. Amma bilirəm ki, sənin yanında halım yaxşıdır... Səninlə dost olduğuma görə sevinirəm.

Sara gülə-gülə dedi:

– Okey, okey. İndi məni burax, nəfəsim gəlsin; mən boğuluram.

***

Sara evə girəndə anası təəccüblə ona yaxınlaşdı, həyəcanla dedi:

– Ya İsa Məsih! Bunlar nədir?! Terrorçu olmusan?

– Salam, ana, – Sara gülüb dedi. – Terrorçu nədir?!

Saranın anası onu qaşqabaqla başdan-ayağa süzdü. Dodağını sallayıb dedi:

– Terrorçuların paltarından niyə geymisən? Sənə deməmişdim ki, kiminlə gəldi dost olma, kiminlə gəldi işləmə?!

– Bu sözlər nədir, ana? Kim bədənini örtürsə, terrorçudur?!

Ana yenə ucadan dedi:

– Sənə hansı zəhrimardan içirdiblər? Yəni sən bilmirsən ki, bunları terrorçular geyirlər?!

Sara başörtüyünü açıb otağına girdi. Anası onun ardınca gedə-gedə danışırdı:

– Bundan sonra vəhşi adamlarla oturub-durmayacaqsan! Başa düşürsən?!

Sara çox çalışırdı ki, sakit və soyuqqanlı olsun:

– Mən vəhşi adamlarla oturub-durmuram. Sən məsələni kökündən yanlış anlamısan...

– Aha... – anası dərhal istehza ilə dedi, – amma sən düz anlamısan, eləmi?! Hansı axmaq bu paltarları sənə verib?

– Ana!.. Məni heç kim heç nəyə məcbur etməyib. Özüm almışam, özüm də geymişəm.

Anası çox hirslə dedi:

– Olmaz! Bunları geyməyəcəksən!

Sara bilirdi ki, hələlik anası ilə mübahisə etməyin faydası yoxdur. Paltarının düymələrini açmışdı, ev paltarını geymək istəyirdi, amma yenə düymələri bağladı, çantasını götürüb evdən çıxmağa hazırlaşdı. Qapıya yaxınlaşanda birdən cəld geri döndü, başörtüyünü çarpayının üstündən götürüb başına bağladı və bayıra çıxdı. Bir qədər prospektdə gəzişəndən sonra Maşaya zəng vurub dedi: "Maşa, yanına gəlimmi?"

***

Ertəsi gün günortadan sonra qayıdanda atası evdə idi. O, çox vaxt bu saatlarda evə gəlməzdi. Sanki onu gözləyirmiş kimi evə girən kimi oturduğu kreslodan qalxıb danışmağa başladı:

– Bura gəl, görüm! Anan nə deyir?

Sara dəhlizdən qonaq otağına keçdi. Bilirdi ki, atasının tələbkarlığı daha çox məntiqi fikirlərinə görədir. O, həmişə qəzet və jurnal oxuyur, televiziya xəbərlərini izləyirdi, eşitdiyi xəbərlər onun düşüncə və davranışlarına təsir edirdi. Sara onunla yeni mövzular barədə danışmağı üstün tutdu, amma o, aman verməyib dedi:

– Tfu bütün terrorçuların zatına! Mən uşaq böyütmüşəm ki, gedib adamöldürən olsun?!

Sara kövrəlmişdi, hər dəfə danışmaq istəyəndə atası və ya anası imkan vermirdi. Atası da anasının sözlərini təkrarlayırdı: danlaq, tənbeh, təhqir. Sara qəhərinin önünü çətinliklə ala-ala alayarımçıq və anlaşılmaz şəkildə dedi:

– Papa, səhv edirsən!

Atası isə dayanmadan danışırdı. Axırda Saranın səbri tükəndi:

– Heç nə bilmədən belə danışmağa haqqınız yoxdur! – deyə qışqırdı, otağına doğru qaçıb çarpayısında oturdu. Dayanmadan ağlayırdı. Gözlərindən yaş axır, döş qəfəsi ağrıyırdı. Bir neçə dəqiqə yalnız hıçqırtı ilə ağlamaq səsi gəldi.

Başı ağrıyırdı, səsi tutulmuşdu. Ancaq bir şey düşünməli idi. Çətinliklə telefonu götürüb zəng vurdu, kövrək səslə dedi:

– Bağışlayın, cənab doktor Tehrani ilə işim var...

***

Doktor Tehrani Saranın bütün sözlərini dinləyəndən sonra onu səbirli və dözümlü olmağa dəvət etdi, təkidlə tapşırdı ki, əsla ata-anasına hörmətsizlik etməsin, səsini onların səsindən ucaltmasın və bu rəftarına görə də mütləq üzr istəsin. O, Saranı əmin etdi ki, Allahın göstərişlərini düzgün və dəqiq yerinə yetirsək, Özü güman etmədiyimiz yolla bizə kömək edər. Hətta bu ehtimalı da verdi ki,

Saranın ata-anasının fikri dəyişib ona qarşı etirazlarını dayandıra bilərlər. Doktor Tehraninin sözləri Saraya ümid verdi, onu sakitləşdirdi.

Əşyalarını, paltarını və notbukunu götürüb yenə Maşagilə getməyə hazırlaşan Sara ata-anasının atmacalarını görməzdən gəlməyə çalışdı. Özünü və əldə etdiyi imanını müdafiə etmək istəsə də, söz vermişdi ki, bir söz deməyəcək və valideynlərinin qəlbini qırmayacaq. Ata-anasının müsəlmanlara qarşı təhqirlərinə dinməmək ona çox çətin gəlirdi. Birtəhər gecəni dözüb otağından çıxmadı, amma səhər çağı dəhlizə çıxanda anası yenə başladı. Əmindi ki, dözə bilməyəcək və haray-həşir salacaq. Tez Maşaya zəng vurdu, əşyalarını götürüb onun qaldığı yataqxanaya getməyə hazırlaşdı. Başörtüyü ilə evdən çıxanda atası dedi:

– Bir də bu görkəmdə evə gəlməyə haqqın yoxdur!

Atası daha çox qonşu və dostlarının Saranı görüb onunla əlaqəni kəsəcəklərinə, həmişə bunu başına vurub: "Necə icazə verdin ki, qızın terrorçu olsun?!" – deyəcəklərinə görə narahat idi. Daha çox etiraz edən və tələbkarlıq göstərən isə anası idi. O, qışqırıq salır, atasını da ona qarşı qaldırırdı. Əlbəttə, böyük müsibət onda olacaqdı ki, Saranın qardaşı basketbol komandasının ekskursiyasından qayıdacaq və onu fərqli vəziyyətdə görəcəkdi. Başına nələr gələcəyi bəlli deyildi.

Sara Maşanın yanından da doktor Tehraniyə zəng vurdu, valideynlərindən şikayətləndi, dedi ki, bu şəraitdə nə baş verəcəyini bilmir. Doktor Tehrani əvvəlki sözünü təkrarlayıb dedi:

– Ata-ananın hörmətini saxlamalısan. Qardaşınla da keçinməyə çalış. Allaha təvəkkül et və Ondan kömək istə!

Sara ailəsi ilə münasibətini birdəfəlik etmək üçün dedi:

– Məncə, doktor Məcidinin yeddinci seminarından sonra şüurlu şəkildə bu yolu seçib müsəlman olduğumu mediaya çıxarsam, rəsmi şəkildə elan etsəm, rahat olaram. Valideynlərim də artıq iş-işdən keçdiyini düşünər və bir söz deyə bilməzlər. Çünki özüm hər şeyi boynuma götürəcəyəm...

Doktor Tehrani dedi:

– Yox, gərək düşünülmüş şəkildə rəftar edəsən. İndi məsləhət deyil. Bəzilərinin sənin araşdırmalarından xəbərləri olmaz, elə bilərlər ki, bu, bir oyundur. Bizim məqsədimiz qadınları maarifləndirmək, həqiqi məqamları ilə tanış etməkdir. Bu məsələlərə görə əsas məqsəddən uzaqlaşmaq istəmirik. Sən ata-ananla dostcasına danış, Allahdan kömək istə, ilk fürsətdə evə qayıt və bir yol tapıb valideynlərinlə söhbət et.

# Yeddinci fəsil

## Evin ilahəsi

Bazar günü səhər tezdən, valideynləri hələ yuxuda ikən Sara Nyu-York İslam Mərkəzinə doğru yola düşdü. Maşa da yolda ona qoşuldu. Sara gülərüzlə Maşaya çatdı. Maşa onun sevincək olduğunu görüb səbəbini soruşdu. Sara dedi ki, inanılmaz olsa da, atası ilə danışandan sonra onun etirazları böyük miqyasda azalmışdır.

Məsələ belə olmuşdu: Sara Maşanın yanında bir neçə gün qalandan sonra, nəhayət, ötən axşam evə qayıdıb atası ilə danışmaq qərarına gəlmişdi. Buna görə də Maşanın onun atası ilə telefon söhbətindən sonra kefinin kök olduğunu və danışmaq üçün zamanın münasib olduğunu başa düşdü, Maşa ilə sağollaşıb evlərinə yollandı.

Evə girəndən sonra gedib atasının yanında oturdu, əlinə toxunub sakit səslə xahiş etdi ki, sözlərini dinləsin. Atası əvvəldə ona çox da məhəl qoymadı, amma Sara dedi:

– Papa, bilirsən, mənə əmr olunub ki, sizə hörmət edim. Bu bir neçə gündə dəfələrlə haray-həşir salmaq istəmişəm... amma bu əmrə uyğun hərəkət etməliyəm. Çünki sizə hörmət etmək mənim borcumdur. Bunu bilirdin, papa? Mənim tanış olduğum müsəlman ruhani dedi ki, ata-anana hörmətsizlik etməməlisən; hətta onlara tərs-tərs baxmamalısan ki, Allah da səndən razı olsun. Bu, İslam dinində bir əmrdir, ata. Bu əmri verən mənim geyim tərzimi də müəyyən edib. İndi sən istəyirsən ki, mən ona qarşı çıxım? Axı niyə?

Atası öz küsülülüyünü davam etdirə bilmədi. Sara gördü ki, atasının üzünün qırışları açıldı, baxışı əsəbilikdən diqqətliliyə doğru dəyişdi.

Özünü laqeyd göstərməyə çalışan ata soruşdu:

– Bəs demirsən ki, müsəlmanların dinidir?!

Sara atasının əlini sıxıb həvəslə dedi:

– Hə, amma bizə dedikləri İslamdan deyil. Papa, əgər qanunlarını sənə desəm, inanmazsan! Həzrət Məhəmməd insanlara ən kamil dini gətirib. Bu dinin insan həyatının bütün xırdalıqlarına – ruhuna, cisminə, hətta yatmasına və yeməsinə də diqqət ayırdığını bilmirsən. Ata can...

Atası əlini Saranın əlindən çəkib saçını səliqəyə saldı, sonra baxışını otaqda gəzdirib dedi:

– Qalx, bu məlumatlar üçün bir mənbə gətir, görüm.

Beləliklə, Saranın istədiyi baş vermişdi. Anası atası kimi razı və sakit görünməsə də, Saranın onu İslamla tanış etmiş adamlarla oturub-durduğuna görə hələ də narahat olsa da, son sözü atası dedi:

– Onda... hər dəfə seminara gedəndə nə eşitsən, gərək mənə də deyəsən, hansı kitabı versələr, gərək mənə də verəsən, görüm nə yazılıb. Gərək bilim ki, bu din ata və ana barədə daha nə deyir.

Hadisəni söyləyəndən sonra Maşa dedi:

– İnana bilmirəm, Sara. Belə şey olar?! Yəni anan başqa heç nə demədi?

– Əvvəl çox deyindi, amma atamın razılaşdığını görəndən sonra heç nə demədi. Dedi ki, ehtiyatlı ol, aldanmayasan. Bir də dedi ki, cücəni payızda sayarlar.

– Çox qəribədir, Sara. Yəni deyirsən ki, Allah bu şəkildə ata-ananın qəlbini yumşaldıb?

– Hələ ki, yaxşıdır. Tez ol, gecikməyək.

Sara ilə Maşa İslam mərkəzinin qapısına yaxınlaşanda pilləkənin yanında gəzişən Fərhadı gördülər. Fərhad onları görüb dayandı, yaxınlaşıb salam verdi. Sara da özünü itirib tez dedi:

– Ee... salam. Burdasız?

Maşa gülüşünün qarşısını alıb dirsəyi ilə Saraya vurdu. Fərhad Saraya baxıb dedi:

– Bəli... ee... Bağışlayın, mən Fərhad Faziliyəm. Bugünkü seminardan sonra yaxınlıqdakı yaşıllıqda bir neçə dəqiqə gəzişə bilərik? Sizinlə qısa söhbətim var.

Saranın ürəyi bərk döyünürdü, üzü qızarmışdı. Dedi:

– Mənimlə?.. Nə barədə?

– Qısa, amma mühüm bir mövzudur. Seminardan sonra parkın qarşısında sizi gözləyəcəyəm.

Sara təsdiq əlaməti olaraq başını yellədi, beyni qarışmış və ürəyi döyüntülü halda Maşa ilə birlikdə mərkəzin pilləkənindən qalxdı. Maşa pıqqıldayıb güldü və dedi:

– Sənə nə olub?.. Məgər birinci dəfədir yad bir adamla danışırsan?! Vay... Niyə tez-tez gedirsən? Dayan görüm... dəli!

– Adam sənin yanında dəli olmasın, neyləsin?.. Tez ol, indi yer qalmayacaq.

***

Bir həftə öncə baş vermiş hadisələr mediada yayıldığına görə yeddinci seminar yenə iştirakçı izdihamı ilə qarşı-qarşıya qalmışdı. Çoxları zalın bayırında, dəhlizdəki stullarda oturub gözlərini divara vurulmuş monitora dikmişdilər, çıxışı gözləyirdilər. Seminar Məryəm surəsinin bəzi ayələrinin oxunuşu ilə başlandı. Bəzi iştirakçılar qiraətçinin səsini eşidib ayələrin ingiliscə tərcüməsini görəndə çox təsirləndilər. Sara ilə Maşa ön cərgədə oturmuşdular. Aparıcı xanım Həkimi qiraətçiyə və iştirakçılara təşəkkür edəndən sonra dedi:

– Əziz iştirakçılardan iki nəfərin keçən həftəki mövzulara aid sualları var. Onlardan xahiş edirəm ki, razılaşmaya uyğun olaraq qalxıb suallarını versinlər və biz xanım doktorun cavablarını eşidək. Birinci adam buyursun lütfən!

Qoltuğunda nazik bülleten olan eynəkli gənc xanım ayağa qalxıb təbəssümlə dedi:

– Xanım doktor Məcidi! Demək istəyirdim ki... həqiqətən, sağ olun. Bu müddətdə bir çox məsələlərə dair baxışım dəyişib, həyatımı öncəkindən artıq sevirəm. Burada özümə yaxşı dostlar da tapmışam. Bir sualım var, cavabını sizdən eşitmək istəyirəm. Siz söhbətlərinizdə dediniz ki, örtünmə təhlükəsizlik yaradır. Ancaq mən çoxlu qadınlar görmüşəm ki, tam örtünmə ilə yenə əziyyətə məruz qalırlar. Əminəm ki, hər yerdə, hətta İranda da belədir. Bunun sizin sözlərinizlə ziddiyyəti yoxdur?

Xanım Məcidi dedi:

– Düzdür, əzizim. Lakin bir neçə məqama diqqət yetirməliyik: Birincisi budur ki, tam örtünmüş qadınlara qarşı əziyyətin faizi az örtünənlərə nisbətən çox azdır, bəzən heç müqayisəolunası deyil. İki ay ərzində geyim,

danışıq, yeriş, gülüş və gedib-gəldiyi yerlər baxımından heç bir dəyişiklik etməyən bir qadını təsəvvür edin. Fərz edin ki, yalnız bir dəyişikliyi olub: məsələn, birinci ayda kosmetik vasitələrlə bəzənib, ikincidə isə yox. Şübhəsiz, kosmetikadan istifadə etdiyi birinci ayda əziyyət ehtimalı daha çoxdur. Hər halda, qadının belə bir niyyəti olmasa da, bəzənmənin özü xüsusi gözəllik və cinsi siqnal sayılır.

İkincisi budur ki, örtünməyən qadınlara qarşı əziyyət cinsi istiqamətdə baş tutur, hicablılara qarşı isə hansısa kompleksə görə; çünki qadının hicabı qarşı tərəfə məhdudiyyət yaratdığına görə onun əvəzini çıxmaq istəyir.

Üçüncüsü budur ki, bu az əziyyət də örtünməyən xanımların xəstə insanlara verdiyi yaşıl işığa görədir və onları daha da həyasızlaşdırıb.

Sonuncu məqam isə çox əhəmiyyətlidir: Hamı, xüsusən də münasib şəkildə örtünən qadınlar bilməlidirlər ki, hicab yalnız bədəni örtməkdən ibarət deyil, bəlli davranışlar məcmusudur ki, münasib örtünmə onun birinci mərhələsidir. Qadınla kişinin cəmiyyətdə iştirakı elə olmalıdır ki, heç bir cinsi siqnal verilməsin, insanlara insani və ehtirassız baxışla baxılsın. Bu məqsədə çatmaq üçün bədəninin qabarıq hissələrini göstərməyən və münasib rəngdə olan münasib geyimdən istifadə etmək, yaxud söz və davranışda məsafə saxlamaq, rəngarəng bəzənmələrdən qaçmaq da lazımdır. Tam şəkildə örtünən bir qadın naz-qəmzə ilə danışsa, işvə ilə yol yerisə, yaxud bəzənsə, əziyyətə məruz qaldığına görə etiraz edə bilməz. Ümumilikdə, nəzərə çarpmamıza səbəb olan hər bir əməl tam örtünmə və hicabla uyğun gəlmir və cinsi siqnal sayıla bilər. Gözə görünməkdən ötrü qadınlığımızdan, kişiliyimizdən və ya bədənimizdən istifadə etməyək; beşinci seminarın əvvəlində Mançesterdən və İngiltərənin

digər şəhərlərindən gördüyünüz film kimi. Gəlin elə edək ki, bizim insanlığımız, əxlaqımız, elmimiz, sənətimiz, sevgimiz, ucalığımız, şərafətimiz və digər üstünlüklərimiz görünsün, cinsiyyətimiz yox. Bizim bütün sözümüz bundan ibarətdir. Əlbəttə, əksər adamlarda ehtiras siqnalı göndərmək niyyəti olmur, amma bəzi işlər öz-özünə belə bir siqnal yaradır...

Bəli... Başqa bir dostumuzun sualı var?

Aparıcı üzünü iştirakçılara tutub:

– Bəli... ikinci adam... – deyə ön cərgələrə baxdı.

İdman köynəyi geymiş ortayaşlı bir qadın ayağa qalxdı. Həkimi əl və baş hərəkətləri ilə sözü ona verdi.

Qadın dedi:

– Mən sualımın cavabını xanım doktorun dördüncü məqamından aldım. Amma bu gözəl və faydalı məlumatlara görə ona təşəkkür etməyi özümə borc bilirəm. Siz bizim təfəkkür tərzimizdə, həyata baxışımızda yeni pəncərə açmısınız.

Doktor Məcidi təbəssümlə dedi:

– Mən yalnız qadına qarşı müsbət baxışın fikirlərini söyləyirəm, özümdən bir söz demirəm. Sizə də minnətdarlığımı bildirirəm.

İndi isə gələk bugünkü mövzumuza. Örtünmənin vacibliyi barədə hamının qəbul edəcəyi üçüncü dəlil mühüm və həyati bir məsələdir: Ailə ocağının güclənməsi və təhlükəsizliyi.

Öncəki dəlildə təhlükəsizliyin əhəmiyyəti barədə danışdıq. Cəmiyyətdə təhlükəsizlik olmasa, insan ürəyini sakitləşdirə bilər ki, heç olmasa, evdə və ailə mühitində mənəvi rahatlıq əldə edər. Amma vay o gündən ki, ailə mühitində də təhlükəsizlik olmaya. Biz iranlılar demişkən: "Nə iyləsə, duzlayarlar. Vay o gündən ki, duz iyləyə!"

Bütün fitrətlər ailəyə güclü ehtiyac hiss edirlər. Mən fitrətlərini tapdamış, məsələn, məşhur bir maneken olmuş adamlardan dəfələrlə eşitmişəm ki, kaş mənim də ailəm, övladlarım olaydı. Amerikalı Mona Şaren deyir: "Qadınların azadlığı bizə gəlir çoxluğu, qadınlara məxsus siqaret, birnəfərlik ailə, təcavüz böhranı mərkəzləri, azad eşq və qadın xəstəlikləri üçün mütəxəssis qadınlar ərməğan etdi, amma onun müqabilində elə şeyi apardı ki, çoxlu qadınların xoşbəxtliyi ona bağlı idi. O, həyat yoldaşı və ailədir".[1]

Əgər ailə ocağı üçün problem yaransa, cəmiyyətin təməlləri zəifləyər. Kanzas Dövlət Universitetinin psixiatriya müəllimi Donald Bi Renizli deyir: "Ailəni zəiflədən hər bir amil sonda cəmiyyətin zəifləməsinə səbəb olur. Amerika və ümumiyyətlə, Qərb cəmiyyətləri günbəgün daha da gərginləşirlər".[2] Stefan R. Kavi məşhur "Uğurlu ailələrin yeddi adəti" kitabının girişində yazır: "Qətiyyətlə düşünürəm ki, ailə cəmiyyətin təməlidir və ən böyük təkamül onda yatır".[3]

Bütün bunlar elə bir haldadır ki, 21-ci əsrdə kapitalizmin maraqları sevgi və məhəbbət dolu ailələr qurmaqla uyğun gəlmir. Onlar yalançı sözlərlə bəşəriyyəti yoldan çıxarıblar, nikahı qanuni pozğunluq, ailəni məcburi əmək düşərgəsi, hamiləliyi barbarlıq, uşağı əngəl kimi təqdim edib kişi ilə qadın arasında yalançı düşmənlik yaratmağa çalışırlar. Gərək aldanmayaq, arxasında kapitalizmin maraqlarından başqa bir şey durmayan nəzəriyyələrə kor-koranə tabe olmayaq. Bu, bir gün peşmanlığa səbəb ola bilər.

---

[1] Keşvəri, Gözəllik standartı, s. 103.
[2] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 43.
[3] Stefan Arkavi, Uğurlu ailələrin yeddi adəti, s. 6.

Dünya şöhrətli Bara Barapuş deyir: "Həyatın sonunda hansısa imtahandan qəbul olmadığınıza, hansısa trendi udmadığınıza, ya da hansısa kommersiya müqaviləsini bağlamadığınıza görə peşman olmayacaqsınız. Ancaq həyat yoldaşınızın, uşağınızın, dostunuzun və ya valideyninizin olmadığına görə peşman ola bilərsiniz. Cəmiyyətimizin uğuru Ağ evdə baş verənlərə deyil, öz evimizin daxilində baş verənlərə bağlıdır".[1]

Bu qədər əhəmiyyətli ailə ocağı bu gün çox zəifləyib. Bunun ən mühüm amillərindən biri də cəmiyyətdə az örtünmədir. Bu problem Qərbdə aydın hiss olunur. Bizim ölkəmiz də on il öncə ilə müqayisəolunası deyil. Gənc qız və oğlan boşanma konsultasiyası üçün mənim yanıma gəlmişdilər. Soruşdum ki, nəvaxtdır ailə qurmusunuz? İnanılmaz olsa da, belə dedilər: "On altı gün!" "Məgər ailə qurmazdan öncə bir-birinizi araşdırmamışdınız?" – deyə soruşanda isə belə cavab verdilər: "Üç il dost olmuşuq, indi isə bir-birimizə inanmırıq". Bizim paytaxtımızın şimalında adətən varlı adamlar yaşayırlar. Oradakı nikahların 70 faizə yaxını boşanma ilə nəticələnir. Yəni hər dörd ailədən üçü boşanır! Halbuki ən pis geyim forması Tehranın şimalındadır. Bu, ailənin məhv olması deməkdir; əgər ümumiləşsə, cəmiyyətin məhvinə səbəb olar.

Biz niyə bu vəziyyətə düşmüşük? Cavab sadədir: Tam örtünməyən qız və qadınların üz və bədənləri daim kişinin gözləri önündə olduqda beynində onların təsəvvürləri yaranır, sonra onları öz həyat yoldaşı ilə müqayisə edir və ona qarşı sevgisi ölür; həyat yoldaşının gözəlliyi və üstünlükləri ona adi gəlir, digərlərinin adi üstünlükləri isə

---

[1] Yenə orada.

böyük görünür. Bu daxili təlatüm bir müddətdən sonra müqaviməti az olan və rəngarənglik istəyən kişinin xanımında səhvlər axtarmasına səbəb olur. Xanım da istər-istəməz həyatdan və həyat yoldaşından soyuyur.[1]

Əlbəttə, bu bəla yalnız kişiyə məxsus deyil, qadının da başına gələ bilər. Ümumi olaraq, hansı cəmiyyətdə çılpaqlıq hakim olsa, qadın və kişilər həmişə müqayisə halında olarlar, sahib olduqlarının sahib olmadıqları ilə müqayisə edərlər.[2] Bu müqayisə ehtirası artırar və ailənin təməlini məhv edər. Vill Dürant təxminən 70 il öncə bugünkü dünyamızın vəziyyətini düzgün proqnoz edib deyirdi: "Tezliklə elə bir zaman gələcək ki, heç bir kişi həyatın bir təpəsindən, birlikdə qalxdığı qadınla enmək istəməyəcək, talaqsız nikah toy gecəsində bakirə qız kimi nadir olacaq".[3] O, ekstrasenslik etməyib, şərait elə olub ki, hətta gəlini və kürəkəni olan böyüklər də boşanırlar. Bu, bizim əməllərimizin təbii nəticəsidir. Kişi baxmağı, qadın da görülməyi seçəndə ailə ocağında müqavimət gücü qalarmı?! Belə bir şəraitdə kişi və qadınlar hansı maraqla evə və ailəyə vəfalı olsunlar?! Ümumiyyətlə, niyə ailə qurulsun?![4]

Bu gün Qərb və qərbpərəst cəmiyyətlər ailə məsuliyyətini qəbul etmək yerinə azad bazardan və cəmiyyətin ümumi hərəmxanasından istifadə edirlər. İş o yerə çatıb ki, peyk kanallarında göstərilən serialların ən mühüm mövzusu qadınla kişinin evdən bayırda münasibətlərini adiləşdirməkdir. Bunu qəti bir haqq kimi tamaşaçılara aşılayırlar, cinsi münasibətin həyat yoldaşı ilə

---

[1] Bax: Qulami, s. 128-129.
[2] İshaqi, Hüseyn, İffət gövhəri, s. 90.
[3] Hatəmi, s. 145.
[4] İslamlu, Gülün hərimi, s. 90.

məhdudlaşmasını isə gerilik, bəzən də axmaqlıq hesab edirlər. “Ailə təməlinin zəifləməsi” üç sözdür, amma çox narahatedici, qorxulu və təsirlidir.

Az örtünmə səbəbindən ailənin təhlükəsizliyi sıradan çıxanda, ailə təməli zəifləyəndə aşağıdakı kimi qarşısıalınmaz nəticələr də doğurur:

1) Güclü təşviş və psixoloji gərginlik: Az örtünmə səbəbindən azad cinsi münasibətlərin çoxaldığı cəmiyyətlərdə cütlüklər güclü stres altında olurlar, həyat yoldaşlarının səhv etməsindən, kiminsə tələsinə düşməsindən qorxurlar. Belə cəmiyyətlərdə tapılmayan əsas amil mənəvi rahatlıqdır. Halbuki izdivac və ailə buna görə formalaşır. Mənəvi rahatlıq başqa heç bir münasibətdə yoxdur, heç bir şey də onu kompensasiya etmir.

2) Cütlüklər arasında xəyanətin çoxalması: Güclü təşviş və stres səbəbindən ər-arvad münasibətləri soyuyanda, həyəcanını itirəndə cütlüklər özlərini təmin etmək və mənəvi rahatlığa nail olmaq üçün çarə axtarmağa başlayır və xəyanət quyusuna düşürlər. Tehranda yarımçıq hicablı qadınlar arasında keçirilmiş sorğuya ötən seminarda toxundum. Onların 76,3 faizi hicabı ailə sağlamlığının, 66,7 faizi də xəyanətin azalmasının səbəbi kimi göstərmişdir.[1]

3) Rəsmi boşanma: Məşhur sosioloq Corc Kominks deyir: "Mənim fikrimcə, qadınla kişinin talaqla nəticələnən ixtilafının əsas səbəbi kişilər üçün qeyri-rəsmi münasibət şəraitinin daha əlçatan olmasıdır".[2] Elmləri güc və sərvət mərkəzlərinə düyünlənməmiş alimlər sədaqətlə

---

[1] Elxani, s. 200-203.

[2] Qulami, Yusif, Qadınların özünü göstərməsi və kişilərin baxması, s. 129.

bu həqiqətləri etiraf edirlər. Məşhur rus yazıçısı Tolstoy da bu həqiqətin yanından sadəliklə keçə bilməyib yazır: "Avropada boşanmanın ictimai rəyi gərginləşdirəcək həddə çoxalmasının səbəbi örtünmənin olmaması və kişilərin qadınlarla münasibətə görə öz həyat yoldaşlarına meyilsiz olmalarıdır".[1]

Təəssüf ki, bəzi cəmiyyətlərdə iş o yerə çatıb ki, "İkinci eşq daha ürəyəyatandır" məsəlindən də istifadə olunur. Boşanmanın dəhşətli nəticələri olduqca çoxdur, lakin onun tüstüsü daha çox qadının gözünə girir. “Nyusvik” jurnalı yazır: "Boşanan hər dörd qadından biri spirtli içkilərə aludə olur, boşanmış qadınlar arasında intihar isə ərli qadınlardan üç dəfə çoxdur".[2]

Doktor Məcidi qısa fasilə verib stolunun üstündəki stəkandan bir qurtum su içdi və sözünə davam etdi:

4) Emosional talaq: Gözlər o qədər ehtiraslı səhnələr görüb ki, daha qadınla kişi bir-birinə cazibəli gəlmir. Nə qədər cütlüklər var ki, rəsmi şəkildə bir-birindən ayrılmayıblar, amma qəlbləri bir-birindən kilometrlərlə uzaqdır. Emosional talaq barədə dəqiq statistika yoxdur, amma bəziləri onu rəsmi talaqdan iki dəfə çox bilirlər.

5) Cinayətkar övladlar: Statistika belə göstərir: "Yeniyetmə cinayətkarların 72 faizi atasız böyümüşdür. Təhsildən uzaqlaşmaq, intihar və digər anormal davranışlar daha çox atasız yeniyetmələrdə görünür".[3]

Belə bir məsəl var: "Nə tökərsən aşına, o çıxar qaşığına” və ya “nə əkərsən, onu da biçərsən”.

Məsələyə hansı tərəfdən baxsaq, ailə təməllərinin zəifləməsi ilə ən çox qadınların ziyan gördüyü ortaya

---

[1] “Hicaba başqa bir baxış” təlimi, s. 40.

[2] Mütəhhəri, İslamda qadın hüquqları, s. 231.

[3] İslamlu, Gülün hərimi, s. 90.

çıxır. Tədqiqatlar göstərir ki, ailə dağıldıqda bunun ən böyük mənfi təsiri qız övladlara yönəlir.[1]

Doktor Məcidi iştirakçılara göz gəzdirib təbəssümlə dedi:

– Dostlar bu seminarda çox sakit iştirak edirlər. Yaxşı olar ki, müzakirəyə qoşulasınız. Yanlış örtünmənin ailənin təhlükəsizliyinə dair mənfi təsirlərindən bir neçəsini də siz deyin.

Düz və uzun sarı saçlı bir kişi yerindən qalxıb dedi:

– Deyəsən, biz mat-məəttəl qalmışıq, buna görə danışmırıq. Bəşəriyyətin bütün bu fəlakətlərini dərk etmək çox çətindir... Mənim maddi vəziyyətim yaxşıdır, amma ailə qurmaq istəmirəm. Digər tərəfdən, böyük arzularımdan biri budur ki, uşağım olsun, onu parka aparım. İndi özümü xoşbəxt hiss etmirəm. Məncə, 20-ci əsr geyiminin ailə üçün təsirlərindən biri də izdivac yaşının çoxalması və ailə qurulmamasıdır.

Həmin kişinin arxasından bir qadın ayağa qalxıb dedi:

– Dəfələrlə qəzetlərdə oxumuşam ki, insanlar ailə həyatındakı uğursuzluğa görə intihar edirlər. Öz dostlarımdan biri də buna nümunədir. O, ərinin başqa bir qadınla evlənmək istədiyini biləndə özünü öldürdü.

Zalın sonundan bir kişi əlini qaldırdı.

– Buyurun, – xanım Məcidi dedi.

– Mənim kiçik bir biznesim var, – kişi dedi. – Ticarətdə belə bir ümumi qayda var: Təklif çoxalanda qiymətlər enir. Məncə, ehtiraslı məsələlərin təklifi çoxalanda kişi ilə qadının bir-birinə sevgisi də azalır. Bu gün eşq ölüb. Mənim gözəl bir həyat yoldaşım var, amma heç vaxt dərin eşq hissi keçirməmişəm. O da mənə qarşı belədir. Mən

---

[1] İslamlu, Qadın; tarixi zülm, bərabərlik zülmü, s. 58.

özümdə və həyat yoldaşımda bu çatışmazlığı aydın hiss edirəm.

Maşa "İşrətkədə" saytının fəaliyyətlərini, qadınları necə özlərini kişilərə göstərməyə həvəsləndirməsini və bu işi qadın hüquq və azadlıqlarını müdafiə kimi göstərdiklərini xatırladı.

Xanım Məcidi dedi:

– Bütün əzizlərə təşəkkür edirəm. Bu aydın məsələlər tam örtünməmənin ailənin təhlükəsizliyinə qarşı dəhşətli və təhlükəli nəticələridir. Kaş bir az özümüzə gəlib fikirləşək ki, xoşbəxtliyə doğru gedirik və xoşbəxtik, yoxsa xoşbəxtliyi yamsılayırıq?! Bu gün seminar uzandısa, bağışlayın və icazə verin bugünkü söhbəti Suzanna Faludinin bir cümləsi ilə sona çatdırım: "Amerika qadınlarının bu qələbə təntənəsinin arxasında, qadın hüquqları uğrunda mübarizənin nəticə verdiyini tez-tez elan edən xəbərlərin o tərəfində başqa bir mesaj özünü göstərir. Bu mesaj qadınlara deyir: "Siz indi azad və bərabərsiniz, amma heç vaxt bundan da bədbəxt olmamısınız!"[1]

Seminar sona çatdı. Zaldakılar İslam mərkəzini tərk edəndən sonra Sara ilə Maşa doktor Tehraninin kabinetinə getdilər. Doktor dəhlizin sonunda onları gördü, mobil telefonu ilə danışa-danışa onları öz otağına keçməyə dəvət etdi. Az sonra özü də gəldi və səmimi hal-əhval tutandan sonra Saradan soruşdu:

– Özünüz necəsiniz? Bu günlər sizin üçün xüsusi və tarixi günlər olmalıdır!

Sara qısa pauzadan sonra cavab verdi:

---

[1] Şelit, Amerikada feminizm, c. 1, s. 50.

– Xüsusən bu gün yaxşıyam. Ata-anamın davranışı barədə sizə məlumat vermişdim. İndi atamla problemim müəyyən həddə həll olub, anamsa hələ hirslidir. Onlar hicabımla barışa bilmirlər, qorxurlar ki, mənə zərər toxunar, ya da... bir terrorçuya çevrilərəm.

Doktor Tehrani dedi:

– Nəticəyə çatmaq üçün səbir etmək lazımdır. Xüsusən də din yolunda insandan və cindən olan şeytanlar çoxlu maneələr yaradırlar. Allaha təvəkkül edin, əmin olun ki, Allah kömək edəcək. İşlərin düzəlməsində zamanın böyük təsiri var. Səbirli olun.

Sara ümidləndi, ürəyi sakitləşdi. Dərin nəfəs alıb Tehraniyə təşəkkür edəndən sonra üzündə rahatlıq və razılıq təbəssümü ilə Maşa ilə birlikdə mərkəzdən çıxdı.

– Yaxşı... mən gedirəm otağıma. Sən də get taleyinə doğru, – Maşa dedi.

Sara qaşlarını düyünləyib dedi:

– Tale?!

Maşa gözlərini qıyıb hiyləgər səslə dedi:

– Hə də; yaraşıqlı və centlmen bir taleyin gözü yolda qalıb!

***

Fərhad parkdakı səyyar kafenin stulunda oturub Saranı gözləyirdi. Onu görən kimi ayağa qalxdı, gülümsəyib dedi:

– Salam.

Özünü itirdiyi hiss olunurdu. Çantasını götürüb masadan uzaqlaşdı, stulu bir qədər önə itələdi, sonra yenə geri qaytarıb dedi:

– Buyurun.

Alnının kənarında bir neçə xırda tər damcısı parıldayırdı. Sara salam verib onun qarşısındakı stulu

masadan ayırdı və üstündə oturdu. Fərhad hələ dayanmışdı. Sara dedi:

– Oturmursunuz?

– Hə-hə... gedim sifariş verim.

Sara yaşıl və ağ forma geymiş gənc bir oğlanın əlində menyu onlara doğru gəldiyini göstərib dedi:

– Bu da ofisiant.

Fərhad Saranın göstərdiyi tərəfə baxıb:

– Aha! Bəli-bəli... Siz nə istəyirsiniz? – deyə stulunda oturdu.

Sara gülümsəyib hörmət və nəzakətlə iki addım kənarda dayanan gənc oğlana dedi:

– İsti şokoladlı süd, zəhmət olmasa.

Fərhad da başını yelləyib dedi:

– Əladır! Mənə də. Sadə bir keks də olsun.

Sara stulunu azca yerbəyer etdi, düz oturub nəzakətlə dedi:

– Buyurun... nəsə deyəcəkdiniz.

Fərhad çantasını dizinin üstündən götürdü, ehtiyatla yandakı stula qoyub dedi:

– Mən sosiologiya tələbəsiyəm, örtünmənin ictimai funksiyaları üzərində araşdırma aparıram. Tədqiqimin bir fəsli üçün anket doldurmalıyam. Bundan ötrü hicabı seçmiş xanımlara suallarım olacaq. Misal üçün, hicabı seçəndən sonra onlara problem yarandımı - ailədə, qohumlar arasında, iş yerində? Yaxud hicabın dəyər sayıldığı bir ölkədə yaşamaq istəyərlərmi? Bu seçimə görə ailənin və cəmiyyətin qınaq və əziyyətlərinə nə qədər dözə bilirlər? Peşman olma ehtimalları varmı?..

Sara əlinin içini "dur" əlaməti kimi göstərib dedi:

– Bağışlayın, olduqca çoxdur. Bir-bir deyə bilərsinizmi?

Fərhad gülümsədi, arabir stulun ortasındakı gülə, arabir də Saranın üzünə baxa-baxa dedi:

– Bağışlayın, ümumiyyətlə, olarmı seçiminiz və onun nəticələri barədə mənə danışasınız? Beləliklə, bütün cavablarımı alaram. Bir də mümkünsə, səsinizi yazmaq istəyirəm.

Sara başını təsdiq əlaməti olaraq yelləyib dedi:

– Okey. Ancaq audiofaylı mənə də göndərərsiniz.

Fərhad razılaşdı və kiçik səsyazan cihazını çantasından çıxarıb masanın üstünə qoydu. Gənc oğlan şokoladlı süd və keksləri gətirdi, yavaşca stolun üstünə qoyub getdi.

Fərhad səsyazanı işə salıb:

– Buyurun, – deyə keksi və isti içkini Saraya yaxınlaşdırdı, çəngəllə öz keksindən kiçik bir parça qoparıb ağzına qoydu. Sara başörtüyünün kənarlarını düzəldib şokoladlı süddən ehtiyatla bir qurtum içdi, sonra yavaşca danışmağa başladı.

O, işindən, təhsilindən, xanım doktor Məcidi və İslam Araşdırmaları Mərkəzi ilə tanışlığından və xanım doktordan eşitdiyi yeni və maraqlı sözlərdən danışdı. Sonra öz araşdırma və tədqiqatları barədə məlumat verdi, sonda İslam dinini qəbul etdiyini, geyimini dəyişdiyini söylədi, ailəsinin onun geyim tərzinə, başörtüyünə və uzun paltarına reaksiyasına toxundu. Ata və anasının rəftarını xatırlamaq onu incidirdi. Bir qədər fasilə verdi və daha davam etmədi.

Saranı diqqətlə dinləyən Fərhad nəfəs alıb soruşdu:

– Bağışlayın ki, bunu soruşuram. Amma bu problemə qarşı hansı tədbiriniz var? Hər halda, onlar sizin ailənizdir.

– Doktor Tehraninin tövsiyəsi ilə səbir etməli və Allahın köməyini gözləməliyəm.

Saranın mobil telefonu bir dəfə zəng çaldı. Maşa idi. Sara telefonuna baxdı, səssiz rejimə keçirib dedi:

– Bağışlayın, mən çox danışdım, vaxta fikir vermədim. Getməliyəm...

– Mənim... başqa suallarım da var. Əgər mümkünsə bir vaxt da ayırın. Ya da istəsəniz, sizin telefon nömrənizi qeyd edim. Siz axı heç nə yemədiniz...

Sara gülümsəyib:

– Əlbəttə, – dedi, sonra şokoladlı süddən bir qurtum içib gözlərini stolun kənarındakı kolları qırmızı rəngə boyayıb gözəl və ürəkaçan bir görüntü yaratmış qızılgüllərə dikdi.

# Səkkizinci fəsil

## Müasir və həyalı

Həftənin günləri bir-bir ötdü və nəhayət, "Bütün dünya qadınları üçün" silsiləvi seminarların səkkizinci bazar günü gəldi. Seminar Quran oxunuşu ilə başladı. Xanım Həkimi iştirakçıları salamlayandan sonra doktor Məcidini səhnəyə dəvət etdi. Xanım Məcidi də iştirakçılara təşəkkür etdi, internetdə seminarlarla bağlı aktivliklərinə görə onlara minnətdarlığını bildirib mövzusunu davam etdirdi:

– Keçən seminarlarda hicab üçün hamı tərəfindən qəbul olunan üç məntiqi arqumenti söylədik: tarix, ictimai təhlükəsizlik və ailə təhlükəsizliyi. Seminarda dediklərinizdən, sonra da internet paylaşımlarınızdan təxmin etmək olar ki, əziz dostların çoxu bu arqumentləri bəyənmişdir.

Dördüncü arqument barədə söhbətə başlamazdan öncə əziz qızımız Elanı bura dəvət edirəm. Çoxunuz onun adı ilə tanışsınız. Sizin alqışlarınızla xanım Ela Qanderson.

Hamı əl çalmağa başladı. Elanı tanıyanlar təəccüb və həyəcanla ona baxırdılar. İncə yeniyetmə qız idi, qızılı saçını gəlincikli bir sancaqla başının arxasına yığmışdı. Əynində krem rəngli çox sadə sport geyim vardı. O, alqış sədaları altında doktor Məcidinin yanında dayanıb dedi:

– Hamını salamlayır və təşəkkürümü bildirirəm. Dəvətinizə görə minnətdaram. Mən Ela Qandersonam. On altı yaşım var, xanım doktorun tarix və ictimai təhlükəsizlik barədə çıxışlarını Vaşinqtondan Nyu-Yorka qədər yolda dinlədim. Düzü, çox həzz aldım və bu qədər iştirakçı ilə üzləşəndə təəccüb etmədim. Çünki bu sözlər tamamilə yeni və hamı üçün səmərəlidir.

Doktor Məcidi dedi:

– Ela can, sizin əhvalatınızı öz dilinizdən eşitmək istəyirik.

– Mersi. Mənim on bir yaşım vardı. Bir gün anam Pəm, bacım Robin və bir dostumla birlikdə böyük “Nordstrom” mağazasına paltar almağa getdik. Bacım bir cins şalvar bəyəndi, amma dar olduğuna görə bir ölçü böyüyünü istəyəndə satıcı təəccüb və istehza ilə dedi: "O ölçü işinə yaramaz. Sənə bu kiçik ölçü yaxşıdır. İndi dar paltar dəbdədir". Robin narahat oldu, satıcının sözünə məhəl qoymadan böyük ölçünü götürdü. Bu hadisədən məndə pis təəssürat yarandı. Mağazanın müdiri cənab Nordstroma bir etiraz məktubu yazdım. Anam məktubun nəticəsindən ümidsiz olsa da, onu poçta saldı. Bu məktubun bir hissəsində yazmışdım: "Əziz mister Nordstrom! Mən on bir yaşda bir qızam, paltar və cins şalvar üçün sizin mağazanıza gəlmişəm. Amma şalvarın hamısı dardır. Bir ölçü böyük də mənə həddən artıq böyük oldu. Satıcılarınız deyirlər ki, yalnız bir münasib dəb var. Əgər bu söz düz

olsa, onda qızlar küçələrdə yarıçılpaq gəzməlidirlər. Bu üsulunuzu dəyişməniz lazımdır".

Biz cavab gözləmirdik, məktubu da təxminən unutmuşduq. Amma bir neçə aydan sonra məktubun cavabı gəldi. Satıcının rəftarına görə bizdən üzr istəmiş və söz vermişdilər ki, məsələni həll edəcəklər. Cavabın gəlməsi mediada çox işıqlandırıldı. Qəzetlər, jurnallar, müxtəlif agentliklər məktubu və cavabını dərc etdilər, məndən çoxlu müsahibələr aldılar. Hətta mister Nordstrom dünyanın ən məşhur telekanalı olan CNN-ə dəvət olundu və aparıcıya dedi: "Biz Elanın məktubuna görə təəccüblənmədik. Çünki illərdir yeniyetmə qızlardan oxşar şikayətlər alırıq".

Amerika və Avropanın bəzi universitetlərində Qərbdəki geyim dəbi barədə çoxlu diskussiya və mühazirələr təşkil olundu. Dünyanın müxtəlif yerlərindən mənə çoxlu dəstək məktubları gəldi. Onlar bugünkü dəblərdən yorulmuş həmyaşıd qızlardan idi. Məktublar o qədər çox idi ki, oxuyandan sonra onları evin bayırındakı böyük səbətə qoyurduq. Mənim məktubum, əslində, Amerika və Avropanın yeni nəsil uşaqlarının ürək sözü idi. Ondan sonra “Nordstrom” mağazasının saytında gənc və yeniyetmə müştərilər üçün "modern və həyalı" variantı əlavə olundu.[1]

Bu, ümumi bir tələbin başlanğıcı idi. Arizonalı dörd yüz yeniyetmə bir məktub yazıb mağazalardan mini-yubka və şortiklə göbəyiaçıq köynəklər geymək istəməyən qızlar üçün fərqli geyimlər hazırlamalarını xahiş etdilər. “Dilardz” mağazası məcbur olub şöbələrinin birində “Həyalı dəb” sərgisi keçirdi.

---

[1] Ela Qandersonun əhvalatını oxumaq üçün bax: Şelit, Qızlar ismətə üz tuturlar, s. 156-160.

İştirakçılar çox həyəcanlandılar, ixtiyarsız olaraq Elanın sözlərini kəsib onu alqışladılar. Doktor Məcidi dedi:

– Əziz Elanın əhvalatını bir neçə dəfə oxusam da, bunu özündən eşitmək, həqiqətən, həyəcanlı və gözəldir. Əzizim, əgər son sözün varsa, məmnuniyyətlə dinləməyə hazırıq.

Ela gülümsəyib iştirakçılara dedi:

– Bütün xanımlara deyirəm ki, ayıq fitrətlərindən ehtiyatlı olsunlar, yatmış fitrətləri oyatmaq üçün də əllərindən gələn heç nəyi, hətta kiçik bir xatırlatmanı da əsirgəməsinlər. Mənim paltar mağazasına xatırlatmam kiçik idi, amma böyük təsiri oldu. Bütün möhtərəm iştirakçılara, bu seminarı təşkil edənlərə, xüsusən də doktor Məcidiyə təşəkkür edirəm.

O, iştirakçıların sürəkli alqışları altında qayıdıb öz yerində oturdu. Doktor Məcidi sözünə davam etdi:

– İcazə verin, burada əsaslı bir qaydanı söyləyək. Bəşər tarixi boyu mövcud olan və ağılın pis saymadığı hər bir şey, şübhəsiz, fitrətdən irəli gəlir; yəni insanların insanlığı onsuz yarımçıqdır. Məsələn, bu gün hamı ədalət istəyir; min il qabaq da belə olub, gələcəkdə də hamı ədalət istəyəcək. Ağıl da ədaləti pis saymır, hətta lazım bilir. Bu baxımdan, ədalətsevərlik bəşər fitrətindən irəli gəlir. Yaxud yaranışın əvvəlindən insanlar doğruluğun tərəfdarı və yalanın düşməni olmuşlar. Ağıl da doğru danışmağı pis saymır. Deməli, doğru danışmaq və yalana qarşı çıxmaq fitri işlərdəndir.

Münasib geyim də tarix boyu mövcud olub, ağıl da onu pis saymayıb. Deməli, ədalət və sədaqət kimi, bu da bəşərin fitri ehtiyaclarındandır və münasib geyim olmadan insanların insanlığı nöqsanlı olur. Əziz Elanın hadisəsi

göstərir ki, fitrətlər hələ yaşayır. Fitrətin səsi həmişə örtünmə və həyanın səsi olub və indi də belədir.

Bizim dördüncü dəlilimiz fitrətdir. Əzizlər! Siz Nyu-York şəhərində yaşayırsınız, bəlkə, başqa şəhər və ölkələrə də getmisiniz. Küçələrdə insanlara baxırsınız. Əksər adamlar tam örtünməsələr də, maksimum örtünürlər. Misal üçün, əksər qadınlarda yalnız saç və qolların bir qədəri görünür, bədənin digər hissələri örtülür. Bu qədər əks-təbliğata rəğmən, dünya əhalisinin çoxu maksimum örtünürsə, bu, fitrətin möcüzəsidir.

Əlbəttə, bu gün fitrət əleyhinə güclü təbliğat təsirindən örtünmə tam və fitri miqdarına nisbətən azalmışdır. Telekanallarda insanların real həyatını göstərmirlər. Həqiqət budur ki, münasib geyim bəşərin fitrətində var, onun ətinə-qanına qarışıb. İnsanların real həyatı cənab Nordstromun cümləsindədir: "İllərdir yeniyetmə qızlardan oxşar şikayətlər alırıq". Həqiqət dünyanın hər yerindən bizim gül qızımız Elaya yazılmış saysız-hesabsız məktublardır. Vill Dürant deyir: "Hətta dinlər qadının örtünməsi barədə göstəriş verməsəydi də, qadının özü heç bir təlim görmədən tarix boyu fitrəti ilə dərk edib ki, nə qədər örtünsə, bir o qədər əlçatmaz olar və nə qədər əlçatmaz olsa, bir o qədər dəyərli olar".[1]

Gənc bir xanım əlini qaldırıb dedi:

– Mən virtual məkanda və sosial şəbəkələrdə fəalam, bu kimi məsələlərdən sonra bugünkü dinləyicidə yaranan sualların nə olduğunu bilirəm. Məsələn, deyəcəklər ki, bu nə fitrətdir? Əgər örtünmə fitridirsə, nə üçün dünya əhalisinin çoxu saçını və ya bəzi bədən üzvlərini örtmür? Hətta müsəlmanlar arasında da hicabsızlıq var.

[1] Qulami, Bir hiylənin sirri, s. 86.

Doktor Məcidi dedi:

– Bəli, düzdür... Ancaq unutmayın ki, hər bir fitri məsələyə qarşı təbliğat aparılsa, o məsələdə fitrət tədricən yolundan yayınar və axırda tərsinə çevrilər. Fitrət yalnız zəmin yaradır, məcbur etmir. Əgər fitrət insanı fitri işlərə məcbur etsəydi, dünya gülüstana çevrilərdi, dünyada oğru, yalançı və cinayətkar tapılmazdı. Belinə partlayış kəməri bağlayıb insanların arasında özlərini partladanlarda fitrət çevrilməsi baş verməyib?! Amerikalı əzizlərə hörmətsizlik etmək fikrim yoxdur. Siz bilirsiniz ki, dünyada bir dəfə atom bombası atılıb, o da ABŞ tərəfindən Yaponiyaya. Üç gün ərzində iki atom bombası atıldı: birincisi Herosimaya, ikincisi isə Naqasakiyə. Bu iki şəhərdə təxminən iki yüz iyirmi min mülki insan əridi. Atom bombasından istifadənin nə qədər fitrət çevrilməsinə ehtiyaclı olduğu barədə danışmıram, lakin Naqasakiyə atılmış bombanın macərası düşündürücüdür. Bu bomba hərbi Kokura şəhərinə atılmalı idi; yəni şəhərlərində hərbi sənaye olduğuna görə günahsız əhali məhv ediləcəkdi. Lakin Amerika qırıcısının pilotu bombanı ata bilməyib və qayıdanda onu Naqasakiyə atıb. Bu, fitrət çevrilməsinin pik həddidir, yəni alçaqfitrətlilikdir! Daha pisi isə budur ki, bu rüsvayçı və antiinsani əməlin ildönümündə ABŞ-ın ordu böyükləri bayram keçirir, atom partlayışı şəklində tort bişirtdirir və qırıcının pilotuna Cəsarət ordeni verirlər.

Bəs əks-təbliğat fitri geyimlə nə etdi? Təxminən iki yüz il qabaq kapitalist sistem daha çox qazanmaq üçün ucuz işçi qüvvəsindən – qadınlardan və onların zahiri gözəlliklərindən istifadə etmək qərarına gəldi, dəqiq proqramla müxtəlif yollarla, xüsusən də kütləvi informasiya vasitələri ilə örtünmə əleyhinə təbliğat başlandı. Bu illər boyunca sözügedən zəhərli təbliğatın

miqyasını təsəvvür etmək mümkün deyil. Sizə kiçik bir misal çəkim. Güman ki, “Heidi” cizgi filminə baxmısınız. “Heidi” çox məşhur İsveçrə romanıdır, 1880-ci ildə yazılıb, indiyədək yüz milyondan çox nüsxəsi satılıb. 1974-cü ildə bu romanın animasiyası hazırlanır və dünyanın çoxlu ölkələrində, o cümlədən, hətta Afrikada dublyaj olunur və dəfələrlə yayımlanır. Bu serialda üç geyim tərzi görünür: Klaranın və Piterin nənələrinin geyimi tamamilə örtülü, sadə və başörtülüdür; Mayer xanımın və digər ortayaşlı xanımların geyimi boyundan ayağın üstünə qədər örtülüb, enli paltarlardan və papaqdan istifadə olunub; üçüncüsü də Heidinin, Klaranın və digər gənc və yeniyetmə qızların yarıçılpaq geyimidir ki, başörtüyü və ya papaq yoxdur, paltarların qolları və ətəklər qısadır. Gördüyünüz kimi, üçüncüsündə çılpaqlıq örtünmənin yerini tutub. Yəni tamamilə məqsədyönlü şəkildə dolayısı ilə, uşaq və yeniyetmə izləyici hiss etmədən ona təlqin olunur ki, hicab nənələrin, qədimkilərin və təhsilsizlərin geyimidir, xanım Mayerin hicabı bugünkü təhsilli şəxslərə məxsusdur. Lakin tamamilə müasir olmaq, gerilikdən qaçmaq istəyirsənsə, gərək Heidi və Klara kimi geyinəsən. Təəssüf ki, bugünkü nəsil “Heidi”lərlə və ondan da pis nümunələrlə böyüyüb.

Bizim İrana baxın; Vill Dürant bir zaman onun barəsində demişdi: "Qədim İranda örtünmə nümunələri o qədər çoxdur ki, bəzi alimlər onu bütün dünyada örtünmənin əsas vətəni hesab ediblər”. Jan Şarden deyir: "İranlılar geyimi dəyişmək məsələsində ən ehtiyatlı insanlardır". Amma indi onlar ən güclü təbliğatın təsiri altında yavaş-yavaş geyimlərini dəyişirlər, bəziləri elə geyinib bəzənir ki, adamın əli ağzında qalır. Bu mənfi təbliğat Qacarlar dövründən, xüsusən də Nasirəddin şahın

vaxtından başlandı, Rza Pəhləvinin dövründə maksimum həddə çatdı. Rza şah zamanı "Qadınlar aləmi"[1] adlı bir jurnal iranlıların əsas geyim nümunəsi olan çadranı elə təhqir edirdi ki, hətta peyğəmbər övladı da olsaydın, təsirlənər, çadraya və hicaba nifrət edərdin. Mən çıxışıma uyğun bir neçə cümləni qeyd etmişəm, sizə oxuyacağam. Həmin jurnal aşkar şəkildə İranda çadranın bir neçə minillik tarixini tapdayır, halbuki bizim iranlılığımız İslamdan əsrlər öncə çadra ilə düyünlənib, hamı nəcabətli iranlı kimliyini çadra ilə tanıyır.

Biz dördüncü seminarda qədim İranda geyinmə tərzi barədə danışdıq. Dedik ki, tarixə görə, Həxamənəşilər və Əşkanilər dövründə qadınlar çadralı olmuşlar. Jurnalın məqsədi isə yalnız qaralamaq idi, çadranın təkcə qədimiliyini yox, hətta gözəlliklərini də tapdayırdı.

Çadranın gözəlliklərindən biri onun qara rəngidir. Bu gün rəng psixologiyası elmi sahələrdən sayılır, bu barədə çoxlu araşdırma aparılmışdır. Məşhur İsveçrə psixoloqu Maks Loşer dünyada ilk dəfə 1940-cı ildə sübuta yetirdi ki, rənglər yalnız mesaj və duyğuları ötürmək gücünə malik deyil, hətta müalicəvi enerjisi var. O yazır: "Ağ rəng boş bir səhifəyə bənzəyir, hekayəni onun üzərinə yazmaq lazımdır. Qara isə son nöqtədir, ondan o tərəfə heç nə yoxdur. Bu baxımdan, evdən bayırda, yad adamlar

---

[1] Bu jurnal Tehranda Amerika Qız Məktəbinin Məzunları Birliyi tərəfindən çap edilirdi. Onun ilk sayı 1921-ci ildə işıq üzü gördü, 12 il 3 ay davam etdi. Məqalələrin mövzusu tibbi məlumatlar, Qərbdə geyim modaları, evdarlıq üsulları, dünya feminist hərəkatlarının xəbərləri və ədəbi əsərlər idi. Jurnalın hər bir sayının cildində qadınların kişilərlə bərabərlik mesajı olan bir şeir və ya cümlə dərc olunurdu.

qarşısında ağ və rəngli geyinən qadının təhlükəsizliyi daha az olar".[1]

Psixoloqlar düşünürlər ki, qara rəng "yox", ağ rəng isə "bəli" deməkdir. Buna görə sülh və təslim əlaməti kimi ağ bayraq qaldırırlar. Gəlin geyimləri bəyə müsbət cavaba görə dünyanın əksər yerlərində başdan ayağa ağdır. Bu baxımdan, cəmiyyətdə qara kimi tünd rənglərdən istifadə edən qadın dolayısı ilə özgələrə deyir: "Yox! Yox! Mən sizin axtardığınız adam deyiləm!" Geyimin rəngi xəstə adamların xəyallarına son nöqtəni qoyur. Əksinə, cəmiyyətə xüsusi rənglərlə çıxan qadın əksərən pis niyyətli olmasa da, paltarının rəngi deyir: "Bəli! Bəli! Mənə doğru gəlin!"

Psixoloqlara görə, qara rəng sərhədi göstərir. Buna görə dünyanın əksər yerlərində yasda olan ailələr qara geyinirlər; yəni bizimlə şənlik, yaxud bizimlə əzizlərimiz arasında sərhəd və ayrılıq yaranıb. Yaxud bəy adətən qara kostyum geyir. Bu o deməkdir ki, mənimlə digər qadınlar arasında ayrılıq yaranıb, bu gündən bütün eşqim həyat yoldaşıma aiddir. Bu baxımdan, qadının cəmiyyətdə qısamüddətli iştirakı üçün ən yaxşı rəng qara rəngdir. Çünki onunla özgə kişilər arasında sərhədi qabardır, xəstələrin ona sataşma cəsarətini alır. Bu zərif məsələlərə görə Maks Loşer rənglərin dilini çox yaxşı bilən bir adam kimi iranlı qadınların geyimindən vəcdə gəlir, onları alqışlayıb deyir: "İranlı qadının psixologiyasını və kompleks baxışını alqışlamaq lazımdır. Çünki öz hörmətini, iffətini və paklığını qorumaq, habelə özü ilə cəmiyyət arasında məsafə saxlamaq üçün ən yaxşı hicab olan çadranı və ən münasib rəng olan qaranı seçmişdir".[2]

---

[1] Müctəhidi Sistani, s. 196.

[2] Yenə orada, s. 194.

Başqa bir incə məqam budur: Qara əzəmət və qüdrət rəngidir. Fironlar, Bəni-Abbas xəlifələri, azğın İŞİD qruplaşması, bütün dünyada çevik polis qüvvələri üçün qara formanın seçilməsi də qüdrət nümayişindən ötrüdür.

Ön cərgələrdən ortayaşlı bir kişi əlini qaldırıb dedi:

– Qara rəng barədə dedikləriniz maraqlıdır. İcazə versəniz, mən də iki nümunə söyləyəcəyəm. Biri ölkə başçılarının və böyük şəxsiyyətlərin maşınının rəngidir, biri də döyüş idmanlarında ən yüksək kəmərin rəngi. Onların hər ikisi qaradır, əzəmət və qüdrəti göstərir.

Doktor Məcidi dedi:

– Sağ olun. Heç şübhəsiz, başqa nümunələr də var. Biz bu qədərlə kifayətlənirik. Deyilənlərə əsasən, iranlı qadın uzun əsrlər boyu cəmiyyətə çıxmaq üçün ən yaxşı geyimi, yəni çadranı və ən yaxşı rəngi, yəni qaranı seçmişdir ki, özgələrə özünün böyüklüyünü və qüdrətini nümayiş etdirməklə bərabər, tam təhlükəsiz və arxayın halda ictimai işlərini görə bilsin. Xanım Mehrasa Qeybi "İranlıların səkkiz min illik geyim tarixi" kitabında yazır: "İbn Xəldun və İbn Əsir kimi alim və tarixçilərin kitablarından belə başa düşülür ki, qadınlar üst geyim üçün qara rəngdən istifadə etmişlər".[1] Deməli, Maks Loşerlərin təəccüblü sevinci səbəbsiz deyilmiş.

Çox maraqlı olan başqa bir məqam budur ki, "əsvəd" sözü ərəb dilində qara mənasından əlavə seyidlik, yəni böyüklük mənasında da işlənir. Onların hər ikisi bir kökdəndir. Deməli, qadın qara çadra ilə daha böyük və hörmətli olur. Maraqlıdır ki, İslam hədislərində təkəbbürlülük yalnız və yalnız Allaha məxsusdur və dünyada bir nəfərdən başqa heç kimin təkəbbürlü olmağa

---

[1] Məhəbbəti, c. 1, s. 165.

haqqı yoxdur. O bir nəfər də qadındır ki, yad kişi qarşısında təkəbbürlü rəftar etməlidir.

Qeyd etdim ki, "Qadınlar aləmi" jurnalı 1929-cu ilin noyabrında iranlıların bir neçə minillik kimliyini çox həyasızcasına və çadra barədə bütün bu psixoloji məqamları ayaq altına ataraq belə cümlələr yazır: "Ey möhtərəm bacılar və mənim qardaşlarım! Biz vəhşi ərəblərdən də o yana keçmişik. Onlar qızlarını bir dəfə diri-diri basdırırdılarsa, siz gündə min dəfə öldürüb-dirildirsiniz. Siz biz (qızları) bir an da rahat buraxmırsınız. Əsrlərdir bizi ağır zəhmət və şiddətlərdən əlavə, diri-diri kəfənləyirsiniz. Özü də necə kəfən? Qara kəfən! Hətta vəhşi heyvanlar da bu görkəmdən qorxub qaçırlar".[1]

Əziz seminar iştirakçıları, xüsusən də əziz qadınlar! Sizcə, bu sözlər bütün vücudu emosiyalardan ibarət olan bir qadın fitrətinə nə edər?! Bir qadın bu cümləni eşidəndə hicaba qarşı ürəyində nifrət yaranmasa, çox böyük insandır. Qara çadra kəfəndir?! Əgər bir sənət adamı bu rəngdə paltar geysə, qara eşq rəngi olur, söhbət hicabdan düşəndə isə daim qulaqlarımıza pıçıldayırlar ki, qara depressiyada olanların rəngidir və məzarlığa məxsusdur.

İranlıların fitrətinə qarşı təbliğat üçün şeir sənətindən də istifadə etmişlər. Ozamankı qəzetlərin birində belə dərc olunmuşdu:

Namus evi bu niqabla dağılır,
Çünki Hafiz deyib ki, qadının namusu niqabdır!
Qadın əgər alim olsa, elm yüz namusdur.
Qadının məhvi isə yalnız cəhalətdəndir![2]

---

[1] Şəfii Sərvistani, İbrahim, c. 2, s. 35.
[2] Yenə orada, s. 37.

Lakin bu gün görürük ki, çoxlu qadınlar yüksək elmi dərəcələrə nail olmuşlar, amma elm təkbaşına onları qoruya bilməmişdir.

Rza xanın hicab məsələsində fitrətə qarşı addımlarından təxminən 27 nümunəni yazmışam. Onların hamısını bu seminarda söyləyə bilmərəm, yalnız bir neçəsinin adını çəkəcəyəm: 1928-ci ilin novruzunda şahın ailəsinin hicabsız şəkildə Qum şəhərində müqəddəs məqbərəyə girməsi, 1934-cü ilin oktyabrında müəllimlərin hicabsız şəkildə işə qəbulu, kinoteatrlarda pozğun film və teatrların nümayiş etdirilməsi, çılpaq və yarıçılpaq qadın şəkillərinin qəzetlərdə dərc olunması. Onlar hətta çılpaq qadın şəkilləri olan nəlbəki və qabları da bazarlara çıxardılar. Qadınların başlarından çadralarını çəkirdilər. Bir sərəncamla fahişələri başlarına çadra atmağa məcbur etdilər. Axırda da Gövhərşad məscidində 1600 günahsız insanı qanına qəltan etdilər desinlər ki, inkişaf və sivilizasiya hicabsızlıqda, təpədən-dırnağa qədər qərbləşməkdədir. Bu minvalla get-gedə çoxlarının fitrəti tərsinə çevrildi. Bəzi mağaza sahibləri mağazalarında yazdılar: "Çadralı qadınlara mal satmırıq!" Ən çirkin əxlaqsız səhnələr küçə teatrlarında böyük və kiçiklərin, qadın və kişilərin gözləri önündə nümayiş olundu. Ozamankı dövlət sənədlərinin birində yazılırdı: "Məmurlar və dövlət qulluqçuları bu məsələnin (hicabsızlığın) yayılması üçün digərlərinə nümunə olmalıdırlar. Vəzifəli şəxslər öz xanımları ilə birlikdə çadrasız halda bütün xüsusi və ümumi məclislərdə iştirak etməyə borcludurlar. Onların hansı öz xanımı ilə qonaqlığa getməsə, onu dərhal işdən azad etmək lazımdır".[1] O dövrün zabitlərindən biri demişdi: "Bu

[1] Geyimin dəyişməsi və hicabın açılması sənədlərdə, s. 131.

məclislərdə kimin rütbəsi aşağı, xanımı isə gözəl olurdusa, xanımı əldən çıxır və ailəsi dağılırdı".[1]

Biz iranlılar nə çəkiriksə, bizə məcburən sırınan keçmişdəndir. Çünki iranlı qız və qadınlar misilsizdirlər. Əlbəttə, İslam Respublikasında mühüm məqsədlərdən biri də qadının məqamına diqqət olub. Lakin təəssüf ki, müsəlman qadın üçün onun məqamına layiqli bir iş görülməmişdir. Milli Media Tədqiqatları Mərkəzinin statistikasına əsasən, 2001-2004-cü illərdə çəkilmiş 56 serialda çadra müxtəlif formalarda təhqir edilmiş və ya gözdən salınmışdır. Bir çox nümunələrdə çadra yoxsul, savadsız, yaşlı, aciz və dul qadınlara, qulluqçulara, narkoman kişilərin həyat yoldaşlarına, ya da məzarlığa, yas məclislərinə və ya həbsxanaya məxsus geyim kimi göstərilmişdir".[2]

Müsəlman qadının çadrası tapdananda hicab və örtünmə tapdanmış olur. Hətta İranda televiziya təbliğatında da, Qərbdə olduğu kimi, məhsulların reklamı üçün ifrat şəkildə bəzənmiş qadınlardan istifadə olunur; bu fərqlə ki, qadınlar örtünmüşlər! Amma heç kim diqqət yetirmir ki, qadın reklam vasitəsi deyil, istər örtünmüş olsun, istər çılpaq! İslam Respublikasının Prezidenti kimi ən yüksək icraçı vəzifədə oturmuş bir adam, özü də ruhani geyimində "Əgər bu hicab və örtünmə qadın şəxsiyyətinin iştirakına və aşkara çıxmasına mane olsa, şübhəsiz ki, zərərlidir"[3] – deyirsə, sizcə, bu cümlə fitrətin inkişafına səbəb olur, yoxsa tapdanmasına?! Yaxud elm hövzəsində təhsil almış bir kişi yolunu azanda bütün müqəddəsləri ələ

---

[1] İslamlu, Gülün hərimi, s. 100.

[2] "Milli media, hicab və iffətin təbliği" məqaləsi; Bax: Şəfii Sərvistani, c. 2, s. 419.

[3] Keşvəri, Nə üçün hicab?, s. 16.

salır və hicab barədə deyir: "Hicabın əfsanəvi cəhəti var, iffəti qorumaq üçün deyil".[1] Burada Allaha minlərlə şükür etmək lazımdır ki, hələ də saysız-hesabsız qadınlar fitrətlərinin səsinə qulaq asaraq fəxrlə hicabı seçirlər.

Xanım, bağışlayın ki, sualınızın cavabı uzandı. Qısası budur ki, fitri iş üçün lazımi ictimai şərait yaradılmasa, bəziləri də fitrətlə düşmənlik etsələr, yavaş-yavaş fitrətlər yoldan çıxar, tərsinə çevrilər və iş o yerə çatar ki, biz bir neçə seminarı fitri bir məsələni sübut etməyə həsr edərik! Halbuki hicabsızlığın və yetərsiz örtünmənin dəlilə ehtiyacı var, fitrətdən irəli gələn hicabın və örtünmənin yox.

Gözləri yaşarmış ortayaşlı bir kişi əlini qaldırdı.

– Buyurun, – doktor Məcidi dedi.

Kişi əlini gözlərinə çəkdi, səmimi və sakit səslə dedi:

– Mən Edi Consam. Sizin söhbətiniz, həqiqətən, gözəldir, köklü inamlarınızdan gələn bu dəqiq və dərin baxışla məni duyğulandırdınız. Mən bir hekayə oxumuşam, bu mövzuya uyğundur. Dostların da bunu eşitməsini istəyirəm.

Xüsusi bir xəstəliyə görə ucqar bir kəndin əhalisinin bədəni həmişə qaşınırdı, onlar bədənlərini qaşımağa vərdiş etmişdilər. Bir gün bədəni qaşınmayan sağlam bir adamın yolu həmin kəndə düşür. Kənd adamları təəccüblə ona baxıb: "Sən, yəqin, xəstələnmisən ki, bədənin qaşınmır!" - deyib onu kənddən qovurlar. Xanım doktor Məcidi! Çox təəssüf ki, fitrətlər elə dəyişdirilib ki, örtünməyin və iffətli olmağın dəlilə ehtiyacı var, xəstəlik və gerilik sayılır. Çılpaqlıq və özünü göstərmək isə nəinki dəlilə ehtiyaclı deyil, hətta insanın sağlamlığını, inkişafını göstərir!

---

[1] Yenə orada.

Doktor Məcidi təsdiq əlaməti olaraq başını yelləyib dedi:

– Bəli, elədir. Gözəl misalına görə cənab Consa təşəkkür edir və bugünkü seminarın birinci hissəsinin başa çatdığını bildirirəm.

***

İstirahət zalında bir neçə nəfərlik qızğın qruplar yaranmışdı. Ən gərgin mübahisə gənclərlə yaşlılar arasında gedirdi. Gənclər əvvəlki nəsilləri, valideynlərini günahlandırır, böyüklər də tarixi zülmü aldanmalarının əsas səbəbi kimi göstərirdilər. Sara ilə Maşa kənarda dayanıb yavaşca danışırdılar. Sara Maşaya narahat halda ata-anasının İslam və müsəlmanlar barədə qənaətlərini söyləyirdi. O, daha çox qardaşına, onun kobud və məntiqsiz rəftarına görə narahat idi. Maşa onu sakitləşdirməyə çalışır, mediada aparılan güclü mənfi təbliğatı və radikal dini qruplaşmaları bu etirazların səbəbi bilirdi.

Birdən Sara Fərhadı gördü. O, Maşanın arxasından onlara yaxınlaşırdı. Fərhad başını yelləyib salam verdi. Maşa başını çevirdi və Sara ilə eyni vaxtda ona salam verdi. Fərhad dedi:

– Bağışlayın... demək istəyirdim ki... seminardan sonra bir neçə dəqiqə vaxtınızı ala bilərəm?

Sara Maşaya baxıb dedi:

– Ee... bağışlayın, amma şərait bir qədər... Yəni əgər mümkünsə, başqa bir vaxt sizə xəbər verərəm.

– Heç eybi yoxdur, – Fərhad dedi. – Zənginizi gözləyəcəyəm, – deyə sağollaşmaq əlaməti kimi əlini qaldırıb zala doğru getdi.

Maşa çiyni ilə yavaşca Saranın çiyninə vurub dedi:

– Nəsə xəbər var? Nə vaxt? Mübarəkdir!

Sara başını yelləyib hövsələsiz halda dedi:

– Nə deyirsən, Maşa?! Nə mübarəkdir? Həyəcandan boğuluram, beynim yanır. Sən, həqiqətən də, mənim evdə hansı şəraitdə olduğumu bilmirsən!

Maşa Saranın qolundan tutdu, onunla birlikdə zala doğru addımladı, səs tonunu sakitləşdirib dedi:

– Ah! Üzr istəyirəm. Boş ver. Aşiqdir də, hey gəlib-gedir ki, "hə" alsın. Bizim nə işimizə?!

Sara Maşanın qoluna yumruq vurub sürətini artırdı və dedi:

– Gərək nəsə söz atasan, yoxsa ölərsən. Qaç, seminar başlayır!

***

İştirakçılar yavaş-yavaş zala qayıdıb öz yerlərində oturdular. Zal təxminən dolmuşdu, heç kim dinmirdi. Bu zaman dördbucaq nazik eynək taxmış iri cüssəli və yaşlı bir kişi səhnənin önündə dayanıb xanım doktordan danışmaq üçün icazə istədi.

– Buyurun, – doktor Məcidi dedi.

– Tali Qordanam, jurnalist və yazar, – kişi dedi. – Mənim sualım var. Siz deyirsiniz ki, fitrətlər yolundan yayınıb, onları zorla yatırdıblar. Bəs fitrətlərin bu məcburi yuxudan oyanmaq fikirləri yoxdur?

Xanım Məcidi cavab verdi:

– Yaxşı sual verdiniz, cənab Qordan. Fitrətə qarşı mübarizənin məğlubiyyətdən başqa bir nəticəsi ola bilməz. Keçmiş SSRİ-də 70 il mənəviyyat əleyhinə təbliğat aparıldı, amma fitrətlər kommunizmi tarixin zibilliyinə göndərdilər. Dünyanın ayrı bir nöqtəsində də cinsi məsələlərdə də bir dəfə fitrətə qarşı o qədər çıxdılar ki, hamam şeytan tələsi adlandırıldı, bədənin çirki və pis qoxusu müqəddəs sayıldı, bit Allahın mirvarisi hesab

edildi! Bu da fitrətə qarşı tarixə düşmüş bir mübarizəydi. Lakin birdən vərəq çevrildi, başqa bir yayınma baş verdi: qışqırıqlar başlandı ki, ay haray, məhdudiyyətləri götürün ki, mərdimazarlığın və kinlərin kökü kəsilsin; iffəti sıradan çıxarın ki, ürəklər sakitləşsin və ictimai sabitlik yaransın; mütləq azadlıq elan edin ki, psixoloji xəstəliklər bitsin.[1]

Cinsi məsələlər barədə birinci baxış batil idi. O da kommunizmin getdiyi yerə getdi. Şübhəsiz ki, ikincisi də çox tezliklə birincisinə qoşulacaq. Çünki fitrətlə vuruşmaq olmaz. Fitrəti məhv etməkdən ötrü gərək insanları məhv edəsən. İranın Həmədan şəhərinin müxtəlif universitetlərinin tələbələri üzərində aparılmış sorğuda "Sizcə, insanda iffətə meylin səbəbi nədir?" sualına cavab olaraq onların 70 faizi fitrəti göstərmişdir.[2]

Əzizlər! Fitrətlər oyanmaqdadır və tezliklə düşmənləri yerində oturdacaq. Dünyada, xüsusən də Qərbdə geniş dalğa başlayıb, aparıcı insanlar arasında örtünmə halları sürətlənib. Bu oyanışda rolu olan görkəmli şəxslərdən biri məşhur yazıçı Trolopdur. O deyir: "Yazıçı oldum qızlara öyrədim ki, iffət qorumağa dəyər bir gövhərdir".[3]

Sizə başqa bir misal söyləyim, bəlkə də eşitmisiniz: 2003-cü ildə müsəlman qadınlar üçün hazırlanan üzgüçülük geyimi qeyri-müsəlmanlar arasında o qədər satıldı ki, fitrət düşmənləri Fransa sahillərində ondan istifadəni qadağan etdilər. Qərb mühiti ilə tanış olan Vendi Şelit deyir: "Universitet rəhbərliyinin tələbələrə hamiləliyin qarşısını alan vasitələr payladığı, valideynlərin

---

[1] Bax: Mütəhhəri, Mürtəza, Əsərlərinin külliyyatı, c. 19, s. 398, 656-658.

[2] Şəfii Sərvistani, c. 1, s. 189.

[3] Şelit, Amerikada feminizm, s. 28.

uşaqlarını iffətsizliyə həvəsləndirdiyi bir cəmiyyətdə gənclər hərəkət istiqamətini dəyişdirməyə çalışırlar".[1]

Təəccüblüsü budur ki, hətta ən radikal feministlərdən olan xanım Simon de Bovuar da iffətin fitri olduğunu etiraf edərək yazır: "İffət təbii amildir, bioloji kökü olan və qadınları qoruyan bir neçə qadın xüsusiyyətindən biridir".[2] Nyu-Yorkda statistika və analitika mərkəzi olan IG tədqiqat qrupunun üzvü Melisa Lavigen deyir: "Nyu-Yorkun yeni nəsil qızları, öncəkilərdən fərqli olaraq, özlərini göstərməyə və yarıçılpaq geyinməyə çox da həvəsli deyillər".[3]

Fitrətlərin oyanışı təbiidir, önəmli olan oyanış zamanıdır. Bəziləri xəttin sonuna qədər gedəndən sonra oyanırlar. Bir insanın digərlərinin təcrübə etdiyini yenidən təcrübə etməyə israrla can atması necə də böyük ziyandır!

Bu sahədə son və ən önəmli sözüm budur ki, müxtəlif məsələlərdə fitrətə qarşı çıxmaq pisdirsə, geyim məsələsində isə daha pisdir, fərdi problemlərdən əlavə, çoxlu ictimai problemlərə də səbəb olur. Belə ictimai problemlərdən biri evlənmə yaşının yüksəlməsidir. Belə bir şəraitdə gənclərin, xüsusən də oğlanların ailə qurmağa həvəsi olmur, qızlardan sui-istifadə edir və yalançı vədlərlə onlara ən böyük ziyanı vururlar. Əgər belə bir cəmiyyətdə ailə də qurulsa, talaq geniş yayılar və çox həyasızcasına talaq şənliyi keçirilər!

Başqa bir nəticə hamı, xüsusən də qadınlar üçün cəmiyyətdə təhlükəsizliyin pozulmasıdır. Təxminən dörd-beş il öncə qorxulu bir hadisə İran xalqını heyrətləndirdi. Polisin telefonuna zəng edilir və bir cinayətkarın dostu

---

[1] Şelit, Qızlar ismətə üz tuturlar, s. 97.
[2] Şelit, Amerikada feminizm, s. 47.
[3] “Hicaba başqa bir baxış” təlimi, s. 52.

dəhşətli faciə barədə məlumat verir. Hadisə bundan ibarətdir:

Cəmiyyətdə tez-tez uyğunsuz geyimləri görüb təhrik olan on yeddi yaşlı yeniyetmə altıyaşlı qız olan Sitayişi oğurlayıb evinə aparır və... Sonra da öz çirkin əməlinin nəticəsindən qorunmaq üçün onu öldürmək qərarına gəlir. Qatil bir də onda özünə gəlir ki, qarşısında bir cəsəd var. Bu biabırçılıqdan qurtulmaq üçün məsum uşağın bədəninə kimyəvi turşu tökür. Sitayişin başına gələnlər, bəlkə də, Qərb ölkələri üçün çox da qəribə və yeni deyil, amma bizim ölkəmizdə hamını şok etmişdi. Təəssüf ki, belə faciələr artmaqdadır; məsələn, bəzi məktəblərdə şagirdlərin cinsi istismarı və s. Bunlar ciddi təhlükələrdir, insanlar və məsul şəxslər gərək məsuliyyət hiss etsinlər.

Örtünmə azaldığına görə cəmiyyətləri ağuşuna alan problemlərdən biri də narkomaniyadır. Narkomanlıq əxlaqsız bir əməldir, qadınlar üçün isə kişilərdən də pisdir. 2007-ci ilin rəsmi statistikasına görə, İranda narkomanların təxminən 5 faizi qadınlar olmuşlar. 2011-ci ildə bu rəqəm təxminən iki dəfə artaraq 9 faizə çatmışdır.[1] Son zamanlar qadınlar uyğunsuz geyimlə avtomobillərdə siqaret çəkən halda da görünürlər, halbuki əvvəllər belə səhnələr yox idi. Bu baxımdan, örtünmə ilə əxlaqdan kənar işlər arasında birbaşa əlaqə vardır. Əlbəttə, demək istəmirəm ki, İranda münasib hicabdan istifadə etməyənlərin hamısı əxlaqsız və narkomandır. Məqsədim budur ki, münasib örtünmə müxtəlif təhlükələr qarşısında möhkəm səddir. Əgər bu sədd uçsa, çoxlu xarabalıqlar yaranar.

---

[1] Təsnim xəbər agentliyi, 26.06.14.

Örtünmə ilə dini və etiqadi məsələlər arasında əlaqə də çox güclüdür. Bu gün dindar ailələrdə böyüyən, amma zaman ötdükcə hicabı kənara qoyan, yaxud dindarlığından həzz almayan, yaxud ümumi olaraq digər dini dəyərləri tərk edən insanlar az deyillər. Nəticə budur ki, əgər bir qədər dərindən düşünsək, mənfi təbliğat tozunu fitrətlər üzərindən silsək, aydın şəkildə dərk edərik ki, hicab bizim həqiqi ehtiyaclarımızdandır.

Bugünkü seminarımız da bitdi. Hamınıza təşəkkür edir və hamınızı mehriban Allaha tapşırıram.

Seminarın bitdiyi elan olunan kimi yenə Saranın ürəyi qəm-kədərlə doldu. O, Maşaya dedi:

– Maşa, çox həyəcanlıyam.

– Cənab Tehrani deyib ki, yolun əvvəlində belə məsələlər təbiidir. Allah kömək edəcək və həll olacaq.

Sara başını qaldırıb dərin nəfəs aldı:

– Of! İnanmağa çalışıram, amma qorxuram, – dedi.

***

Həftənin günləri Saraya çətin keçirdi. Cümə günü Maşa ilə piyada gəzinti üçün vədələşdi, doktor Məcidinin söhbətləri barədə danışdılar. Sağollaşanda ona dedi:

– Qardaşım bazar günü səhər ekskursiyadan qayıdır. Əgər onunla üzləşsəm... yüz faiz bu seminarı qaçıracağam. Əgər mümkünsə, həmin gecə sənin yanına gəlim, səhər birlikdə İslam mərkəzinə gedərik.

Maşa qaşlarını düyünləyib dedi:

– Yenə sən?! Ey müqəddəs Məryəm, dadıma çat!

– Maşa! Çox yaramazsan!

– Yaramaz sənin o qardaşındır, – Maşa gülüb dedi. – Tez gələrsən, dəli, səni gözləyəcəyəm!

***

Sara şənbə günü axşam Maşanın otağına getdi. Gecə yata bilmir, pəncərənin önündə dayanıb gözlərini səmaya dikir, dodaqaltı Allahla danışırdı. Dan yeri ağaran kimi sübh namazını doktor Tehraninin öyrətdiyi şəkildə qılıb üzüqibləyə oturdu. Gözlərini yumub əlləri ilə üzünü örtdüyü halda zümzümə edirdi. Bəzən də başını yuxarı qaldırıb deyirdi: "Xudaya! Mənə kömək elə! Ata-anamla... xüsusən də qardaşımla nə edəcəyimi bilmirəm! Özün bilirsən ki, mənim üçün heç nə onların yerini verə bilməz. Mən onlarsız tək-tənhayam... Xahiş edirəm, kömək elə. Yəni olarmı ailəm məni bu şəkildə qəbul etsin və dinimi dəyişməmlə razılaşsın?!.. Xudaya! Əgər yolum düzdürsə, mənə kömək elə!"

Saranın namazı və duası Maşaya qəribə gəlir, onda mənəvi rahatlıq yaradırdı. O, Saraya heç vaxt bu qədər valeh olmamışdı.

# Doqquzuncu fəsil

## Yeməkdən də vacib

Sara ilə Maşa bazar günü səhər çağı doqquzuncu seminarda iştirak etmək üçün İslam mərkəzinə yola düşdülər. Mərkəzə girəndən sonra dərhal iclas zalına girib iştirakçılara qoşuldular. Sara Quran oxunanda bu ayədən daha çox həzz aldığını hiss elədi: "Ey iman gətirənlər! Əgər siz Allaha (Allahın dininə, kitabına və peyğəmbərinə) yardım göstərsəniz, O da sizə (məqsədləriniz yolunda) yardım göstərər və sizin addımlarınızı möhkəm edər".[1] O, özünü ilahi kəlamın müraciət tərəfi hesab etdi, daxilində çox gözəl bir rahatlıq yarandı.

Aparıcı iştirakçıları salamlayandan sonra doktor Məcidi səhnəyə qalxdı, giriş söhbətlərindən sonra bəhslərini belə davam etdirdi:

---

[1] Məhəmməd, 7.

– Hörmətli və dəyərli cənablar və xanımlar! Keçən seminara qədər örtünmə üçün hamının qəbul edəcəyi dörd dinüstü dəlil söyləndi. Bu gün vaxtın və sizin səbrinizin icazə verəcəyi təqdirdə beşinci və altıncı dəlillərə toxunacağam.

Beşinci dəlil çox əhəmiyyətli məsələdir, onu təmin etmək üçün dünyada çox böyük yatırımlar ayrılır. Amerika Birləşmiş Ştatlarında ümumi daxili məhsulun təxminən 17 faizi bu məsələyə aid edilir. Başgicəlləndirici rəqəmdir. Bu, bəzilərinizin təxmin etdiyi kimi, səhiyyə və sağlamlıqdır. Bütün bu büdcəyə görə, yaxşı olar ki, dünya cəmiyyətinin səhiyyəsində böyük rolu olan amillər tanınsın və onların yayılmasına səy göstərilsin.

Cəmiyyətin sağlamlığında mühüm faktorlardan biri münasib geyim məsələsidir. Təəssüf ki, bunun əhəmiyyəti aydın olsa da, kapitalist sistemin maraqları ilə ziddiyyət təşkil etdiyinə görə heç bir məhəl qoyulmur.

Keçmiş ABŞ prezidenti Kennedi amerikalı gənclərin fiziki və psixi durumu barədə şikayətlənərək deyirdi: “Hərbi xidmətə göndərilən hər yeddi gəncdən altısı zəif və yararsızdır. Məncə, bu fəlakətin səbəbi ehtiraslarda ifratçılıqdır. Bu amil onların fiziki və psixi istedadlarını zəiflətmişdir".[1] Keçmiş SSRİ prezidenti Xuruşşov da problemi düzgün təyin edərək deyirdi: "Sovet İttifaqının gələcəyi təhlükədədir. Gənclərin heç bir ümidverici sabahı yoxdur. Çünki özbaşına və ehtiras əsiri olublar".[2]

Bu insanlar bəşərin ən önəmli problemlərindən birini bilirlər, amma nəinki addım atmır, onu daha da genişləndirir və dünya əhalisinin sağlamlığını yaddan çıxarırlar. Təbii ki, tam və münasib örtünmə sıradan

---

[1] Qulami, Bir hiylənin sirri, s. 222.

[2] İslamlu, Gülün hərimi, s. 42.

çıxanda get-gedə özünü bəzəmə və özünü göstərmə bazarı qızışır, rövnəqlənir. Cəmiyyətdə qadın gözəlliklərini nümayiş etdirmək önəmli olanda isə bu, qadın üçün fəlakətin başlanğıcı, kişi üçün məhvin əvvəlidir.

Harvard Qida Pozuntuları Mərkəzinin 8-10 yaşlı qızlar üzərində apardığı araşdırmaya görə, qızların təxminən yarısı öz bədənindən narazıdır.[1] Bir də təkrarlayıram: 8-10 yaşlı qızlar! Sizcə, bu yaşda bədənə ifrat baxış təbiidir?! Bunun fizioloji və psixoloji baxımdan təhlükəli nəticələri yoxdur?! Digər tədqiqat 1995-ci ildə Arizona universitetində aparılıb. Bu tədqiqat göstərir ki, Amerikada ağdərili yeniyetmə qızların 90 faizi öz çəkisindən narazıdır. Onlar boylarının təxminən 170 sm, çəkilərinin də 45-50 kq olmasını istəyirlər. Bura görə 1994-cü ildə yeniyetmə qızların 62 faizi çox ağır qida rejimindən istifadə etmişdir. Əgər Orta əsrlərin işgəncə alətləri satılsaydı, bir çox yeniyetmə qızlar arıqlamaq üçün onları da alardılar.[2]

Belə dietalara və arıqladıcı dərmanlara görə insanların sağlamlığı nə qədər risk altına düşür! Qız və qadınların qəlbinə salınmış, onları xora kimi daxildən yeyən və istedadlarını məhv edən bu puç arzulardan yaranan ziyanlara görə kim cavab verəcək?! Nəyə görə bu model və manekenlər pak və məsum gənclərin qibləsinə çevrilib?! Təəssüf ki, daha böyük problem budur: Bu ağır pəhriz rejimləri problemi həll etmir, düşüncə və zehin korlandığına görə axırda bədən üzvləri plastik cərrahiyyə əməliyyatlarına girir. Burun, dodaq, yanaq, sinə və başqa hansısa bədən üzvü cərrahiyyə əməliyyatı olunur. Bir cərrahiyyə əməliyyatının nəticələri azdır?! Məsuliyyətli

---

[1] Keşvəri, Gözəllik standartı, s. 78.

[2] Yenə orada, s. 79-80.

həkimlər hətta ürək əməliyyatından da bacardıqca çəkinir, başqa yollarla müalicə edir, xəstəni əməliyyatın nəticələrindən qorumağa çalışırlar. Bu gün plastik əməliyyatlar isə su içmək kimi olub.

Bir gənc qız əlini qaldırıb danışmağa icazə istədi. Doktor Məcidi təbəssümlə dedi:

– Buyurun.

– Mənim iyirmi səkkiz yaşım var, üç uşaq anasıyam. İqtisadiyyat üzrə doktorantura tələbəsiyəm. Nansi Levant mənim sevimli yazıçımdır. O, saytda yaxşı bir yazı yazmışdı, onu söyləmək istəyirəm. O deyirdi: "Bizim mədəniyyətimizdə arıq olmaq gözəllik və sağlamlıq deməkdir, azca köklük isə biabırçılıq sayılır. Jurnallar, telekanallar, qadın məktəbləri, moda və kosmetika sənayesi elə edib ki, iyirmi yaş qadın gözəlliyinin sonu hesab olunur. Bu məsələ anaların qızlarına nifrət etməsinə, qızların analarının zahiri görkəmindən utanmasına gətirib çıxarıb. Onların bir çoxu on yaşdan qabaq anaları ilə birgə dieta saxlayıb arıqlayır. Bəs görmürükmü gözəllik firmalarının mülkünə çevrilmişik, axmaq kimi biznesmenlərin tələsinə düşmüşük?! O qədər çirkinik ki, hər bir ağrıya dözür, daha gəncləşmək, daha arıqlamaq üçün təhqir olunur, pullar xərcləyirik?! Bu gülməli ənənəni qızlarımıza və nəvələrimizə də ötürəcəyik?! Onların plastik cərrahiyyə xərcini verəcəyik ki, mədəniyyətimiz kimi özümüzün də onları çirkin saydığımızı sübut edək?! Nə vaxt aynaya baxıb yetərincə gözəl olduğumuzu anlayacağıq?!"[1]

Gənc qadın başını hörmət əlaməti olaraq bir qədər əyib oturdu.

---

[1] Yenə orada, s. 82-83.

Doktor Məcidi gülümsəyib dedi:

– Afərin sizə və xanım Levanta! Dəqiq fikirlərdir. Təəssüf ki, bərli-bəzəkli, amma azdırıcı və təhlükəli şüarlarla bizi aldadırlar. Bizə təlqin edirlər ki, bütün işlər bir-birinə bənzəyir, heç bir iş təhlükəli deyil; adam öldürməkdən başqa! Əlbəttə, bəziləri bir qədər də irəli gedib deyirlər: "Əgər uşaqlıq dövrünü pis yaşamısansa, adam da öldürə bilərsən!" Yəni bir oğlan uşağı silah götürüb müəllimini və sinif yoldaşlarını öldürsə, qəribə bir şey deyil, o ki qala təhlükəli cərrahiyyə əməliyyatlarına! Çünki bütün işlər eynidir!

Zalın kənarından bir kişi ayağa qalxıb kinayəli tonla danışmağa başladı. Görünür, söhbətin bu hissəsi onun xoşuna gəlməmişdi.

O dedi:

– Doktor Con Tielverəm, həkim və plastik cərrah. Belə olsa, deyiləsi sözlər və sual işarələri çox olar. Yaxşı olar ki, şəffaf danışaq. Hamı bilsin deyə söyləyirəm: İran estetik əməliyyatların sayına görə dünyada ilk yerlərdən birini tutur. Orada hər il gözəllik üçün milyonlarla dollar xərclənir. İldə əlli iki qadın liposaksiya gözəllik əməliyyatı nəticəsində canından olur.[1] Halbuki sizin ölkənizdə bütün qadınlar hicablıdırlar. Bu baxımdan, düşünürəm ki, siz hər şeyi örtünmə mövzusuna bağlaya bilməzsiniz.

Doktor Məcidi mətanətlə cavab verməyə başladı:

– Əgər qeyd etdiyiniz statistika təəssüf üzündən idisə, sizə təşəkkür edirəm. Ancaq bir neçə məsələyə toxunmalıyam: Biri budur ki, mən gözəllik məsələsini tamamilə sual altına salmıram. Bəzi hallarda bu əməliyyatlar zəruridir, amma belə hallar azdır. İkinci

[1] Yenə orada, s. 154.

tərəfdən, biz demək istəmirik ki, bütün plastik əməliyyatların səbəbi düzgün örtünmənin olmamasıdır. Ancaq qəbul edərsiniz ki, qadının bədəni cəmiyyətdə görülsə, gözəllik üçün cərrahiyyə əməliyyatları da hər bir işdən vacib olacaq. Üçüncü məsələ budur ki, İran plastik əməliyyatların sayına görə birinci yerlərdədirsə, mədəni-ideoloji və media hücumlarına görə də dünya üzrə birinci yerlərdədir. Məsələn, son zamanlarda cəmiyyət miqyasında belə bir güclü təbliğat aparıldı ki, eşşək modelli qulaq ilin dəbidir. Təəssüf ki, bəziləri dəbdən geri qalmasınlar deyə qulaqlarını cərrahiyyə əməliyyatı etdirdilər. Mədəni-ideoloji hücumun dərinliyini, sürətliliyini və ictimai rəyə mənfi təsirini bu yerlərdə dərk etmək olar.

Maraqlı olan budur: "Plastik əməliyyata girənlərin otuz faizi əməliyyatdan razı qalmır, sonra həkimindən şikayət edir".[1] Bu narazılıq daha çox ona görədir ki, insanların düşüncəsi korlanıb, öz gözəlliklərini görə bilmirlər.

Əziz iştirakçılar! Cənablar və xanımlar! Münasib örtünməni kənara qoymağın başqa bir nəticəsi, həm də ən acı nəticələrindən biri QİÇS, süzənək, sifilis, hepatit kimi cinsi yaxınlıqla keçən xəstəliklərdir. Bu, səhiyyəni və sağlamlığı risk altına salır və dünya üzrə ən mühüm problemlərdən sayılır. Əlbəttə, bu xəstəliklərin kökünün nə olması barədə araşdırmaya ehtiyac yoxdur. Çox təəssüf ki, hər il cinsi xəstəliklərə bulaşmış dörd milyon insana müvafiq diaqnoz qoyulur.[2] CNN televiziya kanalı rəsmi araşdırmaya istinadla elan etdi ki, ABŞ-da hər on üç dəqiqədə bir nəfər QİÇS-ə yoluxur.[3]

---

[1] Yenə orada.

[2] Şelit, Qızlar ismətə üz tuturlar, s. 36.

[3] Şücai, s. 47.

Bu xəstəliklərin acınacaqlı nəticələrindən biri şikəst halda və ya digər xəstəliklərlə doğulan körpələrdir.

Qadının öz gözəlliklərini cəmiyyətdə nümayiş etdirməsinin acı nəticələrindən biri də abort və hamiləlik əleyhinə dərmanlardan istifadədir. Onun qətldən və abortdan əlavə, tibbi problemləri də olduqca çoxdur. Nə qədər insan bu səhvə görə sonsuz olur. Media təbliğatında isə abort adi bir başağrısı kimi göstərilir. Bu yaxınlarda İranda "Qanun" adlı bir qəzet bir köşəni bu məsələyə ayırmışdı, çox hiyləgərcəsinə oxucuların abort qorxusunu aradan qaldırıb onu adi bir xəstəlik kimi göstərirdi.

Mən abortun nəticələrindən yalnız ikisinə toxunacağam: İngiltərənin "Xərçəng" jurnalı 1981-ci ildə yaydığı bir araşdırmada göstərirdi ki, 33 yaşdan aşağı qadınların döş xərçənginə yoluxmasında abort edənlərin sayı etməyənlərdən 240 faiz çox olmuşdur.[1] 1993-cü ildə Harvard məzunu Skot Samroil abortla xərçəng arasında əlaqəni araşdırmışdır. Mötəbər beynəlxalq jurnallarda dəyərləndirilmiş iyirmi məqalənin xülasəsi olan bu araşdırma sözügedən əlaqəni təsdiqləyir.[2]

Samroilin ən önəmli sözü və aldığı nəticə bu idi ki, bu elmi araşdırmalara diqqət yetirməməyin səbəbi feministlərin xərçəngə qarşı çıxmalarından çox aborta razı olmalarıdır!

Təxminən iyirmiyaşlı gənc bir qız ayağa qalxıb dedi:

– Sizin sözünüzü təsdiq etmək üçün demək istəyirəm ki, statistikaya görə, ingiltərəli qız şagirdlərin 80 faizi çantalarında hamiləlik əleyhinə dərman daşıyırlar.[3] Mən təhsil illərində bunu həmişə gözlərimlə görürdüm.

---

[1] Vay-vay, Avropa, Amerika, c. 1, s. 138.
[2] Yenə orada, s. 139.
[3] Hatəmi, s. 145.

Doktor Məcidi dedi:

– Bəli. Sağ ol, əzizim. Bu problemlərin hər biri üçün saatlarla müzakirəyə ehtiyac var. Bizim vaxtımız isə məhduddur.

Yanlış örtünmənin səhiyyə və sağlamlığa başqa bir ziyanı erkən yaşda həddi-buluğa çatmaqdır. Tərbiyəvi elmlər üzrə mütəxəssislər erkən yaşda həddi-buluğa çatan yeniyetmələrin pozuntuları barədə çox söz söyləmişlər. Bu pozuntular bəzən o qədər çox və təsirlidir ki, yeniyetmənin taleyini məhv edir. Bu barədə yazılmış kitabların yalnız mündəricatını sizə oxusam, bir neçə saat vaxt keçər.

Erkən qocalma da yanlış örtünmənin və cinsi instinktin həddən artıq təhrik olmasının acı nəticələrindəndir. Bunun ardınca da çoxlu fiziki və psixi pozuntular gəlir.

Uyğunsuz geyimin sağlamlığa qarşı təhdidlərindən biri də kosmetik məhsullardır. Bu məhsullar güclü reklamlarla qadınlara, hətta kişilərə satılır və kapitalist sistemin ən gəlirli mənbələrindən biri sayılır. Bu məhsulların saxta növlərindən tutmuş məşhur və orijinal markalara qədər hamısı sağlamlığın düşmənidir. Gənclikdən belə məhsullardan istifadə edən qadınların orta yaşlarda üzlərinin qocalması onların dağıdıcı təsirinə ən yaxşı dəlildir. Araşdırmalara görə, dodaq pomadasından və digər kosmetik məhsullardan istifadə bədənin qurğuşun vasitəsi ilə zəhərlənməsinə səbəb olur. Belə ki, bir qadın ömür boyu bədəninə təxminən 3 kilo qurğuşun daxil edir.[1]

Qurğuşunla zəhərlənmə, dəri xəstəlikləri və xərçəngi kosmetik məhsulların ən geniş yayılmış nəticələrindəndir. İtaliyada məşhur bir gözəllik ustası olan Elena Melik

---

[1] "Fars" xəbər agentliyi, 13.09.15.

deyir: "Gənc qızları üzləri kosmetikalı görəndə təəssüflənirəm".[1]

İranda estetik əməliyyatlar çox olmaqla yanaşı, çox təəssüf ki, kosmetik vasitələrdən istifadə də rekord həddədir. Statistikaya görə, İran dünya üzrə kosmetik məhsullardan istifadədə yeddinci, Orta Şərqdə isə ikinci yerdədir. Kanada İxracat Mərkəzinə bağlı bir beynəlxalq tədqiqat müəssisəsi 2007-ci ilə dair məruzəsində İranda kosmetik məhsulların bazarını 1 milyard dollar, Londonda mötəbər mərkəz olan Baharat Tədqiqat Mərkəzi isə 2 milyard dollar həcmində təxmin etmişdir.[2]

Statistika söyləyir ki, böyük şəhərlərdə yaşayan 14 milyon iranlı qadın 15-45 yaşlar arasında Orta Şərqin kosmetik məhsullarının 30 faizini istehlak edir.[3]

İnsanı daha çox narahat edən məqam budur ki, İran bazarındakı kosmetik məhsulların çoxu saxtadır və qaçaq yolla gətirilir. Qadınlar arasında yayılmış yanlış fikrə görə, hətta ayıq şəkildə çadradan istifadə edən bəzi xanımlar da buna fikir vermir, ümumi yerlərdə kosmetikadan istifadə edirlər. Bunun səbəbi məsələnin adi göstərilməsidir. Əlbəttə, kosmetik məhsullardan istifadənin genişlənməsində və adiləşməsində peyk kanallarının da böyük rolu vardır.

Yaşlı bir qadın əlini qaldırdı, qısa ağ saçını alnından kənara çəkəndən sonra əlindəki qəzetin bir səhifəsini göstərib dedi:

– Demək istəyirəm ki, bəlkə, bu reklam sizin ölkənizdə olduqca çox olub; bilirsiniz ki, hər yerdə ciddi şəkildə gedir. Çünki bunun böyük kapital sahiblərinə çox maddi

---

[1] Keşvəri, Gözəllik standartı, s. 133.
[2] Keşvəri, Nə üçün hicab?, s. 160; Əlif xəbər agentliyi, kod: 81890.
[3] Keşvəri, Gözəllik standartı, s. 137.

xeyri dəyir. Onlar daha çox qazanmaqdan ötrü qadınlar arasında yalançı rəqabət yaradırlar. Həqiqətən, qadının xoşbəxtliyinin bəzənməyə və özünü göstərməyə bağlanması necə böyük zülmdür! Baxın, bu, ötən ayın qəzetidir. Maks Faktor bir dodaq pomadası barədə "qalıcı rəng" deyə reklam dərc edib. Reklamın mətnini sizə oxuyuram: "Kişiləri dəli etməkdən ötrü Sired pomadasından istifadə edin".[1]

Reklamın şəkli alın-alına dayanmış iki kişini göstərirdi. Onlar burunlarını qəzəblə bir-birinə sıxırdılar, tünd qırmızı rəngli dodaqları olan qız da gözaltı onlara baxır və bu alovlanmadan həzz alır!

Doktor Məcidi mikrofonu tənzimləyib dedi:

– Çox sağ olun ki, bizim mövzumuza uyğun bir misal göstərdiniz. Bəli, təəssüf ki, bu misallar çoxdur və hamımız az-çox rastlaşmışıq.

Bu mövzuda son məsələ xanımların həmişəki şikayətlərindən biridir: kişilərin intim münasibətdə soyuqluğu. Bu da cəmiyyətdə qadınların bəzənməsi və örtünməməsi ilə çox bağlıdır. Çünki xanımlar ümumi yerlərdə hicablı olduqda kişi ona-buna baxmaq, öz cinsi ehtiyacını doyurmaq yerinə öz fikir və fantaziyasını həyat yoldaşına yönəldir. Bu isə cütlüklər arasında münasibətlərin yaxşılaşmasına olduqca böyük təsir edir.

Ümidvaram yorulmamısınız. Çox gözəl... bir qədər istirahət edib iyirmi dəqiqədən sonra söhbətimizi davam etdirərik.

Bir dəstə adam doktor Məcidinin stolunun ətrafına toplaşıb suallarını verməyə başladı.

---

[1] Jozef Hensin, İvlin Reyd, Mari Alis Vaterz, Moda və qadınlardan istifadə. Tərcümə edən: Əfşəng Maqsudi, s. 135.

Sara istirahət zalında bir tərəfdə divara söykənmişdi, yerə baxa-baxa fikirləşirdi. Maşa iki fincan qəhvə ilə ona yaxınlaşdı, birini Saraya uzadıb dedi:

– Sara... sənə nə olub?

Sara qəhvəni alıb dedi:

– Evə necə gedim?! Hətta geyimimə qarşı çıxan, mənə ağzına gələni deyən atam da qardaşımın mənimlə necə davranacağından narahatdır. Deyirdi ki, mən səni müdafiə edə bilməyəcəyəm, özün bir şey fikirləş. Bilmirəm ki, bir də İslam mərkəzinə gələ biləcəyəm, yoxsa yox... Hətta, bəlkə... qardaşım sənə də problem yaratdı.

– Məni fikirləşmə... Sara, həmişəki kimi güclü ol... Əminəm ki, sən hamısının öhdəsindən gələrsən. Mən gələcəyə ümidvaram... Doğrudan, Fərhad hələ gəlməyib? Məgər onunla...

– Bir mesaj yazdım, cavab gəlmədi. Bir neçə dəfə zəng vurdum, telefonu sönmüşdü.

– Doğrudan?! – Maşa dedi. Bəlkə, nəsə olub!

– Hövsələm yoxdur. Belə yalanlardan və ötəri hisslərdən yorulmuşam.

– Amma mən hiss etdim ki, səni, həqiqətən, sevir. Prestijli oğlandı, yalan deyənə oxşamırdı...

Sara ah çəkib dedi:

– Əgər yalan olmasaydı, heç olmasa, bu gün gələrdi...

Qəhvədən bir qurtum içib sözünü davam etdirmək istəyəndə gözü bir qədər aralıya dikilib qaldı. Maşa Saranın haraya baxdığını bilmək üçün baxışını izlədi. Fərhad bir neçə addım aralıda dayanmışdı. Bu zaman salam əvəzi başını əydi, bir addım yaxınlaşıb sevinclə, bir az da özünü itirərək dedi:

– Necəsiniz? Sizi görməyimə çox şadam. Qorxurdum ki, birdən bu seminara gəlməzsiniz və mən... Bağışlayın,

telefonumu bir yerdə unutmuşam, yoxsa mütləq sizə yazardım.

– Salam, – Sara dedi. – Necəsiniz? Mən də çox narahat oldum. Axı mesajıma cavab vermədiniz, telefonunuz da sönmüşdü...

Maşa qəhvə fincanını bir əlindən o birinə keçirdi, gözlərini bərəldib Fərhadın görməyəcəyi tərzdə işarə barmağı ilə Saranı hədələdi.

Fərhad dedi:

– Onda seminardan sonra əvvəlki yerdə görüşəkmi?

– Əlbəttə, – Sara başını əyib təbəssümlə dedi.

Fərhad təşəkkür edib getdi. Maşa gözlərini qıyıb yaxınlaşdı:

– Yaramaz qız! Mənim səninlə zarafatım var?!

Sara gülüb özünə bir qəhvə götürdü və dedi:

– Yox... bax, demək istəyirdim ki... səhv edirsən...

Maşa Saranın qolundan tutub zala doğru dartdı və dedi:

– Bizim işimiz var... Gəl! Sən qardaşına və atana görə narahat idin axı... Ax-ax!.. Mən axmaq! Necə də ürəyim yandı səninçün!

Sara hələ də gülürdü, hər dəfə nəsə demək istəyəndə Maşa qoymurdu.

– Kaş o quldur Mişel səni evdən bayıra ata, mənə möhtac olasan, – Maşa dedi. – Xanım bir həftədir mənim üçün... heykələ dönüb. İndi isə gör necə əhvalı düzəldi... üzünün bütün hüceyrələri güldü...

Maşa dayanmaq bilmirdi. Nəhayət, oturacaqlara çatıb oturdular. Saraya doğru əyilib dedi:

– Gör başına nə oyun açıram, aşiq xanım! Çıxışacağıq, gözlə!

Güldüyü bilinməsin deyə Sara dodaqlarını büzdü. Yavaş-yavaş zala sükut çökdü və doktor Məcidi

mikrofonun arxasında oturdu. O, mikrofonu bir qədər özünə yaxınlaşdıran kimi Maşa əlini qaldırıb ayağa qalxdı. Sara təəccüblə gözlərini ona dikdi, həyəcandan nəfəsi dayandı.

Doktor Məcidi dedi:

– Bəli, əzizim, buyurun.

Maşa dedi:

– Ruh sağlamlığı bədən sağlamlığından önəmlidir. Yanlış örtünmədə isə həm kişilərin, həm qadınların ruhu ziyan görür. Bu barədə danışmadınız. Mümkünsə bir qədər izah edərdiniz.

Sara əlini sinəsinə qoyub rahat nəfəs aldı. Maşa yerində oturub Saraya baxdı, hiyləgər gülüşlə:

– İnfarkt oldun ha! Özün kimi bir dəli ilə rastlaşdığını bildiyinə sevindim, – deyə doktor Məcidiyə doğru baxdı, dodaqlarının gülüşünü əli ilə örtdü. – Mənimlə kəllə-kəlləyə gəlmə!

– Ay səni! – Sara dodaqaltı dedi.

Xanım Məcidi söhbətə başladı:

– Sualına görə sağ ol, əzizim. Təsadüfən, indi danışmaq istədiyim altıncı dəlil ruh sağlamlığıdır. Bir insanın çoxlu fiziki problemləri ola, ancaq həyatdan həzz ala bilər. Ancaq ruhi-psixi problemi olan birinin həyatdan həzz alması qeyri-mümkündür. Psixoloji rahatlığın sıradan çıxmasında və depressiyanın yaranmasında rolu olan amillərdən biri yanlış örtünmə və hicabsızlıqdır.

İnsanın ruhu olduqca təhrikolunandır. Kişi daim qadınların gözəlliyini gözləri önündə görəndə və həyəcanı nakam qalanda bu daxili kədər onu depressiyaya aparır. Bunun müalicəsi isə bir çox fiziki xəstəliklərdən də çətindir.

Cəmiyyətdə yanlış örtünmə düzgün örtünmənin yerini tutanda ehtiras da eşqin yerini tutur. Veyil kişilər emosiya və gələcəyə ümid dolu qız və qadınlara yaxınlaşır, yalançı vədlərlə onlardan sui-istifadə edir, axırda öz yalançı eşqlərini tapdayırlar. Bu hadisənin yeganə nəticəsi depressiya və təşvişdir. Əlbəttə, bəzən intihara qədər də gedir. Həyat yoldaşlarının vəfasızlığından və ya xəyanətindən qorxduğuna görə ruhi və psixi xəstəliklərə yoluxan kişi və qadınlar olduqca çoxdur. Həyata və eşqə vəfalılıq insanların ən önəmli ehtiyaclarından biridir. Azad cinsi münasibətlər və yanlış geyimlər isə bu mühüm ehtiyaca ciddi zərər toxundurur, depressiyanın statistikasını olduqca yüksəldir.

Bu yaxınlarda həyat yoldaşı ilə problemi olan və boşanmaq istəyən gənc bir xanım mənimlə danışdı. Yeddiyaşlı uşağı olan bu xanımdan boşanma səbəbini soruşanda dedi: "Mənim həyat yoldaşım əri və uşağı olan bir xanımla əlaqədədir. Buna görə də mənim üçün hər şey bitmişdir. O xanımın ərinin telefon nömrəsini tapıb onunla danışmışam. Amma onun halı da mənimkindən yaxşı deyil!"

Depressiyaya düşüb sakitləşdirici dərman içən bu gənc qadının üzündə qəm-kədərdən və məyusluqdan başqa şey görünmürdü. Bu hadisələr cəmiyyətin xeyrinədir, yoxsa zərərinə?! Ən çox zərər kimə dəyir? Uşaqların başına nə gəlir? Belə məsələlərdə iki əsas amil bunlardır: yanlış geyim tərzi və media. Məhdudiyyət və qadağalar instinkti zədələyib kompleks yaratdığı kimi, təhriklər qarşısında sərbəst və təslim olmaq da onu xəstələndirib təbii halından çıxarır. Hər adam da hər istədiyini edə bilmədiyinə görə

cinsi instinkt daha çox zədələnir və psixoloji kompleks yaranır.[1]

Qərbdə qadına qarşı şiddətin yaranmasının, günbəgün artmasının və ağır qanunların da fayda yetirməməsinin səbəblərindən biri özünü aqressiv formada göstərən həmin psixoloji komplekslərdir. Uzun həsrətlər, psixoloji xəstəliklər, intihar, acizlik hissi, narkotik və psixotrop maddələrə sığınmaq cəmiyyətdə cinsi siqnalın yayılmasının nəticələrindəndir.

Qərbdə mənəvi-psixoloji durum həyəcan vəziyyətindədir. ABŞ Viskonsin Dövlət Universitetinin Psixologiya kafedrasının müdiri professor Simor Holk deyir: "Təkcə bu universitetdə hər il 800-dən çox tələbə psixoloji klinikaya müraciət edir. Yalnız mən və həmkarlarım yox, Amerika universitetlərinin əksər psixoloqları yeni nəslin psixoloji durumuna görə qorxu içindəyik".[2] Əlbəttə, bu mənəvi problemlərdə çoxlu amillərin rolu var. Lakin, şübhəsiz, özbaşınalığın rolu həlledicidir və ona əhəmiyyətsiz yanaşmaq olmaz.

Qadının gözəlliklərini nümayiş etdirmə səbəblərindən biri özünəinamın zəifliyi və daxili bacarıqları görməməkdir. Mənim dostlarımdan və Şəhid Behişti Universitetinin Psixologiya kafedrasının Elmi Şurasının üzvü olan doktor Sima Firdovs deyir: "Ən yeni tədqiqatlar göstərir ki, özlərini yad kişilərə göstərmək istəyən qadınların öz daxili bacarıqlarına yetərincə inamları yoxdur, buna görə zahiri gözəlliklərindən istifadə edirlər... Hicab və iffət məsələsi insanların psixoloji sağlamlığında

---

[1] Mütəhhəri, Hicab məsələsi, s. 109.
[2] İslamlu, Gülün hərimi, s. 122.

olduqca təsirlidir; təşvişi və stresi azaldır, insanların özünəinamını yüksəldir”.[1]

Vendi Şelit də məhz bu məsələ üzərində dayanaraq deyir:

– Döş əməliyyatı üçün ümumi alətlərin istehsalçıları iddia edirlər ki, estetik əməliyyat özünəinamı yüksəldir. Lakin dəlillər tamamilə bunun əksini göstərir. İntihar halı döşünü dolduran qadınlarda digərlərindən 21 faiz çoxdur".[2]

Nəvval əl-Sədavi "Ərəb qadının çılpaq siması" kitabında bu məsələni başqa şəkildə bəyan edir: "Gözəllik bədən üzvlərini nümayiş etdirməklə, daxili təşvişi və özünə inamsızlığı gizlədən bəzənmə ilə əldə olunmur. Gözəllik hər şeydən çox düşüncə gücünə, fiziki sağlamlığa və mənəvi kamilliyə bağlıdır. Nə qədər qızlar var ki, gözəllik və qadınlıq əlamətlərinə nail olmaq həvəsi ilə müxtəlif təşvişlərə və psixoloji pozuntulara düçar olublar. Bir qız düşünür ki, həyatı və gələcəyi burnunun ölçüsünə və ya kirpiklərinin əyilməsinə bağlıdır. Kirpiklərinin 1 mm qısalığı da onun həyatında ciddi bir böhrana çevrilə bilər".[3]

Zalın sol tərəfindən bir qadın əlini qaldırıb ayağa qalxdı. Başında ağ-mavi başörtüyü vardı, əyninə uzun və qollu paltar geymişdi. O dedi:

– Mən Fatimə Hersinəm, bir ildir müsəlman olmuşam. Məncə, hicab yalnız kişilərdə kompleksin qarşısını almır, qadınlar arasında kompleks və paxıllığın da qarşısını alır. Nə üçün bir qadın gözəl bədəni olmadığına görə özünü əskik saymalıdır?!

---

[1] Loğmani, s. 31.

[2] Şelit, Qızlar ismətə üz tuturlar, s. 177.

[3] Nəvval əl-Sədavi, Ərəb qadının üryan üzü, s. 167.

Xanım Məcidi dedi:

– Sizin fikriniz tamamilə doğrudur. Başqa bir məsələ budur ki, qadında kişiyə nisbətən daha güclü duyğu və emosiyalar olduğuna görə mənəvi baxımdan da kişiyə nisbətən daha çox təsirlənir. Bu təsirlənmə bir mənbədən, yəni ərindən olsa, qadının psixoloji bütövlüyünün qorunmasına səbəb olar. Ancaq qadın cəmiyyətə münasib geyim olmadan çıxsa, asanlıqla hər tərəfdən duyğusal təsir altına düşsə, onun psixoloji bütövlüyü də sıradan çıxar, təşvişli və gərgin olar.[1] Təşviş, gərginlik, puçluq hissi düzgün hicabı olmayan xanımlardan çox eşitdiyim sözlərdir.

Başqa bir məsələ budur ki, cəmiyyətdə özünü göstərmək bir xanımın priorotet məsələsi olduqda, şübhəsiz, uğurlu ailə və övlad sahibi olmaqdan, mənəviyyat, elm, müxtəlif peşə və bacarıqlar kimi insani üstünlüklərdən geri qalır və çox keçmədən puçluq hissini yaşayır. Ailənin psixoloji rahatlığını çox pozan bugünkü problemlərdən biri xanımların, xüsusən də kişilərin yersiz aqressivləşməsidir. Hətta çox vaxt qadınla kişinin bir-biri ilə ciddi problemi olmur, amma belə zərərli davranışlar göstərirlər. Bu məsələnin ən mühüm amillərindən biri yanlış geyim və nəticədə aqressivliyi artıran müqayisələrdir. Halbuki kişinin özü xanımı ilə bu davranışının səbəbini bilmir!

Zalın sonunda oturacaqların yanında dayanmış təxminən qırxyaşlı bir qadın əlini qaldırıb bir addım irəli getdi və dedi:

– Mən müəlliməm. Təhsil sağlam psixologiyaya çox ehtiyaclı məsələlərdəndir. Bir yerdə oxudum ki, Almaniya

---

[1] Rəcəbi, s. 101-102.

Pedaqoji Universitetinin rektoru deyib: "Məktəbdə, xüsusən də ibtidai siniflərdə qız və oğlan şagirdlərin ayrı olması qızların öyrənməsinə çox müsbət təsir edə bilər. Almaniya Plank Tədqiqat Mərkəzinin[1] araşdırmasında məlum olub ki, oğlanlarla birlikdə təhsil alan qızların öyrənməyə, xüsusən də riyaziyyat fənninə həvəsləri qənaətbəxş deyil".[2]

Bu məsələni müəllimlər çox yaxşı dərk edirlər. Şagird və tələbələrin cinsi yetkinliyə çatdığı daha yuxarı təhsil mərhələlərində bu problem daha da güclənir və həssaslaşır. Mötəbər bir universitet barədə eşitmişəm ki, müəllimlərinin 26 faizi bir tələbə ilə cinsi münasibəti təcrübə edib. Böyük ehtimala görə, bu rəqəm olduqca böyükdür. Çünki sorğuda iştirak edənlərin bəzisi bu davranışını gizlətmişdir. Başqa bir araşdırmada yazılmışdı ki, qız tələbələrin 50 faizi öz müəllimləri tərəfindən cinsi əziyyətə məruz qalmışlar.[3]

Yalnız elm və tədqiqatla məşğul olmalı mötəbər bir universitetin vəziyyəti belədirsə, vay digər yerlərin halına! Yaponiyada, Almaniyada, Birləşmiş Ştatlarda və digər yerlərdə elm mərkəzlərində cinsiyyət ayrılığı barədə çoxlu araşdırmalar aparılmış və maraqlı nəticələr əldə edilmişdir. Elmin böyük əhəmiyyətini nəzərə alsaq, təhsil sağlamlığı hicab və örtünmə üçün müstəqil bir səbəb hesab oluna bilər.

---

[1] Maks Plank Birliyi (MPG) 26 fevral 1948-ci ildə təsis olunmuşdur, təbiət elmləri, xüsusən də fizika, biologiya, habelə humanitar və ictimai elmlər sahələrində fundamental araşdırmalar aparır (Vikipediya).

[2] Xani, s. 65.

[3] Hatəmi, s. 145.

Müəllimə hörmət və təşəkkür əlaməti olaraq bir qədər əyildi və bir addım geri çəkildi. Xanım Məcidi və digər iştirakçılar təsdiq əlaməti olaraq onu alqışladılar. Alqış zamanı birdən Maşa yerindən qalxıb səhnəyə doğru hərəkət etdi və gedə-gedə doktor Məcididən danışmaq üçün icazə istədi. Saranın əli ağzında qalmışdı, gözlərini Maşadan çəkmirdi. Onun nə demək istədiyini təəccüblə gözləyirdi. Alqış səsləri yavaş-yavaş kəsildi. Doktor Məcidi də bir qədər təəccüb və təbəssümlə Maşaya razılığını bildirdi. Hamı nə baş verdiyini maraqla gözləyirdi.

Maşa xanım Məcidinin yanında dayanıb dedi:

– Xanımlar və cənablar! Mən həyatımda mühüm bir məsələdən danışmaq istəyirəm. O qədər mühüm və böyükdür ki, həyəcanımı içimdə saxlaya bilmirəm, mütləq sizin kimi bir auditoriya ilə bölüşmək istəyirəm. Bir qadın hicabı seçmək üçün azad deyilmi? Onun bu ixtiyarı var, yoxsa yox? Dostum Saranın vasitəsilə bir qız tanıyıram. Yalnız Qərbdə yaşamağa puç ümidlə, utopik bir cəmiyyət təsəvvürü ilə bizim ölkəmizə gəlib. O, hər hansı səbəbdən, bəlkə də, hicabını açmaq istəmirdi, amma onu çirkli bir oyuna gətirib zahirən könüllü, amma tamamilə məcburi şəkildə canlı bir televiziya proqramında başörtüyünü açdırdılar və bilirəm ki, bu günə qədər nə miqrasiya problemini həll ediblər, nə sabit işi var, nə də münasib bir yaşayış yeri. Getdikcə də bu oyunda daha çox batır. Məsih Əlinejad adlı başqa bir zavallını da tanıyıram. Onun Amerikada qalma şərti budur ki, insan hüquqlarını müdafiə adı altında ölkəsinin hüquq və maraqlarını təhlükə altına salsın, ölkəsinin qadınlarını hicabdan məhrum etməkdən tutmuş, xalqını dərmandan məhrum etməyə qədər çalışsın. Bu yaxınlarda da beynəlxalq idman

federasiyalarına müraciət edib ki, iranlı idmançıları beynəlxalq yarışlardan məhrum edin.

Maşa bir qədər pauza verdi, Saraya baxıb sözünə davam etdi:

– Bu həftələrdə dostum Sara ilə yaşadığımız hadisələrdən danışım. Bizim düşüncələrimiz təxminən bir-birinə yaxın idi. Saranın İslamla əsas problemi hicab məsələsi idi, mənimsə başqa problemlərim də vardı. Saranın İslam barədə araşdırma apardığını bilir və əvvəlki düşüncələrinin zəifləyəcəyindən qorxurdum. Bunun qarşısını almaq üçün Saraya dedim ki, doktor Tehranidən örtünmə barədə bir neçə məntiqi dəlil istəsin. Elə bilirdim ki, heç bir dəlil olmayacaq, Sara da çıxdığı yoldan geri dönəcək. Bir gün ona bir söz dedim, beynini çox məşğul etdi. Dedim ki, doktor Tehrani və ya hər hansı bir şəxs örtünmə üçün beş qaneedici dəlil söyləsə, mən media kameraları önündə və universitetdə özümü yer kürəsinin azsaylı hicablı məsihilərindən biri kimi təqdim edəcəyəm. Bəli... indi bura gəlmişəm. Kameralar yoxdur, amma sizin hər biriniz bir mediasınız. Bu gün sizin qarşınızda bildirirəm ki, mən Maşa Ferquson bir hicablıyam – hicablı müsəlman!

Doktor Məcidi, xanım Haşimi, Sara və seminarda iştirak edən müsəlmanlar göz yaşları içində Maşaya baxırdılar. Sara ilə doktor Məcidi heyrət içindəydilər. Maşa əl çantasından yaşıl başörtüyü çıxarıb başına örtdü. Hamı diqqətlə onun rəftarına baxırdı. O, başörtüyünü səliqəyə saldı, aşağısını düyünlədi, üstünə əlini çəkib düzəltdi. Sonra isə üzündə sevinc təbəssümü ilə dedi:

– Əziz dostum Saraya təşəkkür etmək istəyirəm. Onunla dostluq mənim bu mərkəzlə və xanım doktor Məcidi ilə tanış olmama səbəb oldu. Əziz doktor! Həyata

baxışıma açdığınız bu gözəl pəncərəyə görə sizə təşəkkür edirəm.

Maşa bu sözləri deyib hamı üçün hər iki əlini yellədi, hörmət əlaməti olaraq başını bir qədər əyib öz yerinə doğru hərəkət etdi. Doktor Məcidi qarşısını almağa çalışdığı qəhər dolu səslə dedi:

– Bu seminar üçün bundan gözəl bir son düşünə bilməzdim. Bütün dostları Allaha əmanət edirəm.

Maşanın hərəkəti gözlənilməz və düşündürücü idi. İştirakçılar yavaş-yavaş zalı tərk etdilər. Gözləri islanmış doktor Məcidi səhnədən enib Maşa ilə Saranın oturacağının qarşısında dayandı. Hər ikisi şok olmuşdu. Doktor Məcidi Maşanı qucaqlamaq üçün bir qədər irəli əyiləndə birdən Maşanın qəhəri açıldı və doktor Məcidini qucaqlayıb bərkdən ağlamağa başladı. Doktor Məcidi onu sakitləşdirməyə çalışdı. Saranın da vəziyyəti yaxşı deyildi, tez-tez gözlərini silə-silə Maşanın çiynini və başını əzizləyir, öpürdü. Bu zaman zalda qalmış adamlar arasında Fərhadı gördü. Bir qədər aralıda, stulların yanında dayanmışdı, həvəslə və narahat halda ona baxırdı. Fərhadla görüş təyin etdiyini xatırladı, gülümsəyib ona yaxınlaşdı və dedi:

– Bağışlayın, hər şey gözlənilməz oldu... mən... yadımdan çıxdı ki...

– Eybi yoxdur, – Fərhad dedi. – Mənim üçün də çox gözəl və maraqlı oldu. Siz səmimi dostlarsınız. Demək istədiyim sözün bundan artıq gecikməsini istəmirəm, yoxsa sizə mane olmazdım.

– Gedək kafeyə. Maşanın bu tezliyə doktor Məcididən ayrılacağını düşünmürəm.

Zaman o qədər keçdi ki, Fərhadla Sara kafedə oturub kekslə şokoladlı süd sifariş verdilər. Lakin birdən kafenin

qapısı sürətlə açıldı və Maşa həyəcanla içəri girdi. Burnu və gözləri qızarmış, əlindəki kağız dəsmal parçaları barmaqlarının arasından bayıra çıxmışdı. Saranın yanına qaçıb onun qulağına bir xəbəri söyləməyə çalışdı, amma səsini Fərhad da eşitdi. O, qırıq-qırıq səslə dedi:

– Sara... qardaşın... mərkəzə gəlib.

Fərhad narahat halda Saraya baxıb dedi:

– Nə olub?

– Gərək bağışlayasınız... – Sara təşviş içində yerindən qalxıb Fərhada dedi. – Qardaşım... sizin üçün də başağrısı yaranmasını istəmirəm. Mən gedirəm, sonra görüşərik. Allah amanında!

***

Sara cəld evə gedib birbaş otağına girdi və qapını bağladı. Qardaşının mərkəzdəki qışqırıqları hələ də beynində dolaşırdı. Başörtüyünü çantasına qoydu, nə vaxtdan kitablarının yanında qaldığını bilmədiyi suyu birnəfəsə başına çəkdi. Ötən saatda baş verən hadisələri, qardaşının mərkəzdəki çığırtılarını yadına salanda nəfəsi dayanırdı. Otağının pəncərəsini açdı, doktor Tehraninin hədiyyə verdiyi balaca Quranı jurnal masasının üzərindən götürüb üzünə yapışdırdı. Ürəyi bərk döyünür, sinəsi sancırdı. Quranı sinəsinə sıxdı, gözlərini səmaya dikib dedi: "Xudaya... bilmirəm necə olacaq. Mənə kömək elə!" Sonra gözlərindən yaş axa-axa onu açdı. Evin önündə dayanan bir avtomobilin səsi diqqətini cəlb elədi. Pəncərədən baxdı. Heç kim yox idi. Həyəcanlı idi. Açdığı səhifənin yazılarına baxdı: "Səbir et. Həqiqətən, Allah yaxşı əməl sahiblərinin mükafatını zay etməz!"

Dodaqları əsdi. Başını pəncərəyə qoydu, ağlaya-ağlaya nəfəsini buraxdı. Gözlərindən yaş gəlir, Quranı öpürdü.

Hiss etdi ki, sinəsindən ağır bir yük götürüldü və yeni bir hava uddu.

Qapının səsini eşidəndə Quranı yorğanın altında gizlətdi. Evin qapısı möhkəm çırpıldı, az sonra isə qardaşının qışqırtısı hər tərəfə yayıldı. Birdən otağın qapısı açıldı. Sanki Saranı elektrik cərəyanı vurdu, birdən yerindən atılıb nəfəsini saxladı. Mişel gərilmiş sinəsi və güclü qolları ilə Saraya doğru iri bir addım atdı və düz qarşısında dayandı. Sara nəfəsini buraxdı, əzələləri boşaldı. Çox qəribə idi; özü də bilmədi ki, o qədər təşviş və ürək döyüntüsü hara getdi. Elə bildi ki, beyninə qan çatmır və indicə yerə yıxılacaq. Amma yox, yenə sakit nəfəs aldı, mehriban şəkildə və təəccüblə Mişelə dedi:

– Salam, Mişel. Nə olub? Niyə bu qədər narahat və əsəbisən?

Mişel əlini qaldırıb bir az saxladı, sonra hərəkətsiz halda dayanmış Saranın üzünə doğru endirdi. Sara tarazlığını güclə saxlayıb üzünü tutdu, bir addım geri çəkildi. Ağrıdan səsi titrəyirdi. Etirazla, amma bərkdən dedi:

– Sənin mənə əl qaldırmağa haqqın yoxdur!

– Sənin də haqqın yoxdur o alçaq terrorçuların mərkəzinə gedəsən! – Mişel dedi və qəzəblə otaqdan çıxıb bayırdan qışqırdı: – Heç bir zibillə də başını bağlamayacaqsan!

***

Həftənin günləri bir-bir ötürdü. Sara özünü otağına həbs etmişdi. Hətta Maşa ona İslam dinini qəbul etdiyinə görə İmam Hüseynin (ə) milad bayramında İslam mərkəzinin məscidində keçirilən tədbirinə dəvət mesajı göndərəndə də, həmin tədbirdə iştirak etmək istəsə və onu

ömrünün ən gözəl və maraqlı hadisələrindən bilsə də, Maşanın mesajına cavab verməmişdi.

O, bu müddətdə otağında qalıb vaxtının çoxunu mütaliəyə sərf etdi. Xüsusən də Səhifeyi-Səccadiyyəni və Quranı oxumağı çox sevirdi. İradəsi güclü olduğuna görə günlər çətin olsa da, tez və mənəvi həzlə keçirdi.

Şənbə günü axşamüstü Əfsanənin nömrəsi növbəti dəfə Saranın mobil telefonunda göründü. Bu müddətdə Saranın heç kimə, hətta Maşaya da hövsələsi yox idi, heç bir zəng və mesaja cavab verməmişdi. Bu dəfə isə telefonu açıb yorğun səs eşitdi:

– Mən, həqiqətən, səndən belə rəftar gözləmirdim, – Əfsanə şikayətlənməyə başladı.

– Bağışla, həqiqətən, yadımdan çıxmışdı ki... Bilirsən? Şəraitim yaxşı deyildi, səninlə əlaqə saxlayıb görüşə bilmədim.

– Bəs niyə zəngimə və mesajıma cavab vermirsən? – Əfsanə kövrək səslə dedi. – Deyirlər ki, dostun Maşaya da istiqamət verib sonra özbaşına buraxmısan. Sənin üsulun belədir, eləmi?

Saranın təəccübü daha da çoxaldı, bildi ki, adət üzrə gizli və aşkar hiyləgərliklər baş verir. Dedi:

– Maşaya istiqamət? Sənə səhv deyiblər. Mən Maşanın rəisi deyiləm ki, ona istiqamət verəm.

– Önəmli deyil. Bu günlərdə başıma gələnlər və eşitdiklərim məni dəli edir. Gərək görüşüb danışaq.

– Telefonda deyə bilməzsən?

Əfsanə yalvarmağa başladı:

– Səninlə İslam mərkəzinə getmək istəyirəm. Mən doktor Məcidini görməliyəm.

– Doktor Məcidini?! – Sara təəccübləndi. – Özün ora gedə bilərsən...

– Sən Allah, mənə kömək elə. Eşitmişəm ki, sən ora çox gedib-gəlirsən. Mən onunla danışmalıyam. Vəziyyətim əsla yaxşı deyil.

Əfsanənin yalvarışlı səs tonu Saranı narahat etdi, ona yazığı gəldi. Özü də doktor Məcidinin seminarını qaçırmaq istəmirdi. Bir qədər fikirləşib Əfsanəyə dedi:

– Sabah səhər on dördüncü prospektdə İslam mərkəzinin önündə görüşəkmi?

– Yəni indi heç cür alınmır?

– Təəssüf ki, yox.

– Okey, – Əfsanə ah çəkib dedi. – Sabah səhər görüşərik.

Ertəsi gün səhər çağı Sara səhər yeməyi bəhanəsi ilə və evin vəziyyətini yoxlamaqdan ötrü mətbəxə keçdi. Anası həmişəki kimi o zaman sevdiyi serialı izləyirdi. Sara özünə balaca bir sendviç hazırlayıb anasına dedi:

– Təzə nə xəbər var, ana?

Bütün diqqəti televizorda olan anası dedi:

– Xəbər yoxdur! Mişelin yenə məşqi var, klubdadır. Atan da gəzişməyə çıxıb.

Sara otağına keçib tez Maşa ilə Əfsanəyə belə bir mesaj göndərdi: “Mən on dördüncü prospektə doğru yola düşdüm". Sonra ehtiyatla, anasının diqqətini televizordan ayırmadan evdən çıxdı.

Maşa görüş yerinə ondan tez gəlmişdi, nigaran halda və sevincək ətrafa baxırdı. Başında yaylıq, əynində uzun köynək var. Saranı görməyə səbirsizlənirdi. Onlar görüşəndə bir-birini qucaqladılar və hər ikisi kövrəlib ağladı.

Bir neçə dəqiqədən sonra Sara soruşdu:

– Əfsanə niyə gəlməyib? Mesajıma da cavab verməyib.

Yenə mobil telefonuna baxdı, birdən yadına nəsə düşdü, "Müəssisə əməkdaşları" qrupunu açanda isə qaşları düyünləndi, bərəlmiş gözlərlə oxudu: "Amerikaya sığınmış mühacir Əfsanə qaldığı binanın onuncu mərtəbəsindən yıxılıb. İntihar ehtimalı böyükdür".

Sara özünü itirdi, yerində donub qaldı. Maşa dedi: "Xudaya! İntihar?!"

Sara Əfsanənin xahişlərini və doktor Məcidini görmək üçün israrını xatırladı. Gözlərini yerə dikib dedi: "Bəlkə də..."

# Onuncu fəsil

## Böyük təxribat

Sara ilə Maşa mərkəzin toplantı zalında yan-yana oturmuşdular. Sara hələ də arzulayırdı ki, Əfsanə ona zəng vurub xəbərin yalan olduğunu söyləsin. Maşaya baxdı, yadına düşdü ki, fikirli olduğundan Maşanın hicabı barədə bir söz deməyib. Başını ona doğru əyib dedi:

– Nə qəşəng olmusan, canıyanmış! Bu qəşəng yaylığı haradan almısan?

Maşa gülümsəyib yavaşca dedi:

– Xanım doktor hədiyyə verib.

Qiraətçinin səsi zalı bürüdü: "Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır... Bizim uğrumuzda (ixlasla) cihad edənləri və çalışanları, şübhəsiz, öz

yollarımıza yönəldəcəyik. Allah yaxşı əməllər edənlərlədir!"[1]

Quran oxunuşundan və xanım Həkiminin seminar barədə qısa məlumatından sonra doktor Məcidi səhnəyə çıxdı. O, əvvəlcə keçən doqquz seminarın xülasəsini söyləyib dedi:

– Keçən seminarlarda qadına iki ümumi baxışdan danışdıq. Bu baxışların bir-biri ilə köklü fərqləri var. Mühüm fərqlərdən biri qadının, hətta insanın örtünmə məsələsidir. Mənfi baxış örtünməni zərərli bilir, müsbət baxış isə münasib örtünməni nəinki faydalı, hətta lazım və insanlığın bir hissəsi hesab edir. Mənfi baxışda qadına qarşı təhqir və qınaqlar müsbət baxışın örtünmə barədə haqlı olduğunu anlamağa yetər. Örtünmənin zəruriliyi barədə bütün dünya insanları üçün məqbul olan dəlillər söylədik: bəşəriyyət tarixi, ictimai təhlükəsizliyi, ailənin təhlükəsizliyi və güclənməsi, fitrət, fiziki sağlamlıq, psixi sağlamlıq.

İndi isə ən önəmli dəlillərdən biri və insanlığımızla sıx bağlı olan yeddinci dəlildən danışacağıq. Bu dəlil bəşəriyyətin müştərək düşməninə qarşı mübarizədir. Əvvəlcə diqqətinizi heyvan və bitki aləmindən bir məqama cəlb etmək istəyirəm. Hamınız sənədli filmlərdə görmüsünüz ki, hər bir heyvan hücum qarşısında bir formada özünü müdafiə edir; biri dimdiklə, biri pəncə və dişlə, biri sancmaqla, bəziləri hətta pis qoxu yaymaqla. Bu məsələ bitki dünyasında da zəif şəkildə görünür. Bəzən iki bitki yan-yana bitəndə və biri o birinin üstünə kölgə salanda kölgə altında qalmış bitki özünü işığa doğru çəkməyə çalışır. Bu rəqabət bitkilərin kökləri arasında

[1] Ənkəbut, 64, 69.

daha çox su və qida uğrunda da baş verə bilər. Yalnız əşyalar təhlükəyə qarşı reaksiya göstərmirlər. Əgər minlərlə daş, minlərlə kartof bir-birinin yanında olsa, bir-birinə qarşı heç bir reaksiya verməzlər. Bu baxımdan, hücuma qarşı müdafiə və müqavimət məsələsində varlıqları zəifdən güclüyə sıralasaq, belə deməliyik: əşyalar, bitkilər, heyvanlar, olduqca güclü olan insanlar.

İnsanlar iradə, təfəkkür, bacarıq və təcrübələrinə görə özlərini müdafiə edən ən güclü varlıqlardır və bu, onlar üçün kamillik və üstünlük sayılır. Hücum qarşısında əl-ayağı bağlı olan və heç bir reaksiya verməyən insan bu insani üstünlükdən məhrumdur. Əgər yaşadığımız yerdə bir quldur hamını incitsə və heç kim bir söz deməsə, bizim zəifliyimizdəndir. İnsan bir-iki dəfə göz yumar, amma üçüncü dəfə bir iş görməsə, məlumdur ki, insaniyyətinin bir hissəsi tətil olub.

Doktor Məcidi bir qurtum su içib sözünə davam etdi:

– Bizə Qərb düşmənliyi ittihamı irəli sürülməsin deyə İrandan danışacağam. İranın tarix və sivilizasiyası misli az olanlardan biridir. Rəşadət, cəsarət, torpağını, dinini və namusunu müdafiə iranlıların şərəfli cəhətlərindəndir. Lakin həmin xalq bəzi nadir nümunələrdə xüsusi şəraitdə olduğuna görə zəiflik göstərib. Misal üçün, monqolların hücumu zamanı onların rəhimsizliyinə və yaranmış vahiməyə görə insanlar heç bir müdafiə etmədən şəhərlərin darvazasını monqol ordusunun üzünə açıb təslim olublar. Monqollar hər əlli iranlı kişini bir əsgərə veriblər ki, boynunu vursun. Bu əlli nəfər ürəklərindəki qorxuya görə bir monqol əsgərinin qarşısında heç bir reaksiya göstərməyiblər! Yalnız ata yalvarıb ki, əvvəlcə mənim boynumu vur, övlad acısı görməyim, övlad da deyib ki, yox, əvvəl məni öldür. Halbuki əgər

qorxmasaydılar, reaksiya versəydilər, hadisələr başqa cür baş verərdi.

Bu baxımdan, düşmənin hücumu qarşısında müdafiə və mübarizə insanların insanlığı üçün taleyüklü məsələlərdəndir. Əlbəttə, həmin İran xalqı İraqın hücumuyla başlayan səkkizillik müharibə zamanı elə rəşadətlə özünü müdafiə etdi ki, torpağının bir qarışı da azalmadı; halbuki dünyanın əllidən çox ölkəsi Səddama maddi və silah yardımı edirdi.

Qeyd etdiyim kimi, tarix boyu bəşəriyyətin müştərək düşməni kapitalist sistem olub. İbtidai həyat tərzi bəşər sivilizasiyası ilə əvəz olunan dövrdən kiçik bir qrup hiylə və kələklə xalqdan ayrılıb xüsusi bir təbəqə yaradıb və o zamandan indiyədək xalqlar bu xüsusi qrup tərəfindən istismar olunur. Bu xüsusi təbəqə tarixin böyük hissəsində şahlıqla, imperatorluqla, ərbab-rəiyyət sistemi ilə xalqı talayıb. Cəmiyyətlər düşüncə, mədəniyyət və sənayeləşmə baxımından inkişaf edəndə, ölkə və xalqlar müstəmləkəçilərdən müstəqilliyə və xilasa doğru hərəkət edəndə isə kapitalist sistem yeni üsula əl atdı, öz məqsədlərinə nail olmaq üçün insanların cisminin əsir alındığı keçmiş üsuldan fərqli olaraq bu dəfə bəşərin düşüncəsini və ruhunu əsir aldı.

Təxminən əlli yaşlarında olan, boynundan qırmızı yaqut boyunbağı asmış bir qadın ayağa qalxıb danışmağa icazə istədi. Doktor Məcidinin "buyurun" sözündən sonra qadın etirazçı və bir qədər məğrur tonla dedi:

– Siz bu seminarlarda kapitalistlərə qarşı ittihamlar irəli sürürsünüz, bu günsə onları bəşəriyyətin düşməni kimi təqdim etdiniz. Güman ki, siz sinifsiz cəmiyyət və marksist təfəkkür sahibisiniz. Məncə, düşüncələrinizdə ziddiyyətlər də var.

Qadın sözünü bitirəndən sonra xanım doktor dedi:

– Bir neçə saniyə tələsdiniz. Biz kapitalist sistem deyəndə məqsədimiz "İnsanlar inkişaf altında əzilirlərsə, eybi yoxdur" deyən sistemdir. Onlara görə, inkişaf sistem daxilindəki adamların cibinin dolmasıdır. İnsanların əzilməsi və onlardan sui-istifadə hesabına yox, öz zəhməti ilə sərvət qazanmaq nəinki pis deyil, hətta lazım və faydalıdır. Kapitalist sistemdə bu potensial var ki, əskik bir adam hiyləgərliklə, insanların sərvətini talamaqla bir gecənin içində milyonçuya çevrilsin. Bu gün kapitalist sistemin hiyləsi budur ki, təbliğatla istəkləri daim artırır, onları əldə etməyi və xoşbəxt olmağı çətinləşdirir. Çox təəssüf ki, bu təbliğatın əsas hədəfi gənc nəsildir.

İvilin Reydin gözəl bir cümləsi var, bizim ürək sözümüzü deyir: "Modanı tənqid edərkən gözəl paltarları, rəngarəng geyimləri və ya paltar növündə dəyişikliyi pisləmirəm. Mənim müxalif olduğum, kapitalizmin məhsul almaq üçün bizi məcburən cəlb etdiyi rəhimsiz yarışmadır".[1] Bizi puç və məqsədsiz bir yarışa salıblar, özləri VIP-də oturub bizə gülür, bəşərin çabalamasından qazanırlar.

Böyük fransız alim Roje Qarodi kapitalist sistemi belə təqdim edir: "Qərb üsulu iqtisadiyyat bazarın ehtiyacını təmin etmək üçün deyil, ehtiyac bazarı yaratmaq üçündür". Fikir otaqları var; hər gün insanların zövqünü dəyişdirir, ehtiyaclarına yenilərini əlavə edirlər: bir gün çəhrayı, bir gün qırmızı, bir gün yaşıl; bir gün bu model, sabah o biri model; bir gün saç, bir gün paltar, bir gün ev dekorasiyası, bir gün avtomobil, bir gün mobil telefon... Qısası, insanları hər gün bir şeylə məşğul edirlər. Bizim

---

[1] Keşvəri, Gözəllik standartı, s. 125.

işimiz də bu ehtiyacları təmin etmək üçün qaçmaqdan ibarət olub.

Bu ehtiyac bazarının heç bir sonu yoxdur. Bəşər nə vaxt oturub əlində olanlardan həzz alacaq? Çox maraqlıdır! İnsanların düşüncəsini elə dəyişdiriblər ki, bu gün əşyaları istəməyin həzzi onlara sahib olmağın həzzindən çoxdur! Psixoloqların dediyinə görə, kişi duyğularından biri təbiəti ram etmək, qadın duyğularından biri də insanları ram etmək, digərlərinə nüfuz etməkdir.[1] Buna görə kapitalistlər bu nəticəyə gəliblər ki, qadınları özlərinə əsir etsələr, bütün insanları əsir edə bilərlər. Elə buna görə bütün vasitələrdən istifadə edərək hər saniyədə minlərlə dəfə birbaşa və dolayı şəkildə bəşərin qulağına pıçıldayırlar ki, həyat maddi ləzzətlərdən və hüdudsuz həzlərdən başqa bir şey deyil; hər zamanda, hər yerdə və hər bir vasitə ilə ləzzət. Şübhəsiz ki, ən yaxşı vasitələrdən biri də qadındır!

İcazə verin xüsusən kişilərin qadınlarla rəftarına dair çox əhəmiyyətli bir məqama toxunum. Qadının pis geyinməsini əksər hallarda cinsi sapqınlıq hesab etmək olmaz. Əslində, bu yolla kapitalist sistemin qadından öz məqsədlərinə çatmaq üçün sui-istifadəsini anlamaq lazımdır. Bir tarix qədərincə təhqir olunmuş qadın birdən meydana çıxarılır, kişilərin ləzzət alması üçün vasitəyə çevrilir və hər ikisi istismarçıların daha çox istismarına vasitə olur.

Qadın üçün necə acınacaqlı haldır ki, bu gün silah və dərmandan sonra qadın ticarəti ən gəlirli ticarətlərdəndir! Qadını necə aldadıblar! Şəxsiyyətinin tapdanmasında təhqirin son dərəcəsinə çatmış qərbli qadının nə mülkiyyət, nə təhsil və nə səsvermə haqqı vardı. Bəzi

---

[1] Haqşünas, s. 40.

dönəmlərdə həyat haqqı da yox idi, hətta şeytan timsalı kimi təqdim olunurdu, müqəddəs kitabları oxumaq ona qadağan edilirdi. O, "azadlıq" və "insan hüquqları" adı altında aldadıcı papaqla qarşılaşdıqda isə cəld papağı başına qoydu. Lakin şərqli qadın, xüsusən də daha çox hörmət görmüş müsəlman qadın bu aldadıcı papağı görəndə özünü itirmədi, ona şübhə ilə baxdı, başına qoymadı, öz kimliyini və nəcabətini qorudu. İki əsrə yaxındır ki, müstəmləkəçilər ən güclü təbliğatla bu papağı bütün dünya qadınlarına uyğun təqdim etməyə çalışırlar. Lakin şərqli, xüsusən də müsəlman qadınların böyük hissəsinə qarşı hələ müvəffəq olmayıblar. Bəlkə də, xəbərlərdə eşitmisiniz ki, Fransada on beş yaşlı müsəlman qız ölkəsinin qanunlarına görə məktəbə hicabla gedə bilmədiyinə görə saçını keçəl qırxdırmışdı. Bunu ölkəsinin, habelə İslamın qanunlarına əməl etmək üçün yeganə yol hesab edib deyirdi: "Mən ölkəmin qanunlarına hörmət edirəm, amma bu qanun mənim dinimə heç bir hörmət tanımır!"[1]

Əziz xanımlar və cənablar! Bugünkü müsəlman qadın aldanmaq istəmir, çünki qadının həqiqi məqamı ilə tanışdır. Şəraitin mürəkkəbliyini və bəşəriyyətə qarşı nə edildiyini ayırd etmək çox çətindir. Britaniya ensiklopediyası kapitalist sistemin əsas özəyi olan sionizmin protokollarının və əsas məqsədlərinin bir hissəsinə toxunub. Onlar protokolların birində demişlər: "Biz elə etməliyik ki, əxlaq hər yerdə sıradan çıxsın və bizim istismarımıza yol açılsın".[2]

Məqsədləri bütün dünyanın insani və qeyri-insani mənbələrini ələ keçirməkdir. Qarşılarında ən böyük maneə

---

[1] Keşvəri, Nə üçün hicab?, s. 57.
[2] İslamlu, Gülün hərimi, s. 113.

də əxlaq və uca insani dəyərlərdir. Sionistlər bu böyük maneəni ortadan götürmək üçün planlar düşünmüşlər. Məsələn, etiraf ediblər ki, Freyd bizdəndir; tezliklə kişi-qadın arasında cinsi münasibət elə açıq olacaq ki, gəncin fikrində heç bir müqəddəs bir məfhum qalmayacaq və onun bütün fikri-zikri cinsi instinktini doyurmaq olacaq. Bu zaman da əxlaq sistemi çökəcək.[1] Sionist növlü kapitalist sistemində insanlar əşya və heyvanlar kimi bu sistemə xidmət üçün yaranmışlar.

Başqa bir protokolda deyilir: "Yəhudi olmayanların hamısını məhv etmək üçün əyyaşlıq və dəbdəbə eşqini yayarıq, onlara belə ləzzət və əyləncələri göstərərik. Əgər bu doymaz meylin kökləri güclü olsa, heç nəyə rəhm eləməz və hamını udar". Onuncu protokolda isə deyilir: "Qeyri-yəhudilər arasında ailənin əhəmiyyətini və onun tərbiyəvi rolunu məhv edəcəyik".[2]

Bunlar kapitalist sistemin diqqətlə izlədiyi məqsədlərdir. Əlbəttə, bütün səy və proqramlarına baxmayaraq, istəklərinə nail olmamışlar. Məsələn, Türkiyədə Atatürkün dövründən bu günə qədər çox çalışaraq hicabı qadağan edən qanun qəbul etsələr də, istismarçı sistem üçün ideal nəticə əldə olunmayıb. Son dövrlərdə bu ölkədə örtünməyə meyil çoxalıb. Məlumatlara görə, türkiyəli qadınların 85 faizi “Xəbər X” müəssisəsinin sorğusunda universitetlərdə hicabın qadağan olunmasına dair Konstitusiya məhkəməsinin qərarına etirazını bildirib. Maraqlıdır ki, bəzi qadınlar bu istismarçı qanuna etiraz məqsədi ilə öz başörtüklərinin üzərindən parik qoyurlar![3]

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Yenə orada.

Ön cərgənin ortasından gənc bir qız əlini qaldırıb dedi:

– Bağışlayın, xanım doktor.

– Buyurun, – doktor Məcidi təbəssümlə dedi.

Qız ayağa qalxıb dedi:

– Mən Əlcəzair əsilli fransalıyam. Bura təhsillə bağlı gəlmişdim, amma qalası oldum. Sizin sözləriniz mənə babamla nənəmin xatirələrini canlandırdı. Əlcəzair Fransanın müstəmləkəsi olanda xalqın mədəniyyətini dəyişdirmək üçün çox işlər görülürdü. Babam deyirdi: "İdarə və fabriklərdə işləyən hər bir avropalı işçi özünün əlcəzairli iş yoldaşından dəfələrlə soruşurdu: "Xanımın çadralıdır? Niyə avropalılar kimi yaşamırsan?"[1] Babam deyirdi: "Müdirlər isə yalnız sualla kifayətlənmirdilər, müxtəlif yollarla əlcəzairli işçiləri və ailələrini özbaşınalığa sürükləməyə çalışırdılar. Nənəm deyirdi: "Müstəmləkəçi fransızlar birinci addımda xüsusi yollarla, ictimai dəstəkçilərindən və dırnaqarası xeyriyyəçilərdən istifadə edərək yaşayış məntəqələrini, yoxsul və ac qadınları hədəf seçir, verdikləri un və bulqurun hər kilosunda hicabı təhqir edirdilər".[2] Babam xüsusi narahatlıqla və əsəblə deyirdi: "Fransızlar bu nəticəyə gəlmişdilər ki, Əlcəzair cəmiyyətinin kökünə hücum edib müqavimətlərini qırmaq üçün əvvəlcə qadınlarına hakim olmalıyıq. Bundan sonra hər şey əlimizdə olacaq".[3] Və qəhər içində əlavə edirdi: "Çoxlu pullar xərcləyir, qadın hüquqlarını müdafiə adı altında əlcəzairli kişiləri “vanq”, yəni Orta əsrlər dövründən qalma vəhşi adlandırır,

[1] Bax: Loğmani, s. 12.

[2] Bax: İslamlu, Gülün hərimi, s. 115.

[3] Yenə orada.

lətifələr, məsəllər və şeirlər yazaraq hicabı gözdən salırdılar".[1]

Doktor Məcidi dedi:

– Çox sağ olun. Bəli, bunlar bütün əlcəzairli kişi və qadınların xatirələrində var. Təklif edirəm ki, fransız yazıçı Frantz Fanonun "Əlcəzair inqilabının beşinci ili" kitabını oxuyasınız. O yazır: "Fransanın Əlcəzairdə yerli mədəniyyətə qarşı ilk addımı hicabı sıradan çıxarmaq oldu və bu işdə məqsədinə çatdı". Başqa bir yerdə yazır: "Kənara qoyulan hər bir çadra müstəmləkəçi qarşısında yeni üfüq açdı. Əlcəzairli qadın soyunduqca müstəmləkə çəngəli xalqın boğazına daha çox batdı!"[2]

Kapitalist sistemin bütün dünya xalqlarına qarşı bu siyasəti və soyuq müharibəsi olub və indi də davam edir. Bu müharibənin törətdiyi itkilər dünyanın çox bölgələrində səssiz-səmirsiz olub. Bəzi yerlərdə isə xalqın, xüsusən də xanımların mübarizəsi ilə üzləşdiyindən səs-səda doğurub; məsələn, türk, əfqanıstanlı, əlcəzairli və iranlı qadınlar kimi. Bu baxımdan, örtünmənin ən mühüm dəlillərindən biri kapitalist və müstəmləkəçi mədəniyyət qarşısında mübarizə və müdafiədir.

İndi icazə versəniz bir neçə dəqiqə istirahət edək, sonra söhbətimizi davam etdirərik.

Seminarın iki hissəsi arasındakı fasilə zamanı iştirakçılar arasında söhbətin əsas mövzusu doktor Məcidinin cəsarəti oldu. O, kapitalist və sionist sistem barədə çəkinmədən danışırdı. Qruplar arasında bir qaradərili ilə bir hindistanlının dərdləşməsi çox səmimi görünürdü. Maşa doktor Məcidinin qulağına nəsə dedi. Doktor fikrə getdi, sonra stolun ətrafına toplaşmış

---

[1] Bax: Şücai, s. 64.

[2] Loğmani, s. 106-107.

adamlardan üzr istəyib sualların cavabını bir neçə dəqiqə sonraya, ya da seminardan sonraya həvalə etdi. O, Maşaya dedi:

– Gedək doktorun kabinetinə.

Sara dayanmadan ağlayırdı, üzü qızarmışdı. Stulda oturdu, gözlərini silə-silə qəhərini idarə etməyə çalışdı, danışmağa başladı. Doktor Məcidi onu bir ana kimi diqqətlə dinləyəndən sonra dedi:

– Ailənə qarşı pis və aqressiv mövqe nümayiş etdirməmən çox yaxşıdır. Bu iş əvvəlki eşq və duyğuların davam etməsinə kömək edər. Ümidvaram öz səhvlərini başa düşərlər. Bu, çox yaxında da baş verə bilər. Səbirli ol və namazla Allahdan kömək istə.

Söhbət bir az uzandı. Xanım Həkimi qapını döyüb işarə ilə bildirdi ki, iştirakçılar zalda gözləyirlər. Sara ilə Maşa ayağa qalxdılar. Sara bir qədər sakitləşmişdi. Əlinin içi ilə üzünə toxundu, gözlərini sildi, Doktor Məcidi və Maşa ilə birlikdə zala yola düşdü.

Seminarların ən ciddi iştirakçılarından biri olan xanım Məryəm Kiya seminar başlamamış əlini qaldırıb dedi:

– Bağışlayın, xanım doktor, sözüm var.

– Buyurun, – xanım Məcidi dedi.

– Sizin son cümləniz bu idi ki, münasib örtünmənin zəruriliyi üçün ən mühüm dəlillərdən biri kapitalist mədəniyyətinə qarşı mübarizədir. Məncə, heç kim istəməz ki, istismarçının başıqapazlısı olsun və istismar edilsin. Digər tərəfdən də kapitalistlər xalqın ehtiyacı olan əksər mənbələri ələ keçirmişlər. Deməli, bizim hamımız məcburən bir növ kapitalist sistemin başıqapazlısıyıq. Sualım budur ki, münasib örtünmə ilə kapitalist sistemə qarşı mübarizə arasında hansı əlaqə var? Yəni örtünmə

bizim rəhimsiz azlığın çəkmələri altından xilas olmağımıza necə kömək edə bilər?

Xanım Məcidi dedi:

– Düşüncənizin dəqiqliyindən həzz alıram. Afərin! Əgər bir neçə dəqiqə gözləsəniz, sizin sualınıza cavaba da çatacağıq.

Bizim söhbətimiz buraya çatdı ki, kapitalist sistemin təxminən iki əsr öncədən bəşəriyyətə qarşı başlatdığı bu yeni siyasət yavaş-yavaş və yumşaq şəkildə davam etdirilir. Məşhur ingilis siyasətçisi Lord Korzen xristian missionerlərin fəaliyyətini nəticəsiz və yarımçıq hesab edir, məktəblər yolu ilə təlim təklif edib deyir: "Açıq təbliğat dindar missionerlərin təəssübkeş bir Şərq ölkəsində görə biləcəyi ən pis işdir. Məktəblər açmaqla, humanitar işlərlə, xüsusən də pulsuz müalicə yardımları ilə yavaş-yavaş və arxayın şəkildə düşüncə durğunluğu yaşayan xüsusi kütlənin qəlbinə təsir etmək olar".[1]

Möhtərəm iştirakçılar! Onlar insanları Məsihilik dininə gətirmək istəmirlər, məqsədləri kapitalist sistemi xilas mələyi hesab edən, ona pərəstiş edən insanlar yetişdirməkdir. Tanınmış ingilis filosofu Spenserin bu ölkənin casuslarına tövsiyəsi də bu müharibənin soyuq olduğunu aydın şəkildə göstərir. O deyir: "İşlədiyiniz xalqlara öz dilinizi, mədəniyyətinizi, adət-ənənələrinizi öyrədin, onları özbaşına buraxın ki, həmişə sizin olsunlar".[2] Bu müharibə çox soyuqdur; nə güllə var, nə raket, nə qumbara, nə də döyüş təyyarələri. Sakit və soyuq müharibədir! Lakin bu müharibə qarşısında harada müqavimət baş qaldırsa, sakitlik pozulur və səs-küy qalxır. Misal üçün, İranda təxminən iki yüz il öncədən, yəni

---

[1] Şəfii Sərvistani, c. 2, s. 25.

[2] Loğmani, s. 109.

Nasirəddin şahın dövründən bu müharibə başlandı və Pəhləvi hakimiyyətində pik həddə çatdı. Bu müharibə güclənəndə mübarizə və müdafiə də başlandı, İran xalqı, xüsusən də dərrakəli qadınlar elə mübarizə və müdafiə işləri gördülər ki, əcnəbilər də alqışladılar. Məsələn, amerikalı yazıçı Morqan Şuster "İran diktaturası" kitabında yazır: "Yaşmaqlı İran qadınlarına sonsuz salam və eşq olsun!"[1] Əgər müstəmləkəçi dövlətlərin kapitalist mədəniyyətini yaymaq üçün proqramlarının bir hissəsini bilsəniz, Morqan Şusterin və onun kimilərin alqışının səbəbi sizə aydın olar.

Bildirdik ki, sionistlərin mühüm məqsəd və protokollarından biri bütün dünyada əxlaq sistemini çökdürməkdir. Məşhur İngiltərə casusu Mister Hemfer çoxlu araşdırmalarla bu nəticəyə gəlir ki, bu məqsəd qarşısında ən böyük maneə qadınların hicabıdır. O deyir: "Qadınların güclü hicabı var, fəsadın onlara nüfuz etməsi mümkün deyil". Və belə bir çıxış yolu göstərir: "Müsəlman qadınları aldadıb çadra və əbadan çıxarmaq lazımdır".[2] Bu təcrübəli casus sözügedən məqsədə nail olmaq üçün praktik yol da göstərərək deyir: "Bu planın baş tutması üçün əvvəlcə qeyri-müsəlman qadınları hicabdan uzaqlaşdırmalıyıq ki, müsəlman qadınlar onlardan öyrənsinlər".[3] Bu muzdurun sözündən əldə edilən zərif məqam və önəmli etiraf budur ki, o zaman hətta qeyri-müsəlman qadınlar da münasib şəkildə örtünürmüşlər.

---

[1] Yenə orada, s. 105.

[2] Əkbəri, Məhəmmədrza, Müasir dövrdə hicab haqda yeni və praktik təhlil, s. 80.

[3] Yenə orada, s. 170.

Hemfer ikinci mərhələdə yol xəritəsini belə təsvir edir: "Gərək tarixi fakt və dəlillərə istinadla sübut edək ki, qadının örtünməsi Abbasilər dövründə yayılıb və əsla İslam sünnəsi deyil. Qadın hicabı geniş təbliğatdan sonra sıradan çıxanda isə bizim məmurlarımızın vəzifəsi gəncləri hicabsız qeyri-müsəlman qadınlarla eşqə və qanunsuz cinsi münasibətlərə həvəsləndirməkdir. Beləliklə, müsəlman qadınlar da onları yamsılayacaqlar".[1]

Müstəmləkə ruhunun dərinliyini və istismar üçün dəqiq planları bu casusun sözlərində aydın görmək mümkündür. O, başqa bir yerdə deyir: "Övladları əqidə, düşüncə və zövq baxımından atalarından uzaqlaşdırmaq lazımdır ki, bizim tərbiyə əhatəmizə daxil olsunlar".[2]

İranda şah üsul idarəsi 2500 il davam etdi. Amma bilməniz maraqlıdır ki, bu üsul-idarə dinə, xüsusən də hicaba qarşı mübarizəyə başlayanda bu torpaqların əhalisi, xüsusən də qadınlar ona qarşı mübarizəyə qalxdılar, bəzi beynəlxalq media orqanlarında "çadraların inqilabı" adlanan bir inqilab etdilər.[3] Bəzilərinin fikrincə, qadınları hicablı edən bu inqilab deyildi, əslində, hicab inqilabı qalib etdi.

Hörmətli xanım, sizin sualınız bu idi ki, örtünmə ilə kapitalist sistemə qarşı mübarizə arasında hansı əlaqə var?

Cavab budur ki, hicab deyəndə məqsəd yalnız örtünmə deyil, bir ideologiya və düşüncə məktəbidir. İnqilab etmiş çadraların uca fəryadı bu idi ki, qadın fitrətinə sadiq qalaraq və münasib örtünmə ilə cəmiyyətdə misilsiz rol oynaya bilər, görülmək və hüquqlarını əldə etmək üçün zərif qadın kimliyindən imtina edib kişilərə bənzəməsinə

---

[1] Elxani, s. 227.
[2] İslamlu, Gülün hərimi, s. 95.
[3] Şəfii Sərvistani, c. 2, s. 7.

gərək yoxdur. Bu düşüncə məktəbi dünyanın kapitalistlərinə və pulpərəstlərinə xoş gəlmədi; çünki kapitalist sistemin həyat damarı insanların daha artıq istehlakçı olmasına bağlı idi və qadından alət kimi istifadə etmək, onu soyundurmaq istehlakçı mədəniyyət üçün ən yaxşı üsuldu. Pul və güc sahibləri iki yüz il bütün imkanlarından, xüsusən də Hollivud kimi media nəhənglərindən və film cadusundan istifadə edərək çılpaqlığı mədəniyyət, inkişaf və sivilizasiya kimi göstərməyə çalışdı. Buna böyük həddə müvəffəq də oldu. Kim etiraz edirdisə, geriqalmış və mədəniyyətsiz adlandırılırdı. Lakin birdən elə bir hərəkət formalaşdı ki, qadına öz qadın kimliyini qorumaqla inkişaf və tərəqqi zirvələrinə nail olmağın mümkünlüyünü aşıladı. Məşhur danimarkalı yazıçı Kristian Andersonun əhvalatını, yəqin ki, eşitmisiniz. Hər halda, bir də eşitməyiniz pis olmaz:

İki dərzi bir şəhərə daxil olub şaha dedilər ki, biz dərzilikdə peşəkarıq, böyüklərə yaraşan paltarlar tikirik. Biz padşaha elə paltar tikə bilərik ki, onu yalnız halalzadələr görə bilərlər. Padşahın əmri ilə bu iki dərziyə çoxlu qızıl və gümüş verdilər ki, ərişi qızıldan, arğacı gümüşdən olan həmin sehrli paltarı tiksinlər. Dərzilər qızıl və gümüşləri alıb böyük sex açdılar, parça, sap, qızıl və gümüş işlətmədən öz əllərini havada elə məharətlə yelləyirdilər ki, sanki paltar tikirlər. Padşah vəziri yarımçıq paltara baxmağa göndərdi. Sədri-əzəm nə qədər baxdısa, bir şey görmədi, ancaq haramzadə hesab olunacağından qorxub paltarı və dərziləri tərifləməyə başladı, padşaha məruzə etdi ki, paltar tikişi çox gözəl şəkildə davam edir. Digər yüksək rütbəli məmurlar da tədricən dərzi sexinə baxış keçirdilər, hamısı özlərinin halalzadə olduqlarını sübut etmək üçün dərzilərin işini

təsdiqləyib paltarı tərifləddilər. Nəhayət, padşahın paltarı geymək vaxtı çatdı. O, heç nə görməyib öz-özünə dedi: "Deyəsən, burada yalnız mən halalzadə deyiləm". Çarəsiz qalıb paltarı gördüyünü təsdiqlədi, güzgünün qarşısında dayanıb tamaşa etdi. Dərzilər şahın ətrafına fırlanıb əynindəki xəyali paltarı düzəldirdilər. O yazıq da dayanmışdı, qorxudan səsini çıxarmırdı. Axırda qərara gəldilər ki, əhalinin padşahı yeni paltarında görməsi üçün təntənəli bir tədbir keçirsinlər. İnsanlar yolun iki tərəfində dayandılar, padşah çox mətanətlə onların arasından keçdi. İki qulluqçu şahın arxasından gələrək guya paltarın ucundan tuturdular ki, yerlə sürünməsin! Saray əyanı, vəzir və əmirlər hörmət, heyrət və alqışla padşahın arxasınca hərəkət edirdilər. İnsanlar paltar görməsələr də, bədnam olmalarından qorxaraq şənlik səsi çıxarır, təbrik edirdilər. Bu zaman birdən bir uşaq qışqırdı: "Şah niyə çılpaqdır?" Zavallı anası onu bu sözü təkrarlamaqdan çəkindirməyə çalışsa da, bacarmadı. Uşaq yenə inadla dedi: "Padşah niyə çılpaqdır?" Yavaş-yavaş digərləri də bu sözü təkrarladılar və çox keçmədən bütün cəmiyyət bir ağızdan qışqırdı: "Padşah niyə çılpaqdır?"[1]

İndi hiyləgər kapitalistlər özlərini elə göstərirlər ki, guya insana paltar tikirlər; əslində isə onu soyundururlar. Heç kim də cürət edib qışqıra bilmir ki, bu, hiylədir və ortada paltar yoxdur. "Geriqalmış" və "mədəniyyətsiz" kimi etiketlərdən qorxub ağızlarını yumublar. Ümidvarıq ki, belə seminarların nəticəsində uşaq qədər saf insanlar tapılıb fitrətin sözünü eşitsinlər, münasib geyimi seçməklə dünya pulpərəstlərinə qarşı ən uca fəryadlarını ucaltsınlar və onları ifşa etsinlər.

---

[1] Bax: Həddad Adil, s. 76.

Əziz xanımlar və cənablar! Bu gün bəşərin inkişaf zamanı, tarix boyu zəli kimi insanların qanını sorub günbəgün böyüyənlərdən intiqam vaxtıdır. Özünüz şahidsiniz, statistikalar da qərbli qadınlar arasında hicaba güclü təmayülü göstərir. Buna görə demokratiya iddiasında olan ölkələr əl-ayağa düşmüşlər, kapitalizmin idarəsi və dəstəyi ilə bir-bir hicabı qadağan edən qanun qəbul edir, mediada hicab əleyhinə təbliğat aparırlar. Lakin bunlar son çabalardır və heç bir faydası yoxdur. Saysız-hesabsız Ela Qandersonların düşüncə və fitrəti oyanmışdır, onların qarşısında müqavimət göstərmək mümkün deyil.

Otuz iki yaşlı əczaçı və Misirin milli həndbol komandasının üzvü Mərvə Şərbini canı hesabına əqidəsinin arxasında dayanmış başqa bir nümunədir. O, Almaniyanın Drezden şəhərində doktorantura dissertasiyası ilə məşğul ikən, özü də hamiləliyinin üçüncü ayında kapitalist sistemə qarşı hərəkət ittihamı ilə appelyasiya məhkəməsində polislərin və azyaşlı oğlunun gözləri önündə on səkkiz bıçaq zərbəsi ilə canından oldu ki, Qərb ölkələrində çoxlu qeyri-müsəlman qadınlar hicab bağlasınlar və hicab şəhidini müdafiə məqsədi ilə plakatlara yazsınlar: "Biz Mərvə Şərbiniyik". Xanım Şərbini həyat yoldaşı və övladı ilə birlikdə Drezden şəhərində parka gedəndə rus əsilli 28 yaşlı Aleks adlı bir gəncin hücumuna məruz qalmışdı. Aleks onun başörtüyünü başından açmağa çalışırdı. Şərbini hücumuna və söyüşlərinə görə məhkəməyə ondan şikayət etdi. Aleks məhkəmədə 750 avro cəriməyə məhkum edildi. Appelyasiya məhkəməsində birinci instansiyanın hökmü qüvvədə saxlanıldıqda isə həmin acınacaqlı faciə baş verdi. Həyat yoldaşı çalışsa da, Mərvəni xilas edə bilmədi,

çox təəccüblü olsa da, məhkəmədəki polislər səhvən Şərbininin həyat yoldaşını hədəf seçdilər. Onların azyaşlı oğulları da bütün bunlara şahid oldu. Almaniya rəsmiləri bu qətli təsadüfi göstərə bilərlər, amma həqiqət budur ki, bu məsələ kapitalist sistemin hicablılara nifrətindən başqa bir şey deyil.

Özünüz mühakimə yürüdün. Məhkəmə zalına bir kibrit çöpü də aparmağın mümkün olmadığı halda bir nəfər, özü də müttəhim bıçaqla içəri girir, on səkkiz zərbə vurur, polislər də səhvən Şərbininin ərini saxlayırlar. Əgər bu cinayətkar gənc, həqiqətən də, heç kimdən tövsiyə və ya göstəriş almamışdısa da, yenə də bu cinayətin əsas amilləri onun beynində hicaba qarşı aqressiya yaradan kapitalistlərdir.[1]

Başqa bir sual: Sizcə, niyə rahibələrin geyimi, yəhudilərin paltarı və papağı, yaxud şeyxlərin əmmaməsi Qərbdə normal qəbul olunur? Nə üçün hicablı bir məsihi rahibə paklıq və mənəviyyat nümunəsi kimi təqdim olunur, hicablı müsəlman qadınlar isə zülmün və dini fundamentalizmin tərənnümü sayılır? Bu aşkar təzadın kökü nədədir? İndiki şəraitdə kapitalist sistem özünü uçurumun daha yaxınlığında görür və öz problemlərinin kökünü inqilabçı çadralarda bilir. Məhz buna görə İrana qarşı mədəni-ideoloji hücum və təxribatlar sarıdan çadraların inqilabından öncə ilə sonrası müqayisəolunası deyil. Həqiqətən, qəribə ab-hava yaradıblar. Nə baş verirsə, onu dinin və hicabın üzərinə atırlar. Xəstə bir adam iki qadının üzünə kimyəvi turşu tökür, deyirlər ki, hicab tərəfdarları bunu etdilər. İngiltərədə yalnız iki ildə

---

[1] Müxtəlif media qurumlarında və xəbər agentliklərində bu hadisənin digər cəhətləri ilə də tanış ola bilərsiniz. Mərvə İslam dünyasında Hicab şəhidi kimi məşhurlaşmışdır.

130 kimyəvi turşu tökmə nümunəsi varsa,[1] bunda da hicab tərəfdarlarının əli var?!

Həyatlarının gizli qatı çox çirkin və iyrənc olan bəzi sənət və idman adamları müxtəlif media vasitələri ilə örnək kimi təqdim olunurlar. Əlbəttə, kapitalistlər örnək göstərməkdə çox diqqətlidirlər, çünki statistika sənət adamlarının gənclərə altmış faiz təsirinin olduğunu söyləyir.[2]

Olduqca qəribə şərait yaranıb! İranın Dövlət Teleradio Şirkəti inqilabçı çadralara xidmət göstərməli olduğu halda, müsbət fəaliyyətləri ilə yanaşı səhlənkarlıqları da hədsiz-hüdudsuzdur. Hökumətlər və siyasətçilər seçkilərdə səs qazanmaqdan ötrü qadın duyğularını bir növ oyuncağa çevirirlər ki, bu da hicaba zərbə olur. Hətta dindarlar da özlərindən asılı olmadan hicaba qarşı biganəlik karvanına qoşulur və bu məsələnin yanından sadəliklə keçirlər. Bəlkə də, bəziləri məsələyə adi bir şey kimi baxıb deyirlər ki, zaman dəyişib; ya da deyirlər ki, bugünkü gənc əlli il öncəki gənc deyil. Lakin diqqətlə və açıq gözlə baxsaq, görərik ki, gənclər və xalq həmin əlli il, hətta yüz il öncəki pak fitrətdədirlər. Yeganə önəmli fərq budur ki, düşmən məqsədlərinə çatmaq üçün çox diqqətlə hər yerə öz fiqurlarını yerləşdirib. Lazım deyil ki, hamı birbaşa düşmənin muzduru olsun, düşüncələrin maddi və kapitalistlərin düşüncəsi istiqamətində olması kifayət edir.

Üzr istəyirəm ki, söhbətlərimin bu hissəsi İrana aid oldu. Düşünürəm ki, orada baş verənlər bir nümunə kimi kapitalizmin bütün dünyada yanaşmasını ortaya qoya bilər.

---

[1] Bax: Vikipediya saytı, “Kimyəvi turşu tökmək”.

[2] Şəfii Sərvistani, c. 2, s. 191.

İranın rabitə şirkətinin yüksək vəzifəli müdirlərinin biri bir dəfə mədəni-ideoloji fəallar önündə cəbhədə iştirakı və döyüş xatirələri haqda çıxış edirdi. Söhbətinin sonunda soyuq müharibə və bu müharibədə düşməni tanımağın zəruriliyi haqda danışdı, iştirakçılara soyuq müharibə barədə mütaliəni tövsiyə edib dedi: "Mən bir neçə ildir soyuq müharibə barədə oxuyuram. Tövsiyə edirəm ki, siz də qüdrətlə bu döyüşə qoşulun". Mən əlimi qaldırıb dedim: "Cənab müdir, poçt və rabitə şirkəti tərəfindən hər gün abonentlərə pozğun mesajlar göndərilir. Siz söyləyin, bu mesajlar mədəni-ideoloji hücumun nümunəsidir, yoxsa yox?" Mesajların bir neçəsini də oxudum. Cavab verdi ki, bunlar mədəni-ideoloji hücum nümunəsidir. Soruşdum ki, bəs nə üçün göndərilirlər? Nə üçün qadın, yoxsa kişi, uşaq, yoxsa yeniyetmə, gənc, yoxsa yaşlı olduğu bilinməyən insanlara göndərilir? O, bu məsuliyyətin altından qaçıb dedi: "Rabitə şirkətinin vəzifəsi rabitə və kommunikasiyaya şərait yaratmaqdır. Bu məsələləri təhlükəsizlik qurumları araşdırmalıdır".

Vəssalam! Soyuq müharibənin olduğunu qəbul edən, hətta onun barəsində araşdırma aparan, digərlərini də bu mübarizəyə səsləyən bir adamın düşüncəsi eynilə kapitalist sistemə uyğun dəyişib, onun üçün yalnız şirkətin gəliri önəmlidir, xalqın, xüsusən gənc nəslin həyatı və inancları deyil! Yenə də bu müdir soyuq müharibənin olduğunu qəbul edir; çoxları isə deyirlər ki, təxribat sizin xəyalınızdadır, niyə ortalığı qarışdırıb insanları qorxudursunuz?

Xalqın əksəriyyəti iqtisadi problemlər içində olduğu bir zamanda nazir novruz tətillərində xarici ölkəyə gedirsə, camaata mesaj verirsə ki, burada proksi proqramlarına ehtiyacım yoxdur, sonra da hamıya bir proksi tətbiqi

təqdim edirsə, insan vəziyyətin necə mürəkkəb və qarışıq olduğunu tam dərk edir. Əgər cavan bu zəhərli mühitdə yolunu azsa, fəsada doğru getsə, hicabını kənara qoysa, kim məsuliyyət daşıyır?

Hər halda, bu qarışıq mühitin yaranmasının iki əsas amili vardır:

1. Kapitalistlərin maliyyələşdirdiyi nəzəriyyəçilərin nəzəriyyələri;

2. Kapitalistlərin ixtiyarında olan çoxlu maddi vasitə və imkanlar.

Nəzəriyyə barədə fransız nəzəriyyəçi Mişel Holbakı misal çəkmək olar. O, öz ərbablarına tövsiyə edir ki, müsəlmanlara qalib gəlmək, hicaba və İslama qarşı mübarizə aparmaq üçün onları fəsada sürükləmək lazımdır.[1] O, sözünün davamında deyir: "İslam radikalizminə qarşı müharibə və müsəlmanları öldürmək bir işə yaramayacaq. Yalnız onları fəsada sürükləməklə nəticə əldə etmək olar. Odur ki, müsəlmanların başına bomba yerinə mini-yubka və sırğa tökək.[2]

Bu gün bu müstəmləkəçi plan istiqamətində mini-yubka, sırğa, qısa və dar manto, düyməsiz manto, qısaqol manto, tülqollu manto, qısa şalvar, kosmetika modaları və digər əşyaların bazarı çox rövnəqlənmişdir. Fransa Təhlükəsizlik Xidmətinin keçmiş rəisi Aleksandr Demaranş keçmiş ABŞ prezidenti Reyqana demişdi: "Siz tank və təyyarə ilə əqidə döyüşünə çıxa bilməzsiniz. Əqidə döyüşünə əqidə ilə getmək lazımdır. Bu dəfə bizim düşmənimiz məzhəbdir".[3] Orta Şərq və İslam sahəsində tədqiqatçı olan Martin Eyndik isə belə söyləyir: "Daha

---

[1] Yenə orada, s. 57.

[2] Yenə orada.

[3] Bax: Gülün hərimi, s. 15.

onun vaxtı deyil ki, tələbələri küçələrə tökək. İndi çadranı qadınların başından götürmək lazımdır. İslam quruluşunu bu şəkildə devirmək olar".[1]

Doktor Məcidi bir qurtum su içib sözünə davam etdi:

– Amerika Birləşmiş Ştatlarının vətəndaşı olan xanımlar və cənablar! Kapitalist sistemin əsası olan rejimin Baş naziri Netanyahu bəzi ABŞ məmurlarına deyir ki, gözəl gəncləri müxtəlif çılpaq vəziyyətlərdə göstərən, mənəviyyatdan uzaq həyatları və qeyd-şərtsiz cinsi münasibətləri nümayiş etdirən "Fox" kanalının seriallarını yaymaqla İran dövlətinə qarşı inqilab edə bilərsiniz. Bu seriallar, həqiqətən, deviricidir.[2]

Burada çadralar inqilabına qarşı hücum ABŞ konqresində bir qanun kimi qəbul olunur. Tarix boyu misli görünməmiş bir sanksiya tətbiq edilir, gənclər və çoxlu ailə başçıları işsiz qalırlar, əzab-əziyyətə düşürlər, çoxlu ailələr dağılır. Hətta iranlılara qarşı dərman embarqosu qoyulur. Çoxları xəstəlik ağrısından əlavə, dərmansızlıq və dərmanın bahalığının da dərdini çəkməli olurlar. Elm və texnologiyada da sanksiyalar özünü göstərir. Gənclər elmi özünəinama nail olsalar da, onların inkişaf sürəti azaldılır. Konqres hər il rəsmən sizin vergilərinizdən toplanmış pulun böyük bir hissəsini İran dövlətini devirmək üçün ayırır. Təkfirçi qruplaşmalar həm İslamı və hicabı çirkin və xoşagəlməz göstərməkdən ötrü, həm də İrana qarşı mübarizə aparmaq üçün yaradılıb gücləndirilir, saysız-hesabsız pak gənclər insaniyyəti və həqiqəti müdafiə etmək üçün canlarını qurban verirlər.

Soyuq müharibədə nəzəriyyəçilikdən də önəmli məsələ bu dəhşətli mühiti və güclü hücumu yaradan vasitələrdir:

---

[1] Xani, s. 86.

[2] Abbasi, Möhsün, Evimizin damındakı süfrənin boşqabları, s. 92.

görüntü cadusu. Bəzi mütəxəssislər düşünürlər ki, bizim idrakımızın 90 faizindən çoxu qeyri-iradi şəkildə baş tutur. Bu isə o deməkdir ki, izləyici özü də bilmədən sıldırımın kənarındadır. Bəlkə, izləyici özünü təsirlənməməyə də hazırlayıb, amma onda əsaslı dəyişikliklərin yaranması üçün qısa müddət kifayət edir. Təsiri o qədər güclü və dağıdıcıdır ki, Barak Obamanın həyat yoldaşı da kütləvi informasiya vasitələrindən istifadədə uşaqlarına məhdudiyyət qoymuşdu. Bu möhtəşəm təsirlərinə görə farsca yüz qırxdan çox telekanalın açılması və onlara böyük büdcələrin ayrılması əsla təəccüblü deyil.

Hal-hazırda dünyanın peyk kanallarının çoxu Amerikada yaradılır və idarə olunur. İndi ABŞ əhalisinin üç faizi yəhudidir, lakin həmin az kütlə Amerika mediasının 90 faizinə sahibdir.[1] Misal üçün, “Farsi1” kanalını guya bir neçə əfqanıstanlı yaradıb və məqsədləri farsdilli ailələri əyləndirməkdən ibarətdir. Lakin jurnalist bu kanalın yüksək vəzifəli şəxslərindən olan Hacı Kumeyllə müsahibədə kapitalist Rupert Murdokla[2] əlaqəsi barədə soruşanda o bu əlaqəni rədd edir. Jurnalist ona

---

[1] Yenə orada, s. 88.

[2] “Farsi1” kanalına Zeyd Möhsüni adlı bir əfqanıstanlı rəhbərlik edir. O, yüksək rütbəli icraçı müdirdir, kanalın əsas rəhbəri isə "Nyus korporeyşn" şirkətinin nüfuzlu, qüdrətli və yəhudi sahibi olan Rupert Murdokdur. Murdok təkbaşına bir media nəhəngi sayılır. Onun “Nyus korporeyşn” müəssisəsinə rəhbərliyi o müəssisənin bir media imperatorluğuna çevrilməsinə səbəb olmuşdur. Mərkəzi Nyu-Yorkda yerləşən bu müəssisə yalnız xəbər sahəsində “Foks nyus” və “Skay nyus” kimi televiziya kanallarına sahibdir. Film istehsalı sahəsində “FX”, “Foks 21-ci əsr” və “Foks film” kimi məşhur prodakşnları vardır. Bu media imperatorluğu, bunlardan əlavə, dünyada yüzdən artıq qəzet və jurnal da nəşr edir. “Nyus korporeyşn” şirkətinin illik gəliri 20 milyard dollardan çoxdur (Bax: Abbasi, s. 93-94).

onların ikisinin birlikdə şəklini göstərəndə isə Hacı Kumeyl müsahibəni yarımçıq qoyub gedir.

Son illərdə İran Məhkəmə Orqanının İctimai Təhdidlərlə bağlı Baş İdarəsi bir məruzədə bildirdi: "Tədqiqatlar göstərir ki, boşanmaların 15 faizi "Farsi1" kanalından təsirlənmişdir".[1] Əlbəttə, bu kanalların yaratdığı saysız-hesabsız emosional boşanmaları da yaddan çıxarmaq olmaz. Onlar farsdillilərin və iranlıların göz-qaşlarına aşiq olublar ki, kosmosa peyk göndərib kanal açmağa bu qədər pul xərcləyirlər?!

"Mən və sən" kanalının müdiri kanalın açılışında deyirdi: "Məqsədimiz budur ki, gələcək illərdə bu kanalın meyvəsini dərək". Sizcə, necə meyvə dərmək istəyirlər? Bu meyvə İran xalqı üçündür, yoxsa kapitalistlər üçün? "Mən və sən" kanalının müdiri öz şəxsi səhifəsində bu kanala vakansiya şərtlərindən biri kimi Bəhailik etiqadını göstərirdi. Bəhailik isə kapitalizmin qollarından biridir.

Bir yeniyetmə kənd qızının sözləri yadıma düşəndə çox narahat oluram. O deyirdi: "Aşke-məmnu" serialının səhnələrini ailəmin yanında görəndə məndə xüsusi hal yaranır". Mənim narahatlığım bundan ötrüdür ki, orijinal və saf qalmalı olan bir kənd belə vəziyyətdədir. Daha kədərlisi budur ki, bu şəbəkələr çox sirli şəkildə və hiyləgərcəsinə işləyirlər. Nəcabətli bir mədəniyyətə sahib ənənəvi bir ailə birlikdə, yəni qız valideynləri və qardaşı ilə birgə oturub buna tamaşa edir. Bu zaman məhv olan abır-həyadan başqa bir şey deyil. Bu, "Mən və sən" kimi kanallar vasitəsi ilə vaxtından da tez yetişmiş acı meyvədir. Bu zəhərli meyvə ağlaya-ağlaya mənimlə danışan bir xanımın macərasıdır. O deyirdi: "Həyat

---

[1] Keşvəri, Gözəllik standartı, s. 185.

yoldaşım səhərə qədər xarici kanallara baxır, model qızları görəndə məni çağırıb deyir ki, gərək sən də belə olasan". Bəziləri deyirlər ki, bunlar səviyyəsiz adamlara aiddir. Lakin təsirlənmə qeyri-ixtiyari olduqda səviyyə tanımır.

Bu kanalların çoxlu məqsədləri var. Onların ən mühümləri aşağıdakılardan ibarətdir:

1. Ailə təməlini zəiflətmək, bir-birinə qarşı heç bir həssaslığı olmayan, yalnız bir tavan altında yaşayan insanlardan ibarət ailələrin yaranması;

2. Boşanmanı adiləşdirmək;

3. Cütlüklərin bir-birinə qarşı xəyanətini adiləşdirmək, eşqdə rəngarəngliyi gözəl saymaq, bu çirkin işi qəti bir hüquq kimi təqdim etmək və öyrətmək;

4. Qız-oğlan münasibətlərini adiləşdirmək, hətta bu münasibət hamiləliyə səbəb olsa da;

5. Abortu adi bir xəstəlik kimi təqdim etmək;

6. Qeyrətin, təəssübkeşliyin, vəfalılığın və həyalılığın gerilik simvolu kimi təqdim edilməsi.

Təəssüf ki, bu hücum bütün dünyada baş tutur. Statistikaya görə, 2011-ci ildə peyk kanallarının sayı 32 mindən çox olmuşdur.[1] Onların böyük hissəsi pozğun və porno proqramları ilə əxlaqı sıradan çıxarmağa və pozğunluğu yaymağa çalışır. Bəzi mütəxəssislər televiziyanı ən güclü media qurumu bilirlər. Lakin bu güclü qurumun yanında virtual məkanın, xüsusən də sosial şəbəkələrin əsaslı rolu inkaredilməzdir. Ariel Levi və Tim Kasser "Feminizmin Qərbdə qızlara təsiri" kitabında yazırlar: "Saytların on iki faizi porno saytlarıdır. Axtarış saytlarında axtarılanların 25 faizini də pornoqrafik mövzular təşkil edir".[2]

---

[1] "İsna" xəbər agentliyi, 23.01.13.

[2] Keşvəri, Gözəllik standartı, s. 188.

Əfsanə Mühacir adlı aldanmış bir İranlıya baxın, görün nə günə düşdü? Yaxud Məsih Əlinejad Feysbuk şəbəkəsində bir səhifə açıb. Qadınların görülmə istəyindən sui-istifadə edərək İranın nəcabətli insanlarını ümumi yerlərdə hicablarını açmağa və şəkillərini o səhifəyə yerləşdirməyə çağırır. Düşündürücüdür ki, Feysbuk şəbəkəsinin icraçı direktoru xanım Şeril Sendberq özü üçün ən sevimli səhifə və Feysbukun davam etməsinə ümidverici səbəb kimi məhz həmin səhifəni göstərir.[1] Sizcə, nə üçün milyardlarla səhifə arasından məhz bu səhifə Şerilin sevimli səhifəsidir? Nə üçün paklıq və həyada elə parlaq keçmişi olan iranlı qadının hicabını açması onun xoşuna gəlir? Bizim belə bir məsəlimiz var: "Yüz varsa, doxsan da vardır". Onlar kapitalizm əleyhinə hərəkatın rəhbəri olan iranlı qadını bu gün razı sala bilsələr, digərlərini də asanlıqla kapitalist sistemin caynağına keçirəcəklər. Əlinejad bir nənənin qızı və nəvəsi ilə birlikdə hicablarını açdıqlarını göstərən şəkillə çox sevinir, bu şəklin adını "Üç nəsil bir çərçivədə" qoyur. O, hiyləgərcəsinə demək istəyir ki, bütün nəsillər hicabdan uzaqlaşırlar. Halbuki bunlar hiyləgərliklə iranlı kimliyini talayan bir azlıqdır. Çünki nəcabətli iranlı Mənijədir ki, Firdovsi onun barəsində demişdir:

Mənijə mənəm, Əfrasiyabın qızı,
Günəş də bədənimi çılpaq görməyib.

Yaşlı bir kişi birdən ayağa qalxıb dedi:

– Lənət olsun bu kapitalist sistemə! Bağışlayın, mən icazəsiz danışmağa başladım, amma özümü saxlaya bilmədim. Xanım doktor, siz burada və bayırda elə bir adam tapa bilməzsiniz ki, kapitalist sistemdən yara

---

[1] “Keyhan” qəzeti, 24.10.14.

almasın. Mən bilmək istəyirəm ki, bu özündənrazı və zalım adamlara qarşı mübarizə aparmaq üçün bir yol varmı?

Doktor Məcidi dedi:

– Şübhəsiz ki, var. Sizin əsəbiliyiniz və narahatlığınız başadüşüləndir. Bəli, reaksiya verilməlidir. Bəşəriyyət düşməninin istifadə etdiyi üsuldan nümunə götürməliyik. Ən yaxşı mübarizə budur ki, dünyada oyanmış saysız-hesabsız fitrətlər münasib geyimi seçməklə istehlakçı mədəniyyətə qarşı çıxsınlar, kapitalistlərin təxribatını zərərsizləşdirsinlər. Geyimlə mədəniyyət arasında əlaqə o qədər güclüdür ki, yad bir adam bir yerə gedəndə onu tanıtdıran ilk əlamət geyimidir. Sanki insanlar öz paltarları ilə biri-biri ilə danışırlar, hərə öz geyimi ilə özünü təqdim edir, kim olduğunu, haradan gəldiyini, hansı dünyaya və hansı mədəniyyətə aid olduğunu göstərir. Biz də öz geyimimizlə praktik şəkildə göstərməliyik ki, kapitalist dünyasına və mədəniyyətinə məxsus deyilik. Gərək onların ardıcılı olmadığımızı və kor-koranə təqlidə nifrət etdiyimizi bəlli edək. Dünya əhalisi bu istiqamətə doğru hərəkətdədir ki, xalqların əksəriyyət, onlardan ayrı yol tutanların isə azlıq olduğunu göstərsinlər. Bu hərəkət təyinat nöqtəsinə çatanda həmin qrupun hegemonluğu və istismarçılığı da bitəcək. Çünki onların azlıq olması həm özlərinə, həm də digərlərinə aşkar olacaq. Biz münasib geyinməklə, düşüncələrimizi kapitalizm ideologiyasından təmizləməklə, maddiyyata qərq olmamaqla bu hərəkəti sürətləndirə bilərik.

Kapitalizmin böyük maraqları naminə bütün dünyada təbliğ etdiyi mədəniyyət bədənə ifrat diqqət mədəniyyətidir. Onlar zorla bizim beyinlərimizə salmaq istəyirlər ki, hər şey bədənə xidmət etməlidir. Bu zaman

isə elm, əxlaq, mənəviyyat, paklıq, səmimiyyət, təkamül, tərbiyə, məhəbbət, hörmət – hər şey bədənə qurban verilir, bədənə və zahirə diqqət üçün istehlakçılıq hər yeri bürüyür. Kapitalizm ideologiyasının məqsədi budur. Bu baxımdan, bu azlığa qarşı ən yaxşı mübarizə yolu mədəniyyətlərinə qarşı mübarizədir və örtünmə ən mühüm mədəniyyət nümunəsidir.

Onlar bədəni çılpaq etmək istəyirlər, bizsə onu örtürük. Onlar istəyirlər ki, bizim fikrimiz yalnız bədənimizdə olsun, bizsə çalışırıq bədənə təbii və adi diqqətdən əlavə, həyatın digər zərurətlərinə də diqqət yetirək. Yaddan çıxarmayın, soyuq müharibənin xüsusiyyəti budur ki, onda "mən düşmənəm" deyən heç bir açıq düşmənlik tapa bilməzsiniz. Əgər düşmən gizlicə sizə zərbə vurmaq istəyirsə, şübhəsiz, dost görkəmində yaxınlaşıb zəhərini tökəcək. Soyuq müharibənin xüsusiyyəti budur.

Sizin çoxunuz Adəmlə Həvvanın əhvalatını oxumusunuz. Şeytan onları aldatmaq istəyəndə dost görkəmində yaxınlaşıb demişdi: "And içirəm ki, mən sizin xeyirxahınızam".[1] Kapitalist sistem tərəfindən idarə olunan əksər peyk kanallarında, xüsusən də müsəlmanlar və iranlılar üçün yayımlanan kanallarda çox pozğun səhnələr nümayiş etdirilmir; çünki izləyici bunu başa düşər. Düşmənin dost geyiminə bürünməsi budur. Onlar bununla ən azı iki məqsədi rəhbər tuturlar: biri budur ki, özlərini çirkinliklərdən və həyasızlıqdan uzaq nəcabətli insani mədəniyyətləri müdafiə edən kimi göstərib izləyicilərin etimadını qazansınlar və istədiklərini onlara yeritsinlər; ikincisi budur ki, qayçılanmış səhnələr izləyicinin, xüsusən də subay gəncin xəyal gücünü təhrik

---

[1] Əraf, 21.

edir, bu xəyalların cismə və cana vurduğu zərbə isə həmin səhnəni görməkdən vurulan zərbədən güclü olmasa da, zəif deyil.

İraq Qərb ölkələrinin dəstəyi ilə səkkiz il bizimlə müharibə apardı, tariximizdə unudulmaz və möhtəşəm səhnələrə səbəb oldu. Onların hamısı döyüşçülərimizin ayıqlığından, güclü tövhid inancından və dünya həyatına dərin, kompleks və xüsusi baxış tərzindən xəbər verirdi. Bizim şəhidlərimizin vəsiyyətnamələrində gözə dəyən məqamlardan biri onların hicabı tövsiyə etməsidir. Şəhid vəsiyyətnamələrinin çoxunda qadın çadrasının qaralığının şəhid qanının qırmızısından önəmli olduğu vurğulanmışdır. Məsələn, şəhidlərin biri vəsiyyətnaməsində yazmışdır: "Bacım, müstəmləkə hər şeydən çox sənin çadrandan qorxur, nəinki mənim qanımın qırmızı rəngindən!"[1] Başqa bir cümlə isə iki-üç gün mənim beynimi məşğul etmişdi. O cümlə budur: "Allaha and olsun, əgər hər dəfə qanımın tökülməsi ilə bir hicabsızın hicabla örtünəcəyini bilsəydim, minlərlə dəfə ölməyə razı olardım".[2]

Şəhidlərin baxışında bu qədər xeyirxahlıq, digərlərini düşünmək və qadınlar üçün örtünmənin əhəmiyyəti maraqlı və düşündürücü deyil?! Pəhləvilər dövründə inqilabçı və mübariz bir qadının adı tarixə düşmüşdür.[3] SAVAK məmurları onu işgəncəyə aparanda qışqırırmış:

---

[1] Müctəhidi Sistani, İslam hicabından dərslər, s. 420. (Şəhid Yəqub İbrahimnejad 1963-cü ildə Minab rayonunun Bemani kəndində dünyaya göz açmışdı. O, orta məktəbi bitirəndən sonra pasdar kimi cəbhəyə yollandı, 11.02.86 tarixində İraqda neft platformasının havadan bombardmanı nəticəsində şəhadətə qovuşdu və Rudan rayonunun Şəhidlər gülzarı məzarlığında torpağa tapşırıldı).

[2] İslamlu, Gülün hərimi, s. 93.

[3] Şəhid Teyyibə Vaizi.

"Məni öldürün, amma çadramı açmayın!" Yaxud bəzi böyük ruhanilərdən və təqlid müctəhidlərindən belə nəql olunmuşdur: "Xanımların çadrası bizim əbamızdan dəyərlidir".[1]

Xanım doktor zalda çıxış edərkən Mişel yenə İslam mərkəzinin binasının önündə peyda olub hay-küyə başlamışdı. O qışqırırdı: "Terrorçular! Bizdən nə istəyirsiniz? Buranın rəisi kimdir? Bacımı azad edin!" Mərkəzin bir neçə işçisi onu sakitləşdirmək üçün küçəyə çıxmışdı, amma xeyri olmurdu. Cənab Tehraniyə xəbər verdilər. O, cəld bayıra çıxdı, yavaş-yavaş, amma möhkəm və qüdrətlə yaxınlaşıb Mişelə dedi: "Buyurun. Bir hadisə baş verib?" Uca boyu, uzun saçı və iri cüssəsi olan Mişel hirslə və bərkdən dedi: "Bacımı oğurlamısınız! Onu bizə qaytarmalısınız! O, mənasız parça ilə başını örtməyəcək!" Cənab Tehrani oğlanın əlindən tutub danışmaq istəyəndə Saranın ata-anası da gəldi. Oğlan sanki daha da cəsarətlənib geri çəkildi, qışqırmağa və qolunu əsəbi halda tez-tez cənab Tehraniyə tərəf uzatmağa başladı. Bu halda binaya girmək istəyirdi.

Zalda doktor Məcidi söhbətini davam etdirirdi:

– Öz müəllimim cənab doktor Tehranidən öyrəndiyim bir ifadəni sizinlə bölüşmək istəyirəm: "Hicab və örtünmə hamı, xüsusən də xanımlar üçün dillidir". Yəni bizimlə danışır, deyir ki, bir qadın öz insanlığını və qadın duyğularını qorumaqla, güclülərin əlində alət olmamaqla inkişaf edə, ucala və bacarıqlara yiyələnə bilər. Bu, güc və sərvət sahibləri üçün çox narahatedicidir. Çünki kapitalizm var gücü ilə çalışır ki, münasib örtünməyə

[1] İsfahanın teleradio mərkəzinin xəbər agentliyi, 12.08.17.

mane olsun, onu qadının inkişafına əngəl kimi göstərsin. Buna görə heç vaxt bu dilli örtünməyə dözə bilmir.

Saranın yadına bədən dili mövzusu düşdü. Qərara alınmışdı ki, Əfsanə sayt üçün bu mövzuda məqalə yazsın. Heyifsilənərək ah çəkdi, yenə dua etdi ki, Əfsanəni sağ görə bilsin. Özünü danlayır, deyirdi: "Gərək onun üçün nəsə edəydim. Ən azı..."

Xanım Məcidi sözünə davam etdi:

– Keçmiş Fransa prezidenti Nikola Sarkozinin maraqlı bir cümləsi var; məlum deyil ki, qadını müdafiə edir, yoxsa ona hegemonluq edir. O demişdi: "Qadınlar başlarına çadra atmaqla hüquqlarını itirmək haqqına malik deyillər".[1]

Digər geyimlər, hətta çılpaqlıq da dillidir. Münasib örtünmənin mesajı isə kapitalizmin varlığını hədəf seçmiş xüsusi mesajdır. Pulpərəstlərin, pul və güc sahiblərinin şiə ruhanilərinə qarşı güclü ədavəti onların düşüncə və fikirlərinə, ədalət və azadlıq tərəfdarı olduqlarına, xüsusi bir azlığın imperializminə və ekspansiyasına qarşı olduqlarına görədir. Əgər əba və əmmamə geymiş birisi maddiyyata meyillə, yanlış düşüncələrlə güc və sərvət sahiblərinə tərəfdar olsaydı, onları haqlı bilsəydi, nəinki kapitalistlərin nifrət mərkəzinə çevrilməzdi, hətta onu dəstəkləyər, bu əba və əmmamədən maksimum sui-istifadə edərdilər.

Saranın qardaşı qışqıra-qışqıra zala yaxınlaşdı. Zalın əsas qapısı tərəfdən səs-küy gələndən sonra doktor Məcidinin çıxışı dayandı. İştirakçılar oturduqları yerdə və ya yarıqalxmış vəziyyətdə geri döndülər. Sara o saat qardaşının səsini tanıdı, rəngi qaçdı. O qışqıra-qışqıra

[1] Fars xəbər agentliyi, 24.07.09.

yaxınlaşır, kim mane olmaq istəyirdisə yumruq və təpiklə vururdu. Saranın ata-anası da yalvararaq ondan sakitləşməsini və evə qayıtmasını istəyirdilər. Mişel zala girib qışqırdı: "Sara! Sara! Hardasan? Sənə demədim ki, bu lənətə gəlmiş terror mərkəzinə gəlməyəcəksən?! Səni öldürəcəyəm, axmaq! Hamınız bu qanunsuz işlərinizi yığışdırın, yoxsa özüm yığışdıraram!"

Hamı narahat və həyəcanlı idi. Doktor Məcidi bir neçə saniyə stolun arxasında dayandı, sonra irəli keçib sürətlə səhnədən zalın soluna, giriş qapısının yaxınlığına qədər məsafəni qət etdi və Mişelin qarşısında dayandı. Mişel özündən asılı olmadan hərəkətsiz qaldı. Doktor Məcidi bir əli ilə çadrasının önünü tutduğu halda digər əlinin işarə barmağını Mişelə uzadıb qüdrətli və yavaş səslə dedi:

– Sakit ol və qulaq as! İndi neçənci ildir? Təqvimə baxmısan?! Bura haradır? Bu insanlar kimdir? Təbii ki, bilmirsən! Bunların hamısı sənin yerlilərindir, bu seminar da rəsmi icazə ilə keçirilir. Bir terrorçunun birinci xüsusiyyəti bilirsən nədir? Qayda-qanunlardan qaçmaq. İndi de görüm, kim qanunu ayaq altına qoyur: biz, iştirakçılar, yoxsa belə qeyri-əxlaqi və qanunsuz davranış göstərən siz?!

Sara yarpaq kimi əsirdi. Mişel hərəkətsiz qalıb gözlərini bir nöqtəyə dikmişdi. Seminar da pozulmuşdu; bəziləri oturacaqlardan qalxıb dəhlizdə dayanmışdılar, bəziləri iki-iki toplaşıb məsələni təhlil edir, təxminlərini bölüşürdülər. Sara qorxudan əsə-əsə doktor Məcidiyə yaxınlaşdı. Maşa da yanında idi, əlini möhkəm tutub onu qorumağa çalışırdı, amma özü Saradan betər idi; əlləri buz kimi soyumuşdu, titrəyirdi. Cənab Tehrani Saranın ata və anasının yanında dayanmışdı, yavaşca Mişelə yaxınlaşıb

onu sakitləşdirməyə çalışırdı. Doktor Məcidi danışıb qurtarandan sonra Mişel əli ilə Saranı göstərib dedi:

– Heç kimlə işim yoxdur. Amma siz nadan qızın beynini yuyub bu gülməli parçalarla başını örtə bilməzsiniz!

O, Saraya yaxınlaşmaq istəyəndə cənab Tehrani biləyindən möhkəm tutdu, gözlərini onun gözlərinə dikib dedi:

– Əminsən ki, bütün bu haray-həşir bu parçaya görədir? Əminsən ki, sabah onun düşüncə və etiqadları ilə problemin olmayacaq?

– Onun düşüncələrini bundan öncə də qəbul etmirdim, – Mişel hirslə dedi, – mənə önəmli də deyil. Mənim problemim bu parçayladır.

– Çox gözəl! – cənab Tehrani dedi. – Hamı eşitdi ki, yalnız bu parça ilə problemin olduğunu söylədin. Onda... Sara xanım, böyük din alimlərinin fikrinə uyğun olaraq, yeni müsəlman olmuş bir xanımın İslamı, hətta canı hicaba görə qaçılmaz təhlükəyə düşəndə və heç bir yolu olmasa, başını aça bilər.[1]

Bir neçə saniyə ortaya ağır və mənalı sükut çökdü. Hamı lal-dinməz bir-birinə baxırdı. Heç kim belə bir hökm gözləmirdi. İştirakçıların çoxu, İslam məsələlərinə və şəriət qanunlarına oradakıların hamısından bilikli bir şəxs kimi, cənab Tehraninin Mişelə sərt etiraz edəcəyini təxmin edirdi. Cənab Tehrani isə sakitcə Saraya doğru bir addım atıb sözünə davam etdi:

---

[1] İslam fiqhinə görə, çarəsiz bir şərait yarandıqda şəriət hökmü dəyişir. Misal üçün, bir insan səhrada ac və ya susuz qalıb ölüm təhlükəsi ilə üzləşdikdə hətta aclığını aradan qaldırmaq üçün ölü heyvan ətindən və ya susuzluğunu aradan qaldırmaq üçün spirtli bir içkidən istifadə edə bilər.

– Hicabı insanlara lazım bilən, bəndələrinə üstünlük tacı kimi təyin edən hikmətli və mehriban Allah sənin şəraitin kimi çarəsiz vəziyyətlərdə örtünməyi lazım bilmir. Qızım, ölümlə hədələndiyin bir şəraitdə həqiqət yoluna davam etmək üçün müvəqqəti olaraq hicabını aç. İnşallah, gələcəkdə Allah sənə bir yol açar.

Fərhad bir neçə addım aralıda dayanıb olduqca narahat halda baş verənləri seyr edirdi. O, tez-tez dodağını dişləyir, əlini bir az qaldırır, nəsə demək istəyirdi. Sanki cənab Tehranini çağırmaq və ya bir cümlə söyləməyə çalışdı, amma dərhal əlini endirib hərəkətsiz dayandı. Hamı düz cənab Tehraninin qarşısında dayanmış Saraya baxırdı. Onun birmetrlik ətrafı təxminən boş idi. Hamı yavaş-yavaş geri çəkildi; bəlkə də, Saranı daha yaxşı kadrda görmək istəyirdilər. Hətta Maşa da ayağını bir az geri qoydu, amma üz və hərəkətlərindən aydın sezilən təşviş içində yenə yaxınlaşıb böyük həyəcanla gah Saraya, gah Mişelə, gah da cənab Tehraniyə baxmağa başladı.

Mişel Saraya doğru sıçrayıb nəsə demək istəyəndə cənab Tehrani arxası ona və üzü Saraya dayanmış halda iki qolunu da açıb onu saxladı. Mişel dayanıb qaşlarını düyünlədi, bir cənab Tehraniyə, bir də Saraya baxdı. Sara cənab Tehraniyə baxırdı, amma başqa yeri görürdü, havanın zərrələri arasında bir yeri. Göz yaşları gözlərini doldurmuşdu. O, əllərini yavaş-yavaş başörtüyünə doğru qaldırdı. Fərhad əlini sinəsinə qoyub sıxdı, daş parçası udurmuş kimi udqunub ağzını açmaq istədi, amma bacarmadı. Saranın gözlərindən iki damla yaş süzüldü, əllərini başına qoyub titrək, amma əmin səslə:

– Əsla! Mən bu taca yeni yiyələnmişəm. Mən heç kimi onu təhqir etməyə, ona əl uzatmağa qoymaram! Hətta canımı verməli olsam belə! – deyib qəzəblə Mişelə baxdı.

Saranın sözləri və reaksiyası hamını heyrətdən dondurdu. Cənab Tehrani başını aşağı salıb gözlərinə əlini çəkdi. Sara Mişelə doğru bir addım yaxınlaşdı, düz gözlərinin içinə baxa-baxa dedi:

– Mən bu dünyaya dəyərli olmağa gəlmişəm, dəyər-dəyməzinə yaşamağa yox!

Maşa, doktor Məcidi və iştirakçıların çoxu təsirləndilər. Çoxu gözlərinin yaşını silirdi. Mişel hirslə havaya bir yumruq atdı, hamıya arxasını çevirib iri addımlarla qapıya doğru getdi.

Sara ucadan dedi:

– Mişel! Mən heç vaxt bu parçanı başımdan götürməyəcəyəm. Bunu yadında saxla!

İnsanlar pərakəndə halda dayanmış və ya oturmuşdular, kiçik çevrələrdə bir-biri ilə pıçıldaşırdılar. Cənab Tehrani mikrofonun arxasına keçib baş verənlərə görə hamıdan üzr istədi və Saranı bir qəhrəman kimi alqışlayıb dedi:

– Düzgün etiqadı bəyan etmək cəsarəti alqışalayiqdir və şübhəsiz, insanın ürəkdən imanına bağlıdır. Biz hamılıqla bu əziz qızımıza və bacımıza dua edəcəyik. Ümidvarıq ki, həmişə haqq və həqiqət yolunda belə möhkəm qalsın və Allahın sonsuz yardımları onunla olsun!

Cənab Tehrani seminarın başa çatdığını elan edib iştirakçıları qəlyanaltıya dəvət etdi.

Zal boşaldı. Sara ilə Maşa da xanım Məcidi və doktor Tehrani ilə sağollaşandan sonra yavaş-yavaş çıxışa doğru addımlamağa başladılar. Bu zaman birdən bir səs Saranı çağırdı:

– Sara xanım!

Sara ilə Maşa səsə doğru döndülər. Fərhad idi. Maşa Saranın qulağına yaxınlaşıb zarafata:

– Bu oğlan hələ də elmi işi ilə girincdir? – deyə pıçıldayıb Saraya göz vurdu.

– Qoy görüm nə deyir, – Sara Maşanın qoluna vurub dedi. – Yadımdan çıxmışdı ki...

– Hə də... mən də qoyunam axı...

Sara gülməyinin qarşısını alıb Maşadan bir addım aralandı, Fərhada doğru gedib dayandı.

– Bağışlayın, demək istəyirdim ki... – Fərhad dedi.

– Bağışlayın, mənim şəraitim uyğun olmadı bu həftə... Elmi işiniz hara çatıb?

– Elmi iş?! Yox, mənim başqa bir istəyim var...

– Buyurun.

Fərhadın üzü qızardı, bir qədər yerə, bir qədər də Saranın üzünə baxıb dedi:

– Mən bir müddətdir... demək istəyirəm ki... siz mənimlə ailə qurarsınız?

– Nə?!

– Bağışlayın, əsas mətləbə keçməyə çox tələsdim... Amma, həqiqətən, çox səbir elədim. Çoxdandır sizi düşünürəm... Mən... Amerikaya təhsil üçün gəlmişəm, macəram uzundur. Xülasəsi budur ki, sizi sevirəm, amma həvəs üzündən deyil. Siz İslam dinini qəbul edəndən sonra mənim sevgim də qat-qat artdı. Öz əlimdə deyil... Lütfən, məni rədd etməyin.

Maşa gülümsəyib yavaşca irəliyə bir addım atdı, Saranın arxasında dayanıb qulağına pıçıldadı:

– Yəni “ay lav yu".

Sara Maşaya baxıb qaşlarını bir az qaldırdı, Fərhada dedi:

– Nə deyəcəyimi bilmirəm. Siz...

– Mümkünsə, bu haqda danışarıq, – Fərhad dedi. – Cənab Tehrani və doktor Məcidi ilə məsləhətləşə bilərik.

– Vaxt verin, fikirləşim.

– Əlbəttə... ancaq vaxt azdır, mənim iqamət müddətim bu günlərdə bitir.

– Okey, – Sara başını yelləyib dedi. – Bu bir neçə gündə mütləq cavab verərəm.

Fərhad məmnunluq ifadəsi olan təbəssümlə və hörmətlə sağollaşıb getdi. Onlar da yola düzəldilər.

– Onu sevirsən? – deyə Maşa soruşdu.

Sara Maşaya baxdı, gülə-gülə dedi:

– Maşa, əl çəkmirsən ha!

– De, tez, cəld, sürətli! Sevirsən? – deyə Maşa Saranın çiyninə yumruq vurdu.

– Bilirsən... – Sara gülüb dedi. – Zənnimcə...

– Bəsdir! Daha bəsdir! Başa düşdüm. İndi de görüm mən nə geyinim?

***

Macəra dolu bir neçə günü arxada qoymuş Sara Maşanın çarpayısına uzanmış, gözlərini pəncərənin kənarından ulduzlara dikmişdi. O, evdə vəziyyət sakitləşənə qədər atasının təklifi ilə Maşanın yanında qalırdı.

Sara dərin fikrə gedib son bir neçə gündə baş verənləri və ata-anasının rəftarını yadına salırdı. Onlar Mişelin haray-həşir qopardığı gün bir neçə dəqiqə doktor Tehraniyə qonaq olmuşdular. Oradan qayıdandan sonra atasının rəftarı çox dəyişmişdi, Sara ilə mehriban danışırdı. Sara heç vaxt düşünməzdi ki, atası Mişellə onun arasında, özü də hicab kimi bir məsələdə onu seçə bilər. Mişel gedəndən sonra Saranın ata-anası cənab Tehraninin və doktor Məcidinin israrlı dəvəti ilə İslam mərkəzinə daxil oldular. Onlara şərbət və şirniyyat gətirdilər. Onlar baş verənlərdən narahat halda indiyədək terrorçu

adlandırdıqları insanların səmimi davranışlarını təəccüb və heyrətlə izləyirdilər. Xanım doktorla cənab Tehrani onlarla səmimi dəqiqələr keçirməyə çalışdılar. Sara sevinirdi ki, cənab Tehrani özünün güclü və psixoloji dərrakəsinə, habelə Saranın atası barədə verdiyi məlumatlara görə çox ağıllı rəftar etdi, ilk görüşdə kitabxananı ona göstərib dedi:

"Siz bu gündən bizim dostlarımıza əlavə olunursunuz. Bu kitabxana bu gündən sizin ixtiyarınızdadır, ondan istifadə edə bilərsiniz. Birinci mərtəbədə kitabların yerləşdiyi bölmə var. Hansı kitabı istəsəniz, sizə oxumağa verərik. Mütaliə üçün birinci dərəcəli zalımız da var, bütün dostlarımız təsdiq edir ki, çox sakit və ürəkaçan yerdir. Mütaliə zalına gedən dəhlizdə İrana aid çox gözəl əl işləri ilə tanış ola, biz iranlıların zövqü və sənəti ilə qəlbinizi cilalaya bilərsiniz. Mənim təklifim budur ki, hörmətli həyat yoldaşınızla birlikdə hər gün bir saat bizə qonaq olasınız. Peşman olmazsınız. İndi isə buyurun, birinci dərəcəli İsfahan gəzi!"

Sara bu səhnələri, doktor Məcidinin onunla və anası ilə mehriban rəftarını görəndə ümidi yüz qat atdı. İndi, üstündən iki gün keçəndən sonra hiss edirdi ki, ürəyi çox sakitdir və Mişelin davranışlarını görməzdən gələ bilər. Onun Mişelə daha çox ürəyi yanırdı, beynini bir dəstə imperialist mediaya tapşırdığına, həqiqətin dərkindən və onun şirinliyindən məhrum olduğuna görə. O, ürəyində qardaşı üçün dua edir, Allahdan istəyirdi ki, həqiqəti qəbul etmək üçün onun qəlbini yumşaltsın.

Maşa yerdə uzanıb notbukunda işinə aid qeyd səhifələrini aşağı-yuxarı çevirirdi.

O dedi:

– Sara, yeməyə bir şey gətirimmi? Boş mədə ilə yatma, qız.

– Maşa, bilirsən nə var? Məncə, Allahın mənə verdiyi nemətlərdən biri də sənin kimi yaxşı dostdur. Fikirləşirəm ki, əgər sən olmasaydın, mən nə edərdim?

Maşa həmişəki zarafatcıl ədası ilə dedi:

– Heç nə... kartonların üstündə yatardın... Əlbəttə, bəlkə də, mənim kimi başqa bir zavallını tora keçirib beynini yuyardın, həmişə də onun otağında tirlənərdin. Qalx! Sənə bir stəkan süd gətirəcəyəm, gərək peçenye ilə yeyəsən. Yoxsa yerin küçədir!

Sara gülüb taxtın kənarında oturdu. Bu bir neçə həftənin bütün günlərini yadına salır, Allahın ona qarşı mehribanlığını necə hiss etdiyini düşünürdü. Arzu edirdi ki, bir gün Mişel də onun düşüncələrinə hörmətlə yanaşsın və onları qəbul etsin. Lakin Saranın ürəyində bir narahatlıq vardı, bütün bu gözəlliklər arasından baş qaldırıb onu incidirdi. Görəsən, Mişel Fərhadı onun həyat yoldaşı olaraq qəbul edərmi?

***

Ertəsi gün Sara ilə Maşa danışdıqları yerdə telefonlarına "Bütün dünya qadınları üçün" kanalından bir mesaj gəldi: "Salam, əziz iştirakçılar! Xanım doktor Məcidinin iqamət müddəti ABŞ dövləti tərəfindən uzadılmadığına görə "Bütün dünya qadınları üçün" seminarlarının sonuncusu bu həftə çərşənbə günü saat 15:00-da Nyu-York İslam Mərkəzində keçiriləcək".

Sara ilə Maşa qəm-kədərlə bir-birinə baxdılar. Sanki canlarının bir parçası onlardan ayrılacaqdı. Sara dedi:

– Yəqin ki, xanım Məcidi də iqamətində problem yaranacağını bilirmiş, ona görə dünənki seminarı həmişəkindən uzun elədi.

Qərara gəldilər ki, ertəsi gün piyada yürüşdən sonra İslam mərkəzinə gedib doktor Məcidinin son günlərindən daha çox istifadə etsinlər. Saranın atası ona zəng vurub bildirdi ki, Mişel dostları ilə birhəftəlik səfərə gedib və o, evə gələ bilər.

Sara inanmazdı ki, evə çatanda atası onu qapıda qarşılayacaq, anası bişirdiyi dadlı xörəklə təəccübləndirəcək. Gözləri heyrətdən bərəlmiş və sevindiyindən kövrəlmiş halda ata-anasına baxıb dedi:

– Burda nə baş verib? Ana! Ata! Nəsə yanlışlıq olub?!

– Oh, Sara! – anası onu qucaqlayıb dedi. – Biz səndən ötrü narahatıq!

***

Çərşənbə axşamı səhər saat 08:00-da Sara ilə Maşa İslam mərkəzinə daxil olub cənab Tehraninin kabinetinə doğru addımladılar. Seminarlarda iştirak edən bəzi adamlar onlardan da tez gəlmişdilər. Çoxu deyirdi ki, sabah seminara gələ bilməyəcəyik, xanım doktorla sağollaşmağa gəlmişik. Bəzilərinin də onunla işi vardı, yaxud məsləhət istəyirdilər. Az sonra cənab Tehrani və mərkəzin işçilərindən bir neçə nəfər kabinetdən çıxdılar. Hamısı cənab Tehranini dövrəyə alıb narahat halda məsələnin səbəbini soruşmağa başladı. Bəziləri təklif edirdilər ki, Daxili İşlər Nazirliyinə məktub yazılsın. Cənab Tehrani dedi:

– Biz çox çalışdıq, amma olmadı. Təəssüf ki, xanım doktor çərşənbə günü seminardan sonra Amerikanı tərk edəcək.

Doktor Məcidi kabinetdən çıxanda bütün baxışlar ona yönəldi. Hamı yaxınlaşır, bəziləri öz duyğularını ifadə edir, darıxacaqlarını söyləyir və özlərindən asılı olmadan ağlayırdılar. Xanım doktor səbirlə və mehribancasına

hamıya cavab verir, tövsiyələrini söyləyir, ümid və təskinlik verir, ətrafını sarıb ona sevgilərini bildirən xanımlara öz duyğularını ifadə edirdi. Bir neçə dəqiqədən sonra bəziləri sağollaşıb getdilər, az adam qaldı. Xanım Kiya ağlayır, kövrək səslə və göz yaşları içində doktor Məcidi ilə danışmaq istəyirdi. Xanım doktor onun qarşısında dayanıb mehriban tərzdə dedi:

– Nə olub, əzizim?

– Heç nə... ancaq, – Kiya ağlaya-gülə dedi.

Burnunun ucu və gözlərinin ətrafı qızarmışdı. Göz yaşlarını silib saçını alnından geri çəkdi və dedi:

– Mənim böyük imkanlarım var. Atam varlı adamdı, mənə böyük irs qoyub. Amma... mən həmişə depressiyada olmuşam. İndi deyəcəyim yeganə söz budur ki, sizi heç vaxt unutmayacağam. Sanki bir ölünü diriltdiniz. Bir müddətdir dünyaya, həyata və özümə başqa cür baxıram. Sizin sözləriniz məni çox sakitləşdirib. Mənim... bağışlayın... çadralı xanımlardan xoşum gəlmirdi, amma... sizi çox sevirəm. Sizə o qədər bağlanmışam ki, hətta geyimimin sizin kimi olmasını istəyirəm. Baxmayaraq ki... yox... çadralı qadınlar barədə nə düşündüyümü deməyəcəyəm. Özüm çadralı bir qadınla üzləşməmişdim. Uşaqlıqdan Amerikada olmuşam. Bildim ki, eşitdiyim bütün sözlər yalanmış. Əlbəttə, düşünürəm ki, hələ çadra örtməyə cürətim çatmaz. Mümkünsə, bizə elektron poçt ünvanınızı və ya telefon nömrənizi verin, ya da bu barədə bizə deyəcəyiniz varsa, deyin...

Saçını at quyruğu formasında yığmış, qoltuğunun altında kitab və bülleten olan başqa bir gənc xanım yaxınlaşıb dedi:

– Bu xanımın bütün sözləri mənim də sözlərimdir. Mən Mariyayam, Mariya Əbu Qari. Miqrant deyiləm, Nyu-

Yorkdanam. Atam əlcəzairli, anamsa amerikandır. Mən də sizin geyiminizi çox sevirəm, amma düşünürəm ki, əsla sizin kimi xarakterə sahib ola bilmərəm. Amerika mühiti fərqlidir. Bu mühitdə böyümüş bizlər heç vaxt çadra örtə bilmərik. Çünki özümüzdə buna uyğun ruhiyyə görmürük.

Maşa bir qədər aralıda bir nəfərlə danışan cənab Tehraniyə yaxınlaşıb nəsə dedi. Cənab Tehrani Maşaya işarə verib kabinetini göstərdi. Maşa tez qayıtdı, cənab Tehraninin kabinetinin qapısını açıb doktor Məcidiyə dedi:

– Xanım doktor, buyurun. Mən cənab Tehranidən icazə aldım. Belə həm siz rahat olarsınız, həm də biz sizinlə arxayın danışa bilərik.

Doktor Məcidi gülümsəyib təşəkkürünü bildirdi, ayaq üstə dayanmış xanımları içəri dəvət etdi. Hamı stulda oturdu. Doktor Məcidi stolun arxasındakı stulu bir qədər irəli çəkib oturdu və danışmağa başladı:

– Allaha şükür! Bütün bu gözəlliklərə, gördüyüm qəşəng dəyişikliklərə, daxilinizdəki pak ruha və ayıq fitrətə görə şükür olsun! Bəli... həm xanım Kiyaya, həm də siz əziz Mariyaya cavab olaraq deməliyəm ki... böyük məqsədlərə çatmaq üçün kiçik işlərdən başlamalı olduğunuz heç vaxt yadınızdan çıxmasın. Məsələn, bir adamın qırx gün dar paltar geyməməsi çox çətindir?

– Düşünmürəm... yox, – xanım Kiya təbəssümlə dedi.

Doktor Məcidi dedi:

– İkinci qırx gündə, məsələn, kosmetikanı kənara qoysun, yaxud azaltsın. Beləliklə üçüncü qırx gündə örtünmə asan olacaq. Çılpaqlıq mədəniyyətini yaymaqda maraqlı olanlar belə tədrici üsuldan istifadə edirlər, yavaş-yavaş azdan başlayırlar, amma azla qane olmurlar. Əvvəl sadə paltarları bərbəzəkli paltarlarla dəyişdirirlər, sonra şalları qısa yaylıqlarla, sonra qısa yaylığı papaqla. Beləcə

irəliləyirlər və nəhayət, çılpaq olmaq adi və bəzən də dəyərli bir hala çevrilir.

– Tamamilə doğrudur, – xanım Kiya dedi, – razıyam. Mütləq bundan istifadə edəcəyəm.

Doktor söhbətini davam etdirdi:

– Bəlkə də, seminarlarda eşitmisiniz, demişəm ki, paltarın və geyimin ərəb, hind, türk, amerikan, iranlı və ya başqa bir millətə məxsus olmasının fərqi yoxdur, əsas olan cəmiyyətə cinsi siqnal ötürməməsidir. Çadraya gəldikdə isə onu digər geyimlərdən fərqləndirən üç əsas xüsusiyyəti var:

Birincisi budur ki, İslami geyimdir. Bu, ən mühüm hicab ayələrindən olan Əhzab surəsinin 59-cu ayəsindəki "cəlabib" sözünə görədir. Bu söz başdan-ayağa örtən geyim, ya da çadra deməkdir.[1] Ümm-Sələmə belə nəql edir: "Bu ayə nazil olanda Ənsar qadınları başdan-ayağa bütün bədənini örtən qara geyimlə evlərindən çıxmağa başladılar".[2]

İkinci xüsusiyyəti İran geyimi olmasıdır. Bu da tarixdə o qədər aydındır ki, heç bir şübhəyə yer qalmır. İlamlılar, aşurilər və madlar kimi bütün qədim sivilizasiyalarda çadranı görə bilərsiniz. Həxamənişilər dövründən isə çox aydın şəkildə nəzərə çarpır. Yadınızda olsa, geyimin tarixi mövzusunda bu barədə çoxlu nümunələr qeyd olundu. Deyirlər ki, keçmişdə çadra yerinə “cadur”dan istifadə

---

[1] Ən önəmli lüğət alimlərindən olan Cövhəri (vəfatı: 393 h.q.) özünün “Sihah” adlı lüğət kitabının birinci cildinin 101-ci səhifəsində və lüğət böyüklərindən başqa birisi olan İbn Əsir (vəfatı: 606, h.q.) “əl-Nəhayə” kitabının 377-ci səhifəsində “cilbab”ı “milhəfə”, yəni başdan-ayağa örtən geyim və çadra kimi tərcümə etmişlər. (Bax: Quran lüğəti, c. 2, s. 42).

[2] Hatəmi, s. 108.

olunurmuş. Bu isə dürrün saxlandığı yer deməkdir. Hər halda, İslam və İran geyimi olmasından ibarət iki cəhətinə görə çadranı Abbasilər və ya Qacarlar dövrünə aid etməyin ağ yalan olduğu üzə çıxır.

Çadranın üçüncü xüsusiyyətini, yəni "kapitalist sistemə qarşı mübarizə bayrağı" olduğunu dərk etmək üçün keçən seminarın sonunda şəhidlərin vəsiyyətnamələrindən və böyüklərin cümlələrindən eşitdiklərinizi indi deyəcəyim bir neçə məqama əlavə edin. Çadranın üçüncü xüsusiyyəti o qədər əhəmiyyətlidir ki, Frants Fanon Fransanın Əlcəzairdəki müstəmləkəçiliyi barədə deyir: "Müstəmləkə maksimum səyini çadra üzərində mərkəzləşdirib. Hər bir çadra kənara qoyulanda müstəmləkə qarşısında o zamana qədər mümkün olmayan yeni üfüq açılır".[1]

Müstəmləkəçilər İranda da çadraya xüsusi həssaslıq göstərdilər. İngiltərə casusu Hemfer demişdi: "Qadınlara başa salmaq lazımdır ki, çadra və əba hicabı İslama aid deyil".[2]

Deyilənlərə əsasən, böyüklərin, şəhidlərin və azadlıqsevərlərin bu narahatlıqları səbəbsiz deyil. Məlumdur ki, çadra mühüm və strateji bir məsələdir; elə bir səddir ki, uçsa, digər sədlərin uçması da qaçılmaz olar. Sionist Eduard Şrak belə etiraf edir: "Çadra hər bir dördyolda inqilabı nümayiş etdirən bir simvoldur. Çadra ilə bu hissi yaratmaq olar ki, inqilab yaşayır və əbədidir".[3]

Görün çadraların inqilabı kapitalist sistemə necə yara vurub ki, çadra görmək onlara bu qədər ağır və dözülməz olub. Həqiqətən, bir qadın üçün necə şirin və qürurludur ki, öz geyimi ilə kapitalistlərin və bəşəriyyət

---

[1] Loğmani, s. 107.
[2] İslamlu, Gülün hərimi, s. 113.
[3] Müctəhidi Sistani, s. 418.

düşmənlərinin hirslənməsinə səbəb olur. Həqiqətən, insanların şərafəti və dəyəri bundadır ki, özlərini istismar olunmaq rəzalətindən xilas etsinlər. Kapitalist sistemdə başqa bir yüksək rütbəli şəxs belə deyir: "İranın hər bir küçə və döngəsində hər çadralı qadın bayraq kimidir".[1] Aman bu bayraqdan ki, onun iti tərəfi tikan kimi müstəmləkənin gözünə girir! O, sözünün davamında deyir: "Bu hicabı zəiflətmək lazımdır".[2] Əslində, o, çox yaxşı dərk edib!

Bizim böyük alim və ziyalımız doktor Şəhid Behişti deyir: "Çadra mədəni-ideoloji hücuma qarşı mübarizə bayrağıdır". Çox ürəyim istəyirdi ki, səsim bütün çadralılara çataydı, onlara deyəydim: Heç bir şəraitdə çadranı özünüzdən ayırmayın. Çünki bəziləri universitet, qonaqlıq və ya səfər kimi xüsusi yerlərdə çadranı kənara qoyurlar. Müxtəlif səbəblərdən çadranı kənara qoyan çadralılara demək istəyirəm ki, arxayın olun, Allah sizinlədir. Yerə qoyduğunuz bu bayraqları fəxrlə götürün ki, düşmənin gözü kor olsun. Demək istəyirəm ki, bəziləri özlərini güllə qabağına verdilər, siz də tənələrə dözün, amma bayraqları yerə qoymayın.

Təəssüf ki, bizim düşmənlərimiz müəyyən həddə uğur qazanıb müxtəlif üsullarla çadranı təhqir edə biliblər. Məsələn, öncədən də toxunduğum kimi, düşmən öz adamlarından istifadə edərək 2001-2004-cü illərdə 56 serialla çadranı çox təhqir etdi. Əlbəttə, bu, çadraya qarşı minlərlə təxribatdan biridir. Bu güclü zəhərləmələr nəticəsində sədd qırıldı, inqilab etmiş bəzi çadralılar müxtəlif bəhanələrlə çadranı kənara qoydular, sonra uzun mantolar və keçirmə hicab gəldi. Get-gedə mantolar

[1] Xani, s. 86.
[2] Yenə orada.

qısaldı, sonra köynək-şalvarla, keçirmə hicablar da yaylıqla əvəzləndi. Əlbəttə, yaylıqlar da yaddan çıxmadı, günbəgün kiçildi, kiçildi, nəhayət, qadınların boyanmış saçı nümayiş etdirildi. Şalvarlar qısaldı, daraldı, hətta qısa şalvara döndü. "Lasin"lər, yaxud həyasız yapışqanlar, habelə yaralı və cırıq şalvarlar bazara çıxdı, kosmetik vasitələrdən istifadə rekord həddə çatdı. Burun, dodaq və yanaq əməliyyatlarından da danışmasam, yaxşıdır. Tədricən, iyirmi-otuz il ərzində baş verən bu hadisələr böyük və möhkəm səddin uçulmasının nəticəsi idi; onun arxasındakı sular növbəti bəndləri səssiz-səmirsiz uçurdu. Bir neçə saça da ilişərlər?! Bəziləri deyirlər ki, nə qədər ilişirsiniz? Son bir neçə ilin bu mərhələlərinə və haradan haraya gəldiyimizə diqqətlə fikir versinlər, növbəti beş və ya on ildə haraya çatacağımızı təsəvvür etsinlər. Bu adamlar bilməlidirlər ki, ən böyük yanğınlar kiçik bir qığılcımla başlayır, dağıdıcı sellər əvvəldə sadə arx olub. Bu baxımdan, saçın bir neçə tükünü əhəmiyyətsiz saymayaq. Azdan başlayır, amma azla kifayətlənmir! Məsələn, "Mən və sən" kanalı "Şama buyurun" verilişində spirtli içkini haram sayan tamaşaçıya araq içməyi tövsiyə etmir, amma bir neçə nəfərin araq içdiyini göstərərək bu işin çirkin və qəbahətli olduğunu yumşaq və hiyləgər şəkildə adiləşdirir. İş o yerə çatır ki, bir müddətdən sonra araq məclisində olanda həmin tamaşaçı deyir: "Musa öz dinində, İsa öz dinində! Biz ki içmirik". Bir neçə ay keçəndən sonra araq içənlərə yoldaşlıq etməsi də gözlənilməz deyil! Örtünmə məsələsi də eynilə belədir. Çox kiçik bir səhlənkarlıq və yayınma çox böyük yerlərə gedir. Dini tövsiyələrdə deyilib ki, kiçik günahlar böyük günahlara müqəddimədir.

Deməli, nəticə belə oldu: Şeytanların siyasəti addım-addım siyasətidir. Əgər on beş il bundan öncə yanlış hicablı xanımlardan bugünkü tərzdə örtünmələri istənilsəydi, şübhəsiz, qəbul etməzdilər. Hətta dini məsələlərə bağlı olmayanlar da bunu özlərinə rəva görməzdilər. Çünki qeyrət və namus kimi məfhumlar əhəmiyyətli və müqəddəs idi. Lakin addım-addım siyasətindən istifadə olunanda yalnız laqeyd xanımlar deyil, bəzi diqqətlilər də tələyə düşdülər.

Xanım Kiya dedi:

– Yəni siz məsələni bitmiş hesab edirsiniz? Arxalarındakı körpüləri uçurmuş adamlar daha dönə bilməzlər? Sizcə, bu adamların qayıtmasına ümid yoxdur?

– Harada insaniyyətin və fitrətin xeyrinə bir addım atılsa, mütləq təsiri olacaq, – xanım Məcidi dedi. – Mənim ümidim olmasaydı, bu işə bu qədər vaxt qoymazdım. Qayıdış yolu cinayətkarlara da açıqdır, əgər istəsələr, şübhəsiz, qayıda bilərlər, o ki qala yaxşı olan, amma geyimində zahiri bir eybi olan yaxşı adamlara. Əlbəttə, bu eybin fərdi və ictimai təhlükələri var, amma asanlıqla həll olunasıdır. Misal üçün, rabitə şirkətinin yaratdığı şərait nəticəsində mobil telefonlara göndərilən çirkin mesajlar müxtəlif insanların müdaxiləsindən sonra dayandırıldı.

Mən də işin bitdiyini düşünsəydim və ümidim olmasaydı, bu qədər uzun müddət bu yolda vaxt və can qoymazdım. Qoyun sizə bir tarixi əhvalat danışım:

Füzeyl Əyaz adlı bir kişi vardı. O, quldur adam idi, adı insanların canına vəlvələ salırdı. Bir gün gözəl bir qızı görüb soruşdu: "Kimin qızısan və eviniz hardadır?" Rəngi qaçmış qız da dili topuq vura-vura cavab verdi. Füzeyl dedi: "Həyət tərəfdən divarınıza bir nərdivan qoyarsan, bu gecə sizə gələcəyəm". Məsum qız qorxu içində evə

qayıdıb əhvalatı ata-anasına danışdı. Anadan şivən qopdu, atanın vücudunu heyrət bürüdü. Füzeylə qarşı çıxmağın ölüm demək olduğunu bilirdilər. Çarələri yox idi. Divara bir nərdivan qoydular. Bu cinayəti görməyə dözə bilməyən ata-ana evdən gedib qızı tək qoydular. Füzeyl gecə qaranlıqda divardan həyətə keçmək istəyəndə Quran oxuyan qonşunun səsini eşitdi. O, ürəkaçan və həzin səslə Hədid surəsinin 16-cı ayəsini oxuyurdu: "İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalmasının vaxtı gəlib çatmadımı?!" Ayəni eşidəndə bütün vücudu titrədi, addım ata bilmədi, özünü danlamağa başlayıb dedi: "Füzeyl! Vaxtı çatmayıbmı?! Pislik və avaralıq nə vaxta qədər davam edəcək?!" Geri qayıtdı, çöllüyə qaçıb qışqırmağa başladı: "Bəli! Ey Rəbbim, vaxtı çatmışdır! Bəli, ey Rəbbim, vaxtı çatmışdır!" Axırda tövbə edib təqvalılardan oldu. Bir adam Füzeyldən min qat pis olsa da, qayıda bilər, bu şərtlə ki, istəsin və iradə göstərsin.

Sara Əfsanəni xatırlayıb narahat oldu. Onu və onun kimiləri aldadıb yoldan çıxaranlara nifrət edirdi. Müsəlman qadınları azdırmaq üçün ABŞ dövləti ilə əməkdaşlıq etdiyinə görə öz keçmişinə də nifrət edirdi.

Xanım Kiya dedi:

– Xanım doktor, bu yaxında İrana getmək qərarına gəlmişəm. Sizdən ayrı qala bilmərəm. Əlbəttə, icazə versəniz, İranda sizinlə əməkdaş olmaq istəyirəm. Otuz ildən artıq həyat təcrübələrimi qadın həmvətənlərimlə bölüşmək istəyirəm. İstəyirəm ki, kitab yazım, acı və öldürücü xatirə və təcrübələrimi söyləyim.

– Nə gözəl! – Doktor Məcidi dedi. – Allah kömək etsin! Biz həqiqət yolunda sizdən bəhrələnməyə şad olarıq. Ümidvaram tezliklə gələsən.

Doktor Məcidi bir qədər fasilə verəndən sonra stolun üstündəki gəzi və suhan halvasını göstərib dedi:

– Mən sizinlə danışmaqdan yorulmuram, amma siz bir qədər yorğunluğunuzu çıxarın. Biz iranlılar demişkən, ağzınızı şirin edin.

Maşa bir gəz götürüb dedi:

– Mən də bir söz demək istəyirəm. Bizim həyatımızın ən gözəl təcrübəsi sizinlə tanışlıqdır. Sizin burada olmanız bizim üçün çox dəyərli idi. Söz və məsləhətləriniz bizə çox rahatlıq verdi, güc aldıq. Sizdən ayrılıq bizə çox çətindir. Əgər bizə bir yadigar versəniz, sizi daha çox yad edərik.

Kabinetdəki bütün xanımlar gülüşdülər. Təxminən iyirmiyaşlı birisi gülə-gülə dedi:

– Təsadüfən, mən də bunu demək istəyirdim. Klassik İran əşyalarını çox sevirəm.

Doktor Məcidi gülümsəyib dedi:

– Sizdən ayrılıq mənə də çətindir. Sizin yanınızda gözəl günlər yaşadım. Ümidvaram çox tezliklə sizi yenə görüm; ya İranda, ya da burda. Yadigara gəldikdə isə sizin üçün çox özəl bir hədiyyə ayırmışam. Əminəm ki, təəccüblənəcəksiniz. Ancaq gərək sabahkı seminarın bitməsini gözləyəsiniz.

İslam mərkəzində azandan öncəki Quran səsi əks-səda verəndə xanım Məcidi dedi:

– Allah möminlərin xilaskarıdır və siz xilas olmuşlarsınız. Əgər Quran səsi gəlməsəydi və namaza az qalmasaydı, sizdən əl çəkməzdim.

Hamı gülüşdü. Sonra bir-bir sağollaşıb bayıra çıxdılar. Yalnız Sara ilə Maşa qaldı. Doktor dedi:

– Sara can, xüsusi bir sözün...

– Mən zalda gözləyirəm, – Maşa dedi.

– Əzizim, cənab Fazilinin cavabı nə oldu? – deyə doktor Məcidi yavaşca Saradan soruşdu.

– Siz bilirsiniz?

– Mən də, cənab Tehrani də, – doktor Məcidi təbəssümlə cavab verdi.

Sara gülümsədi. Doktor Məcidi dedi:

– Bilirsən ki, sükut bizdə razılıq əlamətidir?..

Sara qaşlarını qaldırdı, əlini yaylığının altına aparıb dedi:

– Yəni... bilirsiniz... narahatam.

Doktor Məcidi dedi:

– Əzizim, narahatlığın təbiidir. Amma cənab Fazili yaxşı gəncdir. Mən bir müddətdir onu tanıyıram. Sizi mərkəzdə gördüyü ilk gündən diqqəti cəlb olunub, amma onun üçün hicab mühüm idi. Sizi sevməklə öz inancları arasında qalıbmış. Cənab Tehrani ilə danışıb qəlbinin rahatlığı üçün və səni unutmaqdan ötrü çıxış yolu istəmişdi. Həzrət Əli Əkbərə nəzir etmişdi ki, ya sənin sevgin onun ürəyindən çıxsın, ya da Allah başqa formada kömək etsin. Nəhayət, sən rəcəb ayının 13-də hicaba keçəndən sonra sevgisi eşqə çevrildi. Əgər cavabın müsbətdirsə, cənab Fazili israr edir ki, bu gün səninlə məhrəm olsun; rəsmi bir mərasimdə daimi və rəsmi nikah əqdinə qədər.

Sara gülümsəyib əlini sinəsinə qoydu, dərin nəfəs alıb dedi:

– Nə deyim?! Mən utancaq qız deyiləm, amma Fərhad barədə fikirləşəndə və ya danışanda nədənsə belə oluram... – dedi və üzü qızardı.

Doktor Məcidi Saranın əlini tutub təbəssümlə dedi:

– Sara can, deməli, sən də onu sevirsən... Məncə, ata-ananla əlaqə saxla, onlara xəbər ver. Ya da istəsən, mən zəng vurub onları dəvət edim, bura gəlsinlər və indicə...

– Ata-anam? – Sara yenə dərin nəfəs alıb başını yellədi. – Necə məsləhətdirsə.

Doktor Məcidi Saranın anasına zəng vurdu, dedi ki, xüsusi və önəmli bir görüş və şirin bir tədbir üçün həyat yoldaşınla birlikdə İslam mərkəzinə dəvət olunursunuz; sonra da səmimi söhbət, İran şirniyyatı, gülab və zəfəran şərbəti.

– Əgər indi deyəsi bir sözün varsa, cənab Fazili ilə danışa bilərsən, – deyə Məcidi bir nömrəyə zəng vurub cənab Tehrani ilə danışdı.

Tehrani Fərhadla otağa girdi, bir qədər onlarla danışdı, ailə qurmaq və İslamın bu mühüm məsələyə baxışı haqda məlumat verib dedi:

– Yəqin ki, izdivacdan öncə bir-birinizə demək istədiyiniz sözlər var. Sara xanımın valideynləri gələnə qədər xanım doktorla mən də məclisə hazırlıq görərik. Gül, şərbət və şirniyyat lazımdır.

Sara ilə Fərhad kabinetdə oturdular. Fərhad ailəsi, təhsili və istəkləri barədə məlumat verdi, gələcək həyatı üçün arzularından, gözləntilərindən danışdı. Hələ Saranın sözləri bitməmiş cənab Tehrani qapını döyüb bir qədər araladı və dedi:

– Valideynləriniz gəldilər, Sara xanım.

Saranın ata-anası gözlərindən və arabir yaranan təbəssümlərindən doğan razılıq içində sakitcə ətrafı süzür, cənab Tehraninin, doktor Məcidinin və Fərhadın bütün hərəkətlərinə göz qoyurdular. Bəlli idi ki, müsəlmanlar barədə eşitdiklərini gördükləri ilə müqayisə edir, kütləvi

informasiya vasitələrinin yaydığı yalanlardan və bütün bu fərqlərdən heyrətlənirdilər.

Doktor Tehrani nikah əqdini oxuyandan və Sara "bəli" deyəndən sonra Maşa atılıb Saranı qucaqladı. Anası da yaxınlaşıb onu öpdü, ona xoşbəxtlik arzuladı. O, kövrəlməsinin qarşısını almağa çalışdı, amma bacarmadı, gözlərindən yaş süzüldü. Üçü də ağlayır, bəzən bir-birinin üzünə baxıb gülürdülər. Bir neçə dəqiqə sonra emosiyaları sakitləşəndə cənab Tehrani Fərhadın, otağın digər tərəfində də doktor Məcidi Saranın üzündən öpdü, təbrik edəndən, onlara xoşbəxtlik arzulayandan sonra hər birinə bir bağlamada hədiyyə verdilər.

# On birinci fəsil

## Qadınlar mələkdirlər

Sara ilə Fərhad düz saat 14:30-da mərkəzə çatdılar, Maşanın yaxınlaşdığını görüb birlikdə içəri girmək üçün onu gözlədilər. Maşa salam verib onlara qoşuldu, mərkəzə girəndə isə narazı halda dedi:

– Fərhad, sizdən gözləməzdim ki, Saranı belə narahat edəsiniz.

Fərhad birdən dayandı, Sara ilə Maşaya baxıb təəccüblə dedi:

– Mən... nə... nə etmişəm?

Sara da təəccüblə baxırdı. Maşa tam haqlı jestlə dedi:

– Saranın vəziyyəti yaxşı deyil. Sizdən bir neçə gün ayrı qalacağına görə əldən gedir. Vay o gündən ki, gedəsiniz və bir müddət onun yanında olmayasınız! Biz sizə sağlam bir Sara təhvil vermişik, sizsə bizə bir dəli təhvil verirsiniz! Sizdən şikayət də edə bilərik!

Fərhadla Sara gülməyə başladılar. Sara yaxınlaşıb gülə-gülə Maşanı bərk qucaqladı, üzündən öpüb dedi:

– Dəli mənəm, yoxsa sən?! Çoxbilmiş, niyə ağzına gələni danışırsan?!

Üçü birlikdə deyə-gülə toplantı zalına doğru yola düşdü. Fərhad dedi:

– Nə deyim?! Özüm də fikirləşməzdim ki, bu səfərə məcbur olaram. Elə dünən universitetdən zəng vurdular, doktorantura işi və universitetlə təhvil-təslim üçün problem yaranıb. Gərək Nyu-Cersiyə gedib işimi həll edim. Tələbkarlıq edirlər, başqa yolum yoxdur.

– Prinston belədir, – Maşa dedi. – Dostum orada oxuyurdu. Diplomunu alana qədər çəkmədiyi qalmadı. Sara deyir ki, səfəriniz bir ay çəkəcək.

– Bəli, təəssüf ki, universitetin proqramı belədir. Başqa bir yol da yoxdur.

Sara Maşaya baxıb dedi:

– Fərhad deyir ki, bu müddətdə Nyu-Yorka gəlib sənə baş çəkəcəyəm. Ancaq bilirəm ki, çətindir, işi də çoxdur, əziyyətə düşməsini istəmirəm. Özüm dedim ki, gəlməsin.

Zalın qapısına çatdılar. Gözləndiyi və iştirakçıların mesajlarından məlum olduğu kimi, on birinci seminar iştirakçıların yarısı ilə keçirilirdi. Quranın bir ayəsi oxunandan sonra aparıcı qarşıya çıxmış məsələlərə toxunaraq doktor Məcidini çıxış üçün səhnəyə dəvət etdi.

Doktor Məcidi müqəddiməsiz olaraq sakit səslə və tələsmədən dedi:

– Siz əziz dostları salamlayır və təşəkkür edirəm ki, bu müddətdə aktiv iştirakınızla mənim fiziki və mənəvi gücümü qat-qat artırmısınız. İnsan əzizləri və dostları ilə ayrılacağını hiss edəndə kədərlənir və danışmaq çətinləşir. Lakin mən "Bismillahir-Rəhmanir-Rəhim" cümləsindən

kömək alaraq son görüşü yaxşı xatirəyə çevirməyə çalışacağam.

Dedik ki, qadına qarşı qara baxışın iki mərhələsi var. Birinci mərhələdə bir neçə min il boyunca qadına heç bir hörmət tanınmayıb, onu heyvanların cərgəsinə qoyublar. Təxminən iki yüz il öncədən başlanmış ikinci mərhələdə isə onu zahirən uca tutmuş, əslində isə kapitalistlər çirkin məqsədlərinə alət etmişlər. Qadına ağ baxış isə kişi ilə qadını bir-birinin yanında və bir-birini təkmil edən insanlar kimi təqdim edir.

Bu iki baxış geyim kimi müxtəlif məsələlərdə köklü fərqlərə malikdirlər. Mənfi baxış və onun bütün xüsusiyyətləri, məsələn, evlənməyə və ailəyə qarşı mübarizə, abortun və boşanmanın təbliği, azad cinsi münasibətlər, hicabsızlıq və yarımçıq örtünmə tamamilə qeyri-fitri və yaranış sisteminə zidd baxışdır. İnsanların bu baxışdan uzaqlaşması üçün bunun özü kifayətdir. Bununla bərabər, deyildi ki, münasib örtünmənin zəruriliyinə dinindən və məzhəbindən asılı olmayaraq bütün insanların qəbul edəcəyi dəlillər vardır: tarix, ictimai təhlükəsizlik, ailənin təhlükəsizliyi və güclənməsi, fitrət, fiziki sağlamlıq, psixi sağlamlıq, bəşəriyyətin düşməninə qarşı mübarizə və müqavimət.

Bu gün bu dəlillərə ikisini də əlavə etmək istəyirəm. Əlbəttə, başqa söhbətlər də var. İmkan daxilində onların başlıqlarını söyləyəcək və barələrində qısa məlumat verəcəyəm.

Səkkizinci dəlil qadının məqamını və şəxsiyyətini qorumaq və qadınla kişi arasında balans yaratmaqdır. Bu, aydın məsələdir, sübuta ehtiyac yoxdur ki, kişi fiziki baxımdan qadından üstündür və bu sahədə qadının kişiyə qarşı müqavimət gücü yoxdur. Lakin qadın emosional

baxımdan həmişə kişidən üstünlüyünü sübut etmişdir.[1] Qadının bu üstünlüyünü saxlayacaq, qadın məqamını qoruyub tərəzinin kişilər olan gözünü aşağı enməyə qoymayacaq ən yaxşı vasitə münasib örtünmə, hicab və zərif qadın həyasıdır. Qadınla kişi psixologiyası ilə tanış olan hər kəs bunu söyləyir.

Vill Dürant deyir: "Həya instinktiv deyil, sonradan əldə edilir. Qadınlar başa düşdülər ki, özlərini göstərməkdə səxavətli olmaları tənə və təhqirə səbəb olur və bunu öz qızlarına öyrətdilər".[2] İndi bundan danışmayacağıq ki, həya instinktivdir, yoxsa sonradan əldə edilir, yoxsa hər ikisinin qarışığıdır. Lakin sözün məğzi düzgündür. Ən böyük Avropa filosoflarından olan Şopenhauer də eynilə belə deyir: "Qadınların həyası onların arasında gizli bir razılaşmanın nəticəsidir; məqsəd qiymətlərini artırmaqdır".[3] Amerikalı yazıçı və "İffətin hünəri" məqaləsinin müəllifi xanım Meqi yazısının əvvəlində belə qeyd edir: "Kişilərin sizin inam və dəyərlərinizə diqqət yetirməsini təmin etməniz asan deyil. Lakin zahirinizi çox görməyə qoymasanız, məcbur qalıb diqqətlərini sizin mənəvi tərəfinizə yönəldəcəklər".[4]

İnkaredilməsi deyil ki, münasib örtünmə və qadın gözəlliklərinin cəmiyyətdə nümayiş etdirilməməsi onun dəyərli və qiymətli sayılması ilə nəticələnir. Mən çoxlu fikirlər arasından yalnız iki-üç nümunəni söyləyəcəyəm:

Məşhur filosof Bertrand Rassel deyir: "Qadınların asanlıqla əlçatan olması təəssüflü haldır. Çox yaxşı olar ki, onlara qovuşmaq çətin olsun, amma imkansız da

---

[1] Mütəhhəri, Hicab məsələsi, s. 38.
[2] Yenə orada, s. 63.
[3] Məhəbbəti, c. 1, s. 354.
[4] Şelit, Qızlar ismətə üz tuturlar, s. 167.

olmasın".[1] Vill Dürant başqa bir yerdə qadının dəyərli olmasının ən yaxşı yolunu belə təsvir edir: "Nəyi axtarıb tapmırıqsa, əziz və dəyərli olur".[2]

Son cümləni məşhur rejissor Alfred Hiçkokdan söyləyirəm. O deyir: "Düşünürəm ki, qadın həyəcanlı və romantik film kimi olmalıdır; yəni öz mahiyyətini az göstərsin, özünü kəşf etmək üçün kişini xəyala və təsəvvürə vadar etsin. Qadınlar həmişə belə rəftar etməlidirlər; yəni öz mahiyyətlərini az göstərməli, kişinin onu kəşf etmək üçün əziyyət çəkməsinə şərait yaratmalıdırlar. Şərqli qadınlar bir neçə il öncəyə qədər hicaba və niqaba görə avtomatik olaraq cazibəli olurdular, bu məsələ onlara xüsusi cazibədarlıq bəxş edirdi. Lakin tədricən, bu ölkələrin qadınlarının qərbli qadınlarla eyni olmaq üçün göstərdiyi səylər nəticəsində hicabları sıradan çıxdı və onun ardınca cinsi cazibədarlıqları da azaldı".[3]

Professor Ədibin şeir məclisində İsfahan ləhcəsi ilə tanınmış kişi əlini qaldırıb dedi:

– Xanım doktor! İngiliscəm hələ yaxşı olmadığına görə bütün var-yoxu və mirası mənə çatmış ana dilimdə danışmaq istəyirəm. Mən çəkdiyiniz bütün əziyyətlərə görə sizə təşəkkürümü bildirirəm. Çox sağ olun. Bu iki-üç seminarda əziz iştirakçılar fikirlərini az bölüşürlər, çünki tələsdiyinizi hiss edirlər. Mən də danışmaq istəmirdim, amma özümü saxlaya bilmədim. Qorxdum ki, mövzunun bu yerindən keçəsiniz, amma professor Ədibin cənab Mövlanadan oxuduğu şeirə toxunmayasınız.

Doktor Məcidi həmişə təbəssümlü üzünə bir az da məzəli təbəssüm əlavə edib dedi:

---

[1] Mütəhhəri, Hicab məsələsi, s. 72.

[2] Yenə orada, s. 66.

[3] Yenə orada.

– Cənab İsfahaninin təklifinə hörmət və sözlərinə təsdiq olaraq bir qədər cənab Mövlananın şeiri barədə danışım. Mövləvi çox incəliklə və sənətkarcasına kişini suya, qadını oda bənzətmişdir. Məsnəviyə on beş cildlik şərh yazmış Əllamə Məhəmmədtəqi Cəfəri bu bənzətməni qadın və kişi üçün ən yüksək bənzətmələrdən hesab edir.[1]

Əgər qadınla kişi arasında pərdə olmasa, qadının gözəllikləri havayı şəkildə cəmiyyətə tökülsə, kişi qadına qalib gəlmişdir, qadının isti varlığı soyuğa və o, dəyərsiz bir canlıya çevrilmişdir.

İndi ki söhbət şeirdən düşdü, icazə verin, başqa bir şeir də oxuyum.

İştirakçıların alqışları ilə zalda coşqu yarandı və xanım Məcidi daha həvəslə oxumağa başladı:

*Dünyada nə qiymətlidirsə,*
*Onu gözlərdən gizlədirlər.*
*Ancaq daş və torpaq kimi nəyin qiyməti azdırsa,*
*Hər yerdə var və görə bilirsən.*
*Qızılı qutunun içində gizlədərlər*
*Ki pis gözlərdən qorunsun.*
*Kimin qiymətli cəvahiratı olsa,*
*Ondan düşmənə danışarmı heç?!*
*Onu dostlardan da gizlədər,*
*Çünki hər an onun üçün qorxar.*
*Sən bu qaydanı təbiətdə də görürsən,*
*Çünki mədənlərin yeri gizli olur.*
*Onları min cür əziyyətlə çıxarırlar,*
*Mədənlər arasından onu şəksiz.*
*Almaz suyun dərinliyində olur,*

[1] Cəfəri, Məsnəvinin izahı, tənqidi və təhlili, c. 2, s. 196.

*Qızıl daşın içində gizlənir.*
*Mirvarinin yeri bir sədəfin içidir,*
*Sədəf də dərya suyunda ünvansız.*
*Kim onu istəyirsə, həvəslə*
*Dəryaya doğru baş alıb gedər.*
*Əgər mirvari qum dənəcikləri kimi hər yerdə olsaydı,*
*Kim onu bu qədər uca tutardı?!*
*Şahların tacında yer alardımı;*
*Ya da ay üzlülərin sinəsində?!*
*İffət gövhəri də mirvari kimidir,*
*Bir sədəfin içində təhlükəsiz olur.*
*Qadın qadın qalsın, ucuz məhsul kimi*
*Alverçilərin əllərində olmasın!*
*Məhsul bazarından bayırda olub*
*Uşaqlara ana olsun.*
*Qadın dəyərlidir, amma hicabda,*
*Hicabsızlığı sən dəyər sanma.*
*Örtünmə qadınlara həm vüqardır,*
*Həm də nalayiq adamlara divardır.*
*Əgər bağdan baş qaldırsa bir budaq,*
*Yoldan keçənlər ona tamah salarlar.*[1]

Deyilənlərə əsasən, qadının mənəvi və emosional üstünlüyünü qoruyub saxlayan və şəxsiyyətinin tənəzzülünün qarşısını alan ən yaxşı amil hicab və münasib örtünmədir. Vay o gündən ki, hiylə və kələklə qadının gözəlliklərini və incəliklərini hərraca çıxaralar! O gün qadının fəlakət günü, şəxsinin və şəxsiyyətinin terrora məruz qaldığı, hətta insaniyyətinin məhv olduğu gündür. Bilmirəm ki, Uilyam Ceymz, Alfred Hiçkok və digərləri

---

[1] Mühəndis Seyid Məhəmmədbaqir Mürtəzəvi.

bu gün sağ olub qərbli gənclərin "Niyə ailə qurmursunuz?" sualına "Hər gün kifayət qədər yeni süd əldə etmək mümkündürsə, niyə evdə inək saxlayım ki?!" cavabını eşidəndə, ya da qərbli kişilərin "Gözəl həyat yoldaşımızın ölümünə itimizin ölümü qədər narahat olmuruq" dediyini, yaxud mediadan Almaniyanın Bonn şəhərində meriyanın küçə qadınları üçün parkometr quraşdırdığını və hər gecə küçənin kənarında dayanmaq müqabilində 6 avro aldığını eşidəndə nə reaksiya verərdilər?!

Əslində, qadınlara deyirlər ki, yaşayıb ölməmək üçün özünüzü satıb yemək-içmək alın. Bu qadınların alıcısı olmayanda nə etmək lazımdır?! Qadının başına hansı bəla açılıb ki, italiyalı kişilər yeni il axşamında həyat yoldaşlarının yanında olmaqdansa itlərinin yanında olmağı üstün tuturlar?! Bu bəlanın qadının başına nə üçün gəldiyini bilmək üçün çox da düşünməyə gərək yoxdur. Yaponiyalı xanım doktor Sacikor Morata deyir: "Qadınlar bugünkü şəkildə hicabsız olduqda kişinin diqqətini cəlb etməyə bir şeyləri qalmır. Hər bir əhəmiyyətli şey bir neçə dəfə əl altında olduqda öz əhəmiyyətini itirir".[1]

İki yüz ildir qadından onun qadın xüsusiyyətlərini almaq üçün çox çalışmışlar; yalandan qadına demişlər ki, biz səni kişilərlə eyni cərgəyə qoymaq istəyirik. Əslində isə nə baş verdi? Bütün beynəlxalq təbliğata baxmayaraq, qərbli qadın peşə təbəqələrində münasib yerə malik deyil. "Almaniyada yüksək vəzifələrdə qadınların payı yalnız 6,7 faizdir. Almaniya parlamentində mandatların 11 faizi qadınlara məxsusdur. Daha maraqlısı budur ki, Almaniya universitetlərində müəllimlərin cəmi 5,7 faizi qadındır. Əsas iqtisadi vəzifələrdən yalnız 3 faizində qadınlar

---

[1] İslamlu, Gülün hərimi, s. 42.

işləyirlər. Almaniyada işləyən qadınların 70 faizdən çoxu aşağı vəzifələrdə, daha çox xidmət sektorunda çalışır. Universitetlərdə və ali təhsil müəssisələrində xidmətçilərin 72 faizi qadın olmuşdur. Almaniyada böyük şirkət müdirlərinin cəmi 3,2, orta şirkət müdirlərinin isə 5,5 faizi qadındır".[1]

Bu qədər şüar və hay-küy qadınların xidmətçi olmasından ötrü idi?! Bəs qadının kişi ilə bərabərliyi hara getdi? Çox təəssüf ki, əksər ölkələrdə vəziyyət ya belədir, ya da daha betərdir. Nümunə üçün deyim ki, ABŞ-da qadınların elm, təhsil, tədqiqat, siyasət və ictimaiyyət sahələrində iştirakı çox zəifdir. Ən yüksək elmi və ictimai səviyyələrdə onların ən çox iştirakı 14 faiz, siyasi sahədə isə 10 faizdən də aşağıdır. Qadınların ən çox statistikası xidmət, əyləncə və cinsi ehtiyaclarla gəlir sahələrinə aiddir.[2]

Kaş qadınlar yalnız xidmət işçiləri olaydılar! Kaş yalnız süpürəydilər, siləydilər! Təəssüf ki, qadın cinsi alətə çevrilmişdir; yəni önəmli olan yeganə şey qadının bədənidir, insanlığı, ləyaqəti və ya düşüncəsi yox! Daha pisi və təəssüflüsü budur ki, bu gün qadının bədəni də təklikdə razı salmır, bu işdə ona qarşı kobudluq da açar bir amil olub! Nyu-York universitetinin müəllimi xanım Çeniqsan 2005-ci ildə gənclər və veyillik barədə sənədli film hazırladı və "Kounter Punç" jurnalında məqalə yazdı. O deyirdi: "Gənc qızların kişilərin hər birini cinsi baxımdan razı salmaq üçün üzərlərində ciddi vəzifə hiss etdiklərini, bunu öz qadınlıq rollarından bildiklərini görmək mənə çox ağır idi!"[3]

---

[1] "Keyhan" qəzeti, say: 21164, s. 6.
[2] Rəcəbi, s. 128.
[3] Bax: Şelit, Qızlarismətə üz tuturlar, s. 44.

Bu yaxınlarda Fransanın keçmiş nazirlərindən olmuş on yeddi qadın, o cümlədən xanım Kristian Raqard Beynəlxalq Valyuta Fondunun prezidentinə məktub yazaraq özlərinə qarşı cinsi əziyyətdən şikayətlənmişlər.[1] Yalnız bir neçə ay öncə Stokholm universiteti dəhşətli bir məlumatla çıxış etdi: "İsveç, Danimarka, Finlandiya, ABŞ, Böyük Britaniya və Kanada kimi bəzi Qərb ölkələrində cinsi təcavüz sayı dünya üzrə rekord həddədir, İsveçrə və Danimarka kimi ölkələrdə isə qadınlara yaşamaq təhlükəlidir”.[2] Yaddan çıxarmayın ki, bu ölkələrin bəzilərinə "Yer üzünün cənnəti" deyilir. Sual isə budur: Qadın hansı cinayəti törədib ki, yer kürəsində yaşamaq ona bu qədər təhlükəli olub?! Cinayətkar Qərb həyat tərzi, yaxud kapitalist həyatıdır. Bu vəziyyətə səbəb olanlar və belə təhlükəli həddə çatacağını düşünməyənlər indi yanlış nüsxələrlə beyinləri yanıltmağa çalışır, kapitalist mədəniyyətindən ibarət əsas günahkarı qoruyurlar. Məsələn, Oskar mükafat mərasimində ABŞ vitse-prezidentlərindən biri birdən səhnəyə qalxıb Amerika universitetlərində cinsi təcavüzlərin geniş yayıldığı barədə həyəcan təbli çalır və xalqı cinsi məsələlərə qarşı indiki baxışı və mədəniyyəti dəyişdirmək üçün kampaniyaya qoşulmağa çağırır.[3]

Mən demək istəyirəm: Cənab vitse-prezident! Bu problemlər cinsi məsələlərə qarşı baxışı dəyişmək üçün kampaniya başlatmaqla düzələn deyil. Onu həll etmək üçün kapitalist sistemi dəyişmək və ona qarşı mübarizə kampaniyasına başlamaq lazımdır. Cənab vitse-prezident! Siz elə bir pişik əhliləşdirə bilməzsiniz ki, siçanlara qarşı

---

[1] “Keyhan” qəzeti, say: 21350, s. 2.

[2] Yenə orada.

[3] Yenə orada.

mehriban olsun. Pişiyin xisləti elədir ki, siçan görəndə ona hücum edir. Kapitalist sistemin də quruluşu belədir ki, maraqlarından ötrü hər bir vasitədən, hətta qadına və bəşəriyyətə qarşı zülmdən də istifadə edir.

Hörmətli iştirakçılar! Bu söhbətlərimin nəticəsini bir açar cümlə ilə sizə söyləmək istəsəm, belə deməliyəm: Hicabsızlıq və yarımçıq örtünmə qadın, hətta cəmiyyət dəyərlərini məhv etməyin əsas açarıdır!

Xanım doktorun söhbətləri qurtarandan sonra aparıcı on beş dəqiqə fasilə elan etdi. Əlbəttə, iştirakçıların çoxu zalı tərk etmədi, seminar qeyri-rəsmi şəkildə davam etdi. İstirahət vaxtı bitəndən sonra isə xanım Məcidi dedi:

– Bu seminarlarda münasib örtünmənin zəruriliyi barədə demək istədiyim doqquzuncu dəlil ağıldır. Bu barədə məlumat verəcək, sonra digər dəlillərin adlarını çəkəcəyəm.

Ağıl ən dəyərli nemət və yaranışın insanlara hədiyyəsidir. İnsandan ağıl alınsa, bir qarışqa ilə fərqi olmaz. İnsanın işlərini sahmana salan ağıldır. Ağıl pis işlərdən çəkindirir, yaxşı işlərə dəvət edir. Ağıldan böyük sərvət və ağılsızlıqdan böyük yoxsulluq yoxdur. Ağıl xar insanı ucaldır, yıxılmış adamı qaldırır. Ağıl əlaqə kəsilmiş bir dostdur, nəfs isə tabe olunan bir düşmən. Bu dosta tabesizlik peşmanlıqla nəticələnir. Ağıl insana yolu göstərən bir çıraq kimidir. Ağıllı adam sözləri eşidib ən yaxşısını seçir, təcrübələrdən dərs alır və eyni yerdən iki dəfə zərbə almır. Ağıllı adam həqiqəti etiraf edir, ona təslim olur, ondan boyun qaçırmır.[1]

---

[1] Bu cümlələr məsumların Mizan əl-hikmət kitabının 8-ci cildində ağıl barədə qeyd olunmuş hədislərindən iqtibas olunmuşdur.

Xanım Məcidinin son cümləsi əvvəlki gözəl və zəncirvarı cümlələri xüsusi ritmlə tamamlayanda iştirakçılar səmimi alqışlarla öz hisslərini ifadə etdilər.

Doktor Məcidi sözünə davam etdi:

– Hörmətli xanımlar və cənablar! Biz indi ağlımızla, keçmiş təcrübələrimizlə qarşı-qarşıya qalmışıq. Hicabın tarix boyu geniş yayılmış olması, ictimai təhlükəsizlik yaratması, ailəni gücləndirməsi, cəmiyyətdə fiziki və psixi sağlamlığı təmin etməsi onun üçündür ki, hicabın əqli dayağı var. Demək istəmirəm ki, geyimi münasib olmayanlar ağılsızdırlar; sözümün canı budur ki, ağlımızın önündə yaradılmış şübhə və maneələri ortadan götürməliyik. Bilməliyik ki, həmişə xalqlara hakim olanlar bəşəriyyəti cahil və ağılsız saxlamaq siyasəti yürütmüşlər. Tarix boyu bu siyasəti icra etmək üçün ən yaxşı vasitələrdən biri çılpaqlığı və pozğunluğu yaymaqdır. Çılpaqlıq genişlənəndə və ehtiras bazarı qızışanda isə ağlın gözü kor olur.

Əzizlər! İnsanın beynini müxtəlif məlumatlarla doldurmaq bir məsələdir, ağıldan istifadə etmək başqa bir məsələ. Bizə düzgün yolu göstərən amil ağlımızdır, məlumatlarımız deyil. Bu gün bizi saysız-hesabsız məlumatlara məruz qoymuşlar. Bu isə ağlın çaş-baş qalmasına, bir növ zəifləməsinə gətirib çıxarmışdır. Əlbəttə, bu da müstəmləkə siyasətlərindən biridir ki, dövrümüzdə ciddi şəkildə icra olunur. Çılpaqlıqdan və ehtiraslardan əlavə, ağıl qarşısında maneələrin biri də gah doğru, gah yalan olan, gah da şayiə şəklində yayılan, ağıldan düşünmək imkanını alan gen-bol informasiyalardır.

Bu baxımdan, düzgün qərar qəbul etmək üçün gərək düzgün informasiyalara çıxışımız olsun, küçə-bazarlarda

və internetdə yayılan xəbərlər bizə əsaslı istinadgah ola bilməz. Qısası budur ki, örtünmə üçün öncəki səkkiz dəlildən əlavə, doqquzuncu dəlil olan ağıl da münasib örtünməni zəruri hesab edir. Cənab Ədibin həmin seminarda Hafizdən oxuduğu bir beytdə ağlın hökmünə də işarə vurulmuşdu:

Gül və gülab işində əzəli hökm bu idi:
Ki o, bazara şahid olsun, bu isə pərdə arxasında qalsın.

Cənab Hafiz qadını gülə, kişini gülaba bənzədib deyib ki, əzəli hökm, yəni ağlın hökmünə görə, gül, yəni qadın örtünməlidir. Çünki bütün ağıllılar öz dəyərli əşyalarını bərk qoruyurlar; həmin şey nə qədər dəyərli olsa, onu bir o qədər artıq qoruyurlar. Güllərə yaxşı baxmaq və onları təhlükədən qorumaq üçün istixanada saxladıqları kimi, qadının hicabı da onun incəliklərini qorumaqdan ötrüdür. Suyun hədər getməsinin qarşısını almaq və onun enerjisindən istifadə etmək üçün gur çaylar üzərində bənd qurduqları kimi, örtünmə də insanın zati istedadları hədər getməsin, cəmiyyətin xeyrinə istifadə olunsun deyə cinsi instinktin tüğyanı qarşısında bir sədd kimidir.[1]

Möhtərəm iştirakçılar! Qadın böyük gücə malikdir. O, həm cəmiyyətin imkanlarını ən yüksək zirvələrə qaldıra bilər, həm də çılpaqlıq və azğınlıqla bir bombadan da çox ziyan vura bilər. Sizcə, bu çılpaqlıqlar, özbaşınalıqlar, onlar üçün xərclənən çoxlu pul və zamanlar indiyədək cəmiyyəti nə qədər geridə saxlamışdır? Bu geriliyin miqdarını ölçmək mümkündürmü?! İnsanlar, adətən, bir işin müsbət nəticələrini bilməyincə, onu görməyə həvəs göstərmirlər. Misal üçün, yağışın faydalarını bilməyən şəxs onu yeri palçığa bələşdirməkdən və problem

---

[1] Bax: Qulami, Bir hiylənin sirri, s. 96.

yaratmaqdan başqa bir şey hesab etmir. O, yağışın yaşıllığa, canlı varlıqların inkişafına, çirkabın təmizlənməsinə və digər çoxlu faydalara səbəb olduğunu bildikdə yağış ona sevimli olur. Örtünmə məsələsində də onun fayda və zərurətlərini bildikdə ağıl ona hökm edir və insan münasib örtünməyə həvəslənir. İranda universitet müəllimlərindən birinin apardığı araşdırmaya görə, yanlış örtünən insanların 80 faizi bunun səbəblərindən biri kimi hicabın zəruriliyini bilməməyi, onun miqdarı və necəliyi ilə tanış olmamağı göstərmişdir.[1]

Sara əlini qaldırıb dedi:

– Bağışlayın... bu söz tamamilə doğrudur. Hicabın müsbət nəticələrini bilmək onun çətinliyinin, məhdudiyyətinin hiss olunmamasına, hətta zəruri sayılmasına səbəb olur. Lakin, məncə, həmin hissi bizə başqa bir şey də ötürür: məqsədə sahib olmaq. Məqsəd hər bir işin bütün çətinliklərinə və məhrumluqlarına dözməyi asanlaşdırır, hətta zəruri edir. Əgər mənim məqsədim dünyanın ən yaxşı universitetində təhsil almaqdırsa, onun çətinliklərinə də dözərəm, hətta bu çətinliklər əldə etdiyimin qarşısında gözə görünməz.

Xanım Məcidi başı ilə Saranın sözlərini təsdiqləyib dedi:

– Təşəkkür edirəm. Doğrudur.

Əzizlər! Mən cəmi üç saat Nyu-Yorkda sizin qonağınızam, seminardan sonra dərhal hava limanına gedəcəyəm. Əgər icazə versəniz, digər məsələləri də xülasə şəkildə deyim.

Siz heç bir ağıllı varlıq tapa bilməzsiniz ki, fərdi maraqların cəmiyyətin ümumi maraqlarından öndə

[1] Şəfii Sərvistani, c. 2, s. 180.

gəldiyini söyləsin. Misal üçün, yol hərəkəti qaydaları insanların asayişinə və təhlükəsizliyinə xidmət edən və cəmiyyətin maraqları istiqamətində olan qaydalardır. Kim bu qaydaları pozub digərlərinə təhlükə yaratsa, hamı ona qarşı qətiyyətli tədbir görülməsini istəyər. Hicab məsələsində də belədir. Hicabın olduqca çoxlu faydalarına və hicabsızlığın fərdə, xüsusən də cəmiyyətə zərərlərinə görə, örtünmə fərdi bir məsələ deyil. Əgər bir insan ağlın göstərişinin əksinə olaraq, "Mən belə geyinmək istəyirəm və bunun heç kimə dəxli yoxdur" desə, həmin cəmiyyətdə yaşayanlar və qanun bu şəxsin rəftarının qarşısını almağa haqlıdır. Bəzi aydınnümalar deyirlər: "İnsanların həyatına müdaxilə etməyin, qoyun azad olsunlar". Lakin onların özləri ekologiya, yol hərəkəti, narkotik maddələr, vergi və digər bu kimi məsələlərdə qanun pozuntusu ilə rastlaşdıqda radikallaşıb deyirlər: "Tutun! Həbs edin! Ağır cərimələr tətbiq edin!"

Bu məsələlər insanların həyatına müdaxilə sayılmadığı və ictimai nizam-intizamdan ötrü lazım olduğu kimi, çox böyük faydaları olan örtünmə üçün qanun təyin etmək də insanların həyatına müdaxilə deyil. Bəli, insanlara deyə bilmərik ki, siz gərək hicaba etiqad bəsləyəsiniz. Çünki etiqad insanların düşüncəsinə və qəlbinə aiddir, məcburən yaranmır. Lakin əməli məcburiliyin heç bir eybi yoxdur. Hicabın bütün faydalarını nəzərə alaraq, cəmiyyətdə hətta ona etiqad bəsləməyənlərə, hətta dini azlıqlara və turistlərə də geyim və örtünmə üçün xüsusi qanun təyin etmək tamamilə ağıllı bir rəftardır. Sanki bir insan avtomobildə təhlükəsizlik kəmərini bağlamağın lazım olduğunu düşünmür, amma buna məcbur edilir. Bu qanunu pozanlarla rəftar zamanı bəzi məmurların yanlış

davranışları əsla məqbul deyil, amma bu bəhanə ilə qanunu pozanlara qarşı tədbiri də kənara qoymaq olmaz.

Xanım Kiya dedi:

– Əvvəllər İranda örtünmənin qanuni olmağına etiraz edirdim. Həmişə qohumlarla söhbətlərdə deyirdim ki, İran hökuməti hicabı qanuni etməklə iranlı qadının ağlını və şüurunu təhqir etmiş, onun heysiyyətini yaralamışdır. İndi isə o sözlərə görə peşmanam.

Xanım Məcidi dedi:

– Afərin sizin cəsarətinizə! Burada yalnız incə bir məqama toxunmağı lazım bilirəm. O da budur ki, örtünməni qanuniləşdirməklə təhlükəsizlik kəməri kimi digər məsələləri qanuniləşdirmək arasında köklü bir fərq oldu. Təhlükəsizlik kəməri və ya başqa hər hansı qanunda hamı əl-ələ verib insanları bu işlərin faydaları barədə maarifləndirdilər, heç kim demədi ki, mənim şüurum təhqir edilir. Əksinə, əksəriyyət bu məsələlərin qanuniləşdirilməsini yaxşı qarşıladı. Hicab məsələsində isə heç kim bunun dəlillərini izah etmədi və hicab gözdən düşdü. Nəticədə bəziləri elə bildilər ki, şüurları təhqir olunur və qadının hörməti tapdanır.

Doqquzuncu dəlil barədə söhbəti burada bitirirəm. İcazə verin söhbətlərimin sonunda münasib örtünmə barədə digər dəlillərə qısaca toxunum. Söylədiyim nümunələr ipuclarıdır, siz araşdırmaqla özünüz onları genişləndirə bilərsiniz. Əlbəttə, bu dəlillərin bəzisi keçmiş söhbətlərimiz arasında deyildi, amma müstəqil şəkildə bəyan olunması mümkündür.

Bu dəlillərin biri eşqin ölümü, həqiqi məhəbbətlərin məhv olmasıdır. Sevilmək hər bir insanın önəmli ehtiyaclarından biridir. Bu ehtiyac qadınlarda kişilərdən güclüdür. Çünki qadının şəxsiyyəti və psixoloji quruluşu

digərlərinin, xüsusən də ata, ana, ər və övlad kimi yaxınlarının sevgisi və diqqəti mərkəzində olmasını tələb edir. Belə ki, əgər bu mövqeyə malik olmasa, ümidini itirir. Bir qadın üçün eşqdə uğursuzluq hər şeydə uğursuzluqdur. Vill Dürant deyir: "Qadın o vaxt sağdır ki, sevilsin. Ona diqqət onun həyat səbəbidir".[1] Ustad Mütəhhəri deyir: "Yaranış kişini istək və qadını sevilmək nümunəsi etmişdir".[2] Lakin qadına çılpaqlığı bəxş etmiş bugünkü gündə qadın nə sevimlidir, nə də ona eşq bəslənir.

Ortaboylu badamgözlü bir kişi əlini qaldırıb ayağa qalxdı və dedi:

– Mən özüm çinliyəm, Nyu-Yorkda yaşayıram. Demək istəyirəm ki, eşqin ölümü hətta Şərq ölkələrində də inkaredilməz bir həqiqətdir. Bir neçə il öncə bir dostumla başqa bir şəhərə qonaq gedirdik. Dostumun həyat yoldaşı altsheymer xəstəsi idi, hər iyirmi saniyədən bir qorxu içində soruşurdu: "Hara gedirik?" Etiraf edirəm ki, on dəqiqədən sonra elə bildim, indicə dəli olacağam. Buna baxmayaraq, əri hər dəfə təbəssümlə və mehriban şəkildə ona cavab verib deyirdi: "Qonaq gedirik". Bir neçə ildən sonra onun vəziyyəti bir az da pisləşdi, əri isə hələ də mehriban tərzdə, eşqlə və qayğıkeşliklə ona xidmət edirdi. Qadın həyatının son anlarında, artıq əlliyaşlı ərini xatırlamadığı bir halda fərəhlə ona demişdi: "Kim olduğunu bilmirəm, amma ən yaxşı adamsan!" Mən bilmirəm bunun adını nə qoyum: eşq, insanlıq, yoxsa başqa bir şey? Nədirsə, bənzərini bu gün tapa bilməzsiniz.

Xanım Məcidi dedi:

---

[1] Bax: Vill Dürant, Fəlsəfənin ləzzətləri, Abbas Zəryab, s. 135.

[2] Mütəhhəri, İslamda qadın hüquqları, s. 135.

– Söhbətlərinizə görə təşəkkür edirəm. Bəli, bu nümunələr azalıb. Yalnız bunu əlavə edim ki, eşqin ölümü ilə bütün insanlar ziyan görürlər, amma qadına toxunan zərər olduqca şiddətli və dərindir.

Münasib örtünmənin vacibliyinə başqa bir dəlil həqiqi özünü itirmək və yaddan çıxarmaqdır. Vendi Şelit yazır: "İyirmiyaşlı tələbə bir qız yeniyetməlik xatirələrini yadına salıb deyirdi: "Yeniyetməlik zamanı elə bilirdim ki, bədənim özümün deyil, digərlərinindir ki, ona baxsınlar və ləzzət alsınlar".[1]

Amerikalı qadın psixoloqu xanım doktor Herit Lorner yazır: "Bizə müraciət edən qadınların sözləri budur: "Bilmək istəyirəm ki, həqiqətən, kiməm. Digərlərinin təsdiqindən ötrü bu qədər narahat olmaq istəmirəm".[2]

Maşa dedi:

– Haqlısınız! Bu günlərdə kimsə bizə "Necə gözəlsən!" desə, xoşumuz gələr, həzz alarıq. Təəssüf ki, biz digərlərinin səthi fikir və dəyərləndirmələrinə alışmışıq və buna görə də bugünkü qadınların ən ümumi problemlərindən biri özünəinamın aşağı olmasıdır. Əlbəttə, mən çox şadam ki, həyatımı dəyişməklə bu haldan uzaqlaşmışam.

Xanım Məcidi dedi:

– Əzizlər! Heç vaxt yaddan çıxarmayaq ki, digərlərinin diqqət və hörmətini cəlb eləmək çox da mühüm deyil, hörmətə və diqqətə layiq olmaq mühümdür. Yəni biz uca insani xüsusiyyətləri əldə etməyə çalışsaq, hörmətə layiq olarıq və digərləri də istər-istəməz bizə hörmət edərlər, heç kimdən hörmət və sevgi dilənməyə ehtiyac qalmaz.

---

[1] Şelit, Qızlar ismətə üz tuturlar, s. 45.

[2] Bax: Herit Lorner, Qəzəbin rəqsi. Tərcümə edən: Karolin Səhakian, s. 94.

Hicabsızlığın və yarımçıq örtünmənin təsirli olduğu başqa məsələlər də var. Onların hər biri müstəqil şəkildə münasib örtünmənin vacibliyinə dəlil kimi göstərilə bilər. Mən bunların yalnız adlarını çəkirəm: Ailə qurmamaq, izdivac yaşının artması, cütlüklər arasında xəyanətin çoxalması, boşanmanın çoxalması, cinayətkar uşaqların artması, narkomaniyanın çoxalması, elmdə uğursuzluq, ailəyə və cəmiyyətə mühüm iqtisadi ziyan, ailədə və cəmiyyətdə əxlaqın sıradan çıxması, qadın əleyhinə şiddətin və kobudluğun çoxalması, qeyri-rəsmi və kimsəsiz uşaqların doğulması, cütlüklər arasında soyuqluq, kapitalist sistemin stilistlərinə kor-koranə təqlidçilik, şəxsiyyət müstəqilliyinin sıradan çıxması, həyatdan razılıq səviyyəsinin enməsi, əsaslı və qalıcı sevincin azalması, ölkələrin kimliyinin və milli mədəniyyətinin məhv olması və s. Bunu da qeyd edim ki, deyilən səbəblərin hər birinin meydana çıxmasında müxtəlif amillərin rolu var, lakin mühüm amillərdən biri olan hicabsızlığın və yarımçıq örtünmənin təsiri inkarolunmazdır. Misal üçün, izdivac yaşının çoxalmasında çoxlu amillər rol oynayır, amma qəbul edirik ki, mühüm və həlledici amillərdən biri izdivac istəyini çox azaldan hicabsızlıq və ya yarımçıq örtünmədir.

Əziz xanımlar və cənablar! Həyatımın ən sevimli anlarını sizin yanınızda keçirdim. Allah amanında qalın! Görüşənədək!

Hamı xanım doktora hörmət üçün ayağa qalxdı və onu alqışlamağa başladı. Gənclər ona yaxınlaşıb “selfi” foto çəkdirdilər. Aparıcının xahişi ilə yerin imkan verdiyi həddə iştirakçılar səhnənin aşağısında xanım doktorun önündə dayanıb kollektiv bir şəkil çəkdirdilər. Camaat

dağılışdı və xanımların bir qismi doktor Məcidi ilə birlikdə zaldan çıxıb duracağa getdi. Bəzi xanımlar xanım Məcidini qucaqlayır, yaşlı gözlərlə onunla sağollaşırdılar. Yavaş-yavaş doktor Məcidinin ətrafı seyrəldi.

Sara doktor Məcidiyə dedi:

– Bundan sonra bazar günləri sizdən ötrü darıxmamaq mümkün olmayacaq.

– Əzizim! – deyə doktor Məcidi Saranı qucaqladı. – Təşəkkür edirəm. Ümidvaram harada olsan, xoşbəxt olasan, həyatın Əhli-beyt xatirəsi ilə ətirlənsin. İrana gəlmək məsələsi nə yerdədir?

– Fərhadın universitetində idari problem çıxıb. Bu gün Nyu-Cersiyə getməlidir. Güman ki, orada işi uzanacaq. Qayıdanda... yəqin ki, yaxşı hadisə baş verər. Bəlkə, birlikdə İrana gəldik.

– "Bəlkə" yox, mütləq, – Fərhad dedi.

– Əla! – deyə doktor Məcidi güldü. – Sizi gözləyəcəyəm.

Fərhad bir qədər yaxınlaşıb dedi:

– Mənim işim bitən kimi Saracanla birlikdə İrana gələcəyik və mütləq sizə də qonaq olacağıq. Bütün yardımlarınıza və tövsiyələrinizə görə sizə necə təşəkkür edəcəyimi bilmirəm.

– Siz mənim övladlarım kimisiniz. Xoşbəxtliyiniz mənim ürəkdən arzumdur. Ancaq, Sara can, toyda mənə xəbər vermək yadından çıxmasın.

– Sizsiz toy olar?! – Sara gülə-gülə dedi.

– Toy xəbəri mənlikdir, – Maşa dilləndi, – Saradan gözləməyin. Artıq onun beynində yalnız bir ad qeyd olunub, o da Fərhaddır. Mən adicə su içməyə də getmədim; bilirəm, qayıdandan sonra soruşacaq ki, sən kimsən?

– Sən heç vaxt yadımdan çıxmazsan, – Sara dedi, – çünki mənə çox borcun var. Gərək İrana gəlib toyumda əvəzini çıxasan.

Hamı gülüşdü. Həvəslə Doktor Məcidiyə yoldaşlıq edən və onunla məsafəsini azaltmağa çalışan xanım Kiya dedi:

– Xanım doktor, son ana qədər sizinlə olmaq istəyirəm. Təklif edirəm ki, mənim maşınımla gedək. Ailənizin oturduğu maşının arxasınca hərəkət edərik.

Doktor Məcidi razılaşdı və yanındakılarla sağollaşmazdan öncə əl çantasından bir bağlama çıxarıb açdı. İçində bir qədər qələmkar dəsmal vardı. Bağlamanı əvvəlcə Mariyaya uzadıb dedi:

– Buyurun, qızım. Bu da İsfahanın yadigar əl işi. Burada bundan gözəl bir şeyim yox idi. Ümidvaram ki, hamınızın xoşunuz gələcək və istifadə edəcəksiniz.

Bütün xanımlar böyük həvəslə bir dəsmal götürüb təşəkkür etdilər. Xanım doktor hamı ilə sağollaşdı, Sara, Maşa və Fərhadla birlikdə xanım Kiyanın maşınına minib yola düşdü.

Saranın halı digərlərindən fərqli idi. Fərhadla evlilik onun üçün gözlədiyindən tamam fərqli bir tale təsvir edirdi. Maşa, Fərhad və xanım Kiya da sakit qalıb fikrə getmişdilər.

Xanım Məcidi bir neçə dəqiqədən sonra dedi:

– Bəli... görürəm ki, hamınız sakitsiniz... Yaxşı olar ki, mən vaxtdan istifadə edib sizə əsas açar olan başqa bir dəyərli yadigar da verim. Bu yadigar ömrünüzün sonuna qədər sizə əl tuta bilər.

Uşaqlar, hər bir işdə, xüsusən də dini həyatda müvəffəqiyyətdən ötrü güclü iradəyə ehtiyacımız var. Əgər iradəmiz güclü olsa, bütün dünya bizə arxa çevirsə

də, bütün məqsədlərimizə çata bilərik. Altıncı imamımız həzrət Sadiqdən (ə) bir kəlam var. Mənim müvəffəqiyyətim varsa, bu kəlama borcluyam. O buyurur: "Heç bir bədən iradənin güclü olduğu heç bir iş qarşısında taqətdən düşməz və zəiflik göstərməz".[1] Hansı məsələdə və harada zəiflik varsa, o işin çətinliyinə görə deyil, niyyətlərimizin zəifliyinə görədir. Əgər möhkəm iradə ilə hərəkət etsək, hətta problemlərin zirvəsində də elə həzz alarıq ki, heç kimin təsəvvürünə gəlməz və məqsədimizə çatarıq.

Bu hədislə bərabər bir əhvalatı da ömrünüzün sonuna qədər yadınızda saxlayın. Bir amerikalı xanım həyat əhvalatını danışıb deyirdi:

"Saçımı gözəl formada yığıb paltarlarımı diqqətlə seçərək şəhərdə gəzişəndə odekolonun ətri hər yeri bürüyürdü, bədənimin hər bir hərəkəti ilə gözlər mənə doğru çevrilirdi. Bir sözlə, parkların kraliçası idim. Orta məktəbdə əlaçı şagird olmuşdum, universitetə girmək üçün bir neçə təhsil bursiyasından istifadə edə bilərdim. Tələbəlik zamanı jurnalist kimi də çalışırdım. Dini təəssübkeşliyimə görə müxtəlif şəhər və ştatlara gedib insanları məsihiliyə dəvət edirdim. Bir semestrdə səhvən bir dərs götürdüm və Oklahamaya getdiyimə görə məsələdən iki həftə sonra xəbər tutdum. Həmin dərsdə iştirak etməkdən başqa yolum yox idi. O dərsdə iştirak etməmək təhsil bursiyasından məhrum olmağa bərabər idi. Halbuki həmin dərsə heç bir marağım yox idi".

Bu xanım həmin dərsdəki tələbələrin çoxunun müsəlman və ərəb olduğunu biləndə isə narahatlığı daha da artır. Dinlərini uydurma hesab etdiyi müsəlman

---

[1] Hürr Amili, c. 1, s. 14.

ərəblərlə bir yerdə təhsil almaq ona əzab verirdi. İki sutka həyəcanla fikirləşir, axırda əri onu qane edib deyir: "Bəlkə, Allahın iradəsi səni bir tapşırıq üçün seçib. Get, onları məsihiliyə dəvət elə!" Bu məqsədlə universitetə qayıdır. Elə ilk günlərdən hər bir bəhanə ilə müsəlman tələbələrlə danışır, onları Məsihə tabe olmaqla xilas olmağa çağırır.

Özü belə deyirdi: "Hörmətsizlik olmasın deyə sözlərimə qulaq asır, amma dinlərini dəyişdirmək barədə düşünmürdülər. Odur ki, beynimə başqa bir fikir gəldi. Qərara gəldim ki, etiqadlarının yanlış olduğunu öz kitabları ilə sübut edim. Dostumdan bir Quran və bir neçə müsəlman kitabı aldım".

O, Quran oxumağa başlayır, bir il yarım ərzində on beş İslam kitabını mütaliə edir, sonra yenə Quranı oxuyur. Bu müddətdə irad bildirmək üçün bütün bəhanələri qeyd edir. Lakin zaman ötdükcə onda daha çox sual və şübhələr yaranır və avtomatik olaraq beyni təsəvvür belə etmədiyi məsələlərə qarışır. Yavaş-yavaş onun davranışında dəyişikliklər yaranır: şənliklərə getmir, spirtli içkilər içmir, donuz əti yemir, kişi və qadınların qarışıq əyləndiyi qonaqlıqlara qatılmır.

O deyirdi: "Ərim elə bilirdi ki, mənim başqa biri ilə əlaqəm var. Məndə bu qədər dəyişikliyi qəbul edə bilmirdi".

Bu dəyişikliklərə baxmayaraq, o, hələ də məsihi idi.

Bir gün bir neçə müsəlman ona yaxınlaşır. O deyirdi:

"Qapını açanda gördüm ki, bir neçə ərəb müsəlman qarşımda dayanıb. Onlar dedilər ki, biz sənin müsəlman olmanı gözləyirdik. Dedim ki, mən məsihiyəm, dinimi dəyişmək barədə düşünmürəm. Buna baxmayaraq, danışmağa başladıq. Nə soruşdumsa, onlar əminliklə və

ətraflı şəkildə cavablandırdılar, mənim Quran barədə qəribə sözlərimi əsla ələ salmadılar və İslama qarşı sərt tənqidlərimdən hirslənmədilər. Onlar deyirdilər ki, elm möminin itirdiyi şey, sual da ona nail olmaq yollarından biridir. Onlar gedəndən sonra daxilimdə bir dəyişiklik hiss etdim və nəhayət, 21 may 1977-ci ildə bir ruhaninin qarşısında bu sözləri təkrarladım: "Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur! Şəhadət verirəm ki, Məhəmməd onun elçisidir!"

O, müsəlman olmasını açıq şəkildə söyləyib hicabı seçəndə boşanma məsələsi də ciddiləşir. Həyat yoldaşını sevsə də, uşaqları ilə tək yaşamağı qəbul edir. Oğlunu və qızını çox sevirdi, bilirdi ki, qanuna görə, uşaqlar onda qalacaqlar. Lakin hakim məhkəmədə dedi ki, dinini dəyişdiyinə görə uşaqları saxlaya bilməzsən. Hakim onun etirazını görəndə isə uşaqları ilə yeni dini arasında seçim etmək üçün ona iyirmi dəqiqə vaxt verdi.

Doktor Məcidi bir qədər fasilədən sonra davam etdi:

– Uşaqlar, dediyim əsas açar buradadır. Güclü iradə və əzmkarlıq insanları zirvəyə qaldırır. O, hakimin qarşısında həzrət İbrahimin (ə) imtahan olunma əhvalatına dair ayələri xatırlayır. Özündən soruşur ki, imanında nə qədər doğruçusan. Bütün vücudu ilə hiss edir ki, İbrahim kimi övladlarını öz əli ilə qurban verməlidir! Qışqırıb ağlamaq istəyir, amma sakit qalır və özünü zəif göstərməməyə çalışır. Hətta bir gün də uşaqlarından ayrı qala bilməyən ana onları tərk etməli idi.

Sonralar adını Əminə Səlma qoyan bu qadın deyirdi:

"Bütün vücudumla üzümü böyük Allaha tutdum. Həqiqətən də, Allahdan başqa heç kimim yox idi, bilirdim ki, uşaqlarımı Ondan başqa heç kim himayə edə bilməz. Qərara gəldim ki, Allah yolundan əl çəkməyim və

gələcəkdə övladlarıma göstərim ki, yeganə xoşbəxtlik yolu Allahın yoludur. Məhkəmədən çıxdım, amma bilirdim ki, uşaqlar olmadan həyatım olduqca acı və ağrılı olacaq. Elə bilirdim ki, bu dəqiqə ürəyim dayanacaq. Lakin əmindim ki, düzgün qərar vermişəm. Allahı xatırlamaqdan başqa heç nə məni sakitləşdirə bilmirdi. Aciz halda tək gedir, Ali-İmran surəsinin 162-ci ayəsini oxuyurdum: "Allahın razılığını qazanmaq ardınca gedən şəxs Allahın qəzəbinə düçar olmuş şəxs kimi ola bilərmi?! Onun (qəzəbə düçar olanın) yeri cəhənnəmdir. O yer necə də pisdir!"

O, müsəlman olandan sonra başqa insan olmuşdu, təbliğat qabiliyyətlərinə və təcrübələrinə görə Amerikada və dünyada çoxlarını hidayət etdi. Amerikanın müxtəlif əyalət və şəhərlərində İslam barədə çıxışlar edirdi. Bu zaman ailəsini də yaddan çıxarmırdı.

O deyir: "Bütün ailə üzvlərimə təbrik kartları göndərib mənbəyi qeyd etmədən ayə və hədislərdən gözəl cümlələr yazırdım".

Əminənin səyi nəticəsiz qalmadı və bir müddətdən sonra onun həyatında gözlənilməz hadisələr baş verdi. Əvvəl qayınanası müsəlman olmaq istədiyini bildirdi, sonra da atası, anası və bacısı. Axırda əri ona zəng vurub qızını da anası kimi müsəlman görmək istədiyini bildirir və bütün baş verənlərə görə ondan üzr istəyir. Bunu eşitmək ana üçün hər şeydən şirin olur.

Uşaqlar! Belə ləzzətlər heç bir ləzzətlə müqayisəolunası deyil. Bu ləzzəti dadmış Əminə deyir: "Bütün başıma gələnlərə baxmayaraq, ərimi bağışladım. Mən öz mükafatımı almışdım. Bir gün məni o vəziyyətdə tərk edənlərin hamısı həqiqəti öyrəndi və indi əziz övladlarım yanımdadırlar".

Bir gün hicabına görə işdən qovulmuş Əminə Beynəlxalq Müsəlman Qadınlar Cəmiyyətinin sədri olmuşdu, daim bu ştatdan o birinə, bu ölkədən o ölkəyə gedir, yeni ictimai və dini layihələrin açılışını edir, insanlar önündə danışırdı. Bir gün hamı, hətta ailəsi tərəfindən tərk olunan və yaşamağa yeri olmayan bir qadın hamının diqqət mərkəzində idi, uzaqdan-yaxından insanlar onu sevgi və həvəslə dinləyirdilər. Bütün bunlar onun Allah yolunda möhkəmliyinin nəticəsi idi.

Sara can! Maşa can! Əziz xanım Kiya və cənab Fərhad! Şübhəsiz, hər bir yolda uğurun əsas açarı möhkəm olmaq və dayanmadan çalışmaqdır. Bəli, başınızı qarışdırdım və biz hava limanına çatdıq.

– Çox gözəl idi! – Fərhad gülümsəyib dedi. – Unudulmaz və tarixi bir yadigar!

– Əlbəttə, siz ikiniz, zənnimcə, bütün saniyələrdən beyninizdə bir qovluq açırsınız, xüsusən də yan-yana oturanda, – Maşa Fərhada dedi və hamı gülüşdü.

Girişin önündə maşından endilər. Xanım doktoru pasport yoxlanış məntəqəsinə qədər yola saldılar. Sara ilə Fərhad hamıdan arxada çiyin-çiyinə gəlirdilər. Maşa xanım doktoru addım-addım izləyirdi, ondan ayrılmaq istəmirdi. Sara ilə xanım Kiyanın gözlərinə yaş dolmuşdu.

Doktor Məcidi ilə sağollaşmaq bitəndən sonra o, yoxlanış yerindən keçdi, o tərəfdən hamıya əl yelləyib getdi.

# On ikinci fəsil

## Ulduzları dərmək olmur

Sara bir müddət idi yalnız iki məsələ barədə fikirləşirdi: Fərhad və öz keçmişini kompensasiya etmək. O, ömrünün bir hissəsində qadın hüquqlarını müdafiə bəhanəsi ilə qadınları azdırmaqla məşğul olmuşdu. Seminarlarda öyrəndiklərinə görə "Qadınlar üçün" saytında İslamda hicaba və qadın hüquqlarına dair şübhələrə cavablar verirdi. O, bir neçə məqalə və qeyd yazıb internetə yerləşdirmək üçün bir xəbər saytında administrator işləyən dostuna verdi. Yazıları Nyu-York İslam Mərkəzinin internet portalında da yayımlanıb çox yaxşı qarşılanır, hər gün oxunur və yüklənirdi. Maşa da işə başlamışdı, "İşrətkədə" saytının materiallarını, siyasət və məqsədlərini tənqid edirdi. Bu tənqidlər də geniş əks-səda doğururdu. Sara ilə Fərhad internet üzərindən əlaqə saxlayırdılar. Sara yazıları barədə Fərhadın fikrini soruşur və əlavə məlumat üçün həmişə onunla məsləhətləşirdi. Fərhad böyük həvəslə

ona enerji və motivasiya verirdi ki, həqiqəti əldə etməkdən aldığı həzzi bütün dünyada digər gənclərə də daddırsın.

O, bütün səfər hazırlıqlarını görmüş, hətta çanta və çamadanlarını da hazırlamışdı və səbirsizliklə Fərhadı gözləyirdi. Nəhayət, bir aydan sonra şənbə günü Fərhad mesaj yazdı: "Salam, əziz Saram! İnşallah, sabah saat 11-də Nyu-Yorkdayam. Səni sevirəm".

Sara sevindiyindən yerə-göyə sığmırdı. Maşaya zəng vurdu və ertəsi gün səhər piyada gəzinti üçün vədələşdilər.

Axşam Qadın Hüquqları Müəssisəsindəki keçmiş iş yoldaşı Sofiya ona bir mesaj yazıb beynini məşğul etdi. Bu müddətdə hamı Saranın dinini dəyişdirdiyini öyrənmişdi. Sofiya bir neçə dəfə əlaqə saxlayıb onu seçdiyi yoldan döndərməyə çalışanlardan idi. Ona deyirdi ki, bu yolun sonu peşmanlıqdır, səhv etmisən və müsəlmanları tanımırsan. Sara cənab Tehraninin məsləhəti ilə Sofiya ilə və iş yerindən ona zəng vuran digər şəxslərlə mübahisə etmir, çox vaxt cavablarını vermirdi. Bilirdi ki, onlar mübahisə, məzəmmət və məsxərə niyyətindədirlər, həqiqəti tapmaq kimi dərdləri yoxdur.

Bu dəfə Sofiya mesaj yazdı ki, zəruri bir iş üçün onunla görüşüb danışmaq istəyir.

– Sabah saat 9 necədir? – Sara dedi.

– Hə, müəssisənin yanındakı kafedə görüşərik, – Sofiya cavab verdi.

Sara bazar günü səhər tezdən oyanıb namazını qıldı. Fərhadı görmək sevinci yuxusunu qaçırmışdı. Bu müddətdə bütün işlərini görmüşdü ki, Fərhad gələndə yerdə qalmış heç bir işi qalmasın. İndi də Fərhadı görmək üçün dəqiqələri sayırdı. Günəş doğanda evdən çıxıb Maşa ilə görüşmək üçün yola düzəldi.

Maşa onu görən kimi dedi:

– Sara, bilirsən yuxuda nə görmüşəm?

– Sən özün başdan-ayağa yuxusan! De görüm...

– Bunu borc dəftərinə yazıram! Amma, həqiqətən, qəribə yuxu idi, hələ də təsirindən çıxa bilmirəm. Səninlə birlikdə çox gözəl və yaşıl bir bağın kənarında dayanmışdıq. Elə ağaclar vardı ki, ömründə heç bir yerdə elə gözəl və təravətli ağac görməmisən. Çoxlu meyvələr, gözəl nəğmə oxuyan rəngarəng quşlar... Yuxuda gördüm ki, qara çirkin bir kişi qışqıra-qışqıra bizim ardımızca gəlir. Biz qorxudan bağın divarına yapışmışdıq, yerimizdən tərpənmirdik. Birdən bağdan bir kişi çıxıb bizim yanımızda dayandı. O qədər gözəl və nurlu idi ki, üzünə baxmaq olmurdu. Sanki İsa Məsihdi. Gözəlliyi göz qamaşdırırdı. Sonra barmağı ilə çirkin kişiyə işarə verib dedi: "Ulduzları dərmək olmur!" Qorxunc üzü olan o kişi də kül olub yerə töküldü. Sonra həmin kişi üzünü bizə tutub təbəssümlə dedi: "Ulduzlar səmanındır". Sən dedin ki, cənab, mən uçmağı çox sevirəm. O dedi ki, sən də uçacaqsan. Sonra səni göstərib əlavə etdi: "Belə!" Sən yerdən ayrılıb göyə qalxmağa başladın. Nəfəsim kəsilmək üzrəydi. Bu zaman yuxudan ayıldım.

– Bəxtin yoxdur. Olmazdı ki, bir az da yataydın?! – Sara gülüb dedi.

– Mən səni boğmayınca ayağımı bu dünyadan kənara qoymaram, – Maşa Saranın çiyninə yumruq vurub gülə-gülə dedi. – Görərsən.

Piyada gəzintidən sonra Sara ilə Maşa bir-birindən ayrıldılar və Sara Sofiya ilə vədələşdiyi yerə getdi.

Sofiya kafedə sol tərəfdə stolun arxasında oturmuşdu, telefonla danışırdı. Sara içəri girən kimi telefon əlaqəsini kəsib bir qədər təəccüblə Saraya baxdı və gülə-gülə dedi:

– Bunun fasonuna bax! Başındakı nədir?

– Hamı adını bilir, xüsusən də ələ salmaq istəyənlər, – Sara gülümsəyib dedi.

Sofiya istehzalı təbəssüm etdi, sonra işarə ilə ofisiantı çağırıb:

– Mənim sifarişimi gətir, – dedi, sonra yenə Saranı süzüb əlavə etdi: – İnana bilmirəm, qız! Necə bu günə düşdün? Beynini yudular?

– Nə oldusa, oldu. Mənimlə işin vardı? Nə olub?

Sofiya müəssisənin vəziyyəti və işləri barədə bir qədər danışandan sonra dedi:

– Düzü, səni görmək, səninlə danışmaq istədim, xüsusi bir işim yox idi. Eşitdiklərimə və Vatsap qrupunda oxuduqlarıma inana bilmirdim. Dedim ki, yəqin, şayiədir, yuxarıların planıdır, yavaş-yavaş məlum olar. Deməli, şayiə deyilmiş.

Sara Sofiyanın bu hərəkətindən çox da xoşlanmadı, sözü tez bitirib hava limanına getməyə çalışdı. Sofiya isə bir-birinin ardınca sual verirdi; Saranın bir iranlı ilə izdivacından, İranın vəziyyətindən, əhalinin adət-ənənələrindən, Fərhadın həyatından və təhsilindən, doktor Məcididən, seminarlarda danışılanlardan və s.

Sara bütün suallara qısa cavablar verir və tez-tez saatına baxırdı. Saat on olanda dedi:

– Mən getməliyəm.

– Nə olub axı? Hara gedirsən?

– Nişanlımı gözləyirəm. Hava limanına gedib onu qarşılamalıyam.

Sofiya gülümsəyib rişxəndlə dedi:

– Oo! Nişanlı! Hə, tez özünü yetir, onu oğurlamasınlar. Onda, heç olmasa, gəl bir “selfi” çəkdirək.

O, Saranın yanında dayanıb şəkil çəkdi.

Yenə gülə-gülə əlini Saranın köynəyinə çəkib dedi:

– Uzunqol və yaxalı mavi köynək... kətan şalvar... Sənə yaraşır. Seçilən modeldir. Qoy bir dəfə də tək şəklini çəkim.

Sara könülsüz halda stolun yanında dayandı və Sofiya onun şəklini çəkdi. Axırda sağollaşıb kafenin bayırında hərəsi bir səmtə yola düşdü. Sofiya bir anlığa dönüb bir də arxadan Saranın şəklini çəkdi. Şəkilləri seçib "göndər" düyməsinə basdı və Dibaya göndərib yazdı: "Hava limanına gedir. Yəqin ki, giriş qapısının önündə düşəcək. İçəri girməmiş bitirmək lazımdır".

Sara saat 12-yə bir neçə dəqiqə işləmiş hava limanının önündəki dayanacağa çatdı. Bu zaman Fərhad da zaldan çıxıb taksi dayanacağına yaxınlaşanda birdən Saranı gördü.

– Sara can! Burdayam! – Fərhad qışqırdı.

Sara Fərhadın səsinə doğru çevrildi və sevincək səkiyə doğru iri addım atdı. Həmin anda bir Toyota avtomobili yüksək sürətlə gəldi, çox inanılmaz şəkildə yolunu Saraya doğru döndərdi və Fərhadın gözləri önündə möhkəm çırpılıb onu bir neçə metr aralıya atdı. Fərhad çanta və çamadanını yerə atıb "Sara" qışqıra-qışqıra ona doğru qaçdı. Saranın başı bordürə dəymiş, başörtüyü qana boyanmışdı, altından qan axırdı. Fərhad şok olmuşdu. Sara ayağını asfalta sürtürdü, boğazından zəif və anlaşılmaz səs çıxırdı.

Saranın aldığı qızılgül buketi ətrafa səpələnmişdi. Fərhad onun yanında dizləri üstə oturub Saranın başını qaldırdı, yavaşca dizinin üstünə qoydu. Gözləri açıq qalmışdı, sanki Fərhada nəsə demək istəyirdi, amma bacarmırdı. Fərhad Saranın gözlərinə baxa-baxa tez-tez deyirdi:

– Bir şey deyil, əzizim, qorxma. Sağalacaqsan, qorxma.

O, hələ də qarşısındakının Saranın qana bələşmiş üzü olduğuna inana bilmirdi. Bir neçə sürücü, sərnişin və hava limanının işçisi onları dövrəyə almışdı. Fərhad kövrək səslə qışqırdı:

– Nəyə baxırsınız?! Təcili yardım çağırın! Qan itirir!

Saranın əli Fərhadın əlində anbaan soyuyurdu. Hava limanının təcili yardım maşınının siqnalı gəldi. Fərhad Saraya dedi:

– Möhkəm dayan, əzizim... xahiş edirəm...

***

Maşa Saraya mesaj göndərmək, Fərhadın gəlib-gəlmədiyini soruşmaq istəyəndə "Müəssisə işçiləri" qrupunu açdı və bir mesajın başında yazılmış iki cümləni görəndə şok oldu: "Sərxoş sürücü iş yoldaşlarımızdan birinin ölümünə səbəb oldu. Sürücü qaçıb, Sara isə xəstəxanaya da çatmayıb!"

Maşanın əlləri bərk əsirdi. Saraya zəng vurmağa çətinlik çəkirdi. Birtəhər zəng vurdu, amma cavab gəlmədi. Evə zəng vurdu, oradan da cavab çıxmadı. Yenə zəng vurdu, heç kim dəstəyi götürmədi. İslam mərkəzi ilə əlaqə saxladı. Ağzı qurumuşdu, boğazını qəhər sıxırdı. Allaha yalvarırdı ki, oxuduğu xəbər yalan olsun. Telefonuna cavab verilən kimi ağlaya-ağlaya dedi:

– Mənim cənab Tehrani ilə işim var, siz Allah.

– Bir dəqiqə, – telefondakı kişi dedi və bir qədər sonra yenə dəstəyi götürüb əlavə etdi: – Cənab Tehrani burada deyil.

– Xahiş edirəm, zəruri işim var. Onu harda tapa bilərəm? Mən Maşayam, Saranın dostu. Bir müddət öncə doktor Məcidinin seminarlarında müsəlman olmuşam. Xanım doktor və cənab Tehrani məni tanıyırlar. Siz Allah,

mənə kömək edin. Dostum Saranın başına nə gəldiyini bilmirəm. Düşünürəm ki...

– Bəli, cənab Tehrani də bununla bağlı gedib. İndi Corciya xəstəxanasındadır.

***

Sara iki həftə idi xəstəxanada yatırdı. Fərhad onun birhəftəlik komadan sonra nisbi sağalmasını gözləyirdi. O, bütün bu müddətdə xəstəxanada qalmışdı. Həmin gün cənab Tehraninin dəvəti ilə Saranı müayinə edən mütəxəssis həkim özünün son fikrini söylədi: "Beyin problemi aradan qalxıb. Beyindəki danışıqla bağlı nahiyədə hələ problem var, onun barəsində bir söz demək mümkün deyil. Hər şeyin adiləşməsi üçün bir müddət keçməlidir. Yaddaşını itirmədiyi üçün Allaha şükür etməlisiniz".

Cənab Tehrani doktorla və Fərhadla telefonla əlaqə saxlamış, bu dəfə isə Fərhadı görmək üçün xəstəxanaya gəlmişdi. Fərhad Saranın buraxılış işlərini görəndən sonra cənab Tehrani ilə birlikdə palataya girdi. Fərhad dedi:

– Sara can, doktor Tehrani sənə bir hədiyyə gətirib. Mən dedim ki, yaxşı olar, özünüz verəsiniz.

Sara başörtüyünü və paltarını səliqəyə saldı, çarpayının kənarında oturub başını əyməklə cənab Tehraniyə salam verdi, üzündə sakit bir təbəssüm yarandı. Cənab Tehrani yaxınlaşıb gülərüzlə dedi:

– Allaha şükür ki, İmam Rzanın (ə) nəzəri Fərhada və bizə şamil oldu və Allah səni bizə qaytardı. Allaha şükür ki, səni sağ-salamat görürük. İndi isə hazırlaşın, işimiz çoxdur. İnşallah, tezliklə Fərhadla bir qonaqlıq təşkil etməlisiniz. Sayımız çoxdur. Bəlkə, İslam mərkəzinin bütün işçiləri və iranlı dostlarımız da gəldilər. Ya da gərək bizim əlimizdən qaçıb İrana gedəsiniz.

Fərhad Saraya baxıb gülümsədi və dedi:

– Bizə qonaq olmağınız bizim Allahımızdandır. Bundan yaxşı nə ola bilər ki?! Elə deyilmi, Sara can?

Sara başını yelləyib gülümsədi.

Cənab Tehrani cibindən bir paket çıxardı, Fərhadla Saraya doğru uzadıb:

– Sizə xidmət etmək bizim üçün şərəfdir. Sizin xüsusi bir dəvətnaməniz də var. Amma söz verin ki, bu birinci dərəcəli ziyafətdə bizi unutmayasınız, – dedi.

Sara diqqətlə paketə baxırdı. Fərhad onu aldı. İkisi də zərfin arxasına baxdı. Bir loqonun altında qızıl bir günbəz və minarələr görünürdü, yaşıl xətlə yazılmışdı: "Salam olsun sənə, ey Əli ibn Musa Rza".

Fərhad gözləri sevincdən bərəlmiş halda ucadan dedi:

– İlahi! İmam Rzanın qonağı?!

Saranın gözlərinə yaş doldu. Çənəsi əsirdi. Əlini sinəsinə qoydu, başörtüyünə toxundu, pəncərədən gözlərini səmaya dikərək qırıq-qırıq və yavaş səslə dedi: "İmam... Rza..."

# Mündəricat


Giriş ....................................................................................4
Azadlıq yuxusu ......................................................................4
Birinci fəsil ...........................................................................20
Qara baxış .............................................................................20
İkinci fəsil ..............................................................................59
Ağ baxış .................................................................................59
Üçüncü fəsil ...........................................................................95
Ağ və qara baxışların toqquşması ..........................................95
Dördüncü fəsil .......................................................................113
Xatundan banuya .................................................................113
Beşinci fəsil ...........................................................................132
Gül və gülab ..........................................................................132
Altıncı fəsil ............................................................................149
Mən çılpaq deyiləm ...............................................................149
Yeddinci fəsil .........................................................................176
Evin ilahəsi ............................................................................176
Səkkizinci fəsil .......................................................................193
Müasir və həyalı ....................................................................193
Doqquzuncu fəsil ...................................................................214
Yeməkdən də vacib ................................................................214
Onuncu fəsil ...........................................................................240
Böyük təxribat .......................................................................240
On birinci fəsil .......................................................................292
Qadınlar mələkdirlər ..............................................................292
On ikinci fəsil .........................................................................318
Ulduzları dərmək olmur .........................................................318